# AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATI ANTOLOGİYASI

ÜÇ CİLDDƏ

III CİLD

**NƏSR**

"ÖNDƏR NƏŞRİYYAT"
BAKI-2005

Tərtib edəni: **Qara Namazov**

Redaktoru: **Teymur Əhmədov**

**894.361’08 - dc 21**
**AZE**
**Azərbaycan uşaq ədəbiyyatı antologiyası.** Üç clddə. III cild. Bakı, “Öndər nəşriyyat”, 2005, 240 səh.

“Azərbaycan uşaq ədəbiyyatı antologiyası”nın təqdim olunan cildində Azərbaycan yazıçılarının uşaqlar üçün qələmə aldıqları nəsr əsərlərindən nümunələr toplanmışdır. Uşaq ədəbiyyatının zəngin ənənələri zəminində yaranan bu əsərlər məktəb yaşlıların estetik tələbinə və zövqünə uyğun olub, oxucusunu uşaq aləminə aparır, yetişməkdə olan nəslin milli ruhda tərbiyəsinə kömək göstərir.

**ISBN 9952-416-72-4**

© “ÖNDƏR NƏŞRİYYAT”, 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# ÖN SÖZ

XX yüzilin əvvəllərindən başlayaraq maarif və mədəniyyət sahəsində ciddi canlanma əmələ gəldi: bir sıra maarif ocaqları, xeyriyyə cəmiyyətləri, nəşriyyatlar, kitabxanalar yaradıldı. Milli dilin, milli ədəbiyyatın tədris olunduğu məktəblərin, xüsusilə qız məktəblərinin sayı artdı. Belə bir xeyirxah və nəcib işə müəllimlər, yazıçılar, ictimai xadimlər və mətbuat ətrafına toplaşan ziyalılar yaxından kömək edir, əllərindən gələni əsirgəmirdilər. Bu sahədə N.Nərimanov, C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Şaiq, Ü.Hacıbəyov, S.S.Axundov, R.B.Əfəndiyev, A.Səhhət, M.Mahmudbəyov kimi müəllim və yazıçıların unudulmaz xidmətləri olmuşdur. Bu tərəqqipərvər ictimai xadimlərin fəaliyyət dairəsi çoxcəhətli idi. Onlar bədii yaradıcılıqla yanaşı müəllimlik edir, dərslik, dərs vəsaitləri və proqramlar hazırlayır, dövri mətbuatda fəal iştirak edir, teatr tamaşaları hazırlayır, aktyor və rejissor kimi də işləyir, maarif, mədəniyyət və incəsənətin bütün sahələrində böyük fədakarlıq göstərirdilər. Ziyalıları düşündürən vacib məsələlərdən biri də yeni üsullu məktəb, yeni tələblər səviyyəsində uşaq əsərlərinin yaradılması idi.

Uşaq ədəbiyyatı ilə məşğul olan yazıçılar ilk növbədə yeni üsullu məktəblər üçün hazırlanan dərsliklərin səhifələrində, dövri mətbuatda, xüsusilə uşaq dövri mətbuatında öz əsərlərini çap etdirirdilər.

Yeni üsullu məktəblər yeni məzmun və mündəricəli dərsliklərin yaranmasını təxirəsalınmaz bir məsələ kimi qarşıya qoymuşdu.

Bu sahədə cəsarətli addımlar atan N.Nərimanov hələ 1899-cu ildə “Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi” kitabını yazmış, sabit ədəbi dil və vahid imla qaydalarından bəhs etmişdir. O, həmçinin S.M.Qənizadə ilə birlikdə “Sovqat” (1896) adlı şəkilli uşaq jurnalı və “Məktəb” (1900) adlı elmi-pedaqoji aylıq jurnal nəşr etmək təşəbbüsündə olmuşdur.

R.B.Əfəndiyev də “Uşaq bağçası” (1898) kitabında təlim və tərbiyənin vəhdətinə (K.D.Uşinskinin təlimi – *Q.N.*) əsaslanaraq orijinal və tərcümə əsərləri. Coğrafiya, tarixi hadisələrə və kainatın quruluşuna dair materiallar vermişdir. Müəllif əsrimizin əvvəllərində çap etdirdiyi “Bəsirətül-Ətfal” kitabının da tərtibində bu üsuldan istifadə eləmiş, həmçinin Şərqin nəsihətamiz – hikmətamiz təmsilləri ilə onun səhifələrini bəzəmişdir.

Əlbəttə, yeni üsullu məktəblərdə tədris olunan ədəbiyyat dərsliklərində uşaqların səviyyəsinə, zövqünə uyğun şeir və hekayələr, tarixi hadisələrə dair bədii oçerklər geniş yer tuturdu.

Uzun müddət mükəmməl vəsait kimi istifadə olunan (Birinci il, “İkinci il”; “Üçüncü il”) dərsliklərdə istər milli uşaq ədəbiyyatının, istərsə tərcümə ədəbiyyatının ən yaxşı nümunələri seçilib toplanmışdı. Bunlardan başqa A.Şaiqin “Uşaq gözlüyü”, “Gülzar”, İrəvan müəllimlərinin hazırlayıb Tiflisdə çap etdirdikləri iki hissədən ibarət “Ana dili” və b. vəsaitlərdə də yeni məzmunlu uşaq ədəbiyyatından nümunələr toplanmışdı.

Bu illərdə ölkənin hər tərəfinə yayılan dövri-mətbuat “Buluddan sıyrılıb çıxan ulduzlar kimi” (Mir Cəlal) parlamağa başlamışdı.

Ətrafına demokratik və maarifpərvər yazıçıları toplayan, qabaqcıl meylləri və realist ideyaları təbliğ edən “Molla Nəsrəddin”, “Zənbur”, “Babayi-əmir”, “Məzəli”, “Tuti”, “Bəhlul” və b. Nəşrlərlə bərabər ilk uşaq jurnalları – ”Dəbistan” (1906-1908), “Rəhbər” (1906-1907), “Məktəb”də (1911-1920) uşaq ədəbiyyatının inkişafına geniş yol açdı.

Bu jurnalların məramı yeniyetmələrin təlim və tərbiyəsinə, zehni inkişafına istiqamət vermək, onları xalqa və vətənə məhəbbət ruhunda tərbiyə etmək idi. N.Nərimanov məhz bu məqsədlə “Dəbistanın” çıxmasını təqdir edərək yazırdı: “Bu vaxtadək kitabsızlıqdan uşaqlarımız zərərli, əqidəni pozan kitablar oxuyub naəlac qalmışdılar. “Dəbistan” isə bu tövr kitabların aradan götürülməyinə səbəb olub, zəmanəmizə lazım olan məlumatlar verməyini gözləyirik”[1].

Nərimanovla bərabər C.Məmmədquluzadə və M.Ə.Sabir də “Dəbistan”ın çıxmasını təbrik etdilər.

Maarifpərvər M.Mahmudbəyovun nəşr etdiyi “Rəhbər”in də məqsəd və məramı yeniyetmələrin təlim və tərbiyəsi idi. Əsasən pedaqoji-tədris təmayüllü bu jurnallara məşhur ədəbiyyatşünas F.Köçərlinin Vidadi, Vaqif, Zakir və Nəbati haqqında ədəbi-tənqidi oçerklərin, S.M.Qənizadənin “Körpə uşaqların tərbiyəsi” adlı təlim-tərbiyə üsullarından bəhs edən silsilə məqalələrinə geniş yer verilmiş, M.Ə.Sabir və A.Səhhətin dünya ədəbiyyatından tərcümələri çap edilmişdir.

“Dəbistan” və “Rəhbərə” nisbətən “Məktəb” (1911-1920) jurnalının ömrü uzun, məndəricisi zəngin olmuşdur. Maarifpərvər mühərrirlərdən Q.R.Mirzəzadə və Ə.T.Əfəndizadənin təşəbbüsü ilə nəşrə başlayan “Məktəb” jurnalının istiqaməti haqqında baş məqalədə deyilirdi: “Bizim bu “Məktəb”i nəşr etməkdə məqsədimiz məktəb şagirdlərinin irəliləmələrinə acizanə bir xidmətdir. “Məktəb”i oxuyacaq şagirdlərin biliyi geniş bir dairə olarsa, o vaxt biz də məqsədimizə yetişmiş olarıq”.

“Məktəb” jurnalı ilk nömrəsindən başlayaraq yeniyetmələrin təhsil, təlim və tərbiyəsinə xidmət etmişdir. Jurnalın səhifələrində çap edilən əsərlərin

[1] “İrşad” qəzeti, 1906, 9 mart.

əksəriyyətində elmin və məktəbin rolu təqdir olunur, yeni nəslin tərbiyəsində yeni üsullu məktəblərin tərbiyə üsulları inandırıcı boyalarla təbliğ edilirdi. Onun "Məktəbədəvət" adlı baş məqaləsində deyilirdi:

"Məktəb ən böyük, ən qiymətli və ən sevimli bir binadır. Ən gözəl keçirilən ömür, ən ləzzətli vaxt məktəb günləridir. İnsan oraya gözləri qapalı, zehni örtülü girər... gözləri işıq, zehni açıq çıxar. Məktəb həyatın nizamnaməsidir..."

"Məktəb" jurnalının səhifələrində müəllimlər, ədəbiyyat həvəskarları, maarifpərvər ziyalılarla bərabər, dövrünün tanınmış ədib və şairləri yaxından iştirak edir, onun səhifələrində şeir və hekayələrini çap etdirirdilər.

H.Cavid, Ə.Nəzmi, A.Səhhət, A.Şaiq, R.Əfəndizadə, S.S.Axundov, İ.Musabəyov və digər şair və yazıçılar "Məktəb" jurnalının səhifələrində vaxtaşırı çıxış etmişlər. M.Ə.Sabirin vəfatından sonra jurnal onun uşaqlar üçün yazdığı şeir və mənzumələri toplayıb öz səhifələrində geniş yer vermişdir. S.S.Axundov isə "Qorxulu nağıllar"ını "Məktəb" jurnalı üçün yazmışdır. 1912-ci ildən 1914-cü ilə qədər ardıcıl çıxan bu hekayələr silsiləsini uşaqlar da, valideynlər də böyük həvəslə oxuyur, davamını səbirsizliklə gözləyirdilər.

"Məktəb" jurnalı öz səhifələrində milli ədəbiyyatla yanaşı, tərcümə ədəbiyyatına da geniş yer verirdi.

Məlum olduğu kimi, bu dövrün yazıçıları ayrı-ayrı ədəbi məktəblərə mənsub olmuşlar. Bu ədəbi məktəblər inqilabi-demokratik ədəbiyyat, maarifçi-realist ədəbiyyat və romantik ədəbiyyat adı ilə əsrin ilk rübünün bütün ədəbi prosesini təmsil edirdilər.

Lakin bu ədəbi məktəblərin nümayəndələri ictimai mühitə münasibətləri və ədəbi üslubları baxımından bir-birilərindən fərqlənsələr də, gənc nəslin maariflənməsi yolunda mübarizədə bir-birinə yaxınlaşır, demək olar eyni mövqedə dayanırdılar.

İnqilabçı demokratlar (C.Məmmədquluzadə, M.Ə.Sabir, N.Nərimanov, Ə.Haqverdiyev, M.M.Ordubadi və b.) əsasən "Molla Nəsrəddin" məcmuəsi ətrafında birləşdikləri və baxışlarını bu jurnal vasitəsilə yaydıqları kimi, maarifçi-realistlər də (S.S.Axundov, A.Şaiq, R.Əfəndiyev, S.M.Qənizadə, İ.Musabəyov və b.) öz fikir və görüşlərini məktəbdə, maarif ocaqlarında yayır, dərslik və dərs vəsaitlərindən istifadə edirdilər. Eynilə də romantiklər öz maarifçilik baxışlarını (H.Cavid, A.Səhhət, M.Hadi və b.) mətbuatda, məktəblərdə xüsusilə teatr tamaşalarında yayırdılar.

M.Ə.Sabir Şamaxı və Bakı məktəblərində müəllimlik edərkən uşaq ədəbiyyatının kasadlığını hiss edib müxtəlif mövzularda xeyli şeir yazmışdır. Bu əsərlər nəsihətamiz mənzum hekayələrdən və didaktik şeirlərdən, məktəb şərqilərindən, habelə təmsillərdən ibarətdir. Bu bədii mənzumələrdə şair

valideynin zəhmətini, övladın ata-anaya borcunu və xidmətini aydın, sadə, təsirli həyati misallarla göstərmişdir. Şair ata-ananın zəhmət və arzularını övlada eşitdirməklə onun məsuliyyətini daha da artırır. Sabir "Məktəb şagirdlərinə töhfə" şerində bu məramı izləmişdir. Uşaqlıqdan özünü əməyə, zəhmətə alışdıran hər kəs xoşbəxt ola bilər. Xoşbəxtliyin mayası zəhmətdədir. Lakin tənbəlliyə meyl göstərənlərin ömrü səfalətdə keçər. Şair yeniyetmələrə belə gözəl hisslər aşılamaq üçün xalq məsələlərindən səciyyəvi nümunələr seçir, kiçik süjetli hekayələr qurur. Şairin "Qoca bağban" şerində meyvə ağacı əkən yüz yaşlı bağbana uşaqlar rişxəndlə "bu gün varsan, sabah yox" – deyərkən qoca onlara belə cavab verir:

Dedi: Əkmişlər, almışız, yemişiz,
Xeyirlə yad edib dua demişiz,
Əkəriz bir daha yeyənlər üçün,
Əhli-xeyrə dua deyənlər üçün[1].

M.Ə.Sabirin "Uşaq və buz", "Məktəb şərqisi", "Məktəbə tərğib", "Elmə tərğib" nəğmələri məzmun və məndəricəsinə, bədii ifadə xüsusiyyətlərinə görə də uzun müddət yadda qalır. Şair bu nəğmələrdə məktəbin, elmin səmərəsindən, elmlə insanın öz arzularına, işıqlı günlərə qovuşmasından, vətənə, xalqa xidmətdən bəhs edir. O, həmin nəğmələri Azərbaycanda yeni üsullu məktəblərin fəaliyyətə başladığı illərdə yazmışdır. Bu şeirlərdə məktəbə çağırış, elmə həvəs güclüdür.

Maarifçi realistlər daha çox dərslik və dərs vəsaitləri hazırlayır, təlim və tərbiyəsinə böyük qayğı ilə yanaşır, öz yaradıcılıqlarını da bu istiqamətə yönəldirdilər. Onların bədii əsərlərində də daha çox uşaqların faciəli, ağır həyatından, ümid və arzularından bəhs olunurdu.

Bu qəbildən olan maarifçi realist yazıçılardan R.Əfəndiyev, S.S.Axundov, A.Şaiq, S.M.Qənizadə və İ.Musabəyovun müstəsna xidmətləri vardır. Onların ədəbi-bədii yaradıcılığı ilə pedaqoji fikirləri və bilavasitə məktəblə bağlı görüşləri bir-birini tamamlayırdı. Onlar yeni məktəb uğrunda böyük fədakarlıq göstərdikləri kimi, bu məktəbə lazım olan proqram, dərslik və dərs vəsaitlərinin hazırlanması, tədris olunan əsərlərin diqqətlə seçilməsi kimi ən vacib məsələlərdə də böyük fəallıq göstərirdilər. Onlar tədris etdikləri əsərlərin məzmun və məndəricəsinə xüsusi diqqət yetirir, uşaqların şüurunda vətəndaşlıq və vətənpərvərlik hissi oyadırdılar.

S.S.Axundov bütün ədəbi irsində və pedaqoji fəaliyyətində gənc nəslin taleyini və gələcəyini düşünmüş, onların həyatından vətəndaş-yazıçı və müəllim kimi bəhs etmişdir.

[1] *M.Ə.Sabir.* Məktəblilərə töhfə. Uşaqgəncnəşr, 1959, səh.12.

S.S.Axundov iri həcmli pyesləri ilə yanaşı, uşaqların həyatından bəhs edən yığcam hekayələr, "Uşaqlıq həyatından xatirələr" və nəhayət "Qorxulu nağılları"nı yazmışdır. "Əhməd və Məleykə", "Abbas və və Zeynəb"; "Əşrəf", "Nurəddin" və "Qaraca qız"dan ibarət olan "Qorxulu nağıllar"da inqilabdan əvvəlki azərbaycanlı ailələrin yoxsul güzəranı, uşaqların faciəli həyatı, bu fəlakətləri doğuran səbəblər qələmə alınmışdır. Mühit, ictimai şərait günahsız uşaqları, yoxsul balalarını qayğıdan, nəvazişdən məhrum edir, onları həyatın qaranlıq küncünə atırdı.

M.Ə.Sabir və S.S.Axundovla eyni amal uğrunda mübarizə aparan A.Şaiq XX əsr maarifçi-realist ədəbiyyatın yaranmasında misilsiz xidmət göstərmişdir. Ədəbiyyatımızda şair, nasir, dramaturq kimi şöhrət qazanan Şaiq, həm də əsl xalq müəllimi, pedaqoq və ictimai xadim kimi şöhrət qazanmışdır. A.Şaiqi ədəbiyyatımızda məşhur edən, böyük hörmət qazandıran onun uşaq ədəbiyyatı sahəsindəki xidməti olmuşdur.

A.Şaiqin ədəbi fəaliyyətinin ilk dövrü də uşaq ədəbiyyatı ilə əlaqədardır. O, 1906-cı ildən başlayaraq kiçikyaşlı məktəblilər üçün qısa, aydın məzmunlu, yeni mündəricəli, təmiz ana dilində oynaq vəznli şeirlər yazdı. Bu şeirlərin başlıca mövzusu heyvanlar aləmi idi. Burada birinci növbədə ev quşları və ev heyvanları ("Xoruz", "Keçi", "Uşaq və dovşan", "Yetim cücə", "Təpəl kəlim", "Dovşan", "Bir quş, "Quzu" və b.) şairin qələmində yeni-yeni obrazlara uşaqların əyləncəsinə çevrilirdi. Şairin heyvanlar aləminə tez-tez müraciət etməsi təbii idi. Belə ki, balacalar adətən heyvanların məişətinə daha çox maraq göstərir, onlarla əylənməyi, təmasda olmağı, onları öz oyunlarına cəlb etməyi sevirlər. Kənd məişətinə yaxşı bələd olan Şaiq ev heyvanlarının hər birini öz təbiətinə, fərdi davranış və əlamətlərinə görə təsvir etmişdir.

A.Şaiq bir maarifpərvər kimi yetim uşaqların məktəbə cəlb olunmasını, onlara qayğı göstərilməsini təbliğ edir, tərəqqipərvər ziyalıların da fikrini bu mətləbə yönəldirdi. M.Ə.Sabirin "Məktəbə tərğib" nəğmələrinə A.Şaiq də yeni ahənglə cavab verir, uşaqların işıqlı sabahını məktəbdə görürdü[1].

Bütün ədəbi və ictimai fəaliyyətini məktəb və pedaqoji işlə bağlayan Şaiq bu illərdə yazdığı şeirləri 1910-cu ildə çap etdirdiyi "Uşaq gözlüyü" dərsliyinə toplamışdır. Uşaq əsərlərinə olan böyük ehtiyacı hiss edən gənc şair bu sahəyə daha çox əmək sərf edir. Qısa müddətdə "Yaxşı arxa", "Tıq-tıq xanım", "Tülkü həccə gedir" mənzum nağıllarını, "Şələquyruq", "Murad", "Cümənin qəzəbi" hekayələrini, "Gözəl bahar, "Çoban", "İntiqamçı xoruz", "Ürək tikmək yaxud Qurban bayramı" pyeslərini, təmsillərini, alman və rus ədəbiyyatından etdiyi iqtibasları çap etdirmişdir.

Maraqlı məzmunu və sadə dili ilə klassik ədəbiyyatdan fərqlənən bu əsərlər uşaqları hər şeydən əvvəl içərisi ərəb və fars tərkibləri ilə dolu olan

[1] *M.Məmmədov*. Sabir və məktəb. B., Maarif, 1968, səh.51-52.

orta əsr mərsiyə və qəzəl ədəbiyyatından xilas edirdi. Təmiz xalq ifadələrində, doğma ana dilində yazıb-yaradan Şaiq ilk növbədə el ədəbiyyatına arxalanır, ondan qidalanırdı.

A.Şaiqin xalq ədəbiyyatına dərin marağı onun uşaqlar üçün yazdığı əsərlərdə öz bəhrəsini vermişdir. Bu əsərlərin istər mövzu və məzmununa, istərsə şəkli xüsusiyyətlərinə, vəzninə, ahənginə, eyni zamanda dil və ifadə quruluşuna diqqət yetirdikdə xalq ədəbiyyatının güclü təsiri aydın şəkildə özünü göstərir.

Qabaqcıl romantiklər isə elm və maarifin yayılmasında, xalq kütlələrinin savadlanmasında, xüsusilə yeni nəslin təhsil və tərbiyəsində eyni mövqedə dayanırdılar.

Romantiklərin ədəbi irsi mövzu baxımından da əlvan və rəngarəng idi: 1905-ci il inqilabının təsiri nəticəsində əldə edilən nailiyyətləri müdafiə etmək, müstəmləkə zülmü əleyhinə mübarizə, milli azadlıq ideyalarının tərənnümü, vətənpərvərlik, insanpərvərlik, xalqlar dostluğu və qardaşlığı, fəhlə və kəndlilərin insani hüquqlarının müdafiəsi, xalqların azad gələcəyinin tərənnümü, elm və maarifin təbliği və bu kimi bəşəri ideyalar qabaqcıl romantiklərin başlıca mövzusu idi.

XX əsr Azərbaycan ədəbiyyatında romantizmin nümayəndələri Abbas Səhhət, Məhəmməd Hadi, Hüseyn Cavid, Əhməd Cavad, A.Divanbəyoğlu və gənc Cəfər Cabbarlı müxtəlif şəraitdə yaşayıb, təhsil alıb, yazıb-yaratsalar da bir vətəndaş kimi yeni nəslin sabahına münasibətlərində arzu və istəklərində birləşirdilər.

İrtica illərində mürəkkəb tarixi hadisələr A.Səhhətin yaradıcılığında müxtəlif əks-sədalar oyatmışdı. Bir tərəfdən şair burjua mülkədar cəmiyyətinə qarşı etiraz səsini ucaldır, digər tərəfdən cəmiyyətin mütərəqqi meyllərini görərək işıqlı bir gələcəyə inam bəsləyir, nadanlıq və cəhalət dünyasının təmiz məhəbbətlə, hamının məsud yaşayacağı bir aləmlə əvəz olunacağına inanırdı.

A.Səhhət romantiklər arasında məktəb və maariflə ən çox bağlı olan şairdir. O, həssas həkim və psixoloq şair kimi insan əhvali-ruhiyyəsinə, xüsusən uşaqların mənəvi aləminə yaxşı bələd idi. Səhhət də M.Ə.Sabir kimi gələcəyin, yüksək mədəniyyətin gənc qüvvələr tərəfindən yaranacağına inanırdı. Ona görə də yaradıcılığının mühüm qismini uşaq ədəbiyyatına həsr etmişdir. Şairin uşaq əsərləri öz təbiiliyi və səmimiliyi ilə Azərbaycan uşaq ədəbiyyatı tarixində yeni hadisə idi. Lirik şeirləri, mənzum hekayələri, nəğmələri, təmsilləri, pyesləri, Rus və Qərb ədəbiyyatından elədiyi tərcümələr A.Səhhətin uşaq ədəbiyyatına dərin bələd olmasını göstərirdi.

A.Səhhətin poeziya aləmi mövzu və məzmun baxımından da əlvandır; uşaqların həyatı, təhsil və tərbiyəsi, vətənə məhəbbət, təbiət, heyvanlar aləmi, quşların yaşayış tərzi bu şeirlərin mündəricə zənginliyini sübut edir.

“Ata və oğul”, “Ana və bala”, “Ana və uşaq”, “İki uşaq”, “Məktəb şagirdi”, “Tənbəl” şeirlərində A.Səhhət ən əvvəl uşaqları məktəbə, təhsilə, elm və maarifə çağırırdı. Bunu uşaqların təbii həvəsinin nəticəsi kimi ifadə edir. Bu cəhətdən “Ata və oğul” şerini nümunə gətirmək olar:

“Ay dədə, dur mənə çox şeylər al!
Bir dənə çanta, bir-iki dəftər al!
Mən dayım oğluyla gəlirdim bayaq,
Gördüm o məktəbdə oxur çox uşaq!

A.Səhhətin şeirlərində vətənə və xalqa məhəbbət böyük ilhamla tərənnüm olunmuşdur. O, gəncləri vətəni sevməyə, onun azadlığı uğrunda mübarizə aparmağa çağırır.

A.Səhhət təbiət şairidir. Onun yaratdığı peyzajlarda təbiət real və canlıdır. Şairin təbiət şeirlərində insan, insan həyatı, xalqın məişəti unudulmur. Yoxsul kəndlilərin güzəranı, yaylaqda çobanların romantik həyatı təbiətlə təmasda təsvir olunur.

Azərbaycan uşaq nəsrinin təşəkkülü əslində uşaq mətbuatının yaranması ilə əlaqədardır. İlk uşaq mətbuatı-”Maarif”, “Qırmızı günəş”, “Aydınlıq”, “Qızıl Şərq”, “Qızıl gənclik”, “Gənc işçi”, “Məktəb”, “Pioner” və s. qəzet və jurnallar öz ətrafına yazıçı, müəllim, tələbə və başqa ədəbiyyat həvəskarlarından ibarət böyük bir ziyalı dəstəsi toplamışdı. Onların həmin mətbuat səhifələrində çap olunmuş ədəbi-bədii yazılarının başlıca mövzusu yeni ictimai münasibətlər, həyat və məişətdə yaratmağa başlayan bütün yeniliklər idi. Uşaqlarda gözəl hisslər və yaxşı vərdişlər tərbiyə etmək, onlarda kiçik yaşından zəhmətə, elmə, biliyə böyük həvəs oyatmaq, yaşadığı dövr, əhatə olunduğu mühit haqqında həqiqəti söyləmək bir zərurət kimi meydana çıxmışdı. Eyni zamanda köhnə həyatla yeni həyatın müqayisəsi, hər addımda yeniliyin özünü göstərən üstünlükləri, sahibsiz uşaqların tərbiyəsi və məktəblərə cəlb olunması, yaranmaqda olan pioner təşkilatlarının işi bədii ədəbiyyatda əksini tapmalı idi.

İlk təşəkkül illərində uşaq nəsrinin yaranmasında iki nəslin nümayəndələri iştirak edirdilər. Birinci nəsli təmsil edənlər inqilabdan əvvəl yaradıcılığa başlamış, zəngin ədəbi təcrübəsi olan C.Məmmədquluzadə, Ə.Haqverdiyev, S.S.Axundov, A.Şaiq, T.Şahbazi, C.Cabbarlı, S.Hüseyn və başqaları idi. Bu yazıçılar öz yaradıcılıq üsullarına sadiq qalmaqla bərabər, müasir mövzulara da meyl göstərir, onları yeni həyatın tələbləri baxımından həll etməyə çalışırdılar. C.Məmmədquluzadə “İki alma” hekayəsində təsvir etdiyi kiçikyaşlı uşağın təbiətində özünü büruzə verən humanist hissi təqdir edirdi.

Cəlil Məmmədquluzadənin yaradıcılığına xas olan satira və yumor uşaq üçün yazdığı hekayələrdə də özünü göstərirdi.

Süleyman Sani hekayələrində uşaq təbiətinə xas olan lirizm daha səciyyəvi idi. Bu lirizm ədibin istər inqilabdan əvvəlki mühitdən, istərsə müasir həyatdan aldığı mövzuların məzmunundan doğurdu. Yazıçını uşaqların həyatı, taleyi, tərbiyəsi və təhsili daha çox maraqlandırırdı. O, inqilabdan əvvəlki hekayələrində zülmət səltənətində Nurəddin, Tuti, Abbas, Zeynəb, Əhməd, Məleykə və Əşrəf kimi uşaqların başına gələn "qorxulu" əhvalatları canlı lövhələrlə təsvir etmişdir. S.S.Axundov qələmə aldığı "Qan bulağı" (1923), "Ümid çırağı" (1923), "Cəhalət qurbanı" (1923), "Qatil uşaq" (1924), "Nə üçün" (1925) əsərlərinin mövzusunu da inqilabdan əvvəlki qaranlıq mühitdən almışdır. O bu hekayələrində feodal mühitin üfunətli aləmini, zərərli adətlərini ifşa edir, yeniliyə can atan mübariz gəncliyi bu ətalət dünyasına qarşı qoyurdu. Onun kiçik qəhrəmanları bu mübarizədə bəzən büdrəsələr də sabaha ümidlə baxardılar. Belə bir ümid və inam Tağı Şahbazi və Seyid Hüseynin hekayələrinin də əsas qayəsi idi.

Mədəni quruculuq illərində əsas ədəbi və mədəni hadisələr partiyanın Mərkəzi Komitəsinin bədii ədəbiyyat, yeni insan tərbiyəsi sahəsindəki tədbirlərilə bağlı idi. ÜİK (b) P MK-nın "Ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında" 1932-ci il 23 aprel, "Uşaq ədəbiyyatı nəşriyyatı" 1933-cü il 9 sentyabr tarixli qərarları ümumən sənəti, o cümlədən uşaq ədəbiyyatına marağı artırdı. İlk qələm təcrübələrindən istedadlı bir nasir kimi tanınan Mehdi Hüseyn "Kəndə gedirəm", "Hophop", Ə.Məmmədxanlı pionerlərin həyatından bəhs edən "Aydın", Mir Cəlal "Nanənin hünəri", "Gülgəz", "Aqil", S.Vəliyev "Şor cüllütü" və başqaları hekayə və povestlərini yazdılar. Yeni məktəblərdə təlim və tərbiyə alan uşaqlar, ilk pioner dəstələrində fəal iştirak edən yeniyetmələr bu hekayələrin qəhrəmanlarıdır. Bununla belə yeniliklə köhnəliyin təzadı, köhnə həyatın acı xatirələri, ürəklərdən silinməyən izləri hekayələrdə ("Hophop", "Şor cüllütü") öz əksini tapırdı.

A.Şaiqin müasir mövzuda yazdığı "Xasay" povesti bu dövrün ədəbi hadisəsi idi. Yazıçının sonralar səhnələşdirdiyi bu povestdə təlim və tərbiyədə məktəblə ailənin əlaqəsi əsas götürülür və onun müsbət nəticəsi bədii boyalarla təsvir edilir. Əsərdə gənc müəllimin qarşısında duran vəzifə, gənc nəslin tərbiyəsində onun rolu vətəndaş yazıçı mövqeyindən həll olunur. A.Şaiq bu illərdə bir sıra hekayələr də yazmışdır.

Böyük vətən müharibəsi illərində yazıçıların qarşısında duran başlıca vəzifə uşaqlarda vətənpərvərlik hissini gücləndirmək, düşmənə qarşı barışmazlıq, mübarizlik, əyilməzlik kimi keyfiyyətlərin tərbiyə olunması idi. Çox çəkmədi ki, cəbhədən, partizan bölmələrindən döyüşçü pionerlərin sorağı

gəldi. Yeniyetmələrin arxa və ön cəbhədə iştirakı ədəbiyyatda da öz əks-sədasını tapdı. Tezliklə yazıçılarımızın müharibə mövzusunda yazdıqları hekayələr çap edildi. M.S.Ordubadinin "Serjant İvanov adına körpələr evi", "Dilrüba", Ə.Məmmədxanlının "Analar və yollar", Mir Cəlalın "Vətən hekayələri, Əbülhəsənin "Atalar və oğullar", Ə.Sadığın "Tələ", Y.Əzimzadənin "Partizan oğlu" və başqaları bu qəbildən idi. Bu hekayələrin bəziləri bədii cəhətdən zəif olsa da, onlarda vətənpərvərlik və vətəndaşlıq hissi güclü idi. Hər şeydən əvvəl, uşaqlar bu hekayələr vasitəsilə müharibənin gətirdiyi fəlakətləri görür, ona dərin nifrət bəsləyirdi. Digər tərəfdən bu əsərlərdə yalnız cəbhə həyatı deyil, arxa cəbhədə ataları əvəz edən anaların, yeniyetmələrin işi və əməyi əks etdirilirdi. Bu əsərlərin bədii-estetik dəyəri onda idi ki, onlarda qələbəyə böyük inam vardı.

Müharibədən sonra xalqın qarşısında bərpa və quruculuq işləri ilə yanaşı yeni nəslin təlim-tərbiyəsi, yeni texniki biliklərə yiyələnməsi kimi ciddi və təxirəsalınmaz vəzifələr dururdu. Azərbaycanın bir sıra şəhərlərində xalq teatrları yaradıldı, məktəblərdə özfəaliyyət dərnəkləri genişləndirilirdi. Texniki peşə və orta ixtisas məktəblərinin və texnikumların sayı artırıldı.

Böyüməkdə olan gənc nəslin tərbiyə olunmasında ən başlıca vasitə yeni keyfiyyətli, yüksək bədii dəyərə malik uşaq ədəbiyyatı idi. Yazıçılarımızın müharibə illərində və qələbə ərəfəsində yazdıqları bir çox əsərlər toplanılıb ayrı-ayrı məcmuələrdə çap olundu. "Vətən səsi", "Ərməğan", "Zəfər", "Gənclik töhfəsi" və başqalarında şair və yazıçılarımızın yeniyetmələrin yaş səviyyəsinə uyğun müxtəlif janrlarda yazdıqları əsərlər toplanmışdır. S.Rəhimovun qaçaq Nəbinin qəhrəmanlığından bəhs edən "pəri çınqılı", Ə.Vəliyevin xalq nağılları motivlərində yazdığı "Madarın dastanı", Y.Əzimzadənin "Anacan, M.Təhmasibin "Çiçəklənən arzular", "Bahar, Ə.Məmmədxanlının "Balaca Nərgiz kimi povest və pyesləri bu mühüm mövzuları əks etdirən, dövrün tələbinə uyğun, bədii məziyyətlərə malik əsərlər idi.

Böyük quruculuq illərində M.Rzaquluzadənin, Ə.Abbasovun və Q.İlkinin yaradıcılığı diqqəti cəlb edirdi. M.Rzaquluzadənin bu illərdə bir-birinin ardınca çıxan "El gücü, "İstək, "Dan sökülləndə, "Qu gölü, "Ovçu Elişlə qoçaq Aytənin nağılları, "Ölkəmin çiçəkləri, "Nəsillərdən-nəsillərə və s. kitablarında əsasən yeniyetmə və gənclərin həyatından bəhs edən hekayələri və povestləri toplanmışdır.

Yaradıcılığının əsas istiqamətini yeniyetmə və gənc nəslin təhsilinə, təlim və tərbiyəsinə yönəldən Ə.Abbasov dram janrında müvəffəqiyyətlə əsərlər yaratdı. Gəncliyin səhnəyə gətirilməsi, şübhəsiz, onların quruculuq işlərində əməli fəaliyyətlərinin təcəssümü idi. Dramaturqun səhnədə oynanılan ona qədər pyesinin, demək olar, əsas qəhrəmanları məktəblilər və gənclər idi.

Ümumiyyətlə, müharibədən sonrakı bərpa və quruculuq illərində məktəbli gənclərin həyatından yazmaq, ədəbiyyatda onların mükəmməl obrazını yaratmaq, xasiyyətlərində formalaşan səciyyəvi cəhətləri aşkara çıxarmaq yazıçılarımızın diqqət mərkəzində olmuşdur. Qılman İlkin, G.Hüseynoğlu, Yusif Əzimzadə, H.Abbaszadə, M.H.Təhmasib bu mövzuya daha çox müraciət etmişlər.

Şübhəsiz ki, ümumi ədəbiyyatın inkişafına mane olan "konfliktsizlik nəzəriyyəsi uşaq ədəbiyyatında da öz mənfi təsirini göstərməyə bilməzdi. Hadisə və predmetin zahiri təsviri, bədii konfliktin bəsitliyi, obrazların qeyri-kamilliyi bu dövrdə yaranan əsərlərin başlıca nöqsanları kimi nəzərə çarpırdı.

Lakin ötəri hadisə və maneələr ədəbiyyatı düz yolundan döndərə bilməzdi. Ədəbiyyat inkişaf edir, həyatın sürəti ilə ayaqlaşırdı. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri M.Hüseyn, M.İbrahimov, S.Rəhimov, Ə.Vəliyev, Mir Cəlal, Ə.Məmmədxanlı və b. yeri gələndə uşaqlar üçün maraqlı əsərlər yazır, səciyyəvi obrazlar yaradır, bu ədəbiyyatı zənginləşdirirdilər. Digər tərəfdən də bu dövrdə uşaq ədəbiyyatının istedadlı bir nəsli yetişirdi. Yeni yaradıcı qüvvələrin əsərlərində mövzuya müasir gözlə baxmaq, uşaqların yüksək bədii, estetik zövqü səviyyəsindən yanaşmaq, məzmuna münasib maraqlı bədii formalar tapıb işləmək dövrün başlıca meyli idi. Müasir uşaq nəsrinə E.Ağayev, X.Hasilova, Ə.Babayeva, H.Zeynalova, E.Mahmudov, Ə, Əhmədova, B.Həsənov, N.Süleymanov, İ.Hümmətov kimi ədəbi qüvvələr gəldi. Onların yaradıcılığında əsas məqsəd bugünkü nəslin müasir tələblər səviyyəsində tərbiyə olunması, xalqımızın qəhrəmanlıq tarixinə, mübarizə dövrünə, vətəndaş müharibəsi, Böyük vətən müharibəsi mövzularına müraciət edib, uşaqlarda torpağa, vətənə məhəbbət tərbiyə etməkdir.

Şair "Yaz", "Yay gecəsi", "Qış" şeirlərində uşaqlarda və gənclərdə vətənimizə, onun zəngin təbiətinə və əməksevər insanlarına məhəbbət hissi oyadır.

Eyni məziyyətləri H.Cavidin "Öksüz Ənvər", "İlk bahar", "Qız məktəbində", M.Hadinin "Məktəb şərqisi", "Qızlar bağçası", "Dil ölməz", A.Divanbəyoğlunun "Fəhlə", "İlan", Ə.Cavadın "Müəllim", "Quşlara", "Beşik", "Mən tuqayam bir quşam", "Uşaqların əylənməsi üçün", "Balalarım" və b. Əsərlərində görürük.

Deməliyik ki, XX əsrin çox mürəkkəb və zəngin ədəbi prosesi üslubca müxtəlif olsa da, mündəricə baxımından yeni nəslin tərbiyəsində, biliklərə yiyələnməsində və qabaqcıl ideyalara meyl etməsində eyni mövqedə dayanır, eyni məramı izləyirdi.

Maraqlıdır ki, kiçikyaşlı uşaqların tərbiyəsinə qadın yazıçıların yaradıcılığında daha geniş yer verilmişdir.

Uşaqların səviyyəsinə münasib ideyanı maraqlı və yığcam surətdə, canlı lövhələrdə ifadə etmək N.Süleymanovun və B.Həsənovun yaradıcılığına da xas olan keyfiyyətlərdəndir. Onlar müasir mövzularda kiçik yaşlı məktəblilərin estetik tələbinə və zövqünə uyğun həyati hadisələri qələmə alırlar. Eyni məziyyəti İ.Hümmətovun və Ə.Əhmədovanın hekayələrində də görmək olar.

Əsrimizin texniki kəşfləri fantastik əsərlərin də yaranmasına təkan verdi. E.Mahmudov, N.Abdullayev elmin inkişafını, texnikanın sabahını təsvir edən maraqlı əsərlər yazmışlar.

Əlbəttə, bugünkü uşaq ədəbiyyatının yaradıcıları adlarını saydığımız yazıçılarla məhdudlaşmır. Son illərdə uşaq ədəbiyyatına meyl göstərən yazıçılarımızın sayı xeyli artmışdır. Onlar ədəbi ənənələrə sadiq qalmaqla, öz dəst-xətti ilə seçilməyə, yeni gözəl əsərlər yaratmağa çalışırlar. Müasir uşaq ədəbiyyatımız zəngin ənənələr zəminində inkişaf edib, yeni-yeni keyfiyyətlərlə zənginləşir.

*Qara Namazov*

# CƏLİL MƏMMƏDQULUZADƏ
## (1969-1932)

## İKİ ALMA

Axşam vaxtları gəzməyə çıxanda, hərdənbir balaca oğlumu da yanımca aparıram. Bu dəfə də apardım.

Və haman balaca oğlum ilə gəzməyə gedəndə, hərdənbir ittifaq düşür ki, ona yeməli şey də alıram ki, məndən razı qalsın. Bu dəfə də balaca oğlum dükanlarda düzülmüş nazü-neməti görəndə məndən yeməli bir şey istədi. Mən o əqidədə deyiləm ki, hər dəfə uşaq ilə bazara gedəndə ona bir şey almaq lazımdır və lakin bunu da demirəm ki, heç bir vaxt almaq lazım deyil. Ancaq bu dəfə heç bir zad almaq istəmirdim; o səbəbə ki, cibimdə çox pulum yox idi. Və bir də istəmədim ki, uşağım hər dəfə bazara çıxanda dadamal öyrənsin.

* * *

Bir qədər dolandıq, sonra yolumuz çay kənarına düşdü. Amma oğlumu da bidamaq görürdüm. Çün tərbiyə öz qaydasınca, uşağın öz təbiəti – bu da öz qaydasınca. Və onunçun da çox inad etməmək babətindən, dərya kənarında tabağa düzülmüş meyvələrdən iki şahıya iki dənə yaxşı qırmızı alma aldım və ikisini də verdim oğluma. Hərçənd oğlum almaları məndən aldı, amma gördüm ki, könülsüz aldı. Mən ondan bidamaqlığının səbəbini soruşmadım; çünki səbəbi aşkar idi. Bazarda bir az bundan qabaq o məndən iki şey istədi, heç birini almadım, sonra da nemsə qənnadı dükanının qabağından keçəndə şüşənin dalına düzülmüş rəngarəng konfet və şirniyyatdan istədi – almadım.

Oğlum o dərəcədə məndən narazı imiş ki, mən almaları ona verəndən sonra da genə bir söz danışmaq istəmədi və mən ona verdiyim suallara da çox meyilsiz cavab verdi.

Dəxi onu belə qaşqabaqlı görəndə mən özüm də bidamaq oldum və Azərneft idarəsinin qabağında duran tramvay vaqonlarının birinə oğlumu qalxızdım və özüm də mindim ki, gələk evimizə.

Vaqonda hələ bizim ikimizdən başqa bir kəs yox idi. Oğlum boyda bir yetim rus uşağı cır-cındır içində, üz-gözü qapqara çirkli və iyrənc, gəldi durdu qabağımızda və məndən qəpik pul istədi.

Cibimdə ancaq bir abbası gümüş pul var idi. Mən uşağa bir söz demədim ki, keçib getsin. Bir neçə minik arvad və kişi vaqona girdilər və sağımızda-solumuzda yer tutdular. Burada mənim fikrim getdi yetimə pul verməməyimə və dilənçiyə pul vermək lazımdı, ya lazım deyilmi məsələsi məni başladı məşğul etməyə; hər kəs nə deyir desin, ancaq dilənçi uşağa heç bir şey verməmək mənim xoşuma gəlmədi. Buradan ona işarə etmirəm ki, mən heç bir dilənçiyə yox demərəm; çünki ola bilər ki, bir para filosofların dilənçiyə pul vermək, onu bədbəxt etmək sifəti bəlkə mənə də sirayət edibdir. Ancaq sözün həqiqəti budur ki, bugünkü dilənçi uşağa bir qəpik verməməyim məni burada xarab etdi; o səbəbə xarab etdi ki, haman dilənçi uşaq yaşda mənim atalı və analı oğlum, əyni-başı təzə, qarnı tox, bu saat burada mənim sağ tərəfimdə məndən incimiş oturmuşdu ki, niyə mən ona konfet almadım, ancaq iki alma aldım.

Vaqonumuz hərəkət edib gedəndə akoşkanın şüşəsinin dalından gördüm ki, haman dilənçi uşaq yerdə durub bir qırmızı almanı ağzına basıb gəmirtləyir. Qabaqca bir şey duymadım; amma haman dəqiqə yanımdakı oğlumun almaları yadıma düşdü və çöndüm uşağa tərəf. Oğlum gülə-gülə mənə yavaşca bunu dedi:

– Dədə, almanın birini verdim dilənçi uşağa.

Bir dənə qırmızı alma öz-özlüyündə bir şey deyil; onun qiyməti iki qəpikdir və yeyib qurtarandan sonra heç bir şeydir. Amma mənəvi işlərdə bir almanın dəyəri ola bilər çox böyük olsun. O qədər yüngüllük və könül xoşluğu ki, burada iki qəpiklik almadan mənə gəlib çatdı, nəhayət dərəcədə idi.

Filosofiya aləminə gəldikdə, qeyriləri dilənçiyə küçədə ianə verməyi nə cür başa düşürlər düşsünlər və insaniyyət mütəxəssisləri bu məsələni nə tövr həll edirlər etsinlər, ancaq mənim balaca oğlum iki almasının birisini bir yetim uşağa verdi.

Və ola bilər ki, oğlum da yekələndən sonra, bir para alimlərin "küçədə dilənçiyə ianə verməyiniz" nəsihətini eşidəndən sonra, onları küçədə görəndə mənim kimi üz çöndərəcəkdir. Ancaq hələ ki, indi oğlum bu işləri başa düşmür və onunçun da iki almanın birini yetim uşağa verir.

# YAN TÜTƏYİ

Cavan vaxtlarımda mən İrəvanda naçalnik divanxanasında qulluq edirdim. Qulluğumun adı dilmanclıq idi; yəni şikayətə gələn kəndlilərin sözünü naçalnikə rusca tərcümə elərdim, naçalnikin də cavabını türkcə yetirərdim kəndlilərə. Şikayətçi olmayan vaxtda da naçalnik tərəfindən pristavlara və yüzbaşılara hökmlər və qeyri kağızlar yazardım və kağızları öz əlimlə yazandan sonra verərdim naçalnik qol çəkərdi, göndərərdik öz yerinə.

Bir gün divanxanada oturub yazı yazırdım. Yoldaşlarımın çoxu ruslar idi; ancaq bir-iki nəfər müsəlman mirzələri hərə öz işinə məşğul idi. Günorta vaxtı idi. Burada birdən mənim başıma bir iş gəldi; oturduğum yerdə akoşkadan gördüm ki, divanxana həyətinə çoxlu kənd camaatı gəlməkdədir. Bu təbiidir. Yaraşar ki, qəza naçalniki divanxanasında həmişə kəndli olsun, amma məni təəccübləndirən iki şey oldu. Biri bu idi ki, kəndlilərin bir çoxunun əlində bir şey görürdüm: uzaqdan çubuq sapına oxşadırdım, amma akoşkaya yavıq gəldim və diqqətlə baxıb gördüm ki, kəndlilərin əlindəki yan tütəyidir.

Təəccüb! Məgər bunlar hamısı çobandırlar?! Və əgərçi çobandırlar, tütəklərini niyə əllərində gətiriblər və nə münasibətlə buraya bu gün cəm olublar və kim bunları çağırıb?..

Mən, – necə ki naçalnik dilmancı, – borc bildim, çıxam həyətə və bu əhvalatdan xəbərdar olam, həyətə çıxan kimi camaat töküldü üstümə və başladı şikayətə:

– Ay ağa, bizə naçalnik ağanın rəhmi gəlsin. Biz Gərməçataq camaatındanıq. Həyə bu tütəkləri istəyirsiniz, bax beş-on dənə yığıb gətirmişik. Vallah, billah tapılmır, çobanların çoxu dağdadır; hərə öz tütəyini götürüb aparıb. Sarvanlar kəndinə də adam göndərmişik deyirlər: orda ustası var, olsa qayırtdırıb gətirəcəklər. Yoxsa İrəvanı vurduq bir-birinə, ancaq beş-üç dənə tapdıq.

Mən bir şey başa düşmədim; çünki nə qədər fikir eləyirdim yadıma düşmürdü ki, naçalnik divanxanası Gərməçataq camaatından yan tütəyi istəmiş olsun və niyə istəsin? Mən bu fikrimi camaata deyəndə qabaqda duran kəndlilər belə bəyan etdilər ki, guya naçalnik divanxanasından hökm göndərilib. Gərməçataq yüzbaşısına ki, bu gün, yəni iyun ayının ikisində, İrəvandakı kazak qoşunundan ötrü əlli dörd dənə yan tütəyi camaatdan yığıb göndərsin.

Mən daha da təəccüb elədim və soruşdum ki, bəs hanı naçalnik hökmü və yüzbaşı özü haradadır?

Bu heyndə bir kazak böyüyü, yanında bir neçə kazak, onların dalınca Gərməçataq yüzbaşısı Əbdül Kərim, əlində şallaq, onun dalınca yasovulu Heydərli və bunların da yanlarınca bir neçə nəfər Gərməçataq ağsaqqalı hücum çəkdilər divanxanaya və kazak böyüyü qeyzli, uca səslə naçalniki soruşdu və cavab almayıb, soxuldu naçalnikin kabinəsinə, yanındakılar da bunun dalınca.

Burada məni təəccübləndirən bu oldu ki, indi gələn kazakların birinin əlində dörd dənə "fleyta", yəni yan tütəyi vardı. Bunlar, daha çobanlar çaldığı sadə yan tütəyi deyildilər; çünki "fleyta" dedikdə düyməli, uzun və şəvə kimi qara tütəklərdi ki, əsgəri musiqi dəstəsində bunun öz yeri var.

Çox qəribə! Kəndlilər bir yandan, bu kazaklar da bir yandan, bunlar hamısı bu gün bizə yan tütəyi daşıyırlar.

Mən məəttəl qalmışdım və heç macal eləmədim ki, huşumu başıma yığam, burada naçalnikin çox uca və çox acıqlı səsini eşitdim:

– Mirzə Abbas! (Məni çağırırdı.)

Cəld özümü yetirdim naçalnikin otağına və gördüm ki, kazak böyüyü əyləşib naçalnikin yanında, o qalan adamlar da kənarda səf çəkib durublar. Naçalnik elə bir halətdə mənim üzümə baxırdı ki, deyirdim bu saat durub məni yeyəcək. Hirsindən kişinin gözləri qızarmışdı və mənə bir qədər dik-dik baxandan sonra əlini stolun üstə tərəf uzatdı və soruşdu:

– Bu nədi?

Mən kefli adam kimi, qabaqca stolun üstündə bir şey görmədim; amma stolun üstündəkilər haman dörd dənə fleyta idi (yəni yan tütəkləri idi) ki, bayaq kazakların əlində görmüşdüm.

Naçalnik bir də dedi:

– Bu nədi?

Mən cavab verdim ki, bunlar fleytadır, yəni yan tütəyidir. Naçalnik belə giley-güzar başladı:

– Bəs sən ki, keflənməyə adətkərdə imişsən, nə cürət eləyib mənim idarəmə qulluğa gəldin?

Mən cavab verdim:

– Cənab naçalnik, bizim şəriətimizdə keflənmək məndir və siz cənabın hüzurunda mən o qələti eləmərəm və eləyə də bilmərəm.

Elə ki bu söz mənim ağzımdan çıxdı, naçalnik yerindən dik atıldı, stolun üstündən bir yazılmış kağız götürdü və mənə tərəf bir qədər əyilib az qaldı kağızı soxa mənim ağzıma və çığırdı:

– Oxu!

İndi mənim yadımda deyil ki, mən o kağızı neçə oxudum; çünki gözlərimi toz bürümüşdü. Amma kağızın məzmunu belə idi:

"Hökm. Gərməçataq yüzbaşısına, İrəvan qəza naçalniki tərəfindən. Hökm edirəm, əlbəttə və əlif əlbəttə iyun ayının ikisində İrəvan şəhərinə Cəfərabad məhəlləsində olan kazak qoşununun böyük əfsəri polkovnik Afanasyevin hüzuri-şəriflərinə əlli dörd dənə yan tütəyi (fleyta) camaatdan yığıb göndərəsən; çünki haman qoşunlar haman tarixdə haman yan tütəklərinə minib Kənakir kəndinə yaylağa gedəcəklər və məbada-məbada bu işi, təxirə salasan ki, məsuliyyət altına düşəsən. Vəssalam."

İrəvan naçalniki Petrov".

Demək, həmin hökm yazılıb bizim divanxanadan, hökmə qol çəkib həmin bizim naçalnikimiz Petrov və hökmü də öz dəst-xətti ilə yazan kimdir? Mən bədbəxt, mən yazıq, mən başıbəlalı Mirzə Abbas Fərzəliyev, yəni İrəvan naçalnikinin dilmancı.

* * *

Hə, yavaş-yavaş huşum başıma cəm olur və indi yuxu ilə həqiqəti seçirəm. İndi bilirəm ki, günah kimdədir, kimdə deyil. Və ancaq indi qanıram ki, mətləb nə üstədir və indi görürəm ki, bu fəsadı törədən kim imiş.

Vallah-billah, əgər naçalnikin yerinə mən olsaydım, yapışardım bu lənətə gəlmiş dilmanc Mirzə Abbasın boğazından (yəni özümü deyirəm ha) və o qədər sıxardım ki, boğulardı və boğulub öləndən sonra ağlı başına gələrdi.

Əhvalat belə imiş: hər kəs istəyir həmin qilü-qalın əslindən xəbərdar olsun, aşağıda yazılan bir neçə sətri zəhmət çəkib oxusun.

* * *

İki ay bundan qabaq naçalnikdən izn alıb getmişdim kəndimizə anamın ziyarətinə. Orada mən bir həftə qaldım, amma necə qaldım? Əmoğlum Pirverdinin bərəkətindən, elə yadıma gəlir ki, kəndimiz,

behiştin bir guşəsi idi. Pirverdi bir məharətlə yan tütəyi çalırdı ki, onun çalmağına qulaq asanda mənim yemək-içmək yadıma düşmürdü. Əmoğlumun peşəsi qoyun saxlamaq idi və qoyunları da kürd çobanlarına tapşırmışdı. Bununla belə özü də həmişə qoyunlarının yanında olardı və qeyri çobanlar kimi bu da yan tütəyini çalmağı adət eləmişdi. Amma Pirverdinin çalmağı özgə bir çalmaq idi və çox ittifaq düşərdi ki, qonşu kəndlərdən bunun yan tütəyi çalmağına qulaq asmağa gələrdilər və mənim özümün bu çalğıya o qədər həvəsim vardı ki, daha doya bilmirdim. Axırda mən özüm də belə eşqə düşdüm ki, özümə bir yan tütəyi ələ gətirib başlayım yavaş-yavaş çalmağa ki, bəlkə, pənah Allaha; mənə də elə xoşbəxtlik üz verdi ki, mən də Pirverdi kimi çalan oldum. Əmoğlum bu xəyalımı bilən kimi öz yan tütəyini bağışladı mənə və mənim bir həftə məzuniyyətim qurtarandan sonra tütəyi səliqə ilə basdım pambığın arasına, qoydum bir balaca qutuya ki, yolda arabada sınmasın və gəldim İrəvana. Burada mənzilimdə qutudan tütəyi çıxartdım və üst-başımın tozunu silməmiş və yoldan rahat olmamış, başladım tütəyi çalmağa.

Amma heyif, nə qədər püfləyirəm, tütək heç bir səs vermir. Dodağımı gah belə tuturam, gah elə tuturam, yavıqdan çalıram, gah bir az uzaqdan üfürürəm. Tütək körük kimi fısıldayır, ancaq bir səs çıxartmır.

Daha yorulub bir qədər məyus oldum. Tütəyi qoydum stolun üstünə, çıxdım getdim divanxanaya. Qulluğumu qurtarıb gəldim evə və çörəkdən qabaq genə götürdüm tütəyi və genə istədim çalam. Xeyr, çalınmır.

Dedim bəlkə tütək yolda xarab olub. Diqqətlə o tərəf-bu tərəfə baxdım. Xeyr, salamatdır; amma çalınmır. "Allahü-əkbər". Genə yoruldum və qoydum kənara. Çörək yedim və çıxdım getdim gəzməyə və qayıdıb gələndən sonra genə istədim imtahan eləyəm. Xeyr, çalınmır. Bari pərvərdigara, bu nə bədbəxtlik?! Niyə sən məni elə bir nemətdən məhrum qılırsan ki, o neməti sən hər bir çobana kəramət eləmisən? Mən nə günahın sahibiyəm! Və belə-belə Allahı çağırmaq genə bir fayda bağışlamadı; çünki bu xeyir-duadan sonra nə qədər əlləşdim, tütəyim çalınmadı.

Yada salıram Pirverdinin çalmağını: tütəyi belə tuturdu, sağ əlini belə qoyurdu, sol əlilə belə yapışırdı, barmaqları burada olurdu, dodaqlarını belə yumurdu. O ki bunları belə eləyirdi, mən də belə eləyirəm, bəs niyə bu şoğərib tütək onun əlində çalınsın, mənim əlimdə çalınmasın?..

* * *

Bir gün səhər yerimdən durdum, geyindim, tez bir stəkan çay içdim ki, gedim divanxanaya qulluğuma və ehtiyat üçün tütəyi götürdüm, dayadım dodağıma. Aha!.. Qurban olduğum tütək çalındı; yəni bundan bir səs çıxdı. Haman səs idi ki, Pirverdinin kəndimizdə çalmağını yada salırdı.

Ax, haradasan əmoğlu, səni bir qucaqlaya idim və basa idim bağrıma, doyunca öpə idim!..

Saata baxdım: qulluğumun vaxtından yarım saat keçirdi. Tütəyi bir neçə dəfə öpdüm, səliqə ilə qoydum qutuya və qaçdım küçəyə.

Pəh-pəh, nə gözəl dünya! Günün istisi, küçənin tozu; adamların yaxşı, ya pis hərəkəti, dağ, daş; otlar və ağaclar, guya bunların hamısı bu gün dilbir olublar ki, mənə mübarəkbadlıq versinlər ki, bu gün mənim tütəyimin səsi çıxıbdır.

Divanxanaya yetişdim, yoldaşlarımın hamısına salam verdim və bir-ikisinin qulağına pıçıldadım ki, bu gün mənim tütəyim çalınıbdır. Oturdum, kağız-kuğuzu çıxartdım, başladım yazmağa. Amma hər nə ki yazıram, – heç bilmirəm nə yazıram, hər kəslə danışıram, – bilmirəm nə danışıram; çünki fikrim tütəyin yanındadır. Saatı çıxardım qoydum stolumun üstə ki, görüm saatın şümarələri[1] nə vaxt gəlib, 3-ün üstündə duracaqlar ki, börkümü götürüb qaçım evə.

Bu arada naçalnik məni çağırdı və belə dedi:

– Götür, bu saat bir hökm yaz Gərməçataq yüzbaşısına ki, iyun ayının ikisində əlbəttə və əlif-əlbəttə Cəfərabad məhəlləsində olan kazak qoşununun böyük əfsəri polkovnik Afanasyevin hüzuri-şərəfinə əlli dörd dənə araba camaatdan yığıb göndərsin; çünki qoşunlar haman tarixdə, haman arabalara minib Kənakir kəndinə yaylağa gedəcəklər və bu işi məbada təxirə salasan ki, məsuliyyət altına düşərsən. Vəssalam.

Mən naçalnikə "baş üstə" deyib getdim. Hökmü yazdım və gətirdim naçalnikin qabağına qoydum. O da bir-iki sətir başdan və bir-iki söz axırdan oxudu və qələmi götürüb qol çəkdi, qaytardı mənə; amma bircə bunu dedi ki, "tez, tez, bu saat göndər".

Hökmü haman dəqiqə dəftərə saldılar, qoydular paketə və göndərdilər.

---

[1] Əqrəbləri

Amma araba nədir, zad nədir? O gün mənim beynimə belə-belə sözlər çox çətin girə bilərdi; çünki o gün mənim fikrim-zikrim məhz yan tütəyinin yanında idi. Və o gün məndən ötrü yan tütəyindən savayı heç bir şey yoxdu və ola da bilməzdi. Və gör o günü məndə olan yan tütəyinin eşqi nə qədər qəliz imiş ki, naçalnikin hökmündə "araba" əvəzinə "yan tütəyi" yazmışam. Hökm də gedib Gərməçataq yüzbaşısına çatandan sonra, o da hökmü verib mirzəsinə oxudub və camaata xəbər veriblər ki, naçalnik camaatdan əlli dörd dənə fleyta, yəni yan tütəyi istəyir. Hamı məəttəl qalıb, aya, bu qədər yan tütəyini haradan yığmaq mümkündür və aya, görəsən qoşuna bu qədər yan tütəyi nə lazımdır; çünki axı yan tütəyini minmək olmaz! Bu at deyil, eşşək deyil. Və axırda yüzbaşı və kənd mirzəsi ki, camaat içində hamıdan çox, bilən imişlər, camaatı başa salırlar ki, yəqin qoşunların musiqi dəstəsinin çalğılarının xərcini hökumət istəyir kənd camaatının öhdəsinə qoysun.

Bir qədər də danışdıqdan və məsləhətdən sonra belə qərar qoyurlar ki, camaat içindən üç nəfər ağsaqqal seçib göndərsinlər şəhərə ki, bazarı gəzib nə qədər tapsalar, yan tütəyi alsınlar və çobanlardan da hər nə bacarsalar yığıb aparsınlar. Bundan əlavə qubernata da bir ərizə yazdırsınlar ki, bundan sonra qoşunların musiqi dəstəsinin xərcini camaatın üstünə yıxmasınlar; çünki Gərməçataq camaatı çox kasıbdır.

* * *

İrəvanda Cəfərabad məhəlləsində oturan kazak qoşunları iyunun ikisində Kənakir dağına yaylağa gedəsi idilər və İrəvan naçalnikindən haman gün əlli dörd araba istəmişdilər və naçalnikdən kazak böyüyünə cavab gəlmişdi ki, lazımi qərardad olunub və vəqti-müəyyəndə əlli dörd araba hazır olacaq.

Haman iyunun ikisində arabalar gözlənilən vaxt kazak böyüyü polkovnik Afanasyevə ərz edirlər ki, Gərməçataq yüzbaşısı dörd dənə fleyta gətirib. Polkovnik bu işə təəccüb edir və fleytaları qəbul etməyib, arabaları soruşur. Yüzbaşının da ki, arabadan xəbəri yox. O da naçalnikin hökmünü nişan verir. Hökmdə də araba yazılmayıb, yan tütəyi yazılıb.

Polkovnik bir neçə dəfə ayaqlarını yerə döyəndən sonra və yüzbaşının atasını və anasını bir neçə dəfə söyəndən sonra yüzbaşını da,

onun yasovulunu da və gətirdikləri yan tütəklərini də götürüb, bir neçə kazak əsgərləri də onların dalınca gedirlər naçalnik divanxanasına ki, görsünlər bu nə əməldir.

Xülasə.

Amma naçalnikin və mənim başıma bu mərəkəni açan yan tütəyindən də axırda elə bir mətləb hasil olmadı; axırda belə məlum oldu ki, yan tütəyi çalmaqda əmoğlum kimi məharət göstərmək və qulaq asanları valeh etmək mənə xudayi-taaladan qismət deyilmiş.

Bir qədər keçəndən sonra musiqiyə olan həvəsim o qədər azaldı ki, başıbəlalı tütəyi bilmərrə gözdən saldım.

## BUZ

Mən on yaşında, ya bəlkə bir qədər də artıq olardım. Xalam azarlamışdı. Hacı Mirzə Səttar həkimi gətirmişdilər ki, baxsın və müalicə eləsin. Deməк, xalamın xəstəliyi o qədər də ağır deyildi və bunu mən ondan ötrü deyirəm ki, o vədələr, yəni qırx il bundan qabaq bizim şəhərdə iki nəfər müsəlman həkimi var idi: biri Hacı Mirzə Səttar idi və digəri Məşədi Nurməmməd idi.

Müsəlman həkimi dedikdə o deyil ki, bunlar müsəlman idilər. Bu iki nəfərə onunçun müsəlman həkimi deyirdilər ki, bunlar həkimlik təhsillərini müsəlman məmləkətlərində almışdılar. Hacı Mirzə Səttar Təbrizdə oxumuşdu; Məşədi Nurməmməd də elə bizim öz şəhərimizdə nüsxəbənd kitablarının mütaliəsilə və təcrübə ilə həkimliyi öyrənmişdi. Bunların da müalicəsi bir müxtəsərcə nəbzə baxandan sonra ciblərindən xəstəyə kinə, həb və işlətmə verməkdən ibarət idi.

Bu müsəlman həkimlərindən savayı şəhərimizdə rus həkimləri də var idi. Rus həkimi bunlara o səbəbə deyirdilər ki, bunlar Rusiyada və bəlkə Avropada təhsil tapmışlardı. Və çün bizim camaatın arasında bu etiqad var idi ki, “rus həkimləri” müsəlman həkimlərindən artıq təhsil görmüş və təcrübə hasil etmişdilər, onunçun da ağır xəstəlik ittifaq düşəndə həmişə rus həkimlərini haziq[1] hesab edib onları dəvət edərdilər, savayı kasıb-kusubdan. Bunlar iki abbası fayton pulunun, bir manat rus həkiminin həqqi-zəhmətindən və yarım manat aptek xərcindən

[1] Çox bilikli, çox mahir

qaçmaq babətindən Hacı Mirzə Səttara, ya Məşədi Nurməmmədə qane olub beş-altı şahı ilə həkimi də dava-dərmanı da ötüşdürərdilər.

Demək müsəlman həkim çağırmaq istəyəndə, buradan bilmək olardı azarlının azarı yüngüldür. Amma "rus həkimi gətirənlərin də mənası bu idi ki, xəstənin halı qorxuludur.

Hacı Mirzə Səttar xalama baxıb gedəndən bir saat sonra gördüm ki, xalamın əri Məşədi Zülfüqar bir köhnə faytonda bir rus papaqlı kişi ilə gəlib yendilər. Bu rus papaqlı kişi rus həkimi imiş. Buradan mən anladım ki, xalamın işi xarabdır. Mən də uzaqda durub həkimin xalama baxmağına tamaşa edirdim.

Xülasə, baxdı qurtardı və bilmirəm nə dedi, nə demədi və həkim faytona minib gedəndə xalamın əri tələsik mənə bir qəpik verdi və dedi:

– Bala, tez ol, durma, tez, tez bir qəpiklik buz al gətir, ver evə... həkim deyirdi.

Və xalamın əri bu sözləri bir də təkid edəndən sonra anama xəlvətcə nəsə dedi. Evdən bir dənə boş dava şüşəsini əlinə alıb mindi faytona, həkimin yanına və sürüb getdilər. Və fayton istəyirdi uzaqlaşa, atam evimizə tərəf ucadan dedi:

– Ay uşaq, buzu yaddan çıxartmayın.

Bunlar gedəndən sonra anam da həkim gələndə örtdüyü çarşafı yerə tullayıb çökdü xalamın yanına və bu da mənə təkid elədi ki, durmayım, tez qaçım bazara buzun dalıyca; çünki məlum oldu ki, həkim tapşırıb ki, xalamın ürəyinin üstünə buz qoysunlar və ürəyi sakit olmayınca buzu götürməsinlər.

Mən üz qoydum bazara tərəf. Xəyalımda qoymuşdum gedəm düz baqqal çarşısına və buzu alam gətirəm. Və şəhərdə oradan savayı bilmirdim harada buz satırlar.

Evimizdən ayrılanda çox da tələsmirdim, amma xalamın yalvarmağı yadıma düşəndə bir qədər ayaq götürdüm; çünki yazıq xalam dərin gözlərini güclə mənə tərəf çöndərib belə yalvarırdı:

– Qurban olsun sənə xalan, ürəyim pörşələndi, buzu tez gətir.

Hacı Bayramın küçə qapısının qabağından keçəndə itləri həyətdən başladı hürməyə. Mən əlimə ehtiyat üçün iki daş aldım, qapını örtdüm, keçdim. İt küçəyə çıxmadı və həyətdən itin yorğun "hov, hov" səsi gəlirdi. Bu it hərçənd çox qoca bir it idi və yol ilə ötüb keçənlərlə də bir acığı yox idi və olmazdı. Hacı Bayramın oğlu, mənim küçə

yoldaşım Şirəli, mən həmişə onların qapısından ötəndə haman qoca köpəyi çağırardı küçəyə və itini küşkürərdi üstümə və özü də, iti də məni bir qədər qovalardılar, amma tuta bilməzdilər; çünki it o qədər qoca idi ki, bir az mənə tərəf hücumdan sonra tez yorulardı, durardı və ancaq gücsüz və əlacsız durduğu yerdə "hov, hov" edərdi. Və mənə xoş gələn o idi ki, itin bu xasiyyətinə Şirəlinin elə bərk acığı tutardı ki, məni boşlayıb başlardı yazıq qoca iti daşlayıb incitməyə.

Bu da mənə nəhayət xoş gələrdi. Belə olanda Şirəli itin acığını istərdi çönüb məndən alsın və çox vaxt olardı ki, biz bir-birimizlə söyüşərdik və çox vaxt da elə savaşardıq ki, yol adamları bizi gəlib aralardılar.

Çünki dəxi Şirəli qapıda görsənmədi, mən də itin hürməyinə qulaq vermədim və xalamı da mülahizə elədim; yəni bir növ yazığım gəldi və keçdim getdim.

Baqqal çarşısına yetişdim və bir qəpiyi uzatdım verdim buz satana. Bu da bir çuxur yerə əlini uzatdı, yarpaqların və samanın altından bir yekə buz parçası çıxartdı, mənim bir qəpiyimə baxdı və buza baxdı, buzu iki böldü və yekəsini bir kələm yarpağına bükdü, verdi mənə.

Buzun ağırlığı olardı təxminən beş girvənkə. Buzu aldım əlimə və sərin baqqal rastasından çıxdım günün qabağına. Hava şiddətli isti idi. Yayın orta ayı idi və başımın üstündəki nisfünnəharın[1] günü əgər bir imam möcüzü ilə göydən yerə düşə bilsəydi, düz mənim kəlləmə düşərdi. Mən istidən qan-tərin içində idim və bir yandan alnımın təri damcı-damcı axırdı və bir yandan da buz şiddətnən əriyib süzələnirdi. Yerdən bir təmiz daş götürmüşdüm, hərdənbir buzun böyrünə vurub əzirdim və basırdım ağzıma və alnıma.

Gəldim çatdım Hacı Bayramın qapısına. İtin səsi gəlmirdi. Şirəli genə görsənmirdi. Hacı Bayramın darvazasının qabağına yetişəndə özüm də deyə bilmərəm ki, niyə dayandım. İtin genə səsi gəlmir. Heç kəs nə qapıda, nə küçənin bir yanında görükmür; yəqin ki, istinin zərbindən hərə bir kölgə yerə pənah gətirib.

Adətkərdə olmaq yaman imiş və mənim də adətim buna idi ki, bircə gün olmayıb ki, bu darvazanın qabağından ötüb keçəndə ya it mənim qabağıma çıxmasın, ya Şirəli çıxmasın. Və məlum ki, bunların da biri çıxanda mənim üçün burada məşğuliyyət olmasın, ya iti daşlamayım, ya Şirəliylə söyüşməyim və hərdənbir də onunla dalaşmayım.

---

[1] Günortanın

Bəs neyləyim? Bir çarəm buna qaldı ki, yerdən iki dənə qıvraq daş götürdüm, öz evimizə tərəf bir qədər də uzaqlaşdım ki, bir həngamə törəsə mənə əli çatan olmasın. Və geri çönüb daşın birini tulladım Hacı Bayramın darvazasına və qaçdım, daha da uzaqlaşdım.

Daldan köpəyin səsini eşidirdim. Qoca it xahi-nəxahi[2] çıxmışdı qapıya və xahi-nəxahi öz vəzifəsini ifa edirdi.

Əlimdəki o biri daşı da tulladım. Daş itin başının üstündən ötüb keçdi şaqqıltı ilə dəydi Hacı Bayramın darvazasına. Burada köpək, deyəsən acığa düşdü; çünki mənə tərəf başladı hürməyə. Mən qorxumdan qaçdım, bir qədə uzaqlaşdım və çönüb geri baxanda gördüm ki, itin dalıyca Şirəli də mənə tərəf hücum edir.

Siz elə bilməyin ki, mən onlardan ehtiyat eləyirdim; bir zərrəcə eləmirdim. Çünki bilirdim ki, köpəyin nə dişi var məni tutsun, nə taqəti var mənə güc gəlsin. O ki Şirəli idi, onun öhdəsindən hər halda gələ bilərdim.

Buzu qoydum yerə, gördüm ki, od kimi isti torpağa buz cızıltı ilə yapışıb az qaldı havaya uçsun. Suyu axa-axa buzu tez torpağın içindən götürdüm tulladım divarın kölgəsinə və qaçdım yerdəki daşlara tərəf və qabağıma gələn daşları yerdən qapıb başladım Şirəliyə tərəf tullamağa. Bu da mənə baxıb durdu məni daşa basmağa. Köpək də ancaq mən atdığım daşlara özünü çırpırdı və bundan başqa sahibinin oğluna bir qeyri kömək göstərə bilmirdi. Biz həmi bir-birimizi daşlayırdıq, həmi bir-birimizi söyürdük. Söyüşlərimiz bu qəbildən idi: "Ay sənin ananı... filan və filan".. "Ay sənin bacının... filan və filan". "Köpək oğlu və it oğlu", söyüşləri burada o qədər vec vermirdi; səbəb bu ki, toqquşmamız adi bir toqquşmalardan deyildi ki, söyüşlər də adi olsunlar. Hətta mən ona burada hirsimdən elə bir söyüş göndərdim ki, Şirəli qeyzindən ağladı və həmin söyüşü ağlaya-ağlaya mənə geri qaytaranda öz atası Hacı Bayram həyətdən eşitdimi, eşitmədimi, ancaq gördüm ki, kişi düz gəldi yapışdı oğlunun qulağından və çəkə-çəkə apardı həyətinə və dübarə həyətdən çıxdı, mənə tərəf səsləndi:

– Ədə, vələdüzzina, düz yolunnan çıxıb gedə bilmirsən? Mən dinmədim və oturdum divarın dibində. Ürəyim elə yanırdı ki, az qalırdım yerdəki buzu götürəm soxam boğazıma. Buz da öz işində, əriməkdə idi. Genə özümü saxlaşdıra bilmədim və əlimdəki daşnan buzun bir

[1] İstər-istəməz

tərəfini əzdim basdım ağzıma və bir alma yekəlikdə qalan buzu istədim qoyam yerə. Ancaq burada xalam yadıma düşdü və istədim duram qaçam evə və qalan buzu yetirəm azarlıya. Və burada baxdım ki, Şirəli durub darvazasının ağzında və mənə tərəf baxır. Mən də dinmədim və düşdüm yola, evimizə tərəf. Burada Şirəlidən elə bir söz eşitdim ki, dəxi məcbur oldum dayanam və ona cavab verəm.

Şirəli uzaqdan məni haraylayırdı:

– Hə, beləcə it kimi qorxub qaçarsan ha!

Allahü-əkbər... Axı bu söz yaxşı söz olmadı. Burada Şirəli mənə hər nə desə idi, genə qulaqardına vurub özümü yetirərdim evə; çünki xalamın ərindən də qorxurdum və bir az da anamdan qorxurdum. Amma, axı, Allah da görür ki, Şirəli nahaq söz danışdı, çünki mən onun nəyindən qorxurdum ki! İndi gedirəm evə.

Mən çöndüm dayandım və Şirəliyə belə cavab qaytardım:

– Ədə, köpək oğlu köpək, mən sənin nəyindən qorxurdum?

– Köpək oğlusan da, it oğlusan da!

Biz başladıq bir-birimizə yavıq gəlməyə. Ehtiyat üçün buz tikəsini genə qoydum divarın dibinə və o mənə, mən ona yavıq gəldik və bir-birimizə söyə-söyə yetişdik, çatışdıq və düşdük yumruq döyüşünə və sonra da əlbəyaxa olduq.

Bir az bir-birimizi cırmaqlayandan və kötəkləyəndən sonra bir də gördüm ki, qoca bir kişinin qucağındayam. Bir nəfər də çarşovlu arvad və bir-iki də oğul-uşaq Şirəlini çəkə-çəkə apardılar evlərinə tərəf. Mən istədim qoca kişinin əlindən dartınıb çıxam, hərifin üstünə hücum edəm, burada mən birdən ayıldım, sakit oldum. Kürəyimdə naqafil bir bərk yumruğu hiss edən kimi başımı qalxızdım.

Məni vuran xalamın əri idi. Bundan onun hirsi hələ soyumadı: yumruğunu qalxızmışdı genə yendirsin, qoyub qaçdım evə tərəf.

Xalamın ərini dalımcan gələn görmədim; yəqin ki, o da bazara tərəf getdi. Sonra bildim ki, gəlib evdə məni bazardan gəlmiş görməyib, qayıdıb bazara ki, buzu özü alıb gətirsin.

Utandığımdan azarlının yanına getmədim; ancaq anam uzaqdan məni görəndə bircə bunu dedi:

– A balam, sənin görüm ciyərin yansın, necə ki, yazıq azarlı arvadın ciyərini yandırdın.

Xalam məni çox istərdi; onunçun da sonra mən bildim anam mənə bu qarğışı eləyəndə xalam anama belə deyib:

– Ay qız, Sara, sən Həzrət Abbas, uşağa elə qarğış eləmə!

Bir neçə gündən sonra xalam vəfat etdi. Mən o günü nə ağladım və nə də dərd elədim, necə ki, cəmi mənim kimi bacı uşağı xalasının ölümünə nə ağlar və nə dərd edər.

Bununla belə bircə şey yadımdan çıxmadı və indiyə kimi məni gahdan bir narahat etməkdədir.

Nədi o? – Onun adı “buz”dur.

Xüsusən yay fəsilləri ki, bir tərəfdən bizim isti iqlimdə ki, yayın istisinin şiddətindən nəinki xəstələr, bəlkə salamat adamın da vaxt olur ki, ciyəri yanır.

Və yay fəsli arabalarda daşınan ağ və təmiz duru buz kərpiclərini görəndə xalam yadıma düşür və öz-özümə deyirəm: o xoşbəxt ki, indi onun ürəyi yanır, bu buzu aparıb ona verəcəklər ki, ürəyi sərinlənsin. Və çox-çox daha da xoşbəxt adamlar var ki, bu buzlar onların ləziz yeməkləri və marojnalarına sərf olunur. Amma mənim xalam odlu qızdırmanın içində ürəyi yanmaqda olduğu halda, bircə tikəsinə həsrət qaldı və iki gün sonra ölüb getdi.

Kimin qüsuru ucundan? Mənimmi, ya yox? Kimdədir taqsır? Məndədirmi ki, itlər ilə dalaşmağa məşğul olub xalamın buzunu odlu torpağın içində əritdim? Ya bəlkə günahkar təbiətdir ki, daş kimi bərk bir buzu istidən suya döndərir? Ya bəlkə günah heç birimizdə deyil?! Ondan ötrü ki, mən tək tərbiyə görməyən on yaşında bir uşağın həmin rəftarı çox təbiidir, necə ki, buzun gün qabağında əriməyi təbiidir.

Məqsəd suallara cavab vermək və belə-belə fənni məsələləri açmaq deyil. Və heç bir məqsəd yoxdur.

Ancaq hər bir yay fəsli küçələrdə arabalarda buz sallarını[1] görəndə, bir tərəfdən o buzu şampanskilərə və ləzzətli marojnalara işlədən xoşbəxtlər gözümün qabağına gəlir və eyni zamanda xalamın “ciyərinin yanmağı” yadıma düşür.

Nə qədər ki uşaq idim, yadıma düşməzdi, elə ki yekəlib ağlım kəsdi, buz əhvalatı mənə hər bir yeri düşəndə dərd olur. Bir tərəfdən də on dörd yaşında olduğum vaxt ölümcül azarlı xalamı bir qəpiklik buza həsrət qoymağım yadıma düşür.

---

[1] Sallay; buz salı – böyük, yastı buz layı

## SAQQALLI UŞAQ

Bu hekayəni nağıl eləməmişdən qabaq bunu istəyirəm deyəm ki, bir para uşaqlarda belə bir pis xasiyyət olur ki, əllərinə karandaş düşən kimi başlayırlar evin divarlarını yazmağa. Hələ çoxusu kömürnən də, təbaşirnən də yazır. Hələ sən kömürü və təbaşiri deyirsən, mən elə pis uşaq görmüşəm ki, əlinə mismarı, ya bıçağı alıb divarları cızıb xarab eləyir.

Nədənsə, divar yazan uşaqlarnan mənim aram yoxdu; ondan ötrü ki, həylə sən yaxşı uşaqsan və könlün məşq eləmək istəyir, götür kağızı, qələmi, bir yerdə otur və nə qədər kefindir, yaz.

İndi keçək nağılımıza.

Mən elə bilirdim ki, bizim uşaqlar özgə uşaqlar kimi o qədər də divar yazan deyillər; çünki çox nəsihət eləmişdim və onlar da mənə söz vermişdilər ki, divarları yazmayacaqlar. Amma axır vaxtlarda gördüm ki, balkonun divarında, qapının dalında bir xəlvət yerdə bir belə şəkil çəkilib; deyəsən, bir heyvan başıdır, qulaqları da deyəsən var, bir-iki ayağı da var, altında beş dəfə əlif yazılıb və bundan savayı beş-altı yumru şey çəkilib. Bunların hamısı karandaş ilə yazılıb, elə naşı kobud yazılıb ki, bunu uşaqdan savayı heç kəs yaza bilməz.

Xoşuma gəlmədi, çağırdım uşaqları.

– Ədə, genə divarları yazırsınız?

Üçü gəldi durdu yazının qabağında.

– Hansınız yazmısınız?

Üçü də dandı.

– Elədə pəs şeytan yazıb?

– Dədə, vallah mən yazmamışam.

– Dədə, mən də yazmamışam.

Balaca Qurban da “mən yazmamışam” deyə-deyə əllərini üzünə qoyub ağlamağa başladı.

Mən deyinə-deyinə bir əski tapıb yazını təmizlədim və deyinə-deyinə çəkildim getdim. Amma bunu eşidirdim ki, Heydər Teymura deyirdi: – Sən yazmısan. – Teymur da Heydərə deyirdi: – Sən özün yazmısan.

Burada ağlayan oğlum Qurban qaça-qaça gəldi yanıma, guya ki, bir böyük xəbər gətirib.

– Dədə, o yazını Heydər yazıb; vallah, dədə, Heydər yazıb.

Heydər də acıqlı-acıqlı gəldi durdu Qurbanın qabağında və əllərini ata-ata elə hirsnən cavab verdi ki, az qalırdı əllərini soxa uşağın gözünə.

Mən acıqlandım və üçü də sakit olub istədilər gedələr, mən onları saxladım və bunu dedim:

Mən bircə bunu soruşdum ki, divara yazdığının mənası nədir?

Mənası bu imiş: Kəblə Əzim istəyirmiş bir inək çəkə və inəyin altında yazdığı beş cızığın mənası bu imiş ki, mən ona beş manat inək yağından borclu qaldım. Girdə yazılar yumurtadan qalan borcumun hesabı imiş. Mən genə güldüm və uşaqlarımı çağırdım və onlara belə dedim:

– Uşaqlarım, uşaqlarım, gəlin, bura gəlin.

Uşaqlar doluşdular və gözləri divara sataşan kimi çox-çox təəccüb elədilər və məndən soruşmağa başladılar:

– Dədə, bunu kim yazıb?

Dedim:

– Balalarım bu yazını yazan da sizin kimi uşaq idi; ancaq bircə təfavütünüz oradadır ki, onun saqqalı var, sizin hələ saqqalınız yoxdur.

Uşaqlar gülüşdülər və məlum ki, bunların gülüşüb şad olmaqlarına böyük bir səbəb var idi ki, hər bir oxucuya aşikar olsun gərək.

# ƏBDÜRRƏHİMBƏY HAQVERDİYEV
## (1870-1933)

## OVÇU QASIM

Ovçuların yalan danışmaları hər bir yerdə məlumdur. "Ovçu yalanı" zərbi-məsəldir. Bununla belə, vay o şəxsin halına ki, ovçunun hekayələrinə inanmayıb başını bulaya və yainki çiyinlərini qısa, yaxud dodağı altında təbəssüm edə; ovçu o saat inciyib hekayətlərin dalısını söyləməyəcək və deyəcək:

– Doğrudur, ovçu çox yalan danışan olar və mənim yoldaşlarımın arasında da qurama-qarışıq söyləyən çoxdur. Amma mən ömrümdə yalan söyləməmişəm.

Xeyr, əfəndim, nə buyurursunuz?! Biz heç vaxt sizin söhbətlərinizin doğruluğuna şəkk gətirmirik. Bizdə gördüyünüz halət, ancaq heyrət əlamətidir, başqa bir şey deyil və ola da bilməz.

Ovçu üzrləri qəbul etməyib hekayətinin dalısını söyləməyəcəkdir.

Bizim qonşumuz ovçu Qasım da bu qəbil ovçulardandır.

Qış gecələrində bikar adamlar onun başına cəm olub söylədərlər. O da uzun-uzadı öz ovçuluğundan, hünərindən dörd ayını bir gündə öldürdüyündən, gecə vaxtı darı zəmisində qırğı ilə bildirçin ovladığından tüfəngsiz gedərkən yolda yüz tülkü gördüyündən və bu qəbil söhbətlərdən edib, vaxtın xoş keçməsinə səbəb olur.

Bu da qeyd edilməlidir ki, ovçu Qasımın uydurma söhbətləri fəqət ova dairdir, Qasım, iş yalanı deməz.

Qış gecəsi idi. Qasım kənddə isti buxarının kənarında başıaçıq əyləşib bizim üçün söhbət edirdi. Buxarının içinə yığılmış palıd kötüyü çırtaçırt yanmaqda idi, samovar da bir tərəfdə segah oxuyurdu. Buxarının bir tərəfində bir böyük pişik dörd ayağını və quyruğunu uzatmış, xorultu ilə yatmışdı. Qasımın istəkli tulası "Gümüş" də qapının ağzında "şonqutma" əyləşib sahibinin söhbətinə qulaq asırdı.

Bayırda şiddətli külək qarı səhra qumu tək havaya sovururdu, damın taxtalarının arasından keçdikdə fabrik borusu tək fit verirdi.

Yoldaşlardan birisi küləyin vıyıltısını eşidib dedi:

– Belə gecəninki belə-belə söhbətlərdir. İsti otaqda, isti buxarının kənarında əyləşib vaxt keçirəsən.

Qasım bu sözə şərik olmadı.

– Yox, qardaş, səhvsən, görünür, ovçu deyilsən, qışın belə günləri ayı ovu üçün çox müsaid olur. Mən belə bir gündə iki sənə bundan əqdəm dörd ayını Hacı Samlı meşəsində öldürdüm. Ayıların cəmdəklərini meşədə qoyub gəldim ki, səhər araba aparıb gətirim. Ayıların yerlərini və yolu da nişanlamışdım. Səhər araba ilə gəldim gördüm kürdlər zalım uşaqları cəmdəklərin dördünü də oğurlayıb aparıblar.

– Qasım, ayının dördünü də tək özün öldürdün?

– Mən ova tək gedirəm. Həmişə yoldaşım bircə bu Gümüş olar.

Bu halda Gümüş öz adını eşidib "ham" elədi.

Gümüşün nə demək istəməsini yəqin bir sahibi bildi, bir də özü.

Qasım söhbətinə davam elədi:

– Qırqovul vurmaq üçün, dovşan ovuna, tülkü ovuna, çaqqal və canavar ovuna getmək üçün belə hava çox yarayan olar. Həmçinin ördək ovu üçün qış fəsli yaxşı olar. "Ördək" dedim, bir şey yadıma düşdü, sizə nağıl edim.

– Buyur.

– Bir sübh tüfəngi götürüb kənddən çıxdım. Kəndin kənarından ötərkən gördüm Allahverən kişinin bağının çəpərinə altı ördək qonubdur.

Yoldaşlardan birisi Qasımın sözünü kəsdi:

– Ay Qasım, axı ördəyin çəpərə qonduğunu biz anadan olandan görməmişik.

Qasım hirsləndi.

– Sən öz bazarından dəm vurursan. Ördəyin xasiyyətini biz ovçular bilərik. Hər yerin ördəyində bir xasiyyət olur. Sizin kəndin ördəkləri ola bilsin ki, çəpərə qonmasınlar. Ancaq bu yerin ördəkləri başqadır: buranın ördəkləri çəpərə də qonarlar, hələ desən, ağaclarda yuva da tikərlər.

Gümüş "ham" eləyib sahibinin sözlərinə şərik oldu.

Qasımın pərt olmağını görüb, hamımız etiraz edən yoldaşı məzəmmət edib sakit etdik.

– Qasım, söhbətini elə, görünür, bu adam xamdır.

Qasım davam etdi:

– Bəli, gördüm Allahverən kişinin bağının çəpərinə altı ördək qonubdur... Yox... Nələt yalançıya, altı deyildi, beş idi.

Gümüş "ham" edib hürdü.

– Mən baxdım ki, tüfəngi ördəklərə boşaltsam, biri qalıb qalanı uçub gedəcək. Bəs necə edim ki, ördəklərin beşini də ələ gətirim. Bir

qədər fikirdən sonra tüfəngin sünbəsini çıxarıb saldım lüləsinə. Tuşlayıb necə atdımsa, ördəklərin beşi də kabab kimi sünbəyə keçdilər. Götürüb gəldim evə.

Biz buna bərk gülüşdük və Gümüş də "ham" edib hürdü. Pişik ayağa qalxıb çırpınıb, belini dikəltdi, gərnəşib evin küncünə tərəf getdi.

Hamımız Qasımın hünərini tərif etdik.

Qasım durub, çay töküb, öz əli ilə hər adamın qabağına bir stəkan çay qoyub dedi:

– Sizə qırqovuldan söyləyim.

– Buyur, Qasım.

– Atalarımızın məsəli var: "Yüz gün yaraq-bir gün gərək". Bir gün Qarabağırlıya getməli oldum. Səhər atı minib yola düşdüm. Nədənsə tüfəngi də götürmədim və halon ki, mən tüfəngsiz evdən çıxmaram. Adamın bəsarəti bağlananda bağlanır. Gümüş də yanımda idi.

Gümüş "ham" edib cavab verdi.

– Hacı Cabbarın kolluğundan keçərkən atın ayağının altından bir qırqovul toyuğu pırtlayıb qalxdı. Baxdım tüfəngim çiynimdə yox. Qamçını qırqovulun dalınca atdım, qamçının qol halqası keçdi qırqovulun boğazına və bu halla quş uçub getdi. Bu əhvalatdan bir ay keçmiş yolum yenə həmin kolluqdan düşdü. Bir də gördüm həmin qırqovul toyuğu kolların arasında gəzir və mənim qamçım da boğazındadır. İndi bir söz deyəcəyəm, inanmayacaqsınız: sizin hamınızın meyitini görüm ki, bir zərrə yalanı yoxdur. Baxdım ki, qırqovulun dalınca on və ya on iki cücə gedir və hər cücənin boynunda bir balaca qamçı var.

Biz bu hekayətə qəhqəhə ilə ucadan güldük. Gümüş üç dəfə "ham, ham, ham" edib bayıra çıxdı.

## HACILEYLƏK

(*Ovçu Qasımın hekayətlərindən*)

Qardaşlar, sizə quşların həyatından çox söyləmişəm. Nə etməli, ovçunun başqa söhbəti olamı bilər? Quşların, heyvanatın aləmi ovçunun da aləmidir. Onların həyatı bizim həyatımızdır. Xalq bizi quşlara, heyvanlara düşmən hesab edir, deyir:

– Ovçu ki bir quşu, ya bir heyvanı gördü, güllə atmaya bilməz.

Belə deyil: mən bir dəfə meşədə ov etdiyim zaman bir talaya yavıqlaşdım. Baxdım bir qırqovul xoruzu özünü mərdanə çəkib durmuş, yanında dişisi, ətrafını cücələr bürümüş otlayır. İndi özünüz söyləyin, elə təşəxxüslə öz ailəsinin içində durmuş qırqovula mən güllləmi ata bilərəm? Mənim qolum quruyar.

Quşlara yavıq olanlar onların həyatı ilə insanın həyatına təfavüt qoymaz. Onlarda bir-birlərinə dostluq, düşmənlik, məhəbbət, rəqabət, qısqanclıq görmək mümkündür. Göyərçinlərin ər-arvad sədaqəti insanda ola bilməz: qəflətən göyərçinin birinə güllə dəyəndə, onun yoldaşının nə hala düşməsini hamınız bilirsiniz.

Yainki bizim bu dədə-baba sağsağanımız. Sağsağan ki, bir ziyankar quşdur; heyvanın belində bir balaca yara gördü, onu dimdiyi ilə açıb, böyük bir yaraya döndərib, heyvanın ətini dartıb yeyəcək. Sağsağanda bir yaxşı xasiyyət də var. Baharın yağınlıq və ya quraqlıq olacağını sağsağanlardan bilmək olar. Sağsağanlar yuva tikən vaxt diqqət edin, yuvanı ağacın başında tikərsə, yəqin bahar quraqlıq keçəcəkdir, yox, ağacın qalın yerində tikərsə, bilin bahar yağınlıq olacaqdır.

Mən sizə hacıleylək həyatından bir nağıl deyim:

Bərdənin yaxınlığında Quzanlı deyilən bir kənd var. O kəndin hər bir böyük ağacına baxsanız neçə hacıleylək yuvası görərsiniz.

On və on iki yaşım olduğu vaxtlar mən orada yaşayırdım. Bizim həyətdə uca bir çinar vardı. Çinarın başında hacıleylək yuva tikmişdi. Bir dəfə ağacın başına dırmaşıb yuvanın içinə baxdım, yuvada bir neçə dənə yumurta var idi. Mən yumurtaların birini götürüb düşdüm yerə, sonra bir dənə çalağan yumurtası aparıb yuvaya qoydum. Neçə vaxt keçdi. Bir gün gördüm ki, ağacın başında qiyamətdir. Azından əlliyədək hacıleylək cəm olub yuvadakı çalağan balasına tamaşa edirdilər. Bir azdan sonra leyləklər dişi leyləyin üstünə tökülüb-onun tamam tükünü yolub, özünü də yuvadan götürüb atdılar. Leylək hərçi istəyirdi yuvasına qayıtsın, vurub salırdılar. İki gündən sonra erkək leylək gedib özünə təzə bir yoldaş gətirdi. Təzə gələn dişi leylək, yuvadakı quşların hamısını öldürüb yuvadan yerə saldı və özü yumurtlamağa başladı. Qovulmuş leylək, özündə heç bir günah bilməyərək, gecə-gündüz yuvasının ətrafına dolanmaqda idi.

Bir gün arvadlar qapıda təndir salıb çörək bişirirdilər. Dul leylək yenə həmişəki tək öz yuvasının ətrafına dolanırdı, hərdənbir istəyirdi yuvasına gəlsin, əri və təzə gəlmiş arvadı bunu vurub qaytarırdılar.

Zavallı hacıleyləyin dili olsa idi, yəqin ərinin və onun sair qohum-əqrəbasını günahsızlığına inandırardı, nə etsin ki, dili yox idi.

Birdən zavallı quş bacardıqca ucaya qalxıb, göyün üzərində bir-iki dövrə vurub, güllə tək özünü çırpdı təndirə. Arvadlar çalışıb onu çıxardınca heyvan yanıb tələf oldu.

Bu keyfiyyət mənim yadıma düşdükcə, özümə heyrət edib deyirəm; nə üçün bu bəd əməli tutub, yazıq quşun bu faciəsinə səbəb oldum? Günah uşaqlıqdadır; yoxsa mən heyvanatın düşməni deyiləm.

## SƏRÇƏ

(*Ovçu Qasımın hekayətlərindən*)

Sizə bir hekayə söyləyəcəyəm, deyəcəksiniz ki, yenə Qasım uydurmalarını başladı. Sizi inandırıram ki, bu, uydurma deyil, öz gözlərimlə gördüyüm keyfiyyətdir.

Mənim rəhmətlik atam həmişə deyərdi: "Oğul, bir doğru ki yalana oxşadı, onu demə". Mənim hekayətim yalana oxşayır, amma sizin canınız üçün, sırf həqiqətdir.

Neçə sənə bundan əqdəm Tərnəvidə[1] getmişdim. Orada Molla Abbasla işim vardı. Hamınız bilirsiniz ki, Tərnəvidin xalqı arıçılıqla məşğul olurlar. Molla Abbasın özünün də neçə səbət arısı vardı.

Baharın gözəl günlərindən biri idi. Molla Abbasla dəhlizin qabağında əyləşib söhbət edirdik. Mollanın arvadı da dəyirmanlıq üçün buğda yuyub günə sərmişdi. Molla Abbas həm mənimlə söhbət edirdi, həm əlindəki bir uzun çubuqla buğdanın üstünə gələn toyuqları və quşları qovurdu. Birdən bir arı gəlib, bir buğda apardı. Hər ikimiz təəccüb etdik, buğda arının nəyinə lazımdır? Hərçi fikir etdik, bir şey duya bilmədik.

Bir azdan arı gəlib bir buğda da apardı. Molla Abbas dedi:

– Arı gəlib bir də buğda aparsa, bu qocalığıma baxmayaraq, onun dalınca gedəcəyəm.

Mən cavabında dedim, mənim ayaqlarım bərkdir, mən gedərəm və xəbər gətirərəm.

Həqiqət, arı gəlib bir buğda da götürüb uçdu. Mən qalxıb onun dalınca yüyürdüm. Arı getdi, mən getdim, arı getdi, mən getdim. Endik

[1] Ağdam yaxınlığında kənddir

bir dərəyə. Arını gözdən qoymayıram. Baxıb nə gördüm? Sizin canınız üçün, bir zərrə sözümdə yalan yoxdur. Gördüm kolun altında bir kor sərçə oturub: arının dızıltısını eşitcək ağzını ayırdı və arı buğdanı onun ağzına buraxıb getdi.

Mən tamam heyrətdə qayıdıb gördüyümü Molla Abbasa nağıl etdim. Molla Abbas bir qədər fikrə getdi, sonra bir salavat çevirib dedi:

– Böyük möcüzədir.

Qulaq asanlar bu nağılı Qasımın uydurmalarından hesab edib əhəmiyyət vermədilər. Belə nağıllardan ovçu Qasımın dilindən çox eşitmişdilər.

## ATA VƏ OĞUL

Hacı Xəlil, müsin şəxs, həştad beş il dünyada ömür edəndən sonra, xudavəndi-aləmin əmrini yerinə yetirməkdə idi. Bir böyük otağın ortasında Hacını üzü qibləyə uzadıb, başının üstündə molla tilavəti-Quran etməyə məşğul idi. Sağ tərəfdən Hacının övrəti əyləşib, əlində dəsmal, həzin-həzin Hacı ilə keçirdiyi günləri yada salıb ağlayırdı. Sol tərəfdən Hacının cavan oğlu kürsü üstündə oturub bikef gözlərini bir nöqtəyə dikmişdi və tək-tək ahi-sərd ürəyindən çəkirdi. Hacının qədim nökəri Kərbəlayı Qulaməli iranlı, qapının ağzında ayaq üstündə durub gözlərinin yaşını abi-niysan kimi ağ saqqalından axıdırdı. Heç kəs bir söz danışmırdı, hamının gözü Hacının üzündə idi.

Hacı Xəlili böht aparmışdı və bu böhtün içində onun keçən günləri bir-bir gəlib gözünün qabağından ötürdü. Budur, balaca Xəlil səkkiz yaşındadır. Atası qovurmaçı Səlim öz övrətinə deyir: “Övrət, bu uşağın məktəbə getmək vaxtıdır, mənim sənətim də bir elə sənət deyil ki, aparım bu yazığı da öyrədim. Meydanın ortasında baharın yağışı, qışın qarı başıma yağa-yağa; yayın istisi bir yandan və ocağın istisi o biri tərəfdən məni yandıra-yandıra mən çörək qazanıram. Bunlar hamısı mənim bisavadlığımdandır. Heç olmasa bu uşağı oxudaq, bəlkə savadı cəhətinə asan çörək qazanıb bizə rəhmət oxuya”. Xəlilin anası ərinin sözlərini bəyənib, durub bir qazan su qızdırıb Xəlilin başını yudu, birçəklərini daradı, çiyninə heybə salıb içinə para çörək qoydu, atasına qoşub “oğul, Allah özü sənə yar olsun” deyib məktəbə yola saldı.

Hacının mollası və məktəb yoldaşları bir-bir onun gözünün qabağından keçirdilər. Budur, Mirzə Nəsib, iranlı qoca kişi yuxarı başda əyləşib, qabağında bir dəstə çubuq, gözlərində eynək, uşaqlara məşqbaşı yazmağa məşğuldur və uşaqlar divarın dibində cərgə ilə düzülüb oturublar. Kimisi dərs oxuyur, kimisi falaqqadan təzə çıxmış ayaqlarını ovuşdurub ağlayır və kimisi yoldaşlarının papaqlarından yun qopardıb manqala salır ki, bəlkə gün çıxa. Amma Xəlil özü bir küncdə əyləşib, əlində çərəkəsi, diqqəti tamamilə dərsini əzbərləməkdədir. Ələlxüsus yadına gəlir Quran çıxdığı gün ki, atası ona bir dəst təzə libas tikdirib dedi: "Bala, Allahdan arzu edirdim sənin qazancından bir çörək yeyib ondan sonra öləydim". Atasının bu sözləri Xəlilin ürəyində bir nisgil olub, ölənədək qalmışdı; çünki atası onun qazancını görməyib, onu bir balaca bacı ilə ana əlində yetim qoyub Allahın rəhmətinə getdi.

Biçarə Xəlil on beş yaşında yetim qalıb, bir xırda savadla məktəbi tərk edib anasına və bacısına çörək qazanmaq fikrinə düşdü.

Xəlilin atasından bir balaca, iki otaqdan ibarət ev və iyirmi iki manat kağız pul qalmışdı. Bir neçə gün binəva uşaq çalışıb vuruşdu, amma heç bir yerdə özünə qulluq tapa bilmədi, axır anası görüb ki, kişidən qalan pulun çox yarısı xərclənib və halət bu günə keçsə, pulun qalanı da qurtarsa, elə acından ölləsidir. Bir gün, cümə günü bir cüt mərdanə corab bazardan alıb, oğlunu yanına salıb getdi Mirzə Nəsibin evinə. Yazıq övrət Mirzə Nəsibin övrətinin yanına gəlib bu sözləri dedi: "Xanım, bu uşaq axundun dəstpərvərdəsidir. Neçə il buna dərs verib, savad sahibi eləyib, indi də axundun özünə məlumdur ki, bunun atası ölüb, heç bir şey də özündən sonra qoymayıb. Bir külfət gözünü dikib bir balaca yetimə. Bu bir cüt corabı qoy axundun qabağına, mənim dilimcə ona yalvar, degilən Allah xatirinə indiyədək bu uşağa ata olub, indi buna rəhm edib bunu bir yerə nökərçiliyə də olsa versin ki, bəlkə ayda beş-altı manat məvacib alıb onunla özünü və yetim bacısını saxlasın".

Anasının bu sözləri heç Hacı Xəlilin yadından çıxmazdı, tez-tez bu sözləri övrətinə və aşnalarına deyərdi və həmişə də Mirzə Nəsibə rəhmət oxuyardı və deyərdi ki: "Mənim bir parça çörəyimin səbəbi o mərhum olur".

Mirzə Nəsib, Xəlilin anasının danışığını o biri otaqdan eşidirdi, qoca mirzəyə övrətin sözləri qədər təsir etdi ki, gözündən biixtiyar yaş

cari oldu. Hövlnak yerindən qalxıb övrətin otağına keçdi. Xəlilin anası üzünü örtüb küncə girdi və Xəlil də əlini döşünə qoyub, mollasına təzim edib ədəblə durdu. Mirzə Nəsib corabı qəbul etməyib, Xəlilin anasını xatircəm edib yola saldı və Xəlili özü ilə götürüb öz dostu Ağa Hüseyn xüşkəbarfüruşun yanına apardı.

Ağa Hüseyn bir dövlətmənd şəxs idi. İranla böyük xüşkəbar alış-verişi edirdi. Amma bisavad olduğuna görə həmişə bir yazı bilən adama möhtac idi. Mirzə Nəsib o qədər ki bacarırdı Xəlili Ağahüseynə tərif edib təvəqqe etdi ki, onu öz yanında saxlasın. Ağa Hüseyn öz dostunun təvəqqesini qəbul edib ayda altı manat məvacibə Xəlili dükanda qulluq etməyə qəbul etdi. Hətta ona çörək və ildə də bir dəst libas verməyi həm boynuna götürdü.

Xəlil şadlığından bilmədi ki, nə tövr gəldi evə çıxdı. İndi balaca uşaq özünü kişi və külfət sahibi hiss edirdi və bu hiss onun üçün bir mayeyi-iftixar olmuşdu. Altı manat o vədə böyük pul idi; ətin beş girvənkəsi bir abbasıya, yağın pudunu üç manata verirdilər və Hacı Xəlilin yadındadır ki, altı manatla onun anası və bacısı mürəffəülhal dolanırdılar.

Xəlil başladı Ağa Hüseynə qulluq etməyə və əvvəl gündən ixlas, çapıqlıq və doğruluq göstərdi və bunun bu sifətləri Ağa Hüseynin məhəbbətini günü-gündən ona artırdı. Hər bir vaxt Mirzə Nəsibi görəndə Ağa Hüseyn rizaməndlik edib deyirdi ki: mən əlli ildir alış-veriş edirəm, bu cür qoçaq oğlan görməmişəm.

Bir il qulluq edəndən sonra Ağa Hüseyn Xəlilin məvacibini on manat etdi. Xəlil ağasının qulluğa qədr və qiymət qoymağını görüb, bir az da ixlas və iradətini ona artırdı.

Dörd il bu növlə Xəlil Ağa Hüseynə qulluq etdi və bu dörd ilin müddətində məvacibi otuz manata yetişmişdi. Bu məvacibə Xəlil nəinki ağayana dolanırdı, hətta bir-iki yüz manatadək də pul cəm edib Ağa Hüseynə tapşırığa vermişdi və Ağa Hüseyn hər mal alanda Xəlilin puluna əlahiddə mal alıb-satıb mənfəətini onun pulunun üstünə qoyurdu.

Bir gün Xəlil anasına xəbər gətirdi ki, bəs Ağa Hüseyn istəyir bunu özü ilə İran səfərinə aparsın və iki gündən sonra yola düşəsidilər. Bu xəbər anasına və bacısına nə tövr təsir elədi, heç Hacı Xəlilin yadından çıxmaz idi. İki gün balasını gözündən qoymayan ana və qardaşından ayrılmaq istəməyən bacı xəlvətdə ağlayırdılar, amma Xəlilin yanında toxtaqlıq göstərib ona tədarük görürdülər.

Səfər günü Xəlil əmisi kəlləpəz İmanı gətirib evlərində həyan qoyub anası və bacısı ilə ağlaya-ağlaya vida etdi. Biçarə övrət Quran götürüb əziz oğlunu Quranın altından keçirib dalınca bir qab su atıb ağlaya-ağlaya mənzilə qayıtdı.

Xəlil Ağa Hüseynlə bahəm varid oldular İran torpağına. Ağa Hüseyn cəmi xüşbərə mərkəzlərini və alış-veriş yollarını ona göstərdi və axırda üzün ona tutub dedi:

– Bala, mən səni buraya özüm üçün kömək gətirmişəm. Mən, budur, neçə ildir İrana səfər edirəm. Heç bir səfərdə köməyə ehtiyacım olmayıb, ancaq sən həmişə qulluqçuluq etməyib axırda özün üçün bir alış-veriş etmək fikrinə düşəcəksən, ona görə mən istəyirəm ki, ticarətin hər bir yolunu və qaidəsini sənə öyrədim.

Xəlil, Ağa Hüseynin bu sözlərinə bilmədi nə tövr rizaməndlik etsin. İrana əvvəl viruddan Xəlilin zəkavəti, çapıqlığı, ayıqlığı Ağa Hüseyni təəccübə gətirdi. Ağa Hüseyn öz dəstpərvərdəsinin bu qabiliyyətini görüb, artıq xoşhal olub fəxr edirdi.

Lazım olan qədər xüşkəbər alıb ulaqlara yükləyib yola saldılar. Xəlil Ağa Hüseyndən soruşdu ki, nə üçün ulaqları kirayəsinə tutursan?

Ağa Hüseyn soruşdu ki, bəs necə olsun?

Dedi:

– Yaxşı olar ki, ulaqları da pulla alaq, tainki vətəndə həm xüşkəbarı, həm də ulaqları qazancına sataq.

Ağa Hüseyn Xəlilin bu sözlərini eşidib, bir az böhtə gedib dedi:

– Bala, bu maddə ki səndə var, inşallah gələcəkdə çox böyük sövdəgər olarsan. Gələn il dəxi mən gəlməyib səni İrana tək alış-verişə göndərəcəyəm.

O il Ağa Hüseyn çox böyük nəf elədi və bu nəfi də Xəlilin ayağının sayəsindən hesab edirdi.

İkinci il Ağa Hüseyn Xəlilin əlinə böyük məbləğ verib, tək İrana göndərdi və bu səfərdə Xəlil yenə artıq diqqət və qabiliyyət göstərib, güclü mal alıb qayıtdı və o il Ağa Hüseynin nəfi keçən ildən artıq oldu. Xəlilin bu zəhmətinə görə Ağa Hüseyn o ilin mənfəətinin yarısını ona bağışladı. Bu ildən də sonra yenə Xəlil üç dəfə İran səfərinə gedib, hər dəfə baqaidə xeyir edib qayıtdı.

Bir gün Ağa Hüseyn Xəlili çağırıb dedi:

– Oğul, budur, neçə ildir mənim yanımda qulluq-edirsən və mən də bu müddətdə sənin mənə aybaay verdiyin pullarla sənin üçün alış-

veriş etmişəm. Bu gecə hesaba baxıb görürəm ki, sənin məndə səkkiz min manata qədər pulun var. Bu pulla sən özün üçün məxsus bir alış-veriş aça bilərsən. Özün də qabil oğlansan; demək olar ki, anadan dünyaya tacir gəlibsən. Mənim borcumdur sənə təklif edim, istəsən mənim yanımda qalarsan, ya ayrı iş başlamaq xahiş edərsən.

Xəlil cavab verdi ki, əmi (axır vaxtlar Xəlil Ağa Hüseynin öz xahişinə görə ona əmi deyirdi), o yaxşılıq ki indiyə qədər mənim haqqımda edibsən, məni sənə həmişəlik qul edib və mən səndən ayrıla bilməyəcəyəm. Amma təvəqqe edirəm ki, məni özünə öz puluma görə şərik edəsən, ta yenə bir yerdə ticarət edək.

Ağa Hüseyn Xəlilin üzündən öpüb dedi:

– Oğlum, sən ki belə istiqamətli oğlansan, Allah sənin başından tökəcək. Başqa adam səkkiz min adı eşitsə idi, o saat azıb yolundan çıxardı.

Haman il Xəlil bacısını ərə verib, özü də evlənmək fikrinə düşdü. Fikrini anasına izhar etdi və anası gedib Mirzə Nəsibin nəvəsini ona istəyib aldı (haman o qızı ki, bu saat Hacı Xəlilin yanında oturub ağlayır).

Mirzə Nəsib vəfat etmişdi və külfəti həmişə Ağa Hüseyndən və Xəlildən ianə alıb dolanırdı. Xəlilin toy xərcini Ağa Hüseyn öz öhdəsinə götürüb əlavə yaxşı peşkəşlər özünə və övrətinə verdi.

Bundan sonra yeddi il Xəlil və Ağa Hüseyn bir yerdə alış-veriş etdilər. Səkkizinci il Ağa Hüseyn vəfat etdi və onun var-yoxu keçdi qardaşının əlinə, çünki Ağa Hüseynin özünün zürriyyəti yox idi.

Ağa Hüseynin vəfatından sonra Xəlil ayrılmaq istədi, hesab çəkdilər. Xəlilin payına yetmiş iki min manat pul düşdü.

Bu gündən Xəlil həm ev və həm alış-veriş sahibi olub, özü üçün məxsus bir dükan açıb başladı İranla ticarəti. Bir neçə ildən sonra Xəlilin alış-verişi böyüdü və Xəlil İrandan başqa Buxara və İstanbulla əlaqə bağladı. Əlli yaşına yetişəndə Məkkeyi-mükərrəməni ziyarət edib Hacı ləqəbi ilə müləqqəb oldu. Hacı Xəlil öz qabiliyyətinin, bacarığının və kəmalının səbəbinə şəhərdə, tacirlər arasında əvvəlinci şəxs hesab olurdu. Axirüləmr öləndə iki böyük evi və milyondan ziyada pulu var idi.

Hacının zikr olan günləri necə ki, ərz olundu, bir-bir gözünün qabağından keçirdi. Zamani ki, Hacı öldüyünü hiss etdi, yerindən hövlnak gözün açıb, yastıqdan başını qovzayıb üzünü tutdu oğluna, dedi:

– Bala, Əkbər, yaxınıma gəl.

Əkbər kürsünün üstündən düşüb atasının yanında əyləşdi. Hacı Xəlil Əkbərin əlin əlinə alıb bir basdı ürəyinə, dedi:

– Oğul, mənim ömrümdə Allah mənə neçə oğul və qız verib, yenə məsləhət bilib əlimdən alıb. Mənim və bu yazıq ananın ümidi və gözünün axır dikəcəyi dünyada sən olubsan. Yüz zəhmətlə səni mən bu boya yetirmişəm, lazım olan tərbiyəni sənə vermişəm. Hərçənd işqoladan yarımçıq çıxıbsan, amma yenə heç olmasa sənin savadın və qabiliyyətin işqola qurtarmış adamların savadından və qabiliyyətindən az deyil idi. Bala, mənim ömrüm qurtarıb, ölürəm. Ona görə istəyirəm sənə bir neçə vəsiyyət eləyim. Mənim vəsiyyətim qoca, dünyagörmüş və səni iki gözündən artıq istəyən ata vəsiyyətidir. Əgər əməl eləyəsən ziyan çəkməzsən.

Əvvəl, bala, bu qoca anan ki, burada oturub, sənin çox zəhmətini çəkib, sənə süd verib, gündüzlər və gecələr gözlərini sənin gözlərinə dikib nə rahat olmayıb, nə yatmayıb, səni dizlərinin üstə bəsləyib, sənin barəndə cəmi analıq haqqını yerinə yetirib. İndi də ömrü keçib, əldən düşüb, sən də onu axır günündə gözdən qoymuyasan, həm mənim ruhum səndən razı olar, həm Allah. İkinci vəsiyyətim sənə budur: əgər yenə istəyəsən mənim ruhum səndən razı olsun, bu qoca Kərbəlayı Qulaməlidən muğayat ol. Çünki onun ömrü bu qapıda nökərçilikdə keçib. Bu Kərbəlayı yaxşı kişidir, Allah bəndəsi, doğru, dürüst adamdır. Hörmətə layiq kişidir. Necə ki mən onu indiyə qədər saxlamışam, sən də onu elə saxla, Allah səndən razı olar.

Kərbəlayı Qulaməli Hacının bu sözlərini eşidəndə uca səs ilə hönkürüb bihal dizi üstə çökdü: “Ağa, Allah məni səndən sonra dünyada qoymasın” – deyib qışqırtı ilə ağladı. Hacı əli ilə ona işarə edib, guya, sakit ol, dedi və sonra yenə üzünü çöndərdi oğluna tərəf və söylədi: “Bala, mən həştad beş il dünyada ömr etmişəm. Bu tul ömrümdə çox vilayətlər gəzib cürbəcür adamlara rast gəlmişəm; deyirlər çox oxuyan çox bilməz, çox gəzən çox bilər. Ona görə bir neçə nəsihət də sənə eləyəcəyəm. Amma dürüst qulaq asıb, dürüst də qulağında saxlayasan. Əvvəla, bala, bu gündən ömrünün axırınadək sən bunu heç xəyalından çıxartma ki, müsəlmansan. Quranın və peyğəmbərin şəriətinin hökmlərinə həmişə itaət elə və bilgilən ki, bu itaətin axirət ruyi-səfidliyindən savay, dünya xoşbəxtliyi də səninlə olar və Allahın əli və kölgəsi heç vaxt sənin üstündən kəm olmaz. Oğul, cavansan, cavanlığın səhv və xətası olar, çalış xəta etmə. Əgər xudanəkərdə, səndən bir səhv baş versə, tövbə elə, həmişə səy elə heç kəsə sənin nə dilindən, nə

əlindən və nə əməlindən ziyan dəysin. Bacar dünyada hamıya yaxşılıq elə, kömək istəyən və sənin pənahına qaçanı heç naümid qaytarma, çünki acizə, mərizə, yoxsula kömək eləmək yaxşı sifətlərin biridir.

Oğul! Mən sənə çox dövlət və mülk qoyub gedirəm və bu dövlətin binası mənim savadım olub. Ona görə, bala, övladın olsa bitərbiyə qoyma və elm axtaran fəqir uşaqlarına kömək elə. Çünki onlar oxuyub adam olsalar, sən onlara baxdıqca həmişə şad olub və bu şadlıqdan bir ayrı cür ləzzət aparacaqsan.

Yaman yoldaşdan, oğul, həmişə uzaq qaç. Çünki yaman yoldaş səbəbinə insan min bəlayə düçar olar, abrusu əlindən gedər, xalq arasında bədnam olar. Yenə deyirəm, aman yaman yoldaş əlindən!

Hacı Xəlilin səsi gəldikcə zəifləşirdi, axırda nəfəsi bilmərrə qət olub yavaş-yavaş dodaqları tərpənirdi. Yəqin nəsihəti qurtarmamışdı, hərçənd səsi gəlmirdi, axır qalan nəfəsi ilə ürəyini boşaldırdı. Axirüləmr nəfti qurtarmış çıraq tək Hacı Xəlil söndü, əli boşalıb Əkbərin əli xilas oldu.

Hacının evindən nalə bülənd olub, məhəllə əhlinə onun vəfatını bildirdi.

Hacı Xəlil vəfat etdi. Yəni dünyadan bir şəxs rehlət etdi ki, neçə füqəra əlini tutmuşdu, ac qarınlar doydurmuşdu. Çılpağa libas vermişdi. Ona görə bu şəxs nəinki öz xiş və əqvamının, bəlkə cəmi şəhər əhlinin əlindən getdi.

Xoş o şəxsin halına ki, öləndən sonra onun adı dillərdə diri qala və ehtiram və rəhmətlə yad ola:

Dövləti-cavid yaft hər ki, nikunam zist,
Kəz əqəbəş zikri-xeyr zində künəd namra.

Əhli-şəhr Hacı Xəlilin vəfatından müxbir olub, cəm oldular onun evinə. Aparıb nəşini dəfn etdilər və el adəti ilə üç gün baqaidət təziyə saxlayıb, üçüncü gün Əkbəri gətirib atasının dükanını açıb əyləşdirdilər və xeyir-dua verib, "Allah səni atayın yurdunda qayim və qədim eləsin" deyib hər kəs öz evinə getdi. Bu gündən Əkbər hər bir ixtiyaratı əlinə alıb Hacı Xəlil mərhumun məsnədində əyləşdi.

Əkbər dükanda əyləşib başladı alış-verişi. Bir neçə aydan sonra bir gün Əkbər dükanda ikən gördü onun qədim şkola yoldaşı Rüstəm dükana girdi, Əkbər yoldaşının gəlməyinə çox şad olub, nökəri göndərdi çayçı dükanından çay gətirsin, əyləşdilər söhbətə.

Əkbər Rüstəmi neçə il idi görməmişdi, ona görə gözün onun üzündən kəsməyib danışığına qulaq asırdı. Amma Rüstəmin sifətində Heç cavanlıq nişanəsi görünmürdü, hərçənd onun sinni Əkbərdən artıq deyildisə də yenə ondan on beş yaş böyük görünürdü. Gözlərinin, altının göyərtisi onun yuxusuz gecələr keçirməyinə şəhadət edirdi.

Əkbər, yoldaşının bu neçə ildə harada olduğunu sual elədi.

Rüstəm papağı götürüb yerə qoydu və cibindən bir gümüş papiros qutusu çıxardıb Əkbərə təklif elədi və Əkbərin papiros çəkmədiyini bilib, özü birini yandırıb bir-iki qullab alıb dedi:

– Qardaşım Əkbər! Bu neçə ildə başıma o qədər qəzavü qədər gəlib ki, nə deməklə və nə yazmaqla qurtarmaz. Vallah bilmirəm haradan sənə söyləyim – Parisdənmi, Berlindənmi, Vyanadanmı və yaxud bizim Peterburqdanmı?! Sən bilirsən ki mən burada oxumaq istəməyib, atama dedim ki, gərək məni hökmən Parisə göndərəsən. Yazıq kişi də nə anlayır ki, dördüncü klasdan qaçmış heyvanı Parisin heç bir tövləsinə qoymazlar. Kişidən min manat pul vurub “ağanı Allah saxlasın” deyib getdim birbaş Parisə. Paris nə Paris! Yer üzünün behişti desəm yenə xəta eləməmişəm! Nə küçələr, nə bazarlar, nə mehmanxanalar, nə teatrlar və kafeşantanlar!.. Görsən bilmərrə əqlini itirib dəli olarsan. O xanımları ki mən Parisin kafeşantanlarında görmüşəm, sən görsən Məcnunə dönüb biyabanə düşərsən. Necə xanımlar şəhbaz baxışlı, ahu gözlü, şirin hərəkətli, şəhd sözlü! Sən də deyirsən dünya görürəm? Ərik, kişmişin şirəsinə bulana-bulana gün keçirirsən, deyirsən ki, elə dünyanın zindəganı budur.

Bu yerdə Əkbər Rüstəmin sözünü kəsib dedi:

– Rüstəm, bağışla, sən dünyagörmüş adamsan, amma mən avamam, bəs bir-iki dəfə kafeşantan sözü dedin, o nə deməkdir?

– Kafeşantan, yəni xurma çuvalı... xa-xa-xa!.. Kafeşantan, yəni behiştin bir guşəsi! O yerdir ki, orada həm ruhun ləzzət aparır, həm bədənin! O yerdir ki, orada cəmi dünyanın qeydi yadından çıxır, yəni gözəllər məclisi, yəqin Sədidə oxuyubsan: “Bə məcmən ki, dər ayənd şahidani dü aləm!”[1] Kafeşantanda cəm olurlar Parisin gözəlləri. Həm sənin üçün teatr gətirirlər, həm oynuyurlar, həm oxuyurlar və bir məclis ki, hər iki dünyanın şahidləri oraya gəlirlər. Xahiş etsən səninlə şam edib sübhədək sənə mehman olurlar. Xülasə, nə deyim,

---

[1] Bir məclis ki, hər iki dünyanın şahidləri oraya gəlirlər

görməmisən bilməzsən. "Şənidən key büvəd manəndi didən"[1]. Dəxi nə ərz eləyim, üç aydan sonra baxdım gördüm min manatdan ancaq iki yüz frank ki, eləsin bizim pul yetmiş beş manat, cibimdə pul qalıb. Atama tel vurub min manat da istədim və daldan bir kağız yazdım ki, hər ay mənə üç yüz manat pul göndərməsən özümü öldürəcəyəm. Atam min manatı göndərib, sonra da bir kağız yazmışdı ki, "bala, mənim gözümün ağı-qarası sənsən. Dövlətim hamısı sənə qalasıdır. Mən sənə ayda beş yüz manat da göndərim, ancaq sən oxu, adam ol və korluq çəkmə". Binəva kişi belə fikir edirdi ki, bəli, mənim oğlum oxuyub böyük yaranal olub gələcək. Mən də ona baxıb fəxr edəcəyəm, dəxi demirdi ki, oğlu pulu ondan ötrü istəyir ki, onun vasitəsilə dünyadan kam alsın. Bir də sənə deyim ki, mənim atamdan axmaq kimisi dünyada az tapılar. Belə güman edir ki, dünya ondan ötrü yaranıb ki, bazara gedib, evə gəlib çörək yeyib, namaz qılıb yatasan. Neyləyim, bircə gecə kafeşantanda əyləşə, onda görər ki, dünya nədən ötrüdür və insan nə üçün yaranıb. Yazıq kişi, əvam kişi!

İndi, Əkbər, bircə mənə de görüm, sən nəyə lazımsan oturubsan bu fındığın, şabalıdın içində, özünü də çəkibsən elə bilirsən adamsan? Adam deyilsən, heç zad deyilsən! Amma mənim sənə yazığım gəlir, gərək sənə dünyanın ləzzətini göstərəm. Sən bir fikir elə gör, bu növ alış-veriş sənin özünə, dövlətinə yaraşarmı? Atan kişmiş, xurmaya uşaqlıqdan adət etmişdi, ona görə ayrı alış-verişə həvəsi yox idi. Amma keçmiş zaman bir ayrı, bu zaman bir ayrı! Sən mənim məsləhətimə bax: bu dükanı bağla, bir ayrı bəzzaziyə mağazası aç, get Moskvadan, Peterburqdan, Parisdən mal gətir. Eşitmək hara, görmək hara! Həm alış-veriş elə, həm də dünyadan ləzzət apar. Əgər xahiş etsən, əvvəl səfərdə mən özüm də sənə yoldaş ola bilərəm. Sən belə güman etmə mən işrət mədənlərindən savayı heç bir yerə bələd deyiləm. And olsun sənin canına, elə alış-veriş elərəm ki, bir tacir bacarmıya.

Xülasə... Rüstəm öz sərgüzəştindən bu növ nəql edib Əkbərin halətini digərgun etdi. Axır ayağa qalxıb Əkbərdən üç günün müddətinə yüz manat qərz[2] alıb yola düşdü.

Rüstəm getdi, Əkbər isə dükanda qərarı gəlməyib axşama bir-iki saat qalmış dükanı bağlayıb evə getdi. Anası sual etdi ki, "bala, nə

---

[1] Eşitmək hara, görmək hara!

[2] Borc

üçün belə tez qayıtdın?" Cavab verdi: "Ana, başım bərk ağrıyırdı, otura bilməyib gəldim yatmağa".

Bu, əvvəlinci yalan idi ki, Əkbər anasına dedi. Əkbərin anası qalxıb istəkli oğlu üçün rəxti-xab hazır elədi və onu yatırtdı və Kərbəlayı Qulaməli də başının üstündə oturub onun alnını ovmaqla məşğul oldu.

O gecə sübhədək Əkbər yata bilmədi. Çünki onun xəyalatı gah Parisin "Bolon meşəsini" və kafeşantanlarını, gah Peterburqun Nevski prospektini, gah Berlinin "Cökə xiyabanını" gözünün qabağından keçirirdi. Sübh Əkbər bir şiddətli başağrısı ilə oyandı və o günü naxoş olub dükana gedə bilmədi. O biri gün dəftəri qoltuğuna vurub gəldi dükana. Günorta vaxtı Rüstəm gəlib soruşdu ki, qardaş, nə üçün dünən dükanda yox idin. Cavab verdi ki, başım ağrıyırdı, naxoş idim. Çünki səndən ayrılandan sonra gedib bədxab olub, sübhədək yata bilməmişəm. Rüstəm dedi ki, bu gecə də mən səni qoymayacağam yatasan; mən səni bir qəribə yerə aparacağam ki, indiyədək elə yer görməyibsən və məndən də soruşma ki, səni hara aparacağam. Gedərsən, görərsən. Get evə, faxir libasını gey, azandan bir saat keçmiş mən özüm sənin dalınca, gələcəyəm.

Əkbər cavab verdi ki, bəlkə anam razı olmadı. Bu cavaba Rüstəm qarnından yapışıb, yarım saat gülüb dedi: "Ay yazıq uşaq, hələ sən ana ixtiyarından çıxmayıbsan? Rəhmətlik oğlu, sən böyük kişisən, ana nədir, səni qurd yeməyəcək, pişik yeməyəcək! Amma indi ki belədir, deyərsən: "Rüstəm məni evlərinə qonaq çağırıb və deyibdir ki, gəlməsən inciyərəm" və söz də verərsən ki, tez qayıdarsan".

Bir az da Rüstəm keçmiş günlərindən laf vurub getdi.

Axşam Əkbər evə gəlib anasından izn istədi və vədə verdi ki, tez qayıtsın. İzn alıb, təzə libas geyib Rüstəmə müntəzir oldu. Bir az vaxtdan sonra eşitdi ki, qapını dəqqilbab edirlər, bildi ki, Rüstəmdir. Çıxdı küçəyə, gördü Rüstəm bir faytonla qapıda durub. Rüstəm Əkbəri yanına alıb faytonçuya buyurdu: "Sür! faytonçu tiri-şəhab tək sürüb bir mehmanxananın qabağında dayandı. Əkbər sual elədi ki, Rüstəm, bu nə yerdir məni gətirdin? Mən indiyədək bir mehmanxanaya girməmişəm.

Rüstəm dedi:

– Heç danışma, sənin borcun itaətdir.

Faytonçunu yola salıb, Əkbərlə qol-qola verib pilləkəndən yuxarı çıxdı. Yuxarıda qulluqçu otağın qapısını açıb, özü iki əlini yanına

qoyub, soldat misal durub onları içəri saldı. Əkbər otağa girəndə gördü ki, ortalıqda ağ süfrə ilə örtülmüş mizin ətrafında iki nəfər cavan rus oğlanları və iki rus xanımları əyləşib söhbət edirlər. Əkbər belə güman etdi ki, səhvən özgə otağa giriblər, çox xəcalət çəkdi, amma Rüstəm onun çiyninə vurub dedi:

– Qardaş, bu məclisi mən qabaqca burada hazırlayıb, sənin dalınca gəlmişəm. İrəli gəl, səni aşna eləyim.

Əkbərin qolundan tutub əyləşənlərə tərəf çəkdi və oğlanlar ayağa qalxıb onların qabaqlarına gəldilər. Rüstəm əvvəl Əkbəri onlarla tanış elədi və sonra xanımlara tərəf Əkbəri aparıb dedi:

– Xanımlar, təvəqqe edirəm bu balaca ana uşağı ilə tanış olasınız, hələ bunun dodağından ana südü qurumayıb, özü də çox yaxşı uşaqdır və anasından nəhayət dərəcədə qorxur.

Xanımlar təbəssümlə ona əl uzatdılar. Əkbər burnunun ucunadək qızarıb bir tövr öz familiyasını dedi. Dərhal çay və əlfiyyət mizin üstündə hazır oldu. Əkbər bir stəkan çay götürüb başladı içməyə, ancaq binəva özünü elə itirmişdi ki, bilmirdi çayı qulağınamı, ya burnunamı içsin. Amma Rüstəm, iki nəfər rus və xanımlarla otağı bir sərçəli samanlığa döndərmişdilər. Orada olan danışıqlar, şivələr, hərəkətlər hamısı Əkbər üçün təzə şey idi. İkinci dəfə çay gələndə, Əkbər stəkanı götürüb, çəkilib kənarda bir divan üstündə oturdu. Rüstəm isə xanımların birinə göz elədi və xanım gedib Əkbərin yanında əyləşib başladı onunla şivə ilə söhbət etməyə. Biçarə Əkbər xəcalətdən bir hala düşmüşdü ki, əgər bir hazır qəbir yerdə tapsa idi, əlbəttə, təvəqqe elərdi ki, onu orada dəfn etsinlər.

Gah tərləyirdi, gah qızarırdı, gah saralırdı. Bilmirdi nə desin, nə cavab versin. Hər şeydən ağır Əkbərə yoldaşlarının xəlvət gülməyi gəlirdi. Nökər daxil olub, mizin üstünü təmizləyib başladı onun dörd ətrafına rəngbərəng şamlar düzməyə. Əkbər təəccüblə buna baxanda xanım soruşdu ki, yəqin bəs bunlardan bir şey başa düşməyirsən, görünür, sən, həqiqətən balaca uşaqsan: qoy mən səni başa salım. Bu büsat şampanski büsatıdır.

Şamları yandırandan sonra nökər gedib neçə şüşə şampan şərabı, gətirdi, şüşənin ağzı tapança kimi açılanda Əkbər səksəndi və buna da xanımlar artıq güldülər. Əkbərin yanında əyləşən xanım qalxıb iki piyalə şərab töküb birini özü alıb, o birisini Əkbərə uzatdı, dedi:

– Təvəqqe edirəm bu piyaləni mənim sağlığıma içəsən!

Əkbər dayandı. Bilmədi nə eləsin. Məclis hamısı töküldü binəva Əkbərin üstünə ki, əgər bu şərabı içməsən, əvvəl öz avamlığını sübut edirsən və ikincisi bu xanımı özündən artıq incidirsən. Rüstəm, əlində piyalə, qalxıb üzünü Əkbərə tutub dedi:

– Qardaş, "xahi nəşəvi risva, həmrəngi cəmaət şov!"[1] Heç danışıq yeri deyil və dayanmağın da mənası yoxdur, labüd gərək içəsən, "begir in cami-təlx əz dəsti şirin"[2]. Əkbər bilmərrə özünü itirib, bixud şərabı xanımın əlindən alıb başına çəkdi.

Məlumdur ki, hər bir günaha əvvəl qədəm qoymaq çətindir.

Əkbər şərabı içəndən sonra o biri xanım ayağa durub xahiş etdi ki, onun sağlığına da içsin. Binəva Əkbər labüd qalıb ikinci piyaləni həm boşaltdı. Sonra Rüstəm, əlində piyalə, ayağa qalxıb dedi:

– Camaat, bizim bu gecəmiz çox əziz gecələrdən oldu. Çünki bu gecə bir dünyadan bixəbər ana uşağını səvaba daxil etdik və mən bu məlum gecədə sizə söz verirəm ki, bir az sonra Əkbər kimi şürbi cəmi şəhərlərdə tapılmasın, ona görə təvəqqe edirəm ki, şeytan kargahının bu təzə fəhləsinin sağlığına içək. Əkbər qardaş, sağ ol! Qonaqların hamısı piyalələrini Əkbərin sağlığına boşaltdılar. Rüstəm Əkbəri başa saldı ki, gərək o da yığıncağın sağlığına içsin. Çünki qayda belədir. Əkbər naəlac qalıb yenə şərabı içdi. Üçüncü piyalədən sonra Əkbərin dili açılıb başladı bilafasilə danışmağa və piyalələri boşaltmağa. Axır keflənib divanın üstə yıxılıb yatdı. Bir vədə eşitdi ki, bağırırlar. Oyanıb gördü ki, sübh açılıb, amma yoldaşları içirlər. Rüstəm dedi:

– Əkbər, bu dəfə sənə kifayət elər. Belə-belə öyrənirsən! Ayağı bir-bir qoyarlar nərdivana.

Camaat ayağa qalxıb nökəri çağırıb buyurdular hesab gətirsin. Əkbər istədi pul versin, qoymadılar. Amma dedilər ki, gələn bu gün həmin bu mənzildə sənə qonaq ola bilərik. Əkbər çox şadlıqla onları qonaq çağırdı.

Əkbər çıxıb faytona minib yola düşdü və yolda fikir edirdi ki, anasına nə cavab versin. Evə gəlib gördü anası yatmayıb və gecəyarısı Kərbəlayı Qulaməli iki dəfə Rüstəmin evinə gedib, hər dəfə deyiblər ki, Əkbər orada yoxdur.

Əkbər anasının sualına başladı növbənöv hədərən-pədərən cavab verməyə: gah dedi Rüstəmgildə gecə keçməyinə görə yatmışdım;

---

[1] Biabır olmaq istəməyirsənsə, camaatla həmrəng ol.

[2] Bu acı piyaləni şirin əldən al.

onun üçün elə deyiblər. Gah dedi xoş gecə olmağına görə Rüstəmlə şəhər kənarına səyahətə çıxmışdıq. Axır, elə gördü anası onun yalanını anlayıb, dedi:

– Ay rəhmətliyin qızı, az çürüyünə çəksənə, nə çox çövürüb soruşursan! Nə vaxtadək məni uşaq kimi güdəcəksən!

Əkbərin anasına bu növ cavabı nə tövr təsir etdisə, binəva övrət o gün axşamadək ağladı və bir-iki dəfə də Kərbəlayı Qulaməliyə dedi ki, Kərbəlayı, deyəsən Hacı Xəlilin yurdunda bayquş ulayacaq! Amma Kərbəlayı cavab verdi ki, uşaqdır, beyni qandır; mən ona nəsihət elərəm, inşallah, düzələr.

Əkbər anasının məğlubə olmağından, əvvəl dilgir olub və sonra öz-özünə dedi ki: bu yaxşıdır, bundan sonra yoldaşlar mənim adımı "ana uşağı" qoyub tənə etməzlər.

Gələn həftə Əkbər Rüstəmə xəbər verdi ki, axşam məclisi tərtib eləsin və axşam anasından biizn evdən çıxıb mehmanxanaya, haman otağa gəlib gördü Rüstəm bir böyük övrət və kişi məclisi tərtib eləyib. Əyləşdilər kefə. Amma Əkbər içən deyildi. Rüstəm yeyirdi, içirdi, söhbət edirdi və hamı da, ələlxüsus xanımlar ona afərin deyirdilər. Sübhədək kef edib Əkbər min manatdan artıq pul verib evə gəldi. Evdə anası oğlunun nə yerdə olduğunu nə qədər soruşdusa da, Əkbər cavab verməyib axır qəzəbnak: "Bir yol, sənin borcun deyil!" – deyib gedib yatdı.

Binəva övrət xüffətindən naxoşluğa düşüb, bir neçə gün yatıb tanrı rəhmətinə getdi.

Bir-iki ay anasının vəfatından sonra Əkbər dükanı bağlayıb, evi Kərbəlayı Qulaməliyə tapşırıb Rüstəmlə bir yerdə yola düşdü Moskva şəhərinə, bəzzaziyyə malı gətirib təzə mağaza qoymağa. Moskvadan yolları düşdü Peterburqa, oradan Berlinə, Berlindən Parisə. Bir ay sərasər Rüstəm Əkbəri Parisin işrətxanalarında gəzdirib öz gününə saldı və bu səyahət Əkbərə yüz min manatdan artığa durdu. Axır Parisdə bir gözəl (madam San fua adlı) xanıma bənd olub, ildə iyirmi dörd min manata danışıb və qabaqca neçə min manatlıq libas və cavahirat alıb, özü ilə vətənə gətirib mehmanxanada mənzil verdi. Və başladı evin övzanını dəyişməyə. Otaqları Yevropa qaydasına salıb, baha qiymətlərə miz və sandallarla müzəyyən edib və madam San Fua üçün bir gözəl otaq hazırlayıb köçürtdü evinə və qoca Kərbəlayı Qulaməliyə yüz manat verib rədd etdi və əvəzinə bir aşpaz, bir lakey

və madam üçün bir qız qulluqçusu baha qiymətə tutdu və sonra bir fayton, bir kareta və dörd dəst Orlovski at böyük məbləğə alıb madama peşkəş elədi.

Madam San Fua Əkbərin canına bir yaman zəli olub başladı müdam onun qanını sormağa. Bir gün Əkbər evə peşkəşsiz gələndə axşamadək madam onu dindirmirdi. Hər gecə Əkbərin evində qumar məclisi qurulub, otuz minlərlə pullar uduzulurdu və hər gecə də Rüstəm öz yoldaşları ilə Əkbərin evində qonaq idi. Əkbər ticarəti əldən buraxmışdı və işi ancaq eyş-işrət və qumar idi.

Bir gün Əkbər ayılıb gördü ki, atasından qalan evlərin ikisi də girov qoyulub və cibində də pul qalmayıb. Hacı Xəlildən qalan dövlətin hamısı Yevropa səyahətinə, içkiyə qumara, madamın məvacibinə və peşkəşlərinə gedib.

Axır bir gün madam San Fua Əkbərə məlum etdi ki, daha onunla ola bilməyəcək, çünki budur, iki aydır ona pul çatmır və peşkəş gəlmir. Xülasə, Əkbər dövləti itirib, ona sahiblik etməyə qabil deyildir.

Əkbər nə qədər ağladı, yalvardı, kar görmədi. Madam öz şeylərini yığıb mehmanxanaya köçdü. Əkbər hirsdən və xiffətdən naxoş oldu.

Rüstəm bir-iki dəfə onun yanına gəlib sonra təræddüdü kəsdi. Axır Əkbər ona kağız yazıb təvəqqe etdi ki, bir yanına gəlsin. Cavab gəlmədi. Bir gün Əkbərə xəbər gətirdilər ki, Rüstəm madam San Fua ilə yaxınlaşıb və madamın xərci ilə, onunla mehmanxanada olur. Bu xəbər Əkbəri lap mütəğəyyir etdi.

Əkbər bir aydan ziyadə naxoş yatıb durdu ayağa. Bir gün küçə ilə gedərkən gördü bir gözəl faytonda Rüstəmlə madam San Fua çox mehriban əyləşib ona tərəf gəlirlər. Əkbər əl elədi, faytonu saxladılar. Yaxına gəlib bir güllə madama, birini də Rüstəmə vurub hər ikisini öldürdü və oradan gedib özünü divana təslim etdi.

İki ildən sonra movqiflərin birinə varid olub gördüm qoca Kərbəlayı Qulaməli movqifin qabağında dalını divara söykəmiş əyləşib. Soruşdum:

– Kərbəlayı, sən hara, bu yerlər hara?

Dedi:

– Qurbanın olum, əlacım nədir. Qırx il atasının çörəyini yemişəm, əgər onun yaman günündə gözdən qoysam, o çörək mənim gözlərimə durar.

Dedim:

– Kərbəlayı, başa düşə bilmirəm: yaman gün nədir, çörək nədir?

Bu sözün cavabının, əvəzinə, bir ahi-sərd çəkib kənarda durmuş bir dəstə soldata əli ilə işarə etdi. Soldatlara tərəf gedib, gördüm ortalarında neçə nəfər dustaq, kimi ayağı zəncirli və kimi zəncirsiz, yerdə əyləşiblər və bir nəfər cavan oğlan baş və bığı ağarmış, bir çuvala başını söykəyib yatıb. Diqqətlə baxanda Əkbəri tanıdım, halətim dəyişdi. Üz döndərib Kərbəlayı Qulaməliyə tərəf qayıtdım. Kərbəlayı soruşdu:

– Gördün?

Dedim:

– Gördüm, Kərbəlayı, bunu haraya aparırlar?

Dedi:

– Kəsiblər İrqut quberniyasına getsin. Mənim də əlacım yoxdur, qarabaqara dalınca sürünürəm.

Dedim:

– Kərbəlayı, sən qoca adam bir belə yolu gedəmi bilərsən?

Dedi:

– Qurbanın olum, özüm də bilirəm ki, mən heç yana gedib çıxa bilməyəcəyəm, yolda bir yerdə ölüb qalanam, amma getməsəm qorxuram qiyamət günündə Hacı Xəlilin yanına üzüqara gələm.

Bir azdan sonra dəmiryol qatarı gəlib movqifin qabağında dayandı. Dustaqları bir dəmir pəncərəli vaqona doldurdular və Kərbəlayı Qulaməli dal vaqona minib dedi:

– Qurbanın olum, salamat qal, Allah səni pənahında saxlasın.

Qatar yola düşdü və mən də məhbut onun, gözdən itənədək dalınca baxdım və bu böhtün içində Sədi mərhumun bir fərdi yadıma düşdü:

“Ba bədan yar gəşt həmsəri-Lut
Xanəndani-nübüvvətəş güm şüd”[1].

---

[1] Lutun arvadı pis adamlarla yoldaş oldu, peyğəmbərlik xanədanı itdi.

# YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ
**(1887-1943)**

## ƏZİZ

Ballı xala qabı eşib, bir qızarmış iri kələm dolması tapıb, oğlu Qulunun ağzına uzatdı.

– Qurbanın olsun anan, buncuğazı ye!

Qulu cavabında "iştaham yoxdur" dedisə də, Ballı xala dolmanı bir az da irəli uzatdı:

– Yox, vallah yeyəcəksən!

– A kişi, yemirəm!

– Yox, yeyəcəksən!

Qulunun iştahası yox idisə də, axırda əlacı kəsilib, rəngsiz dodaqlarını aralayıb, dolmanı içəri ötürdü.

Ballı xalanın dul qızı Güldəstə dolma qabına bir tikə vuranda əlinə bir qırmızı üzək keçib, cəld qovzadı:

– Qulu, bunuca ye!

– A kişi, yemirəm!

– Bıy, ədə bir ağzını aç!

Qulu istədi saralmış üzünü turşaldıb, bacısına acıqlansın, bir vaxt gördü üzəyin ucu ağzına yetib, yağı damcılayır. Əlacı kəsilib, yenə rəngsiz dodaqlarını araladı və üzəyi içəri ötürdü.

Qulu üzəyi bir əngindən o biriənginə aparıb, asta-asta çeynəyirdi, bir də gördü xalası kor Qızxanım qabdan bir sümük tapıb, apardı qıpıq gözlərinin qabağına və bir az o yan-bu yana çöndərib zənn ilə baxdıqdan sonra çığırdı:

– Qulu, xalan kor olsun, bircə bu sümüyü gəmir!

Qulu dolu ağzını çöndərib, ütük qaşlarını qovzuyub; altı-üstü şişmiş gözlərini süzməkdə xalasına nə deyəcək idisə, beş-altı yerdən onun sözünü kəsib çığırışdılar:

– Bıy, bəs adam şikəst xalasının sözünü yerə salar?! Ye, nədir ki, bir sümükdür, dayna!

Qulu səsini xırp kəsib, sümüyü qapdı.

Ballı xalanın əri evindən döyülüb qovulmuş qızı Xırda bir yaxşı tikə tutub, gözləyirdi ki, Quluya versin. Qulu bunu görcək ağzında

əzilmiş üzəyi bir əgkinə yığıb, bacısının üstünə çığıranda üzəyin bir parçası gedib boğazında qaldı və öskürməyə başladı.

Bir dəqiqədə ev səs ilə doldu:

– Su, su! Gədəcik öldü!

Ballı xala Qulunun dalına əli ilə döyəcləyib deyirdi:

– Hamısı sənin! Hamısı sənin!

Əri Kərbəlayı Gülüməli karıxdığından elə barmaqlarını yalaya-yalaya qalmışdı; dul bacı su gətirirdi; döyülüb qovulmuş bacı o baş-bu başa yüyürüb çığırırdı.

Xala başını Qulunun üzünə yavıqlaşdırdı ki, ağzını tapıb, əlini soxsun...

– Xoşbəxtlik üz verdi – üzək Qulunun boğazından ötüb getdi və külfət sakit olub, öz xüsusi işlərinə məşğul oldu.

Yatmaq vaxtı yetişdi; həyətə yüz mütəkkə getdi. Ağacların altında yatacaqlar salındı. Qulunu dörd-beş adam yatırmağa apardı. Ballı xala irəlilədi və "başına dönüm, çöl soyuqdur" deyib Qulunun üstə bir qış yorğanı saldı; dul qız nənəsinin sözünü təsdiq edib, birini də o saldı; qovulmuş qız da bir cecim tapıb gətirdi. Xala gözünün üstə əlini qoyub, bir göyə baxdı və sonra nə fikir elədisə gödək tumanı atıla-atıla yatacağına tərəf getdi və əlini sürtüb, dəstə ilə çıxmış yeddi-səkkiz tumanı tapıb, Qulunun üstə saldı.

Kərbəlayı Gülüməli gecə papağını geyib, bərk səslə:

– Ay uşaq, Qulu rahat oldumu?

Elə ki beş-altı yerdən "rahat oldu" deyə səs gəldi, Kərbəlayı aftafanı götürüb, öskürə-öskürə həyətin dibinə getdi. Qulu gecə sabaha kimi istidən yata bilməyib, o yan-bu yana çöyrükdü və hər çöyrükəndə də üstündən bir yorğan sürüşüb düşdü. Belə oldu ki, axırda üstünü tamam açdı və bu surətlə yuxuya getdi.

Sabah evə qarışıqlıq düşmüşdü. Qulu azarlamışdı. Kərbəlayı Gülüməli ağ tumanlı həkim dəlləyin yanına yüyürürdü. Ballı xala keçi piyi axtarırdı ki, Qulunu piyləsin; qızlar ağlaşırdılar. Xala da üzərlik yandırıb, Qulunu tüstüyə verirdi.

# SÜLEYMAN SANİ AXUNDOV
## (1875-1939)

## QAN BULAĞI

İyulun isti günlərinin birində dağların arası ilə uzanan əyri-üyrü, eniş-yoxuş yol ilə iki atlı gedirdi. Bunların biri iyirmi yaşında gənc, digəri yetmiş sinninə varmış bir qoca idi. Bu iki şəxsin yaşlarında bu qədər böyük fərq olduğu halda, zahirlərində bir o qədər fərq görünməyirdi. Hər birisinin əynində pişmət, çərkəzi çuxa, belində kəmər, xəncər və qılınc, başında dəri papaq, çiynində qara yapıncı və boynunda ağ başlıq var idi. Qocanın at üstündə əyləşməsi, əzasının hərəkəti, alıcı quş kimi baxışı gəncdən seçilməyirdi. Lakin qocalıq nişanəsi üzünün qırışından və uzun ağ saqqalından görünürdü. Yol getdikcə daralırdı. Dağlardan enib, indi qayadöşü incə bir yol ilə gedirdilər. Onun yuxarı tərəfi divar kimi ucalan sıldırım qayalar, alt tərəfi göz qaraldan uçurum dərələr idi. Bu qorxulu yol ilə səfər etmək qeyrilərə namümkün olduğu halda, Dağıstan əhalisinə və onların atlarına adi bir şeydir.

Vaxt günortaya yaxınlaşmışdı. Susuzluqdan hər iki süvari yanırdı. Ələlxüsus susuzluq gəncə artıq təsir eləyirdi. Onun gözləri səbirsizlik və iztirab ilə su arayırdı. Bu halda gəncin qulağına su şırıltısı gəldi.

– Baba, muştuluq olsun, irəlidən su səsi gəlir, – deyə cavan atını sürdü.

Qoca təbəssüm ilə ona nəzər salaraq, başını yırğaladı. Gənc bulağa çatdıqda gördü ki, suyun rəngi qırmızıya çalır. Buna baxmayaraq susuzluğunu tezcə rəf etmək üçün bir qurtum su içər-içməz:

– Bu nə cür sudur? – deyə ayağa qalxdı. Bu halda qoca gəlib ona çatdı və gülümsəyərək dedi:

– Susuzluğunu rəf etdinmi, oğlum?

– Xeyr, baba, bu bulağın suyu içməli deyil, zəfir dadı verir, rəngi də qana bənzəyir, – deyə cavab verdi.

– Elədir, oğlum, bu “Qan bulağı”dır, bunun suyu dəmir ilə qarışmış, bu su qansızlara və bəzi naxoşlara dərmandır...

Cavan sordu:

– Bu “Qan bulağı” adını nədən almış, baba?

– Bir az səbir et, oğlum, bulağın hekayəsini sənə söylərəm. İndi isə ardımca sür, bu yaxında içməli su var, – deyə qoca atını sürdü.

Bir qədər getdikdən sonra gözəl bir bulağa rast gəldilər, atdan endilər. Cavan xurcunundan yemək çıxarıb, süfrə salmağa məşğul oldu. Nahardan sonra qoca yapıncısını yerə sərib üstünə uzandı. Cavan onun "Qan bulağı" barəsində verdiyi vədəyə müntəzir, qarşısında əyləşmişdi. Qoca gözlərini yumub bir müddət sükuta getdi. Gənc elə fikir etdi ki, qoca vədəsini unudub yuxuya daldı. Lakin fikri yanlış idi. Bir azdan sonra qoca gözlərini açdı, başlığını büküb dirsəyinin altına qoydu və dərindən bir ah çəkib dedi:

– Ulu Qafqaz, ulu dağlar! Hər bir daşın bir tarixdir. Kimlər gəlib sinəndən keçmədi, çaylarını qızıl qana döndərmədi!..

– Oğlum, bu dərə, bu torpağı iki yerə təqsim edir. Belə rəvayət edirlər ki, qədim zamanda bu dərənin o tərəfində böyük bir qəbilə, başında Misir xan adında bir rəis və bu tərəfində digər bir silsilə Surxay xanın rəisliyi ilə sakin olurmuşlar. İttifaqən bu iki xanın arasında qan davası düşür, bunlar bir-birlərini tələf etməyə başlayırlar. Bir müddət keçmiş, Misir xan və Surxay xan bir də baxıb görürlər ki, cəmi oğlanları və yaxın əqrəbaları bu qan davasında qırılıb tələf olmuşlar. Ədavət isə yenə yatmayıb baqi qalır. Lakin hər iki rəis yeni övladlarının dünyaya gəlməsinə müntəzir olur ki, onların köməkliyi ilə düşməndən intiqamını alsın. İttifaqən bunların bir gecədə iki övladı təvəllüd edir. Surxay xanın oğlu, Misir xanın qızı olur. Bu ittifaqdan nə qədər Surxay xan şad olursa, bir o qədər Misir xan qəmgin və məyus olur. Misir xanın anası, oğlunu belə məyus və qəmgin gördükdə deyir:

– Oğlum, qəm etmə, bilirəm səni pərişan edən nədir. Məgər qız tayfası düşməndən intiqam ala bilməz? Onlara da oğlan kimi tərbiyə versən, igidlikdə heç kəsdən geri qalmazlar.

Bunu eşitcək Misir xan yerindən sıçrayıb qalxır və anasını qucaqlayaraq deyir:

– Ana, fikrin çox gözəldir, ancaq de görüm, qızım olmağını kim bilir?

– Məndən və arvadından başqa kimsə bilməyir, – deyə anası cavab verir.

– Çox gözəl, indi mənim qızım olmağını gərək bir adam bilməsin. Sabahdan oğlum olduğunu elan edəcəyəm, sən deyən tərbiyəni də qızıma özüm verəcəyəm, lakin bu sirrin gizli qalması səndən və anasından asılıdır.

– Arxayın ol, oğlum, əmrin yerinə yetər, – deyə anası cavab verdi.

On gündən sonra Misir xan qızına Teymur xan namını verir və bu sirr pünhan qalmaq üçün həmin bu müqabilimizdəki qayanın döşündə bir köşk bina edib orada sakin olur.

Teymur xan atasının nəzarəti altında tərbiyə alaraq, nağıl olunan köşkdə böyüməyə başlayır. Onun oyun şeyləri: tüfəng, xəncər, qılınc və yoldaşları bu qayalar sakini laçın, qaraquş, tərlan kimi yırtıcı quşlar olur. Belə tərbiyə nəticəsi olaraq on yaşında Teymur xan at minmədə, tüfəng atmada, qılınc vurmada igid cavanlardan geri qalmayır. Bunlardan artıq, insanları heyrətə gətirən Teymur xanın vəsfə gəlməyən gözəlliyi olur.

Bu tərəfdən Surxay xanın oğlu Paşa xan, Teymur xan kimi igidlikdə və gözəllikdə məşhur olur.

Bu iki uşaq böyüyüb on səkkiz yaşına çatır, bunların igidliyi və gözəlliyi ətraf və əknafa yayılır. Bu vaxta qədər görüşmək bunlara mümkün olmamışdı. İttifaqən bu iki cavan yek digərinə rast gələrsə, biri və bəlkə də ikisi də tələf olmaqlarını hiss edirmişlər. Bununla bərabər görüşmək arzusu hər ikisində gündən-günə qüvvətlənir. Oğlum! Əcdadımızdan bizə irs qalmış qana-qan etmək adətinə qurban olan bu cavanlar axırda bir-birlərilə görüşürlər.

Belə ki, baharın gözəl səhərlərinin birində Teymur xan, ov arxasınca, sərhədləri olan bu dərəni aşıb o tərəfə keçir. O zaman Paşa xan da ova çıxmış olur. Bu iki aslan, gördüyün “Qan bulağı”nın başında bir-birlərinə rast gəlir. Bir müddət bir-birlərinin gözəl camalına heyran olub qalırlar. Paşa xan Teymur xanın fövqəladə gözəlliyinə heyran olur. Teymur xan isə on səkkiz ilin ərzində qadınlığa müğayir yırtıcı, qaniçici quş kimi aldığı tərbiyənin onda qadınlıq hissini hələ puç etmədiyini indi anlayır, eşq odu onun ürəyini yaxıb yandırır, hər zaman igidləri xofa salan gözləri indi Paşa xana xumar-xumar baxıb ondan aman gözləyir. Paşa xan heyrətdən ayılıb, Teymur xanın kim olduğunu duyursa da sorur:

– Sən kimsən?

– Sən özün kimsən?

– Mən bu torpağın sahibi Surxay xanın oğlu Paşa xanam.

– Mən də bu torpağın sahibi Misir xanın övladı Teymur xanam.

Bu sual-cavabdan sonra hər ikisi bir-birlərinə düşmənçilik nəzərilə baxmağa başlayır. Axırda Paşa xan:

– Camalın çox gözəldir, buna söz yox, görək qılınc vurmağın necədir? – deyə qılıncını çıxarır.

Onun cavabında:

– İndi qılınc vurmağımı da görüb bəyənərsən, – deyə Teymur xan da qılıncını çıxarıb Paşa xanın üstünə hücum edir.

Oğlum, necə ki, göy üzündə əvvəl şimşək parlayıb, sonra gurultu sədası gələr, elədə bu iki cavanın qılıncı od parladıb bu qayalara səs salır. Bir müddət çarpışırlar, lakin bir-birlərinə zəfər yetirə bilməyirlər. Bu halda günəş dağın dalında tülu edir. Onun zərrələri Teymur xanın gözlərinə ox kimi sancılıb qamaşdırır və bu anda Paşa xan fürsət tapıb qılıncı Teymur xanın sinəsindən vurur. Teymur xan yıxılır. Qan çeşmə kimi sinəsindən axıb baharın təzə və tər otlarını və çiçəklərini boyayır.

Paşa qılıncını atıb Teymur xanın yarasını bağlamaq qəsdilə sinəsini açır.

– Aman, yarəb, sən qadın imişsən! – deyə qışqırır və Teymur xanın başını dizi üstə alıb: – Söylə, söylə, gözəlim! O soluq nəfəsinlə mənə lənətini, nifrətini izhar elə, – deyə fəryad edir.

Teymur xan zəif səs ilə cavabında:

– Paşa xan, sənə eşqimi izhar edirəm. Bu çirkin adətə lənət və nifrət! Ah, təbiət nə gözəldir. Paşa, mən gedirəm, əlvida!

– Toxta, bir az toxta, gözəlim, Paşa da səninlə gedir. Paşa xan xəncərini çıxarıb öz sinəsinə vurur və Teymur xanı ağuşuna alıb deyir:

– İndi qoy mənim də qanım səninkinə qarışsın!

Oğlum, o vaxt bu dağlarda zəlzələ zühur edir və həmin yerdən dağ aralanıb iki növcavanı ağuşuna alır. Bir müddət keçərək gördüyün Qan bulağı qaya arasında cari olur. Rəvayətə görə həmin bulağın suyu Paşa xan ilə Teymur xanın qanından əmələ gəlmişdir.

## ÜMİD ÇIRAĞI

İlk baharın son gecəsi idi. Əlvan çiçəklər və otlar ilə bəzənmiş, buludlara qədər yüksəlmiş dağ başında düşən Ş... şəhərinin əhalisi dərin yuxuya dalmışdı. Yalnız iki balaca otaqdan, yanında özü kimi balaca bağçalı bir evdən işıq gəlirdi. Pəncərədən, çırağın zəif şöləsi bağçaya düşərək oranın zəngin böcək və pərvanələrini öz tərəfinə çəkirdi. Masa başında oturmuş, mütaliəyə məşğul, zəif əndamlı, sarımtıl bənizli, qıvrıcıq saçlı bir gənc, çənəsinə dirsəklənərək kitab oxuyur, ara-sıra yorğun qara gözləri biixtiyar qapanaraq rahatlıq edirdi. O zaman

uzun, ox kimi kirpikləri çöhrəsinə kölgə salır, başı masa üzərinə əyilir, bir müddət belə mürgüləyirdi, sonra diksinərək başını qaldırır, gözlərini ovcalayır, qalxıb pəncərəni açır, başını dışarıya çıxararaq bağçanın saf havasını dərindən tənəffüs edirdi.

Qaranlıqda qalmış pərvanə və böcəklər pəncərənin açılmağından istifadə edərək otağa soxulur, çırağın ətrafında uçuşurdular. Gecənin dərin sükutu və zülməti gəncin qəlbinə xof buraxır, onu diksindirirdi.

– Bu nə uşaqlıqdır? – deyə gənc pəncərəni qapayır və sonra əvvəlki yerini tutaraq, özlərini şöləyə atan pərvanələrə baxır: – bu heyvancıqlar qaranlığı sevməzlər. Gör necə özlərini oda atırlar? Nə qədər işığa məftun bir məxluq, – deyə söylənirdi. Bu zaman nəzəri masanın üstə durmuş cib saatına sataşır.

– Ah, gecə yarıdan keçmiş, lakin mən hazır deyiləm. Sabah son imtahanlarımı verəcəyəm. Orta təhsilimi bitirmək bu gecəki səy və qeyrətimə bağlıdır. Atam yox, mənə yardım edəcək kimsəm yox, öz nicat və səadətim öz əlimdədir. Səy və qeyrət lazımdır. Sabah orta məktəbi bitirib ali məktəbə girəcəyəm. Orada bir neçə il təhsil alıb həkim olacağam, vətənim üçün mənfəətli bir üzv olacağam. Zavallı anamı məişətin bu ağır zəhmət və əziyyətindən xilas edəcəyəm.

Əlilə o biri otağa işarə edərək:

– Yat, anacığım, rahat ol və gələcək səadətimizə də inan, – deyə yenə də mütaliəyə başlayır.

Gəncin zənni yanlış idi, zavallı qadın bir neçə saat işlədikdən sonra rahat olmaq istədisə də yata bilmədi. Gözlərini oğlunun qapısına dikərək uzun və dərin fikrə getmişdi. Ağır, qara günlü məişəti birər-birər gözlərinin önündən gəlib keçdi. Budur, on səkkiz yaşında bir qız ikən özü kimi bir zəhmətkeşə arvad oldu. İçərisində yaşadığı evə sahib oldu. Övlad arzusu çəkərək bir gözəl oğula ana oldu.

Ah, nə böyük bir səadət. Lakin rəhmsiz fələk tezliklə bu səadəti yasa döndərdi. Bir il bəxtiyar yaşadıqdan sonra istəkli əri xəstə düşüb vəfat etdi. Onu bir yaşlı uşaq ilə sahibsiz qoydu. O gündən bədbəxt ana çalışır, sel tək göz yaşları tökür, lakin körpə oğluna baxdıqca ağır məişətini unudur, beşiyini yırğalayaraq deyirdi:

– Yat, oğlum, yat, ümid çırağım, yat, cəmi səadətimi, cəmi ömrümü sənin uğrunda sərf etməyə and içirəm.

Qeyrətli ana bu müqəddəs vəzifənisini çox gözəl ifa etdi. Oğlunu böyütdü, oxutdu, bu yaşa yetirdi. İndi təhsilini bitirmək üçün övladı

belə çalışır, zəhmət çəkir. Onun incə ana qəlbi sıxılır, övladının əziyyətinə razı olmayır, onun zəhmətlərinə dözə bilməyirdi. Lakin bu zəhmətin ona səadət qapısını açacağını da gözəlcə düşünürdü.

Ən artıq sıxılacaq bir şey varsa, o da oğlunun məktəbə getmək məsələsidir ki, bir neçə il bir-birindən ayrı düşəcəklərdi, bu isə ona qeyri-mümkün bir imtahan görünürdü. Yazıq ananın qəlbini hər dəqiqə deşən, onu rahat buraxmayan bir məsələ vardı. O da bir il bundan əqdəm ərinin qohumlarından biri dalaşarkən bir cavanı öldürməsi idi. Düşmənləri qatilin həbsə alınıb sürgün edilməsinə iktifa[1] etmək istəməyirdilər. Qana qan etmək fikri bəsləyirdilər. Bu səbəbdən zavallı qadın bu ili daima qorxu içərisində yaşayır, oğlunu gözlərindən iraq buraxmaq istəməyirdi.

Gecə keçər, oğlu yatmaz, ana, axır buna səbir etməyib qalxar, şala bürünər, oğlunun otağına girər, övladının başını qucub qıvrıcıq saçlarından öpər.

– Ana, nə üçün durdun?

– Oğul, yata bilmədim. Qəlbimdə bir qorxu, bir iztirab hiss edirəm. Qorxuram sənə düşmən tərəfindən bir xətər toxuna.

– Anacığım, xof və iztirabın əsilsizdir. Öz otağımda, gözünün önündə dərs oxuyuram. Mənə nə ola bilər? Mən bir məktəbliyəm, kimsə ilə də düşmənçiliyim yox, arxayın ol, mənə heç bir kimsə tərəfindən xətər toxunmaz, get, ana, rahat ol.

– Bəs sən, oğlum, yatmayacaqsan? Oxuduğun yetər, dur, sən də rahat ol, çırağı söndür.

– Yox, ana, səhəri açsam da sabahkı imtahanlarımı hazır etməliyəm. Maraq etmə, bir gecəni yatmamaqla mənə heç bir şey olmaz, lakin bir ilimi qayib etmək, hər ikimiz üçün fayda verməz. İndi daha mənə mane olma, – deyə gənc kitab oxumağa başlayır, anası da otağına çəkilir.

Bir saat belə keçir. Qəflətən bir tüfəng açılıb dağlara səda salır, dərin sükutu pozur. İkinci bir qadın çığırtısı bu sədaya cavab verir, yatmış qonşuları oyadır. Gənc tələbə yerə sərilir. Bir saat bundan əqdəm böyük ümidlər bəsləyən gənc, bir qəddar düşmənin, rəhmsiz düşmənin gülləsinə qurban oldu.

Sahibsiz ananın ümid çırağı söndü... Yenə zülmət, yenə dərin sükunət... lakin balaca otaqdan:

---
[1] Kifayətlənmək

– Yox, oğlum, sən ölməmisən, ancaq yatmısan. Yat, ümidim, rahat ol, sabah yenə duracaqsan, imtahanlarını verəcəksən, anacığını bəxtiyar edəcəksən...

Həzin, qəlbləri oxşayan oxşama sədası gəlirdi.

## QATİL UŞAQ

Otuz-qırx il bundan əvvəl, bəlkə indi də Azərbaycanın çox yerlərində müsəlman əkinçiləri arasında xeyli təəccüblü, hər kəsin nəzərini özünə cəlb edən əkinçilik sənətinə əsla yaraşmayan bir hal vardı. O da əkinçilərimizin zəhmətilə becərilmiş taxılı biçməkdə aciz qalaraq, iranlı biçinçilərinə möhtac olmaqları idi.

Yayın isti günləri idi. İran biçinçiləri əyinlərində cındır paltar, ayaqlarında çarıq, qabarlı əllərində oraq, arxalarında mitil yorğan Araz çayını keçərək, Azərbaycana sel kimi axırdı. Bu zəhmətkeşlər arasında başı əmmaməli və qurşaqlı, boynu yoğun seyid dəstəsi də görünürdü. Zənn olunmasın ki, bu müftəxorlar da Azərbaycana iş aramağa gəlirdilər. Xeyr, onlar xırmanları gəzib: "Cəddimin payını ver" deyə kəndlilərdən "seyid vergisi" tələb edərdilər. Dini və adəti-mövhumata qərq olmuş sadədil məzlum kəndlilər, hər bir vergidən əvvəl bu müftəxorların torbalarını doldurardılar və heç biri cürət edib onların tələbini rədd edə bilməzdi.

* * *

Zəmili kəndi dağın ətəyində, meşə qırağında düşmüşdü. Bu kəndin əhli əkinçilik və maldarlıqla məşğul olardı. Tarlaları yüksək yerlərdə olduğu üçün dağlar arasından axan çaylardan istifadə edə bilməzdilər. Ona görə yağmur az yağan ili əkinləri yanıb zəhmətləri hədər gedərdi.

Bu kəndin qurtaracağında, meşənin başlanğıcında əsgi və ufaq daxmada Qızxanım adlı bir qadın on iki yaşlı oğlu ilə yaşayırdı. Bu qadın beş il idi ki, dul qalmışdı. Əri Mehdiqulunu artıq dərəcədə sevərdi və sevməyə də haqlı idi, çünki Mehdiqulu həlim təbiətli, gülərüzlü, rəhmdil bir şəxs idi. Ölənə kimi bir dəfə də olsa Qızxanımı incidib əziyyət verməmişdi. Bundan əlavə Mehdiqulu kənd əhli ilə də gözəl rəftar edərdi.

Tarlasını hamıdan qabaq şumlayıb qurtarardı və sonra dul qadınların, xəstə düşmüş kəndli qardaşların yerlərini pulsuz-parasız öz öküzləri ilə sürərdi: buna görə də kəndlilər onu çox istərdilər. Bu yaxşılıqların əvəzi idi ki, indi dul qalmış Qızxanımın tarlasını "ho" edib əkərdilər və biçin zamanında kömək edərdilər. Bir tərəfdən də oğlu Mərdanı özlərinə çoban tutub, pul vermək ilə Qızxanıma kömək əllərini uzadardılar. Qızxanım bu qeyrətli kəndlilərin sayəsində öz oğlu ilə yaxşı güzəran edərdi.

Qızxanım əri kimi işlək, xoş xasiyyətli, namuslu bir qadın idi. Bir ittifaq kəndlilərin məhəbbətini ona daha da artırmışdı: cavan Qızxanım dul qaldıqdan sonra dübarə ərə getməmişdi. Elçilərə belə cavab vermişdi:

– Sevgili ərimdən sonra kimsəyə arvad olmaq həvəsində deyiləm və oğlum Mərdanın da qəlbini yaralamaq istəmirəm. O qeyrətli uşaq böyüyüb məni hamıdan yaxşı saxlayacaqdır.

Bu fikir yanlış deyildi. Mərdan sağlam, cəsur bir uşaq idi. Anası ilə mehriban rəftar edib itaətindən boyun qaçırmazdı.

Atası Mehdiqulu asudə vaxtlarını ovda keçirərdi. Bəzi vaxt Mərdanı da özü ilə ova aparardı. Bu isə uşaqda ovçuluq həvəsini artırardı. Atası öləndən sonra uşaq onun ov tüfəngini də özü ilə götürərdi. Anası mane olmaq istədikdə deyərdi:

– Anacan, qorxma, tüfəngdən mənə xata gəlməz, bəlkə məni yırtıcı heyvandan mühafizə edər. Atmaqda da ustayam.

* * *

Günəş ahəstə-ahəstə dağ başından enirdi. Getdikcə gözə batıcı şöləsi zəifləşirdi. Dünyaya buraxmış zərrələrini geri çəkərək sanki deyirdi: – Siz də bir qədər rahat olun, balalarım.

Bir azdan sonra günəş dağın dalına enərək gözdən qaib oldu. Kəndə qaranlıq çökməyə başladı. Aradan bir on dəqiqə keçdikdən sonra dağın arxasından qara buludlar qalxaraq, kəndin üstünü aldı.

Qızxanım daxmadan çıxıb darvazaya gəldi. Qara buludları gördükdə yazıq qadının ürəyi iztiraba düşdü:

Mərdan hər gün günəş batdıqda malları kəndə gətirərdi. Qəflətən şimşək, qızıl ilan kimi göyün üzündə oynayaraq dağlara dəhşətli bir səda buraxdı. Bu səsdən diksinərək, Qızxanım ürəyində dua etməyə başladı.

Gurultu getdikcə artırdı. Bir azdan sonra şiddətli yağmur yağmağa başladı. Qızxanım daxmaya girib köhnə, yamaqlı şalına büründü və yenə qapıya çıxdı. Bu vaxt qısaboylu, qaraqaş, pırtlaqgöz bir cavan seyid, əbasını başına çəkmiş, doqqaz ilə gəlirdi. Qızxanımı gördükdə ona tərəf yönəldi.

– Bacı, mən qərib seyidi Allah qonağı saxlamağı rica edirəm.

– Ağa, cəddinə qurban olum, bu ev heç bir qonağı qapısından naümid qaytarmamış, ancaq mənim ərim vəfat etmiş. Mən bir dul qadınam, kişisiz evə sən naməhrəmi necə buraxım?

Seyid bunu eşitdikdə və cavan Qızxanımın gözəl simasını gördükdə qara pırtlaq gözlərindən od parladı.

– Bacı, seyid övladı hər bir evə məhrəmdir, məni belə yağmurda qapıdan naümid qaytarsan, bu evi, bişək-şübhə, bəla tutar.

Qızxanım seyidin qarğışlarından çox qorxardı. Oğlu xəstə olanda, başı ağrıyanda, ya sancı tutanda hər bir şeydən əvvəl seyidə nəzir edərdi. İndi seyidin sözlərini eşitdikdə ürəyi qorxuya düşdü. Bir tərəfdən də namuslu qadın yad kişini evinə buraxmaqdan həya edirdi. Bu halda intizarını çəkdiyi oğlu yadına düşdü.

– Ağa, içəri buyurun, yağış sizi isladır. – Hər ikisi həyətə daxil oldu, Qızxanım daxmaya girib çırağı yandırdı və sonra seyidi içəriyə təklif etdi.

– Buyurun, ağa, rahat olun.

Seyid islanmış əbasını çıxarıb əyləşdi.

– Bacı, bəs oğlun hardadır?

– Ağa, oğlum kəndin mallarını otarır, indi gələr. Ancaq yağış çox şiddətli yağır. Oğlumdan nigaranam, çünki uşaqdır, dağdan axan selə düşüb tələf olar.

Seyid dedi:

– Xof etmə, bacı, sən mən seyidi müsafir etdin, cəddim Məhəmməd əlmustafa buyurmuşdur ki, mənim övladım olduğu evə bəla nazil olmaz. Bu saat oğlun sağ və salamat gəlib çıxar.

– Allah ağzından eşitsin, ağa.

– Əlbəttə, biz seyidlərin ağzından çıxan sözlərin hamısı Allah, peyğəmbər kəlamıdır. Ancaq, bacı, səndən bir söz soruşmaq istəyirəm. Sən belə gözəl və cavan qadın nə üçün ikinci ərə getməmisən?

– Ağa, mən ərimi çox istəyirdim. O öləndən sonra əhd etdim ki, bir də başqasına getməyim. Onun tək varisini böyüdüm.

– Əhsən, əhsən, görürəm sən çox vəfalı qadınsan. Lakin nadanlıqdan cəddimin əmrindən çıxmısan və günah da etmisən. Məgər bilmirsənmi ki, cəddim Məhəmməd əlmustafa öz şəriətində bir kişiyə 4 arvad almağı caiz buyurmuşlar. Bundan əlavə siğə yolu da qoymuş. Biz seyidlərə gəldikdə bunlar da lazım deyil. Bir dua oxumaqla hər bir qadın bizə halal olur. Mən buraya girdikdə o duanı oxudum ki, sən mənə halal olasan. Bunların sirri bilirsənmi nədir? İslam tayfası törəyib artsın, yer üzünü tutsun, kafirlərə qalib gəlsin.

Bu halda Qızıl inəyin mələməsi Qızxanımın qulağına çatdı, cəld dışarıya çıxdı və qapını açıb inəyi içəriyə buraxdı. Sonra gözlərini doqqaza dikdi ki, görsün oğlu gəlirmi?

Yağış kəsmişdi, lakin yoldan hələ sel axırdı.

Uzaqdan Qızxanımın gözünə bir qaraltı göründü. Gözlədi ki, görsün kimdir. Bir azdan sonra Mərdan və arxasınca Bozdar gəlib çıxdı. Qızxanım soruşdu:

– Oğlum, nə üçün belə gec gəldin? Yağış mallara xəta yetirmədi ki?

– Xeyr, ana, sel güclü olduğuna görə malları dağdan endirmədim ki, dərələrdən keçə bilməzlər, hamının mallarını bir-bir qapılarına kimi aparıb, həyətlərinə buraxdım.

– Gəl, ağıllı, oğlum, rahat ol, bir seyid qonağımız da var. Yağış tutmuşdu, çox yalvardı ki, içəriyə qoyum.

– Yaxşı etmisən, ana! Belə havada qonağı yolda qoymazlar.

– Sən get rahat ol, mən də inəyimizi sağıb pəyəyə salım. Mərdan içəri daxil olub seyidə salam verdi və "xoş gəlmişsiniz" – deyə halını soruşdu. Sonra islanmış yapıncısını çıxarıb divardan asdı və tüfəngini də bucağa qoydu. Seyid tüfəngə nəzər yetirib Mərdana dedi:

– Oğlum, tüfəng götürməyə hələ uşaqsan.

– Ağa, 12 yaşında kəndli balasına uşaq deməzlər. Bu gün sizin bəxtinizdən əlimə ov keçmədi. Dovşan çoxdu, ancaq mən onları ov etmirəm, çünki ətini heç kəs yemir. Ov edəndə də köpəyim Bozdara verirəm.

– Oğlum, dovşan ətini, at ətini peyğəmbərimiz məkruh[1] buyurmuşlar, yəni istəsən yeyərsən, istəməsən yeməzsən.

Mərdan soruşdu:

– Belə nə üçün: Desin ya halaldır, ya haram.

---

[1] İyrənc, xoşa gəlməyən

– Oğlum, şəriətimizdə çox sirlər vardır. Sən başa düşməzsən.

Qızxanım əlində bir badya süd daxil oldu. Sonra süfrə salıb, küpədən yağ çıxarıb sapılcaya qoydu və gedib qayğanaq bişirib süd, qatıq ilə süfrəyə qoydu.

– Ağa, başqa xörəyimiz yoxdur, Allah verəndən yeyin.

– Allah evinizə bərəkət versin, bunlar da çoxdur.

Təamdan sonra Qızxanım süfrəni yığışdıraraq dedi:

– Ağa biz kəndlilər erkən yatıb, erkən də durmağı adət etmişik. Bilirəm, siz də yol gəlmisiniz, yorulmusunuz. İzn verin yerlərinizi salım.

Seyid dedi:

– Mənim də adətim elədir.

– Qızxanım, oğlu və qonaq üçün içəridə, özü üçün də dəhlizdə yer hazır etdi.

Mərdan və seyid rahat olandan sonra Qızxanım çırağı götürüb dəhlizə keçdi və orada yatmaq istədi. Birdən yadına düşdü ki, Mərdanın köynəyi yarımçıq qalmış, səhər istəyəndə verə bilməyəcəkdir. Ona görə köynəyi tikməyə məşğul oldu. Qızxanım gecə yarıya kimi köynəyi hazır etdi. Sonra çırağı söndürüb özü də yatdı. Qızxanım yenicə yuxuya getmişdi ki, komanın qapısı açıldı, bunun cırıltısı Qızxanımı oyatdı.

– Kimsən? – deyə sərslədi.

– Bacı, mənəm, bayıra çıxmaq istəyirəm, köpəkdən qorxuram, – deyə seyid cavab verdi.

– Səbir edin, ağa, çırağı yandırım. – Qızxanım şala bürünüb çırağı yandırdı və aftafaya su töküb seyidə verib dedi:

– Evin sol tərəfinə gedin.

– Bacı, köpəkdən qorxuram, dışarıya çıx, onu qoyma.

– Köpək pəyənin yanında yatır. O sizi görməyəcəkdir. Eybi yoxdur, mən də çıxaram.

Dışarıya çıxdılar. Yağmurdan sonra hava çox gözəl və gündüz kimi aydınlıq idi. Seyid aftafanı yerə qoyub Qızxanıma tərəf gəldi.

– Gözəl qadın, bayıra çıxmaq bir bəhanə idi. Mən sənin eşqindən bu gecə gözlərimi yummamışam, mənim istədiyim gərək ola, – bunu deyib seyid Qızxanımın əlindən yapışdı. Qan, həyalı, namuslu qadının başına sıçradı, əlini çəkib şala büründü.

– Ağa, sən məni bihəya qadınmı sayırsan? Heç peyğəmbər övladı belə iş edərmi? Səni evimə qonaq etmişəm, qabağına duz-çörək qoy-

muşam, heç ondan utanmırsanmı? İndiyə kimi mənim əlimdən bir naməhrəm tutmamış.

Seyid dedi:

– Mən bayaq sənə dedim ki, mən sənə naməhrəm deyiləm, siğə duasını da oxumuşam. Mənlə mülaqat etsən nəinki günah, savabdan da savabdır, çünki bir seyid övladının məramını əmələ gətirirsən. Burada nə günah ola bilər? Onu da bil ki, hərgah mənim xahişimi əmələ gətirməsən, elə bir qarğış edəcəyəm ki, bu ev yanıb kül olsun, istəkli balan da tezliklə əlindən getsin, indi səndən cavab gözləyirəm.

Yazıq qadın seyidin ayaqlarına düşüb yalvarmağa başladı:

– Ağa, səni and verirəm o cəddinin pak olan ruhuna, mənim namusuma toxunma, mənim balamı əlimdən alma.

Seyid Qızxanımın şalını başından dartıb yerə atdı və onu qucaqlayaraq dedi:

– Görürəm, sən öz ixtiyarın ilə mənim xahişimi əmələ gətirməyəcəksən.

Namuslu qadın həyasından qışqırmırdı ki, səsini qonşuları və oğlu eşidər. Ancaq öz gücü ilə seyidin əlindən xilas olmaq istəyirdi. Bu halda Mərdan oyandı. Yuxulu uşaq dəhlizdən gələn işığı görüb səhər açılmışdır sandı. Cəld dəhlizə çıxdıqda həyətdə çılpaq anasını seyidin qucağında çapalayan görcək qan qeyrətli uşağın başına sıçradı. Tez içəri girib tüfəngi qapdı və həyətə çıxdı.

– Nə edirsən, binamus kişi?

Bunu eşitcək seyid Qızxanımı buraxdı. Mərdan onu qarovula götürüb tüfəngin çaxmağını çəkdi. Seyid şimal ruzgarından qopan qocaman ağac kimi yerə sərildi.

Bunu görcək Qızxanım qışqırdı:

– Nə etdin, oğlum, seyid qatili oldun, evimiz tarmar olacaqdır.

– Bəs sən istərdin ki, mənim anamın namusuna toxunanı sağ qoyum. Məgər mən Mehdiqulunun oğlu deyiləm? Sən, ana, qorxma, hamıya cavabı özüm verəcəyəm, – deyə Mərdan anasına təsəlli verdi.

Tüfəngin səsinə və Qızxanımın qışqırığına yaxın qonşular tökülüb gəldilər. Əhvalatı biləndən sonra dedilər:

– Əhsən sənə igid və namuslu oğlan, lənət olsun belə binamus seyidə!

# "QORXULU NAĞILLAR"DAN

## ƏHMƏD VƏ MƏLEYKƏ

Qışın orta ayı idi. Soyuqdan hamı qaçıb evlərdə gizlənmişdi. Hacı Səmədin külfəti isti otaqda süfrənin başına cəm olub, yemək üçün onu gözləyirdi. O isə o biri otaqda öz işinə məşğul idi.

Hacı Səməd əlli yaşında, safürəkli, rəhmdil bir kişi idi. Hacı Səmədin külfəti qoca anasından, arvadından, doqquz yaşında bir oğlundan və bir də yeddi yaşında qızından ibarətdi.

Hacı Səməd oğlu Məmmədi ibtidai şəhər məktəbində oxudurdu və bu ildən də qızı Fatmanı şəhər qız məktəbinə vermişdi. Hacı Səməd başqa müsəlman atalara bərəks olaraq uşaqlarının dərslərinə, ədəb və tərbiyəsinə çox fikir verərdi.

Hacı Səməd işini qurtarıb yemək otağına gəldi. O, süfrənin başında əyləşdi, yeməyə başladılar. Şam qurtardı. Hacı Səmədin xörəyin üstündən çay içmək adəti idi. Bu vaxt külfətə ya kitab, ya gündəlik qəzetlərdən oxuyardı. Bu da olmasaydı gəzib-gördüyü vilayətlərdən danışardı. Buna görə də gözlüyü gözünə taxıb, əlinə qəzeti götürəndə hamı sakit olub onun danışığını gözləyirdi.

Hacı Səməd isə səsini çıxartmayıb öz-özünə yavaşcadan oxumağa başladı.

Fatma bu sakitliyə davam etməyib qoca nənəsinə dedi:

– Nənə, mənə bir qorxulu nağıl söylə.

Fatmanın qardaşı Məmməd, bacısından bu sözü eşidib dedi:

– İndi ki, qorxulu nağıl istəyirsən, bəs niyə o günü nənəm Məlik Məmməd nağılını söyləyəndə, div adı gələn vaxt nənənin qucağına qısıldın?

– Yox mən heç qorxmurdum, – deyə Fatma cavab verdi.

Bu halda Hacı Səməd qəzeti yerə qoyub dedi:

– Yaxşı, qızım, bu gecə nənənin əvəzinə mən sənə bir qorxulu nağıl söylərəm, bu şərtlə ki, qorxmayasan.

– Yox, ata, qorxmaram, söylə.

Hacı Səməd çaydan bir neçə qurtum içib başladı:

– Qızım, biri vardı, biri yoxdu, şimal-şərqdə, meşə içində, çay kənarında Tatarcıq adında bir kənd vardı. Bu kəndin əhli əkinçilik və çarvadarlıqla güzəran edərdi. Qızım, həmin bu nağıl olunan kənddə Nurəddin

adında bir kişi vardı. Bu Nurəddinin on yaşında, Əhməd adlı bir oğlu, altı yaşında Məleykə adlı bir qızı və Xədicə adında bir arvadı vardı.

Nurəddinin sənəti əkinçilik idi və mal-qaradan ancaq bir atı vardı. Nağıl olunan zaman bahar və yay çox quraqlıq keçməyə görə o vilayətdə taxıl susuzluqdan yanıb tələf oldu. Çox çəkmədi ki, ətraf və əknafda aclıq başlandı. Payızın əvvəlindən Nurəddin arabasını qoşub şəhərə kirayəçiliyə getdi. Orada qazandığı pulu dörd gündən, beş gündən bir evinə göndərərdi. Külfəti də onunla güzəran edərdi.

Əhməd kənd məktəbində oxuyurdu. Atası tərəfindən gələn məktubları asanca oxuya bilirdi.

Bir neçə gün bundan əqdəm Əhməd yazıb atasından özü üçün bir başlıq və bacısı üçün bir əlcək istəmişdi. Hər ikisi bu şeylərin tezcə alınmasını xahiş edirdi. Lakin beş gün keçdi, bir həftə keçdi, on gün keçdi, atalarından bir xəbər çıxmadı. Xədicə bərk qorxuya düşmüşdü. Evdə pul və çörək də tükənmişdi.

Bir dəfə, əziz balalarım, söz vaxtına çəkər, belə bir gecədə, qarlı çovğunun şiddətli vaxtında, Əhməd və Məleykə atalarının yolunu səbirsiz gözləyən zaman, kim isə qapını döydü. Uşaqlar cəld:

– Atam gəldi, – deyə qapıya tərəf yüyürüşdülər. Amma onun əvəzinə kürkə bürünmüş, əlləri əlcəkli, başı başlıqlı qonşuları Şəhabəddin içəri daxil oldu. O kişi Nurəddinlə bərabər arabaçılığa getmişdi. Bunu görcək Xədicənin ürəyini qorxu aldı.

Uşaqlar:

– Əmi, bəs atamız hanı? – deyə soruşduqları vaxt ondan cavab almadılar. Şəhabəddin Xədicəni bayıra çağırıb, ərinin atlı-arabalı dərəyə uçub ölməyini xəbər verdi və onun cibindən çıxan altı manatı verib cəld getdi.

Xədicə ruhu qaçmış, nitqi tutulmuş halda içəri girdi və uşaqlarını bağrına basıb zar-zar ağladı. Bunların ah-naləsi, boranın gurultulu səsi bir-birinə qarışmışdı. Bunlar axırda sakit oldular. Əhməd anasından soruşdu:

– Ana, bu aclıq ildə atasız biz necə dolanacağıq, acından öləcəyik.

– Qorxma, oğlum, bu saçlarımı satıb sizi ac qoymaram, – deyə Xədicə oğluna təsəlli verdi, sonra hər ikisini soyundurub yatağa uzandırdı. Bir azdan sonra uşaqlar yuxuya getdilər.

Amma o gecəni Xədicə sübhə kimi yata bilmədi. Fikir, xəyalət onu götürmüşdü. Sahibsiz arvad, yetim uşaqlar aclıq ildə necə dolansın?

Bir neçə müddət keçdi. Xədicənin pulu lap qurtardı. Yavaş-yavaş ev şeylərini satmağa başladı. Xədicə bir də baxdı gördü ki, evdə heç bir şey qalmayıbdır. Uşaqlar da acdır. Çörək üçün hansı qonşuya getdisə əliboş qayıtdı, çünki hamı bunların günündə idi. Acından zavallı uşaqlar, taqət və gücdən düşmüşdülər. Yaxıq Xədicə hər yerdən ümidi kəsilmiş, dizlərini qucaqlayıb bir küncdə mumiya kimi oturmuşdu. Gizlin ağlamaqdan gözlərinin yaşı da qurumuşdu... Acından Məleykənin qırmızı yanaqları saralmışdı...

Birdən Fatma özünü atasının qucağına atıb dedi:

– Ata, demə, demə! Qorxuram.

Hacı Səməd qızının başını sığallayaraq dedi:

– Qorxma, qızım, dalı yaxşıdır. Qulaq as, harada qaldım? Hə, Xədicə Məleykəni soyundurub yerə qoydu ki, bəlkə yuxuya gedə. Amma yazıq tifil rahat yata bilmirdi. Axırda Xədicə onu sakit etmək üçün dedi:

– Qızım, Məleykə, gözlərini yumub yat; onda gecə mələk bacamızdan sənə çörək salar.

Məleykə gözlərini yumdu. Bir azdan sonra yuxuya getdi. Amma Əhməd anası ilə oyaq qalmışdı.

Gecədən xeyli keçmiş bacadan gumbultu ilə bir şey içəri düşdü. Ana və oğul diksinmiş ayağa qalxdılar ki, görsünlər o düşən nədir. Gördülər ki, ağzı bağlı bir torbadır. Xədicə əli əsə-əsə torbanın ağzını açdı. Gördülər ki, içi çörək, yemiş, cücə, yumurta və qeyri yeməli şeylərlə doludur. Bunu görcək Əhməd dedi:

– Ana gördünmü, mələk bacamızdan bizə çörək saldı.

Xədicə heyrətdə qalıb cavab verə bilmədi. Bu halda torbanı boşaldanda içindən kağıza bükülmüş bir yumru şey çıxdı. Açanda gördülər ki, hamısı qızıl puldur. Bunu görən ana və oğul daha da artıq təəccüb etdilər. Bu halda Əhmədin gözünə pula bükülmüş kağızda yazı sataşdı:

– Ana, burada yazı da var, qoy görək nədir, – deyə Əhməd kağızı oxudu.

"Qızım Məleykə, mən bir qoca səyyaham. Yolda evinizin yanında faytonumun çarxı çıxdı, onu salıncan mən istədim ki, sizdə bir az qızınıb, rahat olam. Qapıya gəldikdə anan dediyi sözləri eşitdim. Geri qayıdıb bu şeyləri və pulu sənin üçün hazır etdim və təzədən gəlib bacanızdan atdım. Yaşa qızım, yaşa, mən qoca babanı da yaddan çıxartma. Xudahafiz.

Səyyah Cəmaləddin".

Bu halda Mələykə oyanıb dedi:

– Ana, mələk bacamızdan çörək saldımı?

– Bəli, qızım, ancaq mələk yox, baban Cəmaləddin, – deyə Xədicə Mələykənin qabağını yeməli şeylərlə doldurdu. O gecəsi iki bala, bir ana şadlıqlarından bilmirdilər ki, nə etsinlər. Axırda hamı şad-xürrəm yıxılıb yatdılar.

İndi siz də, əziz balalarım, durun yatın, səhər dərsə gedəcəksiniz.

Bu sözlərlə Hacı Səməd sözünü tamam etdi.

## ABBAS VƏ ZEYNƏB

Məmməd və Fatma şamdan sonra sabahkı dərslərini hazırlayıb, yazılarını yazıb oturmuşdular. Tez-tez atalarının üzünə baxırdılar. Hacı Səməd uşaqlarının fikrini duyub dedi:

– Yenə nağıl istəyirsiniz?

– Bəli, ata, – Məmməd cavab verdi.

Fatma dedi:

– Ata, bu gün müəlliməmiz bizə "Əlibaba və qırx, quldur"un nağılını oxudu. Sən də bizə quldurdan söylə.

– Yaxşı, qızım, ancaq bunu bil ki, quldurlar elmsiz, tərbiyəsiz tayfadan çıxarlar. Heyvanın vəhşisi qurd, pələng və şir olan kimi insanın da vəhşisi bunlardır. Ancaq təfavütləri odur ki, quldurlar onlardan neçə qat rəhmsiz, insafsız və zalımdırlar. Qulaq as, bu nağıldan özün bilərsən.

– Qızım, bahar fəslində Dan ulduzunun parlaq bir vaxtı idi. Qayadibi adlı kəndin əhli hələ yatmamışdı. Bu kənd Zaqafqaziyanın cənub tərəfində, uca dağlarla əhatələnmiş bir çay qırağında, meşə kənarında salınmışdı.

Birdən azançının "Allahü-əkbər" səsi ucaldı. Cütçülər bundan əvvəl oyanmışdılar, o zəhmətkeşlər zəmilərinə cüt əkməyə getdilər.

Getdikcə dan yerinin qızartısı artırdı. Dərələrdən və çaylardan duman qalxırdı. Günəş dağın dalından ahəstə-ahəstə çıxırdı. Hələ özü görünmürdü. Amma şəfəqi qarşıdakı uca dağın başına düşmüşdü. Sonra yavaş-yavaş qalxıb dağın dalından göründü və ruh verən qızıl zərrələrini aləmə dağıdıb cümlə yatmışları oyatdı. Çəmənlərdə, seyrəngahlarda çiçəklər qönçələrində gizlənmiş pərvanələri və arıları oyatdı. Quşların cəh-cəhi havaya ucaldı.

Bunların xoş avazları cütçünü cuşa gətirdi. O da ahəstə-ahəstə cütünü sürüb öz nəğməsini oxudu. Dağ döşündə sürüsünü otaran çoban da bayatı nəğməsini tütəyində ucaltdı. Günəş yavaş-yavaş qalxırdı, onun qızıl şəfəqi getdikcə gümüş rənginə dönürdü. Qayadibi kəndinin əhalisi durub hərə öz işinə getdi...

* * *

– Abbas, bax, gör mən nə qədər yığmışam.

– Afərin, bacım Zeynəb, indi otur, bunları dəstə tutaq, bazarda satıb sənə çoxlu kişmiş alacağam.

– Fındıq da.

– Yaxşı, fındıq da alaram.

Bacı və qardaş ətəklərinə yığdıqları qulançarı yerə töküb, bir təpənin üstündə oturdular və onları dəstə tutmağa başladılar.

Bu iki uşaq atadan yetim idi və bir quru daxmadan başqa, ataları bunlara bir şey qoymamışdı. Ancaq anaları Fatma cəhrəçilik edib bir növ gündəlik çörəyini qazanırdı. Uşaqlar kiçik olduqlarından analarına bir o qədər köməkləri çatmırdı. Abbasın on yaşı, Zeynəbin yeddi yaşı vardı. Abbas ancaq bu ildən hər gün meşəyə odun qırmağa gedirdi və qırdığı odunu şələləyib, bazarda dükançılara bir az pula satırdı. İki gün bundan qabaq Abbas odun ilə bərabər bir dəstə qulançar da yığıb bazara gətirmişdi və onu bir şahı pula satıb anasına vermişdi.

Bu gün Abbas meşəyə getməyə hazırlananda Zeynəb də qulançar yığmaq həvəsilə anasından rüsxət istədi, amma Fatma heç birini qoymaq istəmirdi, çünki quldur Səfərdən qorxurdu. Dörd il bundan əqdəm Səfərin qardaşı el davasında Qaradibi əhli tərəfindən öldürülmüşdü. Amma qatilin kim olduğu məlum deyildi. Ona görə Səfər qardaşının qanını bütün kənddən iddia edirdi.

Bir dəfə Qayadibi camaatı Səfərdən belə dəhşətli bir sifariş aldı: "Ey qayadibililər! And içirəm məni yaradan xaliqə. And içirəm, anamın, bacımın namusuna, ta sizin böyük-kiçiyinizi, arvad-uşağınızı qırıb, o gözəl vətəninizi odlayıb, tar-mar etməyincə dünyada yaşamayacağam; vaxtınıza hazır olun".

Bu xəbər hamını bərk qorxuya salmışdı, çünki Səfər dəliqanlı bir adam idi.

Bu sifarişdən çox keçməmişdi ki, Səfəri adam öldürmək üstündə Sibirə göndərdilər. Dörd il idi ki, ondan bir xəbər-ətər yox idi. Ancaq

bu yaxın zamanda Səfərin Sibirdən qaçıb, başına özü kimi dəliqanlıları cəm edərək quldurluq etməyi hər yerə yayılmışdı. Qayadibi əhli də bərk qorxuda idi.

Fatma neçə gün idi ki, işsiz idi. Ona görə istər-istəməz uşaqlara izn verdi. Onlar da sevinə-sevinə meşə tərəfə üz qoydular.

Fatma ağıllı, xoşrəftar bir arvad idi. Öz uşaqlarına da yaxşı rəftarı, bir-birilə mehriban dolanmağı tərbiyə vermişdi. Uşaqlar da analarının gözəl sifətlərini və tərbiyəsini götürmüşdülər. Çox analar bu iki tifilin tərbiyəsinə həsrət çəkirdilər.

Abbas uzunboylu, nazikbədən, ağbənizli, alagözlü, xoşsifət bir uşaq idi. Zeynəb qaraqaş, qaragöz, dolubədənli, uzunsaçlı, qırmızıyanaqlı bir qız idi. Abbas bacısını artıq dərəcədə sevirdi. Heç elə bir gün olmazdı ki, öz qazancından bacısına bir şey almayaydı.

Abbas üzünü bacısına çevirib dedi:

– Zeynəb, bu yığdığımız qulançar azdır, buna heç bir şahı da verməzlər. Dur gedək, mən bir yaxşı qulançarlıq yer bilirəm. Orada qulançar yığaq və həm də mən odun doğrayıb şələ qayırım.

– Axı, qardaş, mən yorulmuşam.

– Yavaş-yavaş gedərik, orada sən yorğunluğunu alarsan, mən özüm tək yığaram, – deyə Abbas dəhrəsini və sicimini götürüb ayağa qalxdı və bacısının da əlindən tutub dağın döşündəki meşəliyə üz qoydu.

Bir qədər meşə ilə gedəndən sonra bir gözəl və səfalı seyrəngaha çıxdılar. Bu seyrəngah yaşıl, təzə və tər otla, gözəl, ətirli, rəngli çiçəklərlə zinətlənmişdi. Rəngbərəng pərvanələr və arılar bu çiçəkdən o çiçəyə uçub bahar günəşi ilə oynaşırdılar. Hər rəngə çalan cürbəcür cücülər otlara mərcan kimi sarılmışdı. Bir tərəfdən çiçəklərin qoxusu, bir tərəfdən quşların cəh-cəhi və bir tərəfdən də baharın xoş mehi insanı bihuş edirdi. Seyrəngahın bir tərəfi qayaya dirənmişdi. Bu qayadan bir bulaq axıb şırıltı ilə aşağı tökülürdü. Suyun zərrələri havada günəşin şəfəqindən almaz parçaları kimi parıldayırdı. Bu bulaq "Şırlanbulaq" adı ilə məşhur idi. Zeynəb bu gülüstanı, bu çarqat kimi sərilmiş lalələri və çiçəkləri görcək yorulmağını unudub, – Ah nə gözəl çiçəklər var, – deyə qışqırdı və qardaşının əlini buraxıb gül yığmağa qaçdı. Abbas da ipini və dəhrəsini qoyub qulançar yığmağa məşğul oldu. Zeynəb gah çiçək yığırdı və gah da qışqıra-qışqıra pərvanələri qovurdu. Bir azdan sonra yorulub bir laləzarlıqda oturdu və

lalələrdən gəlin qayırmağa başladı. O vaxt Abbas qulançar yığa-yığa çəməndən xeyli uzaqlaşıb bir kolluq dərəyə düşmüşdü.

Gün qalxıb günortaya yaxınlaşdı. Qəflətən dağların arasına bir gurultu düşdü. Abbas elə bildi ki, göy guruldayır, amma yuxarı baxdıqda bir bulud da görmədi. Bu gurultudan bir dəqiqə keçməmiş elə bir gurultu başladı ki, deyəsən bu saat göylər uçub yerə töküləcəkdir. Abbas başını yuxarı qaldırıb gördü ki, güllə dağların başından kəndlərinə və zəmilərdə yer əkən cütçülərin və qoyun otaran çobanların üstünə dolu kimi yağır, “Quldurlar!” – deyə Abbas qışqırdı. Bir əvvəl istədi ki, dərədə gizlənsin. Sonra yadına düşdü ki, Zeynəb çəməndə açıq yerdə qalmışdır. Dərhal bacısına tərəf qaçdı ki, onu da götürüb ayı kahasında gizlənsin.

Abbas özünü o vaxt yetirdi ki, Zeynəb çəməndə başıaçıq, saçları döşünə tökülmüş, ovçu oxundan qaçan ceyrantək “Abbas, qardaş” – deyə o tərəf-bu tərəfə qaçıb qışqırırdı və dağlardan da birəhm quldurların güllələri onun üstünə dolu kimi yağırdı. Abbas ucadan səsləndi:

– Bacı, Zeynəb, qorxma, burdayam!

Zeynəb qardaşının səsini eşidib ona tərəf qaçdı. Lakin otuz qədəm getməmişdi ki, birdən “Ox!” deyib yerə yıxıldı. Abbas özünü bacısına yetirib gördü ki, Zeynəbin sinəsindən al qan qətrə-qətrə tökülüb, otları və çiçəkləri lalə rənginə döndərmişdir.

– Abbas, mənə su ver!

– Dur, bacım, qaçaq Şırlanbulağa.

Zeynəb istədi ki, qalxsın, amma bacarmadı, Abbas onu çox çətinliklə qucağına götürüb, bulağa tərəf aparmağa üz qoydu. Lakin on qədəm getməmişdi ki, quldurl bunları təzədən gülləyə tutdular. Abbas özünü və bacısını bir çuxur yerə saldı ki, oranı güllə tutmurdu. Zeynəbin lalə kimi olan üzü solub ağ zanbağa dönmüşdü.

– Abbas, yandım, mənə su ver! – deyə Zeynəb nalə edirdi.

Bacısının susuzluğu Abbasın ürəyini nəhayət dərəcədə yandırdı.

– Bacı, bu saat sənə su gətirəcəyəm, – deyə Abbas bulağa tərəf yüyürdü. Güllə müdam onun üstünə yağırdı.

Abbas özünü bulağa yetirdi. Araqçınını su ilə doldurub qayıtdı. Bu dəfə Abbas qaça bilmirdi; qorxurdu ki, suyu tökülsün, Abbas o qədər Zeynəbə yaxınlaşdı ki, onun “su” naləsini eşitdi. Birdən Abbas ufultu ilə yerə yıxıldı. Namərd güllə binəva uşağın sol böyründən dəyib

dalından çıxmışdı. Abbas yerimək istədi. Lakin üç qədəm getməmişdi ki, dübarə yıxıldı. Abbas sürünə-sürünə özünü bacısının üstünə saldı, gördü ki, gözləri yumuludur. Amma dodaqları ayrıla qalmışdır. Elə bil deyir: "Qardaş, Abbas, mənə su ver".

Abbas Zeynəbi qucaqlayıb öpə-öpə deyirdi:

– Bacı, Zeynəb, gözlərini aç, gəlmişəm.

Bu hadisədən altı saat keçdi. Dəxi tüfəngin gurultusu kəsilmişdi. Dağların arasını tüstü almışdı. Bu tüstü Qayadibi kəndinin yanmış evlərinin və bağlarının tüstüsü idi. Beş-altı saat bundan qabaq cənnət bağına bənzəyən Qayadibi kəndi indi yanıb kül olmuşdu. Əhalisi isə bir parası qətlə yetişib, yerdə qalanı da qaçıb dağlarda, meşələrdə gizlənmişdi. Quldur Səfər qardaşının intiqamını belə aldı.

Gün batdı, ay çıxdı. Nağıl olunan yerlərdən bir səs çıxmırdı. Heyvanlar və quşlar insanların vəhşi hərəkətindən elə xofa düşmüşdülər ki, hələ cürət edib yuvalarından çıxa bilmirdilər. Ay yavaş-yavaş qalxıb, qəmgin-qəmgin insanların tutduğu vəhşi əməllərinə baxırdı.

Gecədən xeyli keçmiş bir arvad dağları, daşları, meşələri axtarırdı. Bu arvad Fatma və axtardığı da iki balası idi.

Zeynəb, Abbas, gözəl balalarım, yetim balalarım, hardasınız, səs verin! – deyə Fatma nalə edirdi.

Lakin çəmən üstündə, lalələr arasında qucaq-qucağa verib qanlarına qəltan olmuş Zeynəb və Abbas – bu iki məsum, anaları Fatmanın naləsini eşitmirdilər.

# ABDULLA ŞAİQ
## (1881-1959)

## MURAD

Tiflis şəhərinin yaxınlığında Kolbasan adlı bir kənd var idi. Bu kəndin dörd bir yanı bağlıq, meşəlik yerlər idi. Elə ki bahar olurdu, ağaclar çiçəkləyir, təpələr, yamaclar yumşaq ot və çiçəklərlə döşənirdi; rəngbərəng güllərin ətri kəndi bürüyürdü. Səhər-axşam quşların gözəl nəğməsinin arası kəsilmirdi. Bahar çağı bu kənd o qədər gözəl olurdu ki, insan baxmaqdan doymurdu.

Belə tərifini etdiyimiz kənddə Bilqeys və Murad adında bacı-qardaş yaşayırdı. Bilqeys olduqca mehriban və tərbiyəli bir qız idi. Hər gün bağçalarındakı tut ağacının altında palaz salardı; oyuncaq şeylərini də yığıb öz-özünə oynardı. Arabir qonşuları Səltənət də gələrdi. Hər ikisi birlikdə deyər, gülər, oynayardılar; otaq bəzəyərdilər, bir-birinə qonaq gedib-gələrdilər. Ayaqsayma, gəlin-gəlin oynardılar. Arabir də atası aldığı "Uşaq gözlüyü" kitabının şəkillərinə tamaşa edər və oxuyardılar. Günləri xoş və asudə keçərdi.

Amma Murad heç qapı-bacada tapılmazdı. Səhərdən çıxar, bir də axşam evə qayıdardı. O gün olmazdı ki, Muradın üst-başı cırılmış evə qayıtmayaydı. Hər kəslə döyüşər, söyüşərdi. Ona görə də onu heç kəs sevməzdi. Hətta öz ata və anası da Muradı sevməzdi. Onun əlindən bacısı Bilqeysin heç rahatlığı yox idi. Onun oyuncaqlarını dağıdar və sındırar, bəzən də özünü döyüb qaçardı. Ona görə Bilqeys qardaşı Muradla heç oynamaz və ondan qorxardı.

Bilqeys mehriban bir qız olduğu üçün, qapılarındakı heyvanları və quşları da çox sevərdi. Heyvanlar və quşlar da əvəzində Bilqeysi sevərdi və ondan qaçmazdılar. Çox vaxt olurdu ki, bağçada oynadığı zaman Mərmər pişik, Dəmir it, Məstan xoruz, toyuq-cücələr Bilqeysin başına cəm olar və onun əlindəki çörək parçasını alıb yemək istərdilər. Bilqeys isə çörəyi parça-parça edib, bir az Məstan xoruza, bir az toyuq-cücələrə, bir az da it və pişiyə atardı. Hamısı soxulub yeməyə məşğul olardı. Bilqeys qara, iri gözlərini onlara dikib, baxardı. Bir də görərdi ki, it öz çörəyini yeyib qurtardı, yavaş-yavaş ağzını pişiyin qismətinə uzadır; pişik də mırıldaya-mırıldaya çalışır ki, ağzındakı çörəyi yeyib qurtarsın; həm də pəncələri ilə yerdə qalan çörəyi

bərk-bərk tutub, acıqlı-acıqlı itə baxır, amma it baxmayıb soxulur, ki, pişiyin, ya xoruz-toyuğun çörəyini qapıb yesin; bu vaxt xoruz qaqqıldaya-qaqqıldaya itin üstünə atılırdı; ya da pişik belini qaldırıb, dişlərini itin üstünə qıcayıb mırıldayır və birdən-birə sıçrayıb itin üzünü cırmaqlayardı.

Bilqeys bu tamaşadan doymazdı, gülə-gülə onların davasına baxardı.

Murad isə yoldaşlarını və bacısını incitdiyi kimi, heyvanları da incidərdi. Hələ qapılarındakı Dəmir köpəyə onun əlindən gün və dirilik yox idi. Qapı ağzında uzanıb yatarkən, Murad əlindəki daş ilə itin harası gəldi vurardı. Yazıq it quyruğunu böyrünə qısıb, vəngildəyə-vəngildəyə qaçar, yainki iri, qara ağzını açıb Murada hürərdi. Odur ki, Muradı heç sevməzdi. Onu harada görsə, qaçıb gizlənərdi. Mərmər pişik də Muradı sevməzdi. Onun kölgəsini uzaqdan görüncə, quyruğunu qısıb, tələsik özünü bir yerə soxub gizlənərdi; çünki həmişə Murad onun quyruğundan tutub dartardı. Murad pişiyin arxasınca düşdüyü zaman pişik əvvəlcə qaçar, Muradın ona yaxınlaşdığını görüncə birdən-birə dayanardı, belini dikləyib, dişlərini qıcayıb, "puf" – eləyib Muradın üstünə atılardı. Hətta bir neçə dəfə əllərini, üzünü cırmaqlayıb Muradı ağlaya-ağlaya evlərinə göndərmişdi.

Elə ki axşam olurdu, təpələrdən yamaclardan naxır mələşə-mələşə kəndə gəlirdi. Murad əlinə çomağını alıb naxırın içinə girərdi, əlindəki çomaqla o inəyin, bu öküzün harası gəldisə vurardı.

Murad bir dəfə bir qara inəyin arxasınca düşdü. İnək axırda təngə gəlib döndü və Muradı buynuzlarına götürüb yerə elə çırpdı ki, qurbağa kimi yerə sərildi. Murad tamam bir saat özünə gəlmədi. Ondan sonra Murad nə Dəmir köpəyə, nə Mərmər pişiyə, nə də inəklərə yaxın gedə bilmirdi.

Bağçalarındakı yasəmən ağacı altında bir səbət içində toyuqlar yumurtlayırdı. Bir gün Murad bağçada gəzirdi. Çil toyuq yumurtlayıb çıxanda, Murad gördü. Yavaş-yavaş gəlib yumurtaları cibinə doldurdu ki, aparsın. Məstan xoruz bunu uzaqdan görüb, uça-uça Muradın üstünü aldı.

Murad çox qorxmuşdu, bilmirdi ki, nə etsin. Axırda arxasında gizlətdiyi yumurtanı atıb qaçdı, xoruz əl çəkməyib, onun arxasınca düşdü. Muradın ayağı bir ağaca ilişib yıxıldı; cibindəki yumurtalar sındı, cibi və paltarı yumurtaya bulandı.

Murad qorxusundan evə gedə bilmirdi. Çünki paltarları başdan-ayağa yumurta sarısı idi.

Murad bağçada bir alma ağacının altında oturub nə edəcəyini düşünürdü. Gördü ki, Bilqeys bağçaya çıxdı, "Məstan, Məstan!" deyə bağırdı. Bağçanın o biri başından xoruz uça-uça gəldi. Bilqeys xoruzun başına bir papaq tikmişdi.

Mehriban qız o balaca əlləri ilə xoruzun papağını başına qoydu, lent ilə bağladı, sonra şirin dil ilə dedi ki:

– Məstan xoruzum, ceyran xoruzum, gör sənə nə gözəl papaq tikmişəm!

Deyəsən ki, xoruz da Bilqeysin mehriban dilini anlayırdı; gözlərini Bilqeysin üzünə dikib, dinməz-söyləməz dururdu. Bilqeysin qəlbinə dəymək istəmirdi; çünki Bilqeys onları çox sevirdi. Hətta sarı toyuq da, cücələri ilə Bilqeysin Məstan xoruza bağışladığı papağa diqqətlə baxırdı. Bilqeys çox şad idi.

Murad gördü ki, xoruzun başı Bilqeysə məşğuldur, cəld qaçıb yenə də yasəmən ağacının altına getdi, qorxa-qorxa ətrafa baxdı ki, görsün bir kimsə varmı. Heç kəsi görmədi, yavaşca gəldi, yumurta səbətini arxasına aldı ki, qalxıb getsin.

Yaxında qazlar otlayırmış, Murad isə onları görməmişdi. Yumurtalarını səbətlə oğurlayıb, aparmaq istədiyini görən qazlar birdən-birə hər tərəfdən Muradın yolunu kəsdilər. Murad heç bilmədi ki, qorxusundan nə etsin; çünki qazların hər biri Muradı bir tərəfə çəkirdi; xüsusən anaş qazdan çox qorxmuşdu; çünki o çox acıqlı idi. Qorxurdu ki, sıçrayıb gözlərini çıxarsın. Axırda arxasından səbəti ağzı üstə yerə atdı, yumurtaların hamısı sındı.

Murad bu dəfə əvvəlkindən də çox qorxmuşdu. Yenə alma ağacının altında oturdu. Çox qəmgin idi. Fikir edirdi ki, evə getsə, anası onu döyər; çünki həm paltarı yumurtaya batmışdı, həm də səbətdəki yumurtaları sındırmışdı.

Murad bu fikirləri eləyirdi, bir də gördü ki, Bilqeys əlində "Uşaq gözlüyü" əlifba kitabçası bağçaya çıxdı. Məstan xoruz, sarı toyuq və cücələri Bilqeysin ətrafını aldı. Bilqeys oturdu, kitabını açdı, sarı toyuğun başına əl çəkib dedi ki:

– Gözəl toyuğum! Gəl sənə bu şəkilli kitabdan dərs verim, yaxşı?..

Sarı toyuq bir Bilqeysin üzünə baxdı, bir də kitabı dimdiklədi. Bilqeys dedi:

– Deynən "A". Toyuq heç səs çıxarmadı. Bilqeys gördü ki, toyuq oxumur, cücənin birini kitabın üstünə qoyub dedi:

– Gözəl cücəm, deynən "A".

Cücə kitaba baxdı, baxdı, birdən-birə dimdiyini yuxarı qaldırıb: “cik-cik” deyə səsləndi. Bilqeys şadlığından bilmədi ki, nə etsin.

Bu zaman anası pəncərədən gülə-gülə Bilqeysin dərs verməsinə baxırdı. Bilqeys bir adam axtarırdı, cücəsinin kitab oxumasını ona göstərsin. Anasını pəncərədə görüncə, sevinə-sevinə qışqırdı:

– Ana can, bircə cücəmə bax, gör nə yaxşı oxuyur!

– Gözəl cücəm, deynən “A”.

Cücə Bilqeysə baxıb yenə də “cik-cik”, deyə səsləndi. Bilqeys gülə-gülə qara, iri gözlərini anasına dikib dedi:

– Ana can, gördün nə yaxşı oxuyur!

Anası gülə-gülə cavab verdi:

– Gözəl qızım, məgər sən pis oxuyursan ki, cücən də pis oxusun?..

Bu aralıq Məstan xoruz da Bilqeysin başının üstündə durmuşdu. Xoruz kitaba baxdı, baxdı, birdən-birə ucadan banladı. Bilqeys balaca əlini xoruzun başına çəkib dedi:

– Məstan xoruzum, sən böyüksən, oxumaq bilirsən. Qoy, bu balaca cücəni öyrədim. Qoçaq cücəm, de görüm “A”.

Cücə sarı dimdiyini açıb: “cik-cik”, deyə oxudu.

Murad alma ağacının altında oturub qəmgin-qəmgin bunlara baxır, öz-özünə fikir eləyirdi: “Nə üçün Bilqeysi hamı sevir? Hamı ona məhəbbət yetirir? Amma məni heç kəs sevmir, hamı mənə nifrət edir? Nə üçün?..”

## USTA BƏXTİYAR

Bir gün öz taleyindən razı olan zalım bir padşah əyanları arasında oturub onun haqqında deyilən təriflərə fərəhlə qulaq asırdı. Qoca vəzirin bu söhbətlərdə iştirak etmədiyini hiss edincə şahın əhvalı pozuldu, vəzirin bu söhbətlərə münasibətini bilmək məqsədilə soruşdu:

– Vəzir, dünyada məndən daha bəxtiyar adam varmı?..

Qoca vəzir öz fikrini açıq söyləməkdən qorxaraq, bir an başını yerə dikib durdu. Saray adamları vəzirin susduğunu görüb, yer-yerdən dedilər:

– Padşahım, yer üzündə sizdən xoşbəxt kim ola bilər? Sizdə olan bu calal, bu dəbdəbə kimdə var?

Vəzirin susmağından şah qəzəbləndi. Qaşlarını çataraq, acıqlı səslə:

– Vəzir, mənim sualıma niyə cavab vermirsən? – deyə soruşdu.

Vəzir baş əyib cavab verdi:

– Padşahım, həqiqəti söyləməkdən qorxuram. Bəxtiyarlıq haqqında mənim fikrim başqadır. Onu calal və dəbdədə ilə ölçmək olmaz!

Bu sözlər padşahı daha da qəzəbləndirdi:

– Qoca, yoxsa məndən daha bəxtiyar adam tanıyırsan?

Qoca vəzir baş əyib cavab verdi:

– Qibleyi-aləm, sizin kimi xoşbəxt bir padşahın vəziri olduğum üçün mən də özümü bəxtiyar bir adam sayıram. Bizim bu şəhərdə bir dəmirçi var, adı Əhməddir. Bu adam dünyada dərd nədir, qəm nədir bilməz. O qədər gözəl və xoşbəxt həyat sürür ki, hamı onun adını "Bəxtiyar" çağırır. Dəmirçi Əhməd desən, heç kəs onu tanımaz. O bu şəhərdə Usta Bəxtiyar adı ilə məşhurdur.

Padşah istehza ilə gülərək soruşdu:

– Onun bəxtiyarlığı nədən ibarətdir? Dəmirçilik hara, bəxtiyarlıq hara?

– Yox, padşahım, mən də birinci dəfə eşitdiyim zaman inanmadım. Dükanına getdim, evinə getdim, axırda onun çox bəxtiyar bir adam olduğuna inandım.

– Gördüklərindən danış, biz də bilək.

– Danışmaqla başa gəlməz, onu görmək lazımdır!

Padşah lap hövsələdən çıxdı, elə o saatca taxtdan enərək:

– Yaxşı, qalx gedək, onu mənə göstər, görüm səhərdən axşamacan çəkic vuran bu kasıb dəmirçinin məndən nəyi artıqdır, – dedi.

Vəzir qalxdı, hər ikisi dərviş paltarı geyib yola düşdü. Bazara çatdıqda, vəzir dəmirçi Əhmədin dükanını göstərib, özü qayıtdı. Padşah dərviş paltarında gedib Usta Əhmədin dükanı ağzında dayandı; Əhməd qonşu dəmirçilərlə söhbət edirdi. Dəmirçilərdən biri ondan soruşurdu:

– Usta Bəxtiyar, biz də sənin kimi dəmirçiyik. Bu nədəndir ki, sənin çəkicinin altına düşən dəmir o saat gözəl bir alət olub çıxır? Bunun sirrini bizə də öyrət!

– İş çəkicdə deyil, iş onu vurmaqdadır.

– Yaxşı, biz də elə onu öyrənmək istəyirik. Sən çəkici istədiyin yerə elə düz vurursan ki, bir tük qədər də o yan-bu yan olmur. Mən niyə elə vura bilmirəm?

– Sənin qəlbində o qədər xılt-mılt var ki...

Başqa bir dəmirçi Usta Bəxtiyarın sözünü kəsdi:

– Bu doğrudur, mən dəmirçiliyə başlayanda on səkkiz yaşım var idi. Usta Bəxtiyar isə elə bu sir-sifətdə toxtamış kişi idi. İyirmi beş ildir dəmirçiyəm. Bu iyirmi beş ildə bir dəfə onu dərdli, kədərli görməmişəm. Həmişə şaddır. Mən qocalıram, o, gündən-günə cavanlaşır. Heç olmasa bizə bu sirri başa sal.

Usta Bəxtiyarın üz-gözündə, həmişə gülümsəməyə alışmış dodaqlarında uçuşan sevinc qığılcımları çəkic altında odlu dəmirdən uçuşan qığılcımlara qarışdı. O, nə isə cavab vermək istəyirdi ki, gözü qapıda dayanmış dərvişə sataşdı: çəkici əlindən yerə qoyub:

– Ağa dərviş, günortanız xeyir olsun, mənə görə qulluq?

Dəmirçilərdən biri qəhqəhə ilə gülərək dedi:

– Günəş çoxdan əyilib, axşamdır, biz dükanı bağlayıb evə getmək istəyirik, bu isə ağa dərvişə günortanız xeyir, deyir.

– O həvəslə ki, o işləyir, yaxşı ki, sabahın xeyir demədi.

– Kişi yorulmaq bilmir.

Usta Bəxtiyar gülümsəyərək:

– Sənətini sevən yorulmaz! Buyurun, ağa dərviş, əmriniz nədir?

Dərviş gözlərini Usta Bəxtiyarın üzünə dikərək:

– Mənim səninlə işim yoxdur, – deyə geri çəkildi.

* * *

Usta Bəxtiyarın bütün ailə üzvləri süfrə başına oturub, deyir-gülür, danışırdılar. Bu zaman qapı döyüldü. Qapını açan usta Bəxtiyar bazarda gördüyü dərvişi dərhal tanıdı, qolundan tutaraq:

– Buyur, ağa dərviş, buyur xoş gəldiniz! – deyə onu içəri gətirib yer göstərdi.

Usta Bəxtiyar qonağı məşğul etmək üçün şirin-şirin danışırdı. Süfrəyə çay gəldi. Usta Bəxtiyar stəkanı qaldırıb baxdıqdan sonra:

– Pəh, pəh, nə gözəl dəm çəkib, padşah da ömründə belə çay içməyib, – dedi.

Bir az sonra süfrəyə piti gəldi. Ceyran hər kəsin xörəyini qablara çəkib qabağına qoydu. Dərviş ətin az olduğunu görüb:

– Ət neçə girvənkədir? – deyə soruşdu.

– Hər gün yarım girvənkə ətimiz olur. Bu gün qonaq gəldiyinə görə bir fincan su artırmışam, – deyə Ceyran gülümsəyərək cavab verdi.

Usta Bəxtiyar məmnun tövrlə dedi:

– Deməkk, ağa dərviş öz payını yeyir, bizə heç minnəti yoxdur.

– Maşallah, bir ustaya bax, əllərini görmək olmayır. Buna həzar-peşə Bəxtiyar deyərlər. Dünyada bunun əlindən gəlməyən bir sənət yoxdur.

Dərviş ürəyində gülərək:

– Hərif dəmirçilikdən bənnalığa keçibdir, – dedi.

Axşam oldu, şamlar yandı. Dərviş Usta Bəxtiyarın kefini soruşmaq üçün qapıya gəldi. Otaqda saz çalınırdı. Saz o qədər məharətlə çalınırdı ki, dərviş həvəslə dinləməyə başladı. Alğı qurtarınca hər tərəfdən:

– Sağ ol, ata, sağ ol, ata, yaşa, yaşa! – səsləri ucaldı. Bu vaxt Ceyranın səsi eşidildi:

– Əhməd, sən əlinə bu sazı alanda cavanlığımız yadıma düşür.

Usta Bəxtiyar şən və gurlayan səslə:

– İndi də heç qocalmamışıq, ay arvad, biz həmişəbaharıq, – dedi.

Ertəsi gün Usta Bəxtiyarı padşahın hüzuruna gətirdilər... Usta Bəxtiyar taxtın qabağında durub şaha baş əydi.

Padşah soruşdu:

– Adın nədir?

– Padşah sağ olsun, adım Əhməddir.

– Bəs nə üçün sənə Usta Bəxtiyar deyirlər?

– Bu adı mənə camaat veribdir.

– Çox yaxşı, Usta Bəxtiyar, eşitmişəm ki, sən çox qoçaq adamsan; ona görə də səni sarayda fərraş təyin edirəm.

Vəzir: “Pəh, bu kişi doğrudan xoşbəxtdir, – deyə pıçıldadı. – Çəkicin, daş-palçığın üzündən qurtardı. Maaşı yoxsa da, gündə on-on beş qran kasıb-kusubdan çalıb-çapar, bu pul onun dədəsinə də çatar, özünə də”.

Bu sözləri eşidincə Usta Bəxtiyarın gözləri kəlləsinə çıxdı. İkiqat əyilib, padşahın təklifini rədd etmək istədi:

– Qibleyi-aləm, məni çevir başına, fərraş eləmə.

Vəzir baş əyərək:

– Padşahım, yaxşı tanımısan, fərraşlıq bu kişinin elə bil boyuna biçilib, – dedi.

Bundan sonra Usta Bəxtiyar çox yalvardı, yaxardı, min bir bəhanə gətirdi, qəbula keçmədi. Padşah “Sözüm sözdür”, deyə inadından dönmədi. Fərraşı çağırdılar. O, içəri girib baş əydi. Padşah fərraşa paltarını soyunub Usta Bəxtiyara verməsini əmr etdi. Fərraş istər-istəməz əsə-əsə üst küləcəsini soyundu, xəncərini açdı, papağını yerə qoydu,

ürəyində: "Bu necə murdar adamdır, gətirəndə beş qran istədim vermədi, hələ üstəlik fərraşlığımı da əlimdən aldı", deyə pıçıldadı.

Padşah Usta Bəxtiyara əmr etdi:

– Al, bu küləcəni geyin, xəncəri belinə bağla, papağı da qoy başına.

Usta Bəxtiyar qəbul etmək istəmədi. Padşah fərraşa:

– Gədə, vur bu nadürüstün boynu! – deyə qışqırdı.

Fərraş alıcı quş kimi onun üstünü aldı. Əlindəki xəncəri qaldırıb vurmaq istərkən Usta Bəxtiyar onu itələdi:

– Padşah, mənə, balalarıma yazığın gəlsin, mən yaşamaq istəyirəm.

– Yaşamaq istəyən mənim əmrimdən çıxmaz!

Nəhayət, Usta Bəxtiyar fərraşlığı qəbul etməyə məcbur oldu.

Axşam oldu. Usta Bəxtiyar evə qayıdarkən sabahın ərzağını almağa pulu yox idi. Evə əliboş getmək istəmədi. Çox düşündü, nəhayət, xəncərin tiyəsini çıxarıb satdı və sabahın azuqəsini alıb evə qayıtdı. Qapını açıb içəri girəndə onu fərraş paltarında görüb hamı heyrətlə soruşdu:

– Bu nə paltardır?

Usta Bəxtiyar başından keçən macəranı nağıl elədi:

– Sabah üçün ərzaq almağa pulum yox idi. Xəncərimin tiyəsini çıxarıb satdım, – deyə söhbətinə yekun vurdu.

Hamı qəm-qüssəyə batdı.

Padşah əhvalatı bilmək üçün vəziri ilə bərabər dərviş paltarında Usta Bəxtiyarın qapısına gəldi. Otağa həmişəki şənlik yerinə dərin bir səssizlik, qəm və kədər çökmüşdü. Vəzir gülə-gülə yavaşca:

– Padşah sağ olsun, bəxtiyarlığını əlindən aldın, – dedi.

Səhər oldu. Usta Bəxtiyar fərraş paltarını geyinib saraya getdi. Qapı arxasında durub şahın əmrini gözləyirdi. Bir saat sonra padşah taxta oturdu. Vəzir, vəkil və əyanlar ətrafında səf çəkib əl-əl üstündə durdular. Padşah səsləndi:

– A gədə, fərraş!

Usta Bəxtiyar tez qapını açıb içəri girdi. Padşah onu gözucu süzdükdən sonra əmr etdi:

– Köhnə fərraşı bura çağır!

Usta Bəxtiyar hələ də saraydan getmək istəməyən köhnə fərraşı çağırdı. Hər ikisi padşahın hüzurunda əl bağlayıb dayandı. Köhnə fərraş elə düşünürdü ki, padşah onun fərraşlığını özünə verəcək, ona görə də qaşqabağı açıq idi. Padşah, Usta Bəxtiyara gözləmədiyi halda əmr etdi:

– Fərraş, vur bu nadürüstün boynunu! – deyə qışqırdı.

Usta Bəxtiyarın gözlərinə qaranlıq çökdü, nə edəcəyini bilmədi. Köhnə fərraş taxtın ayağına qapanıb ağlamağa, yalvarmağa başladı.

Padşah Usta Bəxtiyara qəzəblənib qışqırdı:

– Gədə, sənə demirəm vur bunun boynunu!

Ömründə bir adam öldürməmiş, günahsız qana batmamış Usta Bəxtiyar nə edəcəyini bilmirdi. Padşahı bir az da qəzəbləndirsəydi, öz başını kəsəcəkdi. Xəncərin isə tiyəsi yox idi. Ancaq iti ağlı onun köməyinə çatdı – o, vəziyyətdən belə çıxdı:

– Padşah sağ olsun, mənim bu xəncərimin bir xasiyyəti var: başı vurulan adam günahsız olanda tiyəsi yox olur. İndi görək bu köhnə fərraş necə adamdır.

Bəxtiyar bu sözləri deyib xəncərin qəbzəsindən tutub dartdı. Qəbzə tiyəsiz idi.

Bəxtiyar sevincək:

– Gördünüz, qibleyi-aləm, görünür, bu adam günahsız imiş, – dedi.

Padşahın əmri ilə Bəxtiyara təzə iti xəncər gətirdilər. Bu padşah Bəxtiyarın kələyinin qabağını almaq istədi. Ancaq nə qədər çalışdı, o, xəncərə yaxın düşüb fərraşın başını vurmağa razılıq vermədi. Hövsələdən çıxan padşah axırda onu tövləyə saldırdı, ac-susuz saxladı. Üç gün sonra yenə onu hüzuruna çağırıb soruşdu:

– Hə, necəsən? Fərraşlığı qəbul edirsən, ya yox?

Usta Bəxtiyar:

– Yox, mən öz sənətimi istəyirəm, – dedi.

Padşah onu yenə tövləyə saldırdı. Padşah hər üç gündən bir onu çağırıb soruşdu. Bəxtiyar yenə həmin cavabı verdi.

Vəzir görürdü ki, Bəxtiyarın hərəkətləri onun birinci gün padşaha dediyi sözləri təsdiq edir. O, həqiqətən özünü xoşbəxt bir adam hesab edirmiş. İndi isə heç bir qüvvə onu öz inadından, əvvəlki həyatına qovuşmaq arzusundan döndərə bilməyəcəkdir. Ancaq bunun sirrini yenə özü üçün aydın edə bilmirdi. Odur ki, padşaha müraciətlə dedi:

– Qibleyi-aləm, bu kişi səhərdən axşamacan isti kürənin qabağında tər tökə-tökə çəkic vurmağı fərraşlıq kimi ali vəzifədən artıq tutur; burada yəqin bir sirr və hikmət vardır.

Padşah əmr etdi, dəmirçini gətirdilər. O, həmişəki kimi başını yerə dikib durdu. Padşah soruşdu:

– A kişi, de görüm fərraş olursan, yoxsa yox?

Usta Bəxtiyar cavab verməyib getməyə başladı. Padşah soruşdu:

– Gədə, hara?

Dəmirçi cavab verdi:

– Padşah sağ olsun, yenə tövləyə.

Dəmirçinin bu hərəkəti padşahı daha da qəzəbləndirdi. O, hirsini boğaraq soruşdu:

– Gədə, sən bu dəmirçilikdən neçün əl çəkmək istəmirsən? Burada yəqin bir sirr var. O sirri gərək mənə açasan.

Dəmirçi bir qədər düşündükdən sonra cavab verdi:

– Qibleyi-aləm, burada elə bir çətin şey yoxdur. Sirri açaram, amma bir şərtlə.

– Şərtin nədir?

– Məni azad edib öz sənətimi işlətməyə razı olsanız, deyərəm.

Padşah söz verdi. Usta Bəxtiyar belə başladı:

– Atam kasıb bir kişi idi. Palçıq daşıyıb qazandığı qəpik-quruşla ailəsini dolandırırdı. Məndən başqa atamın dörd oğlu, iki qızı var idi. Anam da varlıların evində təndirə çörək yapır, paltar yuyurdu. Külfətimiz çox olduğuna görə məşəqqətlə yaşayırdıq. Atamın böyük oğlu mən idim. On beş yaşına çatanda atam dilə gəldi: “Ay oğul, görürsən ki, məni oğul-uşaq basıb, sən böyük oğlansan, heç olmasa get işlə, sən də qazan, bəlkə birtəhər yaşayaq, – dedi. Mən uşaqlıqdan işləməyi sevmirdim. Razı olmadım, atam acıqlandı, zornan məni çəkə-çəkə aparıb bir dülgərin yanında ayda üç quruşa şagird qoydu. İşləmək mənə hər cəzadan ağır gəlirdi. Usta dedi: “Qalx, o taxtaları gətir bura”. Mənim gözlərimə qaranlıq çökdü. “Usta, qollarım ağrıyır, gətirə bilmərəm”, – dedim. Usta mənə acıqlı baxıb: “Oğlan, bəs ayda üç quruşu müftə alıb yemək istəyirsən? Get, tənbəl şagird mənə gərək deyil”, – dedi. Sevinə-sevinə evə qayıtdım. Anam həyətdə paltar yuyurdu. Məni görüncə soruşdu: “Ay Əhməd, niyə qayıtdın?” Mən qaşqabağımı sallayıb, yerə otura-otura: “Usta dedi: get, mənə şagird lazım deyil”, – dedim. Anam başını bulaya-bulaya: “Sənin kimi tənbəl oğuldan bir kor qız yaxşıdır”, – dedi. O gün atam da məni çox danladı. Səhər zornan aparıb məni bir bənnanın yanında şagird qoydu. Bənna məni hər dəqiqə buyururdu: “Oğlan, durma, su gətir, palçıq hazırla!” Bu iş mənə çox çətin görünürdü. Gözlərimi döyə-döyə: “Usta, mən palçıq hazırlamaq bacarmıram”, – dedim. O mənə sərt-sərt baxıb: “Gədə, bəs bacarmırsan, müftə yeyib-yatmağı bacarırsan?! Get, mənə tənbəl şagird gərək deyil!” – dedi. Ürəyim sakit oldu. İlan ağzından

qurtaran qurbağa kimi sevinə-sevinə evə qayıtdım. Atam, anam nə qədər məni döydü, söydü, danladı, mən zəhməti, işi sevə bilmədim. Düz iki il yazıq atam məni hansı sənətə qoydu, hər birinə bir bəhanə gətirib qaçdım. Bizimlə qapı-qapıya bir dəmirçi olurdu. Onun bir qızı vardı, adı Ceyran idi. Məndən üç-dörd yaş kiçik idi. Hər gün həyətdə bir yerdə oynayırdıq. Tənbəlliyimi görüb o məni hər gün danlayırdı, hərdən mənə deyirdi: "Sən yaxşı oğlansan, hayıf ki, tənbəlsən. Tənbəl adam xoşbəxt olmaz, mənim sənə yazığım gəlir". Axırda mən bu qıza bir könüldən min könülə aşiq oldum. Bir gün fürsət tapıb fikrimi qıza açdım. "Ceyran, mənə gələrsənmi?" – dedim. Qız mənim sözümə gülüb: "Sənin kimi tənbəl, işsiz, sənətsiz oğlana hansı qız gələr?" – dedi. Elə bil, başıma bir qazan qaynar su tökdülər. Bu söz məni çox bərk götürdü. Bir az özümə gələndən sonra yenə soruşdum: "Ceyran, bir sənət öyrənsəm necə?" O gülərək: "Tənbəlliyi atsan, yaxşı sənət öyrənsən, gələrəm" – dedi. Şadlığımdan bilmirdim ki, neyləyim. Atamın yanına gəlib: "Ata, dəmirçi olmaq istəyirəm, məni qonşumuz Həsən dayının yanında şagird qoy", – dedim. Ata-anamın qırışığı açıldı. Atam: "Çox yaxşı, oğlum, kaş sən işlə!" – dedi. Sabahdan atam aparıb məni qonşumuz Həsən dayının dükanında şagird qoydu. Usta Həsən nə əmr elədi, o saat yerinə yetirdim. Ustanın işləməyinə fikir verib öyrənməyə çalışırdım. Beş-altı ayda dəmirçiliyi öyrəndim. O qədər yaxşı öyrəndim ki, ustam ən çətin işləri mənə tapşırırdı. Mən də canla-başla çalışıb o işi ustamdan da yaxşı qayırırdım. Həsən dayı bir gün əlimdə işlədiyim kotana baxıb: "Sağ ol, Əhməd! Sən gözəl usta olacaqsan! Çəkici istədiyin yerə vurursan, həm də məndən cəld işləyirsən" – dedi. İşlədikcə öz sənətimə olan şövqüm o qədər artdı ki, yorulmaq nədir bilmirdim. Bunun sayəsində dəmirçilikdə şöhrət qazandım. Qayırdığım kotan, xış, bel, balta, dırmığı kəndlilərimiz alıb aparırdı. Çəkicimin altından çıxan hər şey mənə fərəh verirdi. Çünki Ceyran qıza evlənmək üçün yaxşı sənətkar olmağa söz vermişdim. Öz sənətimə və Ceyrana olan sevgim məni bəxtiyar elədi. Sözün qısası, Ceyran qıza evlənib, yaxşı bir ailə qurdum. Məni xoşbəxt yaşadan bu iki şeydir: biri sənətim, biri də məhəbbətim.

Bəxtiyar öz söhbətinə belə yekun vurdu:

– Padşah, məni bu iki sevgilimdən ayırma, mən bunlarsız yaşaya bilmərəm.

## OYUNÇU BAĞALAR

Böyük bir binada eyni sinifdə oxuyan dörd-beş məktəbli yaşayırdı. Uşaqlar hər gün məktəbdən qayıtdıqdan sonra geniş həyətin günəşli və havalı tərəfində toplanıb oynayar, qaçışardılar. Yorulduqları zaman taxta barmaqlıqla hasarlanmış bağça yanındakı skamyada oturub danışardılar. Bir gün yenə bir yerə yığılıb oynayırdılar. Aslan əlində topu oynada-oynada gəldi. Uşaqlar qaçıb onun ətrafını alaraq dedilər:

– Aslan, topu haradan aldın?

– Ver bura oynayaq.

– Gəlin "topaldıqaç" oynayaq.

Aslan əli ilə uşaqları itələyib dedi:

– Çəkilin, heç kəsə verməyəcəyəm, özüm tək oynayacağam!

Uşaqlar etiraz etdilər:

– Aslan, nə olar, qoy biz də oynayaq.

– Hamımız oynayaq, hamımız.

Aslan yenə bağırdı:

– Çəkilin, özüm tək oynayacağam!

Uşaqlar durub baxırdı. Aslan da topu əlində atıb-tuturdu. Teymur soruşdu:

– Aslan, bu topu haradan aldın?

– Məktəbdən gələndə bir uşağın əlindən alıb qaçırtdım, – deyə Aslan saymazyana cavab verdi.

Qanbay təəccüblə soruşdu:

– Bir uşağın əlindən alıb qaçırtdın? Müəllim deməyib ki: "məktəbli oğurluq etməz?!"

Aslan topu oynada-oynada eyni laqeydliklə cavab verdi:

– Mən oğurlamamışam ki... əldən alıb qaçırtmışam.

– O da elə oğurluqdur.

– Yox, oğurluq deyil!

– Əlbəttə oğurluqdur, özgəsinin malıdır.

– Yazıq uşaq indi ağlaya-ağlaya qalıb.

– Hələ üstəlik evdə ata-anası da döyəcək.

– Nə eləyim, qoy döysün, – deyə Aslan topu havaya atdı. Teymur topu onun əlindən yerə saldı. Uşaqların hamısı topa tərəf qaçdı. Əvvəlcə topu Sara götürdü. Aslan topu ondan almaq istədi: Sara gördü

ki, gücü çatmayacaq, topu uzağa atdı. Uşaqlar yenə qaçdı. Bu dəfə topu Qanbay götürdü.

Aslan yetişincə topu Saraya atdı. Aslan ona tərəf qaçdı. Teymur bir az aralanıb bağırdı:

– Sara, Sara, bura at!

Sara topu Teymura ötürdü. Qanbay bağırdı:

– Sən də mənə at!

Aslan yetişincə Teymur da Qanbaya tulladı. Aslan hər tərəfə qaçdı, topu ala bilmədi. Axırda acıqlandı və yoldaşlarını söydü. Bu hərəkət Qanbayın xoşuna gəlmədi. Topu aslana atıb dedi:

– Yum ağzını, nə pis qoxuyur. Tərbiyəsiz, oğru!

Aslan topu tez götürüb cavab qaytardı:

– Oğru sənsən!

– Mən də oğru olsaydım, sənin kimi özgəsinin topunu qaçırardım.

– Hünərin var, sən də qaçırt.

– Mən heç kəsin topunu qaçırtmaram. Keçən il də sinifdə Səmədin qara cildli dəftərini oğurlamışdın.

Teymur gülə-gülə dedi:

– Hə, yadımdadır, müəllim onu qovmaq istəyirdi. O qədər ağladı, yalvardı ki, müəllimin yazığı gəldi.

Qanbay çığırdı:

– Bu yana gəlin, onunla oynamayın!

Sara dedi:

– Doğru deyir, gəlin bu tərəfə, özümüz oynayaq.

Uşaqların hamısı Qanbayın ətrafına yığıldı.

– Sabah istirahət günüdür. Xalam oğlunun yanına gedəcəyəm. Onun topu var, – deyə Teymur özünə təskinlik verdi. Sara yoldaşlarının pərtliyini dağıtmaq üçün bildikləri oyunlardan birinə başlamağı təklif etdi:

– Nə oynayaq, tez olun, oyunun adını deyin!

Qanbay sevincindən sıçrayıb dedi:

– Doğrudan sabah istirahət günüdür. Ay can, ay can! Atam məni heyvanxanaya aparacaq. Keçən həftə də sirkə aparmışdı. Orada itlərdən çalğıçı dəstəsi vardı. Biri kamança çalır, biri oynayır, o biriləri də əl vururdu. Sonra suitilər gəldi. Topu burunları ilə bir-birinə atıb-tuturdu. Hələ bir fil bizi o qədər güldürdü ki...

Sara da istirahət gününü boş keçirməyəcəkdi. Odur ki, dedi:

– Nə olsun, mən də sabah teatra gedəcəyəm.

Teymur özünü saxlaya bilmədi:

– Mən də kitabxanadan yeni kitablar alıb oxuyacağam. Kartondan maşın və təyyarə qayıracağam.

Qanbay dedi:

– Sən oxuduğun kitablar nəyə gərəkdir. Elə maşınlardan, təyyarələrdən danışır.

Teymur gülə-gülə cavab verdi:

– Maşın yaxşıdır, təyyarə yaxşıdır, yoxsa ilan-çayan, kirpi, dovşan? Sən də elə kitablar oxuyursan ki...

Sara Qanbayı müdafiə etməyə çalışdı:

– Nə olsun, o heyvanları sevir, onlardan danışan kitabları oxuyur, sən də maşınları.

Teymur soruşdu:

– Hansı yaxşıdır?

– Hər kəs hansını sevirsə, o yaxşıdır, – deyə Sara cavab verdi.

Ülkər bağçanın yanındakı skamyada oturub onları dinləyirdi. O, orta məktəbin son sinfində oxuyub, ciddi, bilikli şagird olduğu kimi, pioner təşkilatının da rəhbəri idi. Uşaqların danışığı onda çox maraqlı fikirlər oyatdı. O öz-özünə düşünərək: "Doğrudan da pioner təşkilatı rəhbəri üzərinə necə mühüm vəzifələr düşür" – dedi; sonra onları çağırdı:

– Uşaqlar, bura gəlin!

Uşaqlar bir dəqiqədə üzük qaşı kimi onun ətrafını aldılar. Ülkər dedi.

– Söhbətinizi eşidirdim. Bundan sonra istirahət və tətil günlərində sizinlə özüm məşğul olacağam ki, gördüyünüz işlər faydalı olsun.

Uşaqlar sevinclərindən sıçrayırdılar. Teymur soruşdu:

– Sabah bizi hara aparacaqsınız?

– Sizə top gətirəcəyəm. Sabah meydançada futbol oynayacaqsınız, – deyə Ülkər cavab verdi.

Uşaqların üzünü sevinc bürümüşdü. Bu zaman Aslan da əlində top gəldi və bağıra-bağıra dedi:

– Sabah hara gedəcəksiniz?

Teymur ona acıqlı baxıb dedi:

– Sən heç yerə.

Ülkər dedi:

Yox, onu da aparacağıq.

– Biz onunla oynamaq istəmirik.
– Nə üçün?
– Çünki o, oğurluq edir.
Aslan bu töhmətlərə dözmədi:
– Oğru özünsən!
Sara acıqlı-acıqlı Aslana baxıb dedi:
– Oğru olsaydı, o da uşaqların topunu götürüb qaçardı.
Teymur əlavə etdi:
– Sinifdə uşaqların dəftərini oğurlardı.
Aslan lap təklənmişdi. Bu haqlı tənqidlərə cavab vermək çox çətin idi. Bir müddət özünü itirdi. Birdən hönkür-hönkür ağlamağa başladı. O, çarəsiz qalaraq, ancaq bu sözləri deyə bildi:
– Sizin bir şeyinizi oğurlamamışam ki?!
– Əlinə düşsə oğurlarsan, – deyə Sara qəzəblə Aslana baxdı.
Ülkər uşaqlara acıqlandı:
– Susun, bundan sonra Aslan daha bu cür yaramazlıq etməz. – Sonra üzünü Aslana tutub soruşdu:
– Aslan, topu əlindən aldığın uşağı tanıyırsanmı?
– Özünü də tanıyıram, evlərini də.
– Sabah sizə top gətirəcəyəm. Sən apar onun topunu özünə ver, gəl. Sən gəlincə bir də tətil və istirahət günlərində aparacağımız işlərə dair plan tutaq.
Aslan getdi. Ülkər uşaqları başına toplayıb bir-bir onların rəyini soruşdu:
– Sara, sən tətil günlərində nə kimi işlərlə məşğul olmaq istəyirsən?
– Mən teatra getmək istəyirəm.
– Daha nə sevirsən?
– Bir də bağça uşaqlarını gəzdirməyi, oynatmağı.
– Teymur, sən nə sevirsən?
– Mən maşınlardan, gəmilərdən, təyyarələrdən danışan kitabları sevirəm.
– Qanbay, bəs sən nə ilə maraqlanırsan?
– Mən heyvanları sevirəm. Hər gün heyvanxanaya, sirkə getsəm, yenə doymaram.
Sara Qanbayın dediklərini təsdiq etdi:
– Doğru deyir. Məktəbdə təbiət kabinəsinə girdiyi zaman heç çıxmaq istəmir, gözü şəkillərdə qalır.
Teymur əlavə etdi:

– Təbiət dərslərində heyvanların yaşayışı və xasiyyətləri haqqında o qədər sual verir ki, müəllim lap təngə gəlir.

Ülkər qoynundan bir parça kağız və qələm çıxarıb sıra ilə yazdı: muzey, uşaq bağçası, teatr, heyvanxana, sirk, fabrik və zavodlar.

Bu zaman Aslan qaça-qaça gəldi, üzünü Ülkərə tutub dedi:

– Topu aparıb uşağın özünə verdim. O qədər sevindi ki...

Sara soruşdu:

– Uşaq özü harada idi?

– Qapının ağzında oturmuşdu. Yanına gəlincə məni tanıdı. Üzümə acıqlı-acıqlı baxdı. "Bu top sənindirmi?" – deyib topu göstərincə əlimdən dartıb aldı və gözlərini üzümə dikib: "Hə, mənimdir", – dedi. Mən də bir söz deməyib qayıtdım. Uşaq sevinə-sevinə həyətə qaçdı.

Aslanın bu hərəkətindən hamı məmnun qaldı. Ülkər sevincək halda dedi:

– Qoçaq Aslan, yaxşı elədin. Bundan sonra heç kəsin topunu götürüb qaçma. Yoldaşlarından soruşmuşam, de görüm tətil günlərində sən nə işlə məşğul olmaq istəyirsən? Nəyi çox sevirsən?

Aslan bir az düşünüb:

– Mən aqronomluğu sevirəm, – dedi.

Ülkər: "Yaxın kolxoz və sovxozlara tənəzzöh" sözlərini də plana əlavə etdi. Sonra üzünü uşaqlara tutub dedi:

– Sabah futbol oynayacaqsınız. Günortadan sonra sizə bir kitab oxuyacağam. Kitab bir uşağın qayırdığı bir təyyarədən danışır. Gələn istirahət günü sizi muzeyə aparacağam. O biri tətildə isə heyvanxanaya gedərik. Sonra teatra, sirkə, uşaq bağçasına, yaxın kolxoz, sovxozlara tənəzzöh təşkil edərik.

Uşaqlar çox razı qaldılar.

Birinci istirahət günü uşaqlar üçün çox xoş keçdi. Səhər futbol oynadılar. Günortadan sonra "Kağızdan yeni təyyarə" kitabını oxudular. Ülkər kitabı oxuduqca balaca Məmişin ustalığına hamısı təəccüb edirdi. Teymur diqqətlə qulaq asırdı. Arabir içini çəkərək:

– Mən ondan da yaxşı təyyarə qayıracağam, – deyirdi. Ülkər kitabçanı oxuyub qurtardıqdan sonra Teymura baxdı. Teymur köksünü ötürüb dedi:

– O Məmiş burada olsa idi, bir yerdə təyyarə qayırardıq.

Ülkər gülüb cavab verdi:

– Bu qədər yoldaş sənə bəs deyilmi?

Teymur ürəyiaçıq və zarafatcıl idi. Əli ilə yoldaşlarını göstərib dedi:

– Bunlarla mənimki tutmur. Biri kələmdən, soğandan, biri kirpidən, dovşandan danışır.

Ülkər cavab verdi:

– Bunlar hamısı lazımdır. Heç bir şeyə “pis” demək olmaz! Hünər bir işi yaxşı bacarıb, o yolda müvəffəq olmaqdır.

Bu fikirlə uşaqların hamısı razılaşdı. O axşam nəşələri yerində olduğundan dərslərini daha gözəl hazırladılar və sabah sinifdə müəllimin suallarına yaxşı cavab verdilər. Onlar anlamışdılar ki, yaxşı sənət sahibi olmaq üçün, hər şeydən əvvəl, bilik lazımdır.

Uşaqlar istirahət günlərini dörd gözlə gözləyirdilər.

O biri həftə heyvanxanaya getmişdilər.

Dəmir qəfəslərdə sıra ilə düzülmüş heyvanlara və quşlara tamaşa edirdilər. Teymur bir dəmir qəfəsin yanından keçərkən ona bir əl uzandı. Dönüb baxarkən gördü ki, meymundur. Qəfəsin içində böyük, kiçik meymunlar oynaşırdı. Teymur Qanbayı səslədi:

– Bura gəl, bura gəl! Bax, meymunlar necə oynaşır, əli ilə az qala məni tutmuşdu.

Qanbay onlara diqqətlə baxır və hər birinin hansı cinsdən olduğunu düşünürdü. Teymur da əlindəki ağacı qəfəsə uzadıb, onları acıqlandırırdı.

Böyük bir meymun gəlib qəfəsin barmaqlığı ucunda etinasız dayandı. Teymur ona nə qədər ağac uzatdısa, əsla hərəkət etmədi.

Qanbay və Ülkər bir neçə dəfə ona dedilər: “Acıqlandırma, əlini dişlər”, Teymur fikir vermədi. Bir də ağacı uzadarkən, meymun ildırım kimi şığıyıb, onun qolunu iki əli ilə tutdu və ağzına saldı. Teymur qorxub qışqırdı. Qanbay əlindəki ağacla meymunu vurdu. Ülkər də yumruğu ilə ona hücum etdi. Meymun qorxub Teymuru buraxdı.

Teymurun qolunda meymunun dişlərinin yeri qalmışdı. Qolu bərk ağrıyırdı. Yoldaşları başına toplaşıb soruşdular:

– Nə oldu Teymur, nə oldu?

Qanbay gülə-gülə cavab verdi:

– Bir şey olmamışdır. O mənim meymunlarıma sataşdı, meymunlarım da onunla zarafat elədi.

Uşaqlar qəfəslərin önündən baxa-baxa keçirdilər. Qanbay kiçik bir qəfəs qarşısında durdu. Qəfəsin içindəki iki kiçik bağaya baxıb yoldaşlarına dedi.

– Sirkdə bunların iştirak etdiklərini heç görməmişəm. Görünür, bunlar o qədər şüursuz heyvandır ki, öyrətmək mümkün olmur.

Ülkər onun çiyninə vurub dedi:

– Onları da sən öyrədərsən, böyük bir şey deyil ki.

Ülkər məktəbdə pioner təşkilatında işə keçdikdən sonra təşkilat canlanmışdı. Tətil günlərindəki səmərəli tənəzzöhlər və oyunlar uşaqları çox maraqlandırdığı üçün onların hamısı bu tədbirlərdə iştirak edirdi. Bu tədbirlər, Ülkərin keçirdiyi maraqlı müsahibələr Aslan kimi uşaqlara da təsirsiz qalmırdı.

Qanbay heyvanları çox sevirdi. Təbiət kabinəsinə girdiyi zaman saatlarla gözlərini şəkillərə dikib qalırdı. Şəhərə tamaşa üçün heyvan gətirildikdə, sirkdə heyvanların tamaşası göstərildikdə atası ilə bərabər gedib doyunca baxırdı. Onların oyunları, yaşayışı və xasiyyətləri Qanbayı çox maraqlandırırdı. Köpəklərin, pişiklərin, donuzun, filin, hətta suitilərin göstərdiyi oyunlara heyrət edirdi. Öz-özünə düşünürdü: "Bu ağıllı heyvanları haradan tapırlar?"

Bir gün atasından soruşdu:

– Ata, heyvanlar bu oyunları kimdən öyrənir?

Atası cavab verdi:

– Oğlum, sən elmi kimdən öyrənirsən?

Müəllimdən.

– Onları da öyrədən bir müəllim var.

– Onu bilirəm, axı bu dilsiz heyvanlara belə oyunları necə öyrədirlər?

– Oğlum, sirkdə əlində çubuq tutan bir adam var idi. Onu gördünmü?

– Gördüm.

– Bax, o müəllimdir, həm də çox məharətli müəllimdir. Yaxşı oxumuş, illərcə təcrübə görmüş, alim bir adamdır. Heyvanların yaşayışını, xasiyyətini beş barmağı kimi bilir. Heyvanları öyrətmək ona o qədər də çətin deyil.

Qanbay yenə düşündü. Birdən-birə başını qaldırıb, sevinə-sevinə dedi:

– Ata, böyüyəndə məni heyvanat müəllimi olmağa qoyarsanmı?

Atası onun başını sığallayıb dedi:

– Kaş o gün olsun, oğlum! Mən çox şad olaram. Ancaq heyvanat müəllimi olmaq istəyən adam, hər şeydən əvvəl, heyvanları sevməlidir.

Bax, bundan sonra evimizdəki Mərmər pişiyi, qonşumuzdakı Qaplan iti vurma!

Qanbay qızardı; çünki oynadığı zaman onları arabir vururdu. Birdən-birə atasının əlini tutub dedi:

– Ata, bundan sonra vurmayacağam. Onlarla yaxşı-yaxşı oynayacağam.

Qanbay o gündən heyvanları daha çox sevməyə başladı. Heyvanat müəllimi olmaq fikri onun başında yerləşmişdi. O, sirkdə görmüşdü ki, müəllim kamançada bir çox havaları çalır və heyvanları oynadır. Qanbay kiçik bir kamança aldı və o gündən çalmağı öyrənməyə başladı.

Türkan kəndində böyük bir kolxoz vardı. Bu kolxozun ucu-bucağı olmayan xırında iki çanaqlı bağa yaşayırdı. Bunlar tağların, yarpaqların arasında gözəl ömür keçirirdi. Qar, boranlı qış onları qarşıladığı zaman onların hər ikisi yuvaya çəkilib, üç ay qışı orada yatırdı.

Bahar gəlmişdi. Günəşin isti şəfəqləri hər şeyə qan və can verirdi. Bu uzun yuxudan sonra çanaqlı bağaların oyanmaq zamanı yetişmişdi.

Bir gün hər ikisi yuxulu gözlərini açdı. Onlar çoxdan ac idi. Çöldə günəşin ilıq şəfəqləri və atlaz kimi yumşaq, lətif otlar onları çağırırdı. Yavaş-yavaş sürünüb çölə çıxdılar.

Kolxozçular qızğın çalışırdılar: kimisi bostanın torpağını çevirir, kimisi toxum səpir, kimisi bostanı ləklərə ayırırdı.

Planlarını yerinə yetirmək üçün hamı qızğın çalışır, iş zamanı onların üzündən nəşə, sevinc yağırdı. Ləklərin dörd yanında yaşıl, yumşaq otlar göyərmişdi. Bağaların hər ikisi ac qurd kimi soxulub yeməyə başladı.

Bağaların istədikləri günlər gəlmişdi. Hava gündən-günə qızır, otlar, yarpaqlar böyüyür, dirrik və bostan yaşıllaşırdı.

Dişi bağa artıq yumurtlamışdı. Bir müddət keçdikdən sonra yumurtalardan bala çıxdı.

Dişi bağa balalarını yanına alıb dirriyin içində dolaşır, onları yedirir, özlərini düşmənlərdən qorumağı öyrədirdi. Gün əyilmişdi. İsti qum qorlu külə dönmüşdü. Kolxozçular uzaqda bir çinar altında dincəlirdilər. Səs-səmir kəsilmişdi. Yalnız bağalar sulanmış tağların ətrafında dolaşırdı. Göy üzündə qızılquş da tənbəl-tənbəl uçurdu. Ov tapmış kimi qanadlarını açıb durdu və gözlərini bir müddət yerə dikdi. Quş yavaş-yavaş aşağı enməyə başladı. O bir az sonra qanadlarını açıb durdu. Birdən-birə şığıyıb, ana bağanı caynağına alıb, havaya qalxdı. Qalxdı, qalxdı, sonra sağ tərəfə getdi. Uca qaya başında tikmiş olduğu

yuvasına yaxınlaşdı. Bağanı birdən-birə qayanın üstünə atdı, özü də arxasınca yerə endi. Bağa parçalanıb qınından çıxdı. Qızılquş onu caynağına alıb, yuvasının ağzına qondu. Onu görüncə balaları "cuq-cuq" səsləndilər və tüksüz boyunlarını ona tərəf uzadıb durdular. Qızılquş bağanı parçalayıb, onlara yedirtdi.

Yay tətili başlanmışdı. Ülkər öz pionerləri ilə bərabər Türkan kəndinə gəldi. Ülkər yardım məqsədilə kənddəki pioner təşkilatının işlərinə qarışdı, təşkilatın rəhbərlərini yeni iş üsulları ilə tanış etdi. Kolxozçular arasında mədəni-maarif işləri aparmaq üçün Aslanı kolxoza təhkim etdi. Pionerlər hər gün dəniz sahilində qum və günəş vannası qəbul edir, dənizdə çimir, futbol oynayır və arabir kolxozlara və yaxın kəndlərə tənəzzöhə gedirdilər.

Aslanın işi çox yaxşı idi. O, istəyinə çatmışdı. Kolxozda həvəslə işləyirdi. Məhsulun cinslərini, onları becərmək yollarını, torpaq gübrələməyi öyrənirdi. Yoldaşı Qanbay tez-tez onu görməyə gəlirdi. Bir gün Qanbay yenə Aslanın yanına gəlmişdi.

Aslan Qanbay ilə bərabər bostanı başdan ayağacan gəzdi. O, Qanbaya pomidor və badımcan tağlarını göstərir, onların haqqında izahat verirdi. Qanbay öz-özünə düşünürdü. "Oğru, – deyə təhqir etdiyimiz Aslan bax, nə qədər dəyişilmişdir! O artıq iş və zəhmət adamı olmuşdur". Bu düşüncə ilə qarpız, qovun tağlarının yanından keçirdi. Birdənbirə tağların arasında iki bağa balasını gördü. Şadlığından bilmədi nə eləsin. Onları götürmək üçün ləklərin içinə girdi.

Bağalar uzaqdan onu görüncə qaçmağa başladılar. Onlar indi anasız və köməksiz idilər. Hər şey onları hürküdürdü. O gün qızılquşdan çox qorxmuşdular. Onun güclü qanadlarının yeli hər birini bir tərəfə atmışdı. Bir müddət onlar özlərinə gələ bilməmişdi. Gözlərini açdıqları zaman analarını görməmişdilər. O gündən tağların arasında qorxa-qorxa yaşayırdılar.

Qanbay onlara yaxınlaşdı. Hər ikisi qorxudan başını qınına çəkib durdu. Qanbay hər əlinə birini alıb ləkdən çıxdı, sevincək:

– Aslan, bax gör nə tapdım, – dedi.

Aslan baxıb gülə-gülə:

– Sənin istədiyin şeydir, həm də nə qədər kiçikdir, – dedi.

– Sağ ol, Aslan! Görüşərik, – deyə Qanbay qaça-qaça getdi. Böyük bağın iri qapısından girincə bağırdı:

– Gör bir nə gətirmişəm!

Uşaqlar onun başına toplandı.

– Nədir, nədir? Ver bura, ver bura!

– Qanbay, bunları haradan tapdın?

– Ləklərin içindən.

Səsə Ülkər də gəldi. Bağaları görüncə:

– Oy, nə balacadır! Heç belə kiçik bağa görməmişdim, – dedi.

Qanbay sevinə-sevinə dedi:

– Ülkər müəllimə, bunları saxlayacağam.

Bağalar başlarını qınlarına çəkib hərəkətsiz durmuşdular. Uşaqlar o kiçik qonaqların ətrafını alıb, hələ də onları tək buraxmaq istəmirdilər.

Qanbay qaçıb ağzı çubuqla hörülmüş taxta bir qutu gətirdi. Bu qutunu o çoxdan hazırlamışdı. Hər iki bağanı qutuya qoyub, ağzını bağladı.

Qanbay o gün sevincək olmuşdu. Saatda bir gedib onları yoxlayırdı. Bağalar onu görüncə qorxub çəkilirdilər.

Qanbayı fikir götürmüşdü. O, bağalarını öyrətmək haqqında düşünürdü. Nə öyrətsin? Necə öyrətsin? Necə öyrətsin? Haradan başlasın? Bunları aydınlaşdıra bilmirdi. Bu fikir onu yormuşdu. Hətta gecələr yatağa girdiyi zaman cürbəcür planlar tuturdu. O eşitmişdi ki, heyvanları öyrətməkdən əvvəl ac saxlayırlar. Odur ki, bir gün sabahacan onlara yemək verməmişdi.

Səhər açıldı. Qanbay yuxudan oyanınca bağaların yanına qaçdı. Ac və dustaq bağalar qutunun içindən çıxmaq üçün yol arayırdı. Qanbayı görüncə hər ikisi başını gizlədib, hərəkətsiz oldu. Qanbay əlindəki otları onlara tərəf uzatdı. Onlar qorxub çəkildilər. Qanbay çox çalışdı, onlar inad edib ot yemək istəmədi. Qanbay düşündü: “Zərər yoxdur, ac qalıb axırda yeyərlər”, – dedi.

O gün Qanbay çox məşğul idi. Kənd klubunda pionerlər müsamirə verəcəkdilər. Bir tərəfdən klubu bəzəyir, bir tərəfdən də rollarını hazırlayırdılar.

Qanbay yoldaşları ilə bərabər axşamacan işləmişdi. O, evə döndüyü zaman günəş qərbə doğru əyilmiş, hava sərinləşmişdi.

Bağaların fikri onu götürdüyü üçün bilmirdi yolu necə getsin. Yoldaşları ona sataşırdı:

– Sən gedincə bağalar acından öləcək.

– Bilmirəm bu bağalardan nə istəyir?

– Onları əlimə götürəndə iyrənirəm.

– Danışmayın, bu da bağaları öyrədib sirkdə oynadacaq.

Qanbay atmacaların bəzisinə cavab verir, bəzisinə gülürdü. Evə çatan kimi bağaları yoxladı. Ac bağalar qutunun ağızlığını yalayır və çıxmaq üçün yol arayırdı.

Qanbayı görüncə hər ikisi başını gizlətdi. Qanbay qutunun qapağını açdı. Gəlirkən yolda topladığı bağayarpaqlarını onlara doğru uzatdı. Ac bağalar ot qoxusu duyunca başlarını çıxartdı. Qorxa-qorxa yarpağı yeməyə başladılar. Qanbay sevincindən nə edəcəyini bilmirdi. Birinci imtahanı gözəl vermişdi. Bağalar onun əlindən ot alıb yeməyə başlamışdı. Bu az şey deyildi. İlk qələbə qazanılmışdı. Köksü şişmiş, ümidi artmış, gözləri işıqlanmışdı.

Bağaları doyurduqdan sonra Qanbay qaça-qaça yemək otağına gəldi. Yoldaşları yemək yeyirdilər. Başda Ülkər oturmuşdu. Titrək və sevincək bir səslə:

– Ülkər müəllimə, bağalarıma əlimdə ot yeməyi öyrətdim, – dedi.

Ülkər bu sözün mənasını yaxşı düşünə bilmədi. Yalnız başını tərpədib güldü və onu razı salmaq üçün:

– Mərhəba, Qanbay! – dedi.

Qanbay Ülkərdən bir çox şeylər soruşmaq və öyrənmək istəyirdi. Yoldaşlarının yanında soruşmadı. Yerində oturub yeməyini yedi.

Gecə klubda idilər. Müsamirələri olduqca parlaq keçmiş və kolxozçuları razı salmışdı. Uşaqların və Ülkərin üzü gülürdü. Gecə gec qayıtdılar. Qanbay hər kəsdən əvvəl yatağına gedib yatmış və səhər hamıdan əvvəl oyanmışdı. Bağalarına yarpaq və ot toplamış, doyunca yedirtmişdi. Bağalar otu əlindən alıb yedikcə sevinirdi. Qanbay bunları öyrətmək üçün tədbirlər düşünürdü. O qədər dərindən düşünürdü ki, Ülkərin gəlib onun başı üstündə durduğunu görməmişdi. Ülkər çox durdu. Qanbay fikir dənizinə qərq olmuşdu. Ülkər gülə-gülə soruşdu:

– Qanbay, nə düşünürsən?

Qanbay başını qaldırıb Ülkəri görüncə yerindən sıçradı. Ülkər yenə soruşdu:

– Bağalara ot verdinmi?

Qanbay məğrur bir tövrlə:

– Verdim, hamısını əlimdə yedirtdim, – dedi.

– Elə lazımdır. Heç bir zaman qarşılarına ot qoyma. Əlindən yeməyi öyrənsinlər, həm də yavaş-yavaş bunları səsə, gurultuya alışdır. Onda tez öyrənərlər.

Qanbay ümidlə parlayan gözlərini ona dikib dedi:

– Ülkər müəllimə, bunları mən necə öyrədim? Haradan başlayım? Bu iş məni çox düşündürür.

Ülkər gülüb dedi:

– Sən onlara nə öyrətmək istəyirsən?

– Oynamaq öyrətmək istəyirəm, – deyə Qanbay tez cavab verdi.

– Oynamaq. Çox yaxşı... Ot yeməyi necə öyrətdin, oyunu da elə öyrədərsən. Təcrübə sənə göstərəcək, hər işdə mətanətli, dəyanətli olmaq lazımdır. Kitabxanadan sənə bağalar haqqında üç-dörd kitab gətirəcəyəm. Oxu, onların xasiyyətini yaxşı öyrən. Bu xüsusda kitablar sənə çox kömək edər.

Qanbay bağaları tərbiyə etməkdə idi. O, bağalarını ancaq müəyyən saatlarda yedirir, yedirtmək istədiyi zaman onları eyvana buraxırdı. Tamaşa üçün toplanmış uşaqların səs-küyü bağaları qorxutmurdu. Qutudan çıxmaq ac bağalar üçün bayram idi. Qanbay bir dəstə bağa-yarpağını havadan asırdı. Bu yarpaqları elə asırdı ki, bağalar ayaq üstə durmadan və ya başlarını yuxarı qaldırmadan onu yeyə bilməzdi. Sonra kamançasını götürüb çalırdı. Kamança səsi ac bağalara bir müjdə idi; çünki yemək vaxtı gəldiyini bilirdilər. Başlarını uzadıb, o tərəf-bu tərəfə qaçıb, yemək axtarırdılar. Sara onun köməkçisi idi. Yuxarıdan asılmış otu arabir onların kiçik qara dodaqlarına toxundururdu. Bağalar yeməyə hazırlaşarkən otu yavaş-yavaş yuxarı çəkirdi. Bu tövrlə bağalara ayaq üstə yemək öyrətmək istəyirdi. İnad bağalar isə bunu istəmirdi. Qanbay çox çalışdı, mümkün olmadı. O, təcrübəsində davam etdi. Ülkər ona: "Hər işdə mətanətli və dəyanətli ol!" – demişdi. Bu sözü Qanbay unutmamışdı. O, çox çalışdı. Axırda bağalara ayaq üstə ot yeməyi də öyrətdi.

Hər gün yemək vaxtı onları eyvana buraxır, özü kamança çalır, Sara da ipə bağlanmış ot dəstəsini onların başı üzərində tuturdu. Bağalar ayaq üstə qalxıb otu yeyirdilər.

İki ayda Qanbay ancaq bunu öyrədə bilmişdi. Onun fikri başqa idi. O indi özünə bir müəllim kimi baxmağa başlamış və istəyirdi ki, kamançasını əlinə alıb çaldığı zaman bağaları sirkdəki heyvanlar kimi durub oynasın.

Qanbay bir gün yenə çox məşğul idi. Şəhərdən pioner dəstəsi gəlmişdi. Dəstə rəhbəri görüləcək tədbirlər haqqında məruzə etdi. Məruzədən sonra hamı birlikdə kəndi gəzmiş, oradan dəniz sahilinə getmişdi. Yeməkdən sonra Lenin guşəsində siyasi kitablar oxunub təhlil edilmişdi. Qanbay axşama yaxın evə dönmüşdü. O gün bağalar ac qalmışdı. Qanbay evə gəlincə tez bağaları yoxladı. Ac bağalar onu görüncə qutunun ağızlığından başlarını çıxarıb oynamağa başladılar. Qanbay anladı ki, onlar bu hərəkətləri ilə: "Qapını aç, bizə yemək ver", – demək istəyirdilər. Qutunu götürüb eyvana gətirdi. Sara hələ gəlib çıxmamışdı. Qutunu açdı, bağaları çölə buraxdı. Kamançasını götürüb çalmağa başladı. Yemək xəbərini verən kamançanın səsindən bağalar ayaq üstə qalxdı və havadan asılmış otu aramağa başladılar. Qanbay bunu görüncə sevincək yerindən sıçradı. Kamança əlində otağa qaçdı.

– Ülkər müəllimə, uşaqlar, bura gəlin, sizə tamaşa göstərəcəyəm, – dedi.

Ülkər və uşaqlar onun arxasınca gəldilər. Eyvana yetişincə yenə kamança çaldı. Bağalar kamançanın səsini eşidincə ayaq üstə qalxdılar. Uşaqlar gülür, Ülkər gülür, Qanbay sevincindən nə edəcəyini bilmirdi. Qanbay ayağa qalxdı, ipə bağlı ot dəstəsini Süleymana verib dedi:

– Al, bu otu havada tut, onlar yedikcə otun yerini dəyişdir!

İndi Qanbay kamança çalır, Süleyman əlindəki ot dəstəsini yavaş-yavaş havada dolandırır, bağalar da onun arxasınca sürünüb yeriyirdi.

Yay tətili bitmiş, Qanbay öz yoldaşları ilə bərabər şəhərə qayıtmışdı. Tətil ona çox şey vermişdi. Vücudu qüvvətlənmiş, fikri inkişaf etmiş, təcrübəsi və siyasi biliyi artmışdı. O hər gün məktəbə, musiqi dərslərinə davam edir və pioner təşkilatında çalışırdı. Bağaları da unutmurdu. Evə gələr, yeməyini rahat-rahat yeyib qurtardıqdan sonra bağalarını düşünməyə başlardı. Hər gün qutunu artırmaya gətirir, ağzını açıb bağaları çölə buraxırdı. Özü kamança çalır, qardaşı Surxay da kamançanın havasına uyduraraq, otu əlində dolandırırdı. Bacıları, qonşu uşaqlar hər gün o kiçik konsertdə iştirak edirdilər. Qanbay təcrübəsini artırmışdı. Bağalara iki oyun öyrətmişdi. Bir neçə dəfə kiçik konsert tərtib edib bağaları oynatmış, təcrübədən çıxmışdı. Onları artıq cəmiyyət içərisinə çıxartmaq, müsamirələrdə, konsertlərdə oynatmaq olardı. Bağa kimi çətin əhliləşən heyvanlara oyun öyrətmək asan iş deyil. Bundan sonra Qanbayın bağalarını, özünü hər kəs tanıyacaq, biləcək,

onun hünərinə heyrət edəcəkdi, adı qəzetlərdə yazılacaq, dillərdə söylənəcəkdi.

Qanbay o il yeddiillik məktəbi bitirirdi. Onların şərəfinə müsamirə tərtib edilmişdi. Müsamirədə bağalar da iştirak edəcəkdi. Məktəblilər axın-axın gəlir və dəhlizlərdə dolaşırdılar. Salon qapısından asılmış məramnaməni böyük bir dəstə oxuyur, heyrətlə bir-birindən soruşurdu:

– Bu oyunçu bağalar haradadır?

– Bağa da heç oynayarmı?

– Hələ bu Qanbay kimdir?

– Bağalar onundurmu?

Qapı ağzında get-gedə adam çoxaldı. Hər kəs səbirsizliklə müsamirənin başlanmasını gözləyirdi.

Birinci zəng vuruldu. Tamaşaçılar salona doldu. Bütün gözlər səhnəyə dikilib qalmışdı. Pərdənin tez açılması üçün şagirdlər ayaqlarını yerə döyür, əl çalaraq, səs-küy qoparırdılar.

Pərdə açıldı. Birinci hissədə şagirdlər şərqi söylədilər, oyun havaları çalıb şeirlər oxudular, idman nümunələri göstərdilər. İkinci hissə başlandığı zaman hamının gözü səhnədə qalmışdı. Tamaşaçılar əl çalaraq, "Bağalar gəlsin, bağalar!" – deyə bağırırdılar. Oyun çalğı ilə başlandı. Cürbəcür havalar çalındı. Sonra Qanbay əlində kamança səhnəyə çıxdı. Sürəkli alqışlar salonu bürüdü. O, stula oturub, kamançasını çalmağa başlarkən, bağalar səhnəyə girib, ayaq üstündə qarşı-qarşıya oynamağa başladılar. Salonu səs bürüdü. Hamı gülür, əl çalır, bağalar isə oynamaqda davam edirdi.

Qanbay havanı dəyişdi. Bağalar da tez oyunu dəyişdilər. Tamaşaçılar heyrətdə qalmışdı. Bir az sonra kamança susdu, oyun bitdi, Qanbay bağalarını da götürüb səhnədən çıxdı. Sürəkli alqışlar davam edir, tamaşaçılar əl çalırdı. Qanbay bağaları yenidən səhnəyə çağırdı. Salonu səs-küy bürümüşdü. Hamı Qanbayın oyunçu bağalarını bir də görmək istəyirdi. Bu dəfə Qanbay ilə məktəb müdiri də səhnəyə gəldi. O, tamaşaçıları zor-güc sakit elədi. Sonra sözə başladı:

– Yoldaşlar, tamaşasından doymadığınız bu oyunçu bağalar son sinif şagirdlərimizdən Qanbay Dursunzadənindir. Bu istedadlı kiçik müəllim heyvanları sevən, onların yaşayışını öyrənmək istəyən səbirli, dəyanətli, çalışqan bir uşaqdır. Onu sizə çox tərifləməyəcəyəm. Hər müəllimin hünərini onun şagirdlərindən bilmək olar. Oyunçu bağalar Qanbayın necə müəllim olduğunu sizə bildirdi. O bu işin ardınca gedib

heyvanat müəllimi olmaq istəyir. Onun bu fikrini ürəkdən alqışlayaraq, bu yolda ona kömək etməyi vəd edirik. Bir gün eşidəcəksiniz ki, şəhərimizə böyük bir sirk gəlmişdir. Bir-birinizdən soruşacaqsınız: "Bu sirkin ən məşhur təlimçisi kimdir?" Qəzetlərdə elan oxumuş yoldaşlarınız sizə deyəcək: "Qanbaydır, oyunçu bağaların təlimçisi". Sirkə dolacaqsınız. Qanbayın əsl hünərini siz o zaman görəcəksiniz. İndi isə mükafat olaraq, təbiət kabinəsi bu üç kitabı ona bağışlayır. Sizin hər birinizi də Qanbay kimi böyük bir hünər və sənət sahibi görmək istəyirəm.

Bu sözləri deyib müdir kitabları Qanbaya verdi. Salon onu alqışlarkən baş əyib, müdirlə bərabər səhnədən çıxdı.

Tamaşaçılar əl çəkmir, Qanbay ilə bağaları yenidən səhnəyə çağırırdılar. Salonu gurultu bürümüşdü. Qanbay bağaları ilə yenidən səhnəyə gəldi. Bağaları səhnəyə buraxıb kamançasını çaldı. Bağalar əvvəlkindən daha həvəslə oynamağa başladı. Uşaqlar əl çalır, sevincdən sıçrayıb bağırırdılar.

Kamança susdu, bağalar durdu. Qanbay gurultu və alqışlar içərisində tamaşaçılara baş əydi. Birdən-birə orkestr çalmağa başladı. Uşaqlardan biri bağırdı:

– Bağaların havasını çal!

Orkestr bağaların bildiyi havalardan birini çaldı. Bağalar əvvəlcə hürküb, bir-iki saniyə durub dinlədi. Sonra birdən-birə ayaq üstə qalxıb, o havanı şirin-şirin oynamağa başladılar. Salon yenidən canlandı, tamaşaçılarda gülməkdən can qalmadı.

*1934*

# TAĞI ŞAHBAZİ (SİMURQ)
## (1889-1938)

## QAYÇI

Məşədi Salmanın arvadı Gülcahan yoğurmuş olduğu xəmirin "gəlməsi"ni gözləyirdi. O hər yarım saatdan xəmirin üzərindəki isti parçaları qaldırıb, əli ilə ondan bir çəngə qoparıb baxırdı. Axırıncı dəfə yenə baxdı.

– Hələ bir az qalıb! – deyə xəmiri bərk-bərk basdırdı. Xəmiri basdırandan sonra Gülcahan mətbəxin yanındakı təndirə tərəf gəlib, təndirin odununu kösövlə qarışdırdı.

Məşədi Salman evin qarşısındakı daş üzərində oturub, atın yüyən və cilovunu təmir edirdi. Birdən Məşədi Salman yüyəni, cilovu və iynəni daşın üstünə qoyub qalxdı və sürətlə evə girdi. Bir azdan sonra Məşədi Salman arvadı səsləyib qayçının yerini soruşdu. Arvad cavab verdi. Məşədi axtardı, – tapılmadı. Onda Məşədi Salman başını qapıdan çıxarıb, arvadına tərəf dedi:

– Bu xarabada heç vaxt heç bir şey tapmaq olmayır, qayçı yoxdur!..

Gülcahan yanındakı yorğançanı da tələsik xəmirin üstünə salıb, qayçını axtarmağa getdi.

Baxılmamış yer qalmadı – qayçı tapılmadı. Məşədi Salmanın ovqatı yavaş-yavaş acılaşmağa başladı.

Gülcahan bilirdi ki, qayçı tapılmasa, axırda evdə bir qiyamət qopacaq və nəticədə Məşədi Salman acığını Gülcahanın kürəklərindən çıxarmaq istəyəcəkdir. Ona görə də Gülcahan Məşədi Salmanı sakit etmək istədi:

– Nə olub, a kişi, bir az səbir elə, salavat çevir, görəsən haradadır, tapılar. Bəlkə Məmməd bilir, bu saat gələr, oduna göndərmişəm, gələr, soruşarıq.

Məmməd Zəngəzurun qaçqın yetimlərindən idi. Kəndləri dağılıb talan edilən zaman bacısı Zeynəblə bərabər baş götürüb qaçmış və Məşədi Salmanın yaşadığı kəndə pənah gətirmişdilər. O il ata-anasız qalmış bir çox yetim balalar kəndlərini tərk edib, yaxın kəndlərə gəlmişdilər. Onlardan bir qədəri küçələrdə, yollarda tələf olmuşdu. Bir neçəsini də övladsız kəndlilər götürüb saxlayırdılar.

Məmməd də belələrindən idi. Məşədi Salmanın arvadı Gülcahan ona rast gəlib öz evinə gətirmiş və ərinin narazılığına baxmayaraq saxlamışdı.

Məmmədin bacısını da qonşu Şahpəri arvad qızlığa götürmüşdü.

O vaxtdan Məmməd Gülcahanın yanında, bacısı da Şahpəri arvadın yanında qalırdılar.

Həm səkkiz yaşında olan Məmməd, həm də yeddi yaşında olan bacısı Zeynəb yaşadıqları evlərdə səhərdən axşamadək işləyir, ev sahiblərinin bütün əmrlərini yerinə yetirirdilər.

İndi də Gülcahan Məmmədi meşəyə göndərmişdi.

– Get, meşənin ətrafındakı quru ağac budaqlarından bir şələ yığ, gətir.

Həmişə Məmmədə qulluq buyurulanda cavab verdiyi kimi, bu dəfə də:

– Baş üstə, xala! – deyib meşəyə getmişdi.

Məmməd yolda bacısı Zeynəbi arxın kənarında görmüş, yanına gəlmişdi. Bacısı qab-qaşıq torpaqlayırdı.

– Hara gedirsən?

– Meşəyə, odun yığacağam. Çörək bişiririk!

– İşim olmasaydı, mən də səninlə gedərdim.

– Eybi yoxdur, sonra gedərik.

– Sağ ol! – deyə Məmməd fit verə-verə meşəyə yollanmışdı. Bacısı Zeynəb də bir neçə dəqiqə Məmmədin ardınca baxıb, sonra öz işinə davam etmişdi.

İndi Məmmədin adını çəkəndə Gülcahan fikrinə belə gətirmirdi ki, Məşədi Salman pis gümana düşər. Amma Məşədi Salman Məmmədin adını eşidəndə, yalnız bir şey zənn etdi: "Qayçını Məmməd oğurlamışdır".

Doğrudur, Məşədi Salman bilirdi ki, Məmməddən bu vaxtadək oğurluq baş verməmişdir, amma bununla belə Məşədi Salman fikir edirdi ki, qayçını Məmməd oğurlaya bilər...

– Kimə inanmaq olar? Düz adam varmı? O da atası, anası naməlum bir yetim ola?

Məmməd yetim idi, ata-anası da Məşədi Salmandan ötrü naməlum idi! Elə isə Məmmədin qayçını oğurlamasında Məşədi Salmanın nə şübhəsi ola bilər?

Məşədi Salman ağır-ağır nəfəs alaraq Məmmədin yolunu gözləyirdi. Məşədi hərdənbir boylanıb meşəyə gedən yola baxırdı. Çox

uzaqda bir şey qaralırdı. O, Məmməd idi. Böyük bir şələ altında üzü əsla görünmürdü. Ancaq qaralan şələnin hərəkət etməsindən, onun adam olduğu anlaşılırdı. Şələ yavaş-yavaş yaxınlaşırdı. Dalına öz qüvvəsindən artıq odun şələsi almış Məmməd uzaqdan Məşədi Salmanı görəndə fikir etdi ki, Məşədi tələsir, onu gözləyir. Ona görə də addımlarını tez-tez atmağa başladı.

Yazıq uşaq elə zənn edirdi ki, Məşədi Salman indi ona bir "sağ ol" deyəcəkdir. Uşağın haqqı da var idi. Çünki bu dəfə odun yığanda çox əziyyət çəkmişdi, hətta əlini də yaralamışdı. Məmməd çatan kimi, Məşədi Salman soruşdu:

– Adə, a qoduq, qayçı hanı?

– Hansı qayçı, əmi?

– Ay gözünə batsın, neçə qayçı var? Götürdüyün qayçı, de, hanı?

– Bilmirəm, mən götürməmişəm...

– Ay səni bilmirəm kəssin, hara qoymusan, de!

– Vallah ki, bilmirəm.

Odun şələsinin altında ikiqat bükülmüş Məmməd Məşədi Salmanın sorğularına cavab verə-verə yalvarıcı bir baxışla qayçıdan xəbəri olmadığını bildirdi.

Məmmədin bu cavabı Məşədi Salmanın əsəblərini daha da qaldırdı. Aha, inkar edir, məni aldatmaq istəyir, – deyə fikir edib, Məşədi Salman uşağa yaxın gəldi, yenə qayçını soruşdu.

– Vallah ki, bilmirəm, əmi...

Bu cavabı eşidən kimi, Məşədi Salman odun qarışıq Məmmədə bir təpik vurdu. Uşaq şələ ilə bərabər yerə yıxıldı və yıxılanda odun parçası üzünü cırdı. Bir dəqiqədə Məmmədin üzünü al-qan basdı.

Məşədi Salman Məmmədin başı üstündə durub çığırdı:

– İt oğlu, de görüm qayçı haradadır? Bax, deməsən, bil ki, səni öldürəcəyəm!..

Məşədi Salmanın gözləri halqasından çıxmış, üzü o qədər qabarmışdı ki, tanınmaz bir hala gəlmişdi.

Məmməd üzünün yarasından axan qanı çirk əlləri ilə silərək ağlayırdı.

– Vallah ki, xəbərim yoxdur, – deyə o, yalvarmağa başladı. – Mən oduna getmişdim. Bilmirəm, sən allah əmi, məni döymə. Qayçını görməmişəm.

Gülcahan bu əhvalatı görüb yaxın gəldi.

– Ay kişi, yetimdir, elə vurmaq olmaz. Doğrudan da xəbəri yoxdur.

– Danışma! Vallah səni də ona qataram!..

Gülcahan Məşədi Salmanı yaxşı tanıyırdı. Belə hallarda ona yaxın durmaq mümkün deyildi. Onu heç bir vasitə ilə sakit etmək olmazdı.

Məmməd Gülcahanı gördükdə, kömək diləyən kimi dilləndi:

– Ay xala, vallah ki, xəbərim yoxdur. Qayçını görməmişəm.

Lakin qayçının itməsinə Məşədi Salman razı ola bilmirdi. Hara itəcək? Yəqin ki, oğurlayıb, indi də boynuna almaq istəmir.

Məşədi Salman Məmmədin qolundan yapışıb, əli ilə onu hədələyə-hədələyə bağırdı:

– Deyirəm ki, səni öldürərəm, yandıraram. Bu saat qayçının yerini söylə, de görüm!

– Vallah ki, əmi, xəbərim yoxdur...

Məşədi Salman axırıncı dəfə bu cavabı eşitdikdə Məmmədə bir şapalaq vurdu. Məmməd qışqırdı, ağladı. Məşədi Salman Məmmədin ağlamasına baxmayaraq, onun qolundan yapışıb təndirin yanına çəkdi.

Gülcahan Məşədi Salmanın nə etmək istədiyini başa düşüb ona yalvardı:

– Ay kişi, burax, incitmə, yetimdir, yazıqdır...

Təndirin yanında Məşədi Salman Məmmədin belindən yapışıb qaldırdı və onu yanar təndirin içinə atdı. Məmmədin səsi ərşə çıxdı:

– Vay, yandım, aman, yandım, öldüm!..

Məmməd elə çığırdı ki, bütün qonşular eşidib tökülüşdülər. Məşədi Salman bir yana çəkilib durdu. Gülcahan özünü itirib:

– Ay aman, uşaq yandı! – deyə çığırmağa başladı. Qonşuları Şahpəri ilə Rəcəb kişi hamıdan əvvəl təndirə tərəf yüyürdülər və iki tərəfdən əl atıb Məmmədi təndirdən çıxartdılar. Şahpəri mətbəxə yüyürüb xəmirin üstündəki yorğançanı qapdı və uşağa sarıdı. Beləliklə, Məmmədin odunu söndürdülər. Yenidən yorğanı Məmmədə sarıyanda, yorğanın içində bir şey cingildədi. Baxıb gördülər ki, qayçıdır.

– Ay Gülcahan, qayçı yorğanın içində, ala, bax! – deyə göstərdilər.

– Vay, yorğanı sırıyanda yaddan çıxıb, orada qalıb!

– Yazıq uşağı bunun üçün yandırdınız?

Gülcahan Məşədi Salmana baxdı. Məşədi başını aşağı sallamışdı, görünürdü ki, tutduğu işdən özü də peşman idi.

Həmin saat kənd Şurası sədri gəlib, protokol yazdırdı. Uşağı təcili bir surətdə atla şəhər xəstəxanasına göndərdi və protokolu da dairə icraiyyə komitəsinin sərəncamına verdi.

* * *

Bu əhvalatdan bir neçə ay keçmişdi. Məmməd sağalmışdı. Ayaq barmaqları yanmış, ayaqları da topal bir şəkil almışdı. Məmməd müalicə edildiyi xəstəxanadan çıxarılıb, yeni açılmış uşaq evinə verilmişdi.

Burada Məmmədə təzə paltar və ayaqqabı geydirilmişdi. Məmməd bu ayaqqabılardan çox razı idi. Həm rahat idi, həm də ayağının barmaqsız olduğu bilinmirdi.

Bir gün Məmməd küçəyə gəzməyə gedəndə, ona çəkmənin üstündən bir qaloş da geydirdilər. Məmməd ayaqqabı üstündən bir ayaqqabı da gördükdə, mürəbbisindən soruşdu:

– Niyə bəs iki ayaqqabı?

– Çəkmən palçığa batmasın. Həm də ayaqlarına soyuq olmasın... Həkim tapşırıbdır... Yaxşıdırmı?

Məmməd güldü... O razı idi.

Məmməd uşaq evində ən sevimli bir uşaq idi. Onun şirin-şirin danışması, hər bir işin qayğısına qalması çoxunu xoşlandırırdı. Bir gün uşaq evini yoxlamağa gəlmiş icraiyyə komitəsinin sədri Məmmədin əhvalını soruşmuş, o da cavabında demişdi:

– Çox razıyam, amma bir xahişim var.

– De görüm nədir?

– Bir mirzə göndərin, kağız yazdıracağam[1].

Ertəsi gün icraiyyə komitəsinin sədri idarədən bir kargüzar göndərmişdi.

Məmməd onu görcək, yanında əyləşdirmiş və Məşədi Salmana bir kağız yazdırmışdı. Kağızın məzmununu Məmməd özü belə söyləmişdi:

"Məşədi Salman əmi, məni niyə yandırdın? Niyə məni təndirə atdın? Mən demədimmi ki, qayçıdan xəbərim yoxdur? Nə oldu, qayçı yorğanın içindən çıxmadımı? Daha niyə məni yandırdın? Mən sənə nə etmişdim? Eybi yoxdur. Mən ki, ölmədim. Şura hökuməti məni sağaltdı. İndi məni hökumət özü saxlayır. Təzə paltar da veriblər, ayaqqabı da veriblər. Hələ ürəkləri sakit olmayıb, əmr ediblər ki, ayaqqabının üstündən bir də ayaqqabı geydirsinlər. Deyirlər ki, qoy düşmənin gözü çıxsın!..

Bax, bu saat buradaca rahat yaşayıram. Sənin kimi deyiləm. Bir qəpik də bir adama borcum yoxdur. Səninlə də böyüyəndən sonra

[1] Kargüzar – dəftərxana işçisi, katib

danışacağam. Özüm də böyüyüb, hökumətə qulluq edəcəyəm və avtomobilə minib gələcəyəm kəndə, səninlə də danışacağam. Niyə sən məni yandırdın?.. Niyə məni təndirə atdın?”

Məmməd kargüzardan soruşdu:

– Yazdınmı, əmi?

– Yazdım.

– Adımı da yaz: Məmməd.

Kağızı yazdırandan sonra onu alıb, bir az fikrə getdi və sonra balıncın altında gizlətdi. Kargüzardan da çox razılıq edib dedi:

– Çox sağ ol. Mən bu kağızı Məşədi Salmana göndərəcəyəm. Qoy bilsin ki, mən ölməmişəm. Mənə elədiyi pisliyin əvəzini bir vaxt ondan çıxacağam.

Bir dəqiqə kargüzara baxıb, bir şey xatırlayırmış kimi soruşdu:

– Axı məni niyə təndirə atdı?

# CƏFƏR CABBARLI
## (1899-1934)

## DİLARƏ

Günəşin son vərəmli tellərinin duydurduğu iyrənc bir sükut içində ana ağlayır, ata ağlayır, zavallı qızcığaz da, bu fəlakətə səbəb olmuş kimi qorxudan qımıldanmayıb, yavaşdan için-için ağlayırdı.

Səadət şərbətini tapıb içirkən, qədəhi salıb qırmaq, xoşbəxtlik yolunu tapıb, tam məqsədə çatarkən bir fəlakətə uğrayıb, məhv olmaq nə qədər acı olsa da, adi bir şey deyilmidir?

Gün batar-batmazda idi.

Palçıqçı Bəşir donluğunu almış, borcları ilə tutuşduraraq evə qayıdırdı. Xəstələnmiş, borca düşmüşdü. Bu gün bütün borcları bitir, hətta bir qədər artıq pulu da qalırdı.

Kiçik qızı Dilarə üçün yemişdən-zaddan almaq istəyirdi; paltarı da yox idi, amma hələ pulu çatmırdı.

Küçədən, müəllimləri başda olmaq üzrə, təmiz geyimli, gülərüzlü kiçik-kiçik qızlar, uşaqlar böyük bir intizam və əzəmətlə haraya isə gedirlərdi.

Bəşir durdu, baxdı: nə qədər də dinc, gözəl, təmiz, sevimlidirlər!.. Qızını xatırladı: "Zavallı ayaqyalın, köhnə, çirkli bir köynəklə gəzir. Bu cür geyinərsə, belə görünərmi? Dilarə bunlardan da yaraşıqlıdır. Belə geyinərsə, lap gözəl görünər... O da bu uşaqların arasında olsaydı, nə olardı?"

Bu fikirlər sıra ilə Bəşirin başından bulanıq bir kölgə kimi keçirdi. Birdən nə isə anlaşılmaz bir duyğu onu çulğadı, məchul bir qüvvətin təsiri altında nə etdiyini özü də bilməyərək, qaçıb, ömründə xatırlamadığı bir cəsarətlə müəlliməyə yanaşdı...

– Ay xanım...

Dili dolaşdı, nə deyəcəyini bilmirdi.

Müəllimə iri gözləri ilə Bəşirə baxdı.

– Bağışla, xanım, səndən bir təvəqqem var... Mən özüm palçıqçıyam. Bir balaca qızım var. Onu soruşuram ki, onu neyləyim?

Ona elə gəlirdi ki, müəllimə indi bu cəsarətlə ona yanaşdığı üçün acıqlanacaq, söyəcək, ya da bir acı söz deyəcəkdir. Müəllimə mülayim bir baxışla Bəşirin üzünə baxdı; bu qırışıq üzdə, cəsarəti üçün üzr

istəyən bir günahkar gülüşü çırpınır, gözlərində mərhəmət uman bir taqsırkar izi inləyirdi. Bu zavallı görünüş mərhəmət hissi duydururdu.

– Əmi, qızın neçə yaşındadır?

"Əmi" sözü Bəşiri şaşırdı. Bu gözəl geyimli, böyük, nəcabətli qadından bu sözü eşitməyə, sanki özünü layiq bilmirdi.

– Səkkiz yaşında.

– Əmi, indi vaxt keçmiş, lakin hər halda gətir, bir cür düzəldərik.

– Haraya? Nə vaxt?

Beləliklə sözləşdilər. Sabah Bəşir qızını müəllimənin yanına aparacaqdı. Sonsuz bir məmnuniyyətlə:

– Allah sənə ömür versin! Allah kölgənizi başımızdan əskiltməsin, – deyə baş əyib, sevinə-sevinə ayrıldı.

Əvvəl bir qədər yeyinlədi. Sonra yavaşladı. Düşünürdü: "Nə mülayim adamdır!" Qızı da gözəl geyinəcək, oxumuş olacaq, qonşuları onu tərifləyəcəklər. Bəlkə bir zaman o da bu müəllimə kimi olacaqdır. Lakin qızı ayaqyalın necə aparsın? Arvadı nə deyəcəkdir? Birdən dayandı. Özünü itirmişdi... Kömür meydanına doğru yönəldi, bir cüt köhnə çəkmə, bir köhnə libas da alıb evə qayıtdı.

Dilarə qışın soyuğuna baxmayaraq, bir cırıq köynəyi ilə onu qarşılayıb, ətəyindən yapışdı.

– Ay ata, o nədir? O çəkmələr kimindir? – deyə tez-tez təəccüblə soruşurdu.

Bəşir son vaxtlar evə heç bir paltar və bu kimi şey almırdı, xüsusilə çəkmə, çox təəccüblü idi. Evdə çəkmə geyən yox idi. Heç başmaq tapılmırkən, birdən-birə çəkmə... kimsənin ağlına yerləşmirdi. Dilarənın səsinə çıxan anası da şaşırmışdı.

– Balam, bunlar nədir? Qudurmuşsan!..

– Arvad, heç danışma, işi dəyişdirmişəm.

– Bunlar kimindir?

– Almışam.

– Doğrudan kimindir?

– Vallah almışam. Hələ bu harasıdır? Ay qız, yüyür bir əl-ayağını yu, gəl, bir gör bunlar necə olur?

– A kişi, nə əcəb?

– Hələ sabah Dilarəni uçqola aparacağam.

– Necə yəni uçqola aparacağam?

– Vallah... deyirəm sənə işləri dəyişmişəm. Müəllimə ilə də danışmışam. Özü də bir yaxşı adamdır. Elə qaydalı... Dedi, götür gəl. Ay qız, yubanma, tez yuyun, gəl! – deyə içəri girdi.

Dilarə ömründə görmədiyi bu əcaib ayaqqabıları və paltarı geymiş, sevincindən sanki qanadlanmış, uçurdu. O çoxdan bəri həsrətlə uşaqların ayaqlarına baxır və bir gün onun da çəkməsi ola biləcəyini heç təsəvvür belə etmirdi.

– Ay qız, belə fırlan görək necə dayanır... Ay zalım, qiyamətsən ki... Dur, bağlarını keçirim.

Bəşir pullarının artıq borclara çatışmayacağını da unudub, ömründə duymadığı böyük bir həvəs və sevinclə, ciddi surətdə çalışıb, qızını bəzəndirdi. Çəkmələr köhnə də olsa, Dilarənın ayaqlarında yaraşıqlı görünürdü.

– Ay zalım, lap xozeyin qızlarına oxşayırsan... Cəhənnəmə olsun dünya! Arvad, o tabağı bəri ver. Qız, dur bir oyna...

Tabaq taqqıldayır, Dilarə atasının üzünü öpüb, böyük bir sevinclə oynayırdı.

Səhər hava çox tutqun idi. Gecə, yağış bütün küçələri dizədək palçıq etmişdi. Bu, Bəşirin heç də döşünə düşmürdü. Çünki yaşadığı Böyük Salyan küçəsində küçələr döşənməmişdi, bir az yağış yağan kimi palçıq dizə qalxır, keçmək belə mümkün olmur. Xüsusilə bu gün Dilarənın çəkmələri batacaqdı... Bu heç də arzu edilən bir şey deyildi. Nə isə, Bəşir müəlliməyə söz vermişdi. Dünya dağılsa da, Dilarənı aparacaqdı.

Böyük bir zəhmətlə Dilarəni öz əli ilə geyindirdi. Çıxdılar. Evdən beş-altı addım ayrılmışlardı. Dar küçə elə palçıq idi ki, keçmək mümkün deyildi. Bəşir tez-tez Dilarənin çəkmələrinə baxır, kiçik bir palçıq ləkəsi qanını qaraldırdı. Bir qədər keçincə, 4-cü Təzəpir dalanında yol büsbütün keçilməz oldu.

Bəşir çarəsiz qalıb, Dilarəni qucağına aldı, 2-3 addım getməmişlərdi ki, zavallı Bəşirin ayaqqabısı palçığa batdı. Ayağını çıxarmaq istərkən, birdən büdrəyib, üzü üstə yerə çırpıldı. Artıq uşaq da palçığa bulaşmış, özü də dizindəki ağrının şiddətindən tərpənməz bir hala gəlmişdi. Böyük bir şüşə ayağına batmış, qan axmağa başlamışdı. Ölə-ölə evə qayıtdılar.

Bəşirin dizindən axan qan dayanmırdı. Qonşular toplaşdılar, yaranın üstünə təndir külü tökdülər, hörümçək toru qoydular, bilməm daha nə kimi oyunlar çıxartdılar, lakin olmadı. Hələ topuğu da burxulmuşdu, ağrısı onu sarsıdırdı.

Sınıqçı gəldi, ayağını sarıdılar. Bəşir axşamadək zarıdı, inildədi. Axşamdan bir az keçmiş ayağından elə bir ağrı, elə bir sancı qalxdı ki, dayanmaq mümkün deyildi.

Bəşirin iniltisinə qonşudakı işçilər toplandılar. Hərə bir yol göstərdi. Lakin çarə olmadı. Nəhayət, mütləq, doktor çağırılması lazım olduğunu dedilər. Bu da mümkün deyildi.

– Canım bu qaranlıq küçələrdən həkim nə cür gələcək? Gərəkməz ki, bir faytona minsin. Fayton da indi bir ətək pul istəyir, – deyə qazantəmizləyən Əhməd donquldandı.

Beləliklə, çox danışdılar. Amma nə Bəşirin ayaq ağrısı durdu, nə həkim gətirmək mümkün oldu. Xəstəni bir inilti, bir qızdırma içində buraxıb dağılışdılar.

Zavallı Bəşir beş-altı gün belə gecələri göz yummadan çırpındı. Həkim gətirmək mümkün deyildi. Nəhayət, qazantəmizləyən Əhməd onu arxasına alıb, həkimə apardı.

Doktorlar baxdılar.

– Gec gəlmişdir. Sümüyü qırılmış, həm də ayağında qan kirlənmişdir. Əvvəldən gəlsəydi, sağala bilərdi. Amma indi xəstəxanada yatmalıdır, – dedilər.

İyirmi gündən sonra zavallı Bəşiri evə gətirib, kirli yorğan-döşəyə saldılar. Ayağı artıq bir o qədər ağrımırdı, çünki dizdən yuxarı qılçasını kəsmişdilər.

Günəşin vərəmli tellərinə qarşı zavallı Bəşir ac uşağının, göz yaşlarına boğulmuş qadınının üzünə dinməz-söyləməz baxırdı. “Ox... bundan sonra bu zavallıların günü nə olacaqdır?” Bəşir utancaq gözlərini bir tərəfə qaçırtdı. Bu aralıq baxışları taxçada qoşa qoyulmuş çəkmələrə ilişdi. Birdən-birə nə isə xatırlayaraq, özünü saxlamayıb, hönkürtü ilə ağlamağa başladı...

Ox, səadət nə qədər yaxın idi!..

Lakin...

## ÇOCUQ

22-23 yaşlarında olan bu gənc çocuq vur-tut iki il idi ki, məktəbi bitirmiş, müəllimliyə başlamışdı. Bütün günləri gecələri fikri, zehni öz işi ilə məşğul olduğundan bir yerə çıxmamış, kimsə tərəfindən tanınmamışdı. Ona görədir ki, bu gün böyük bir izdihama qarşı sözə başlarkən

ilk əldə qan beyninə vurdu. Arıq, solğun çöhrəsini xəfif bir qızartı örtdü. Yaşadığı həyəcanın şiddətindən ürəyi çırpınır, bunun da nəticəsi olaraq səsi titrəyir, hətta tez-tez dili çalpaşıq vururdu.

Bunun üzərinə yazıq çocuq özünü itirməsin deyə onu həvəsləndirmək və cəsarətləndirmək üçün sanki doğru deyirsən, yaxşı deyirsən, qorxma, tez bitir, deyə sözlərini başı ilə təsdiq edirdi. Fəqət ilk əldə qorxan və indi-indi dili dolaşır kimi görünən bu gənc getdikcə sakitləşir, demək olursa, özünü öz əlinə alırdı. Çox keçmədən üzünün qızartısı itmiş, onsuz da sarımtraq çöhrəsinə xəfif bir solğunluq enmişdi. Ara-sıra dodaqlarında və səsində duyulan yüngül bir titrəyiş hələ də dərin bir həyəcan yaşadığını anladırdı. Fəqət hər halda bu gənc artıq acınacaq bir görkəm ərz edən həminki qorxaq çocuq deyildi. Qırpımdan-qırpıma kəndisini doğruldur, sözdən-sözə öz qüvvət və mənliyini bütün qurultaya hiss etdirirdi.

Nəhayət, bütün qurultayı anlaşılmaz bir heyrət sarmışdı. Sözlərin düzülüşündə duyulan incə bir ahəng və tənasüb, sözlərin deyilişində hiss edilən qətiyyət və inam, ifadə etdiyi fikirlərdə çırpınan ciddiyyət və qüvvət salonu o qədər cəzb etmişdi ki, dinləyənlər nəfəslərini belə çəkməyə tənbəllik edirdilər. Ara-sıra: "Bu çocuq kimdir? Kimdir? Kimdir?" – deyə hər kəs bir-birinə tələsik sorğular verir və cavab bəkləməkdən yenə dinləməyə başlayırdı. Zatən kimsə cavab da vermirdi. Çocuğu kimsə tanımadığından yalnız umuzlar atılır, yenə salon dərin bir sükuta dalırdı.

Çocuq arıq, bükük vücudunu dikəltmiş, qaşlarını çatmış, iri sərt baxışlı gözləri ilə salonu süzərək danışırdı. Ara-sıra baxışları salonun ta uzaq bir bucağında oturmuş ağ ipək köynəkli gənc bir qadında saxlanır, sanki onun salonda olub-olmadığını, dinləyib-dinləmədiyini yoxlamaq, sözlərinin təsirini, vəziyyətin necə olduğunu onun gözlərində oxumaq, onun hərəkətlərindən anlamaq istəyirdi. Bir qırpım çəkmədən yenə gözlərini qaçırır, sözündə davam edirdi. Doğrudan da gənc qız bütün varlığı ilə bir diqqət kəsilmişdi – saralır, qızarır, natiqin sözündən bir iztirab, hər kəlməsindən bir vəziyyət alır, bir sözlə, natiqin həyəcanları ilə yaşayırdı. Bu qız natiqin öz çıxışına nə qədər əhəmiyyət verdiyini gözəl bilirdi. Məktəbə girdiyi ilk gündən etibarən öz işini öyrənməyə, axtarışlar, təcrübələr yapmağa, yeni yollar, üsullar aramağa başlamışdı. Təcrübələrindən bir yeni nəticələr çıxarmış gənc olduğundan və yürütdüyü fikirlər bir taqım böyük və tanınmış

alimlərin fikirlərinə müxalif olduğundan kimsə onunla hesablaşmır, sözlərini dinləmək istəmirdi. Nəhayət, ümid bu qurultaya bağlanmışdı.

Burada öz sözlərini deyəcək, anladacaq və qurultaydan alacağı təqdir vasitəsilə öz doğruluğunu, onunla hesablaşmaq istəməyən əski müəllimlərə anladacaqdı. Ara-sıra özü istəmədən bir taqım fikirlər də başından keçirdi. Bu çıxış onu hər kəsə tanıdacaq, onu cəmiyyətə çıxaracaq, hər kəsə bəyəndirəcəkdi. Ağ köynəkli gənc qadının da salonda olması və onu, bəlkə də onun müvəffəqiyyətlərini görməsi əhəmiyyətsiz və bunu arzu etməsi də mənasız deyildi...

Qoca müəllimin bu çıxışdan sevinəcəyini və təqdir edəcəyini, ya başqa müəllimin buna etiraz edəcəyini, daha bir çox başqa şeylər düşünmüş idi. Fəqət əsil məqsədi yenə də öz doğru fikirlərini keçirmək idi.

Zavallı, xüsusilə son həftəni büsbütün uyumamış, gecə-gündüz çıxışına hazırlaşmışdı. Bir-bir fikirlərini yoxlamış, ölçmüş, biçmiş, ediləcək etirazları təsəvvür etmiş, cavablar hazırlamış, kim bilir daha nələr düşünmüş, təsvir etmişdi. Gecənin qaranlıq dərinlikləri arasında gah özünü gurultulu alqışlarla, munis, gülər çöhrələrlə qarşılanmış təsvir edirdi, gah da salonda qopacaq: “Bəsdir, sarsaq, mənasız sözlərlə vaxt itirməyə dəyməz!” – deyə eşidilə biləcək sözləri təsəvvür edir, ürəyi döyünür, qan beyninə vururdu. Təklifi üçün qaldırılacaq barmaqları xəyalında sayır, keçdi, keçmədi alqışlar, “bəsdirlər”, qoca müəllimin təqdiri, müxtəlif müəllimlərin etirazı, ağ köynəkli qızın deyəcəkləri...

Zavallı, xüsusilə son həftə içərisində büsbütün üzülmüş, yorulmuşdu. Nəhayət, son qəti gün gəlmiş, qorxaq bir vəziyyət, mütərəddid bir hal ilə ürəyi döyünərək, sözə başlamışdı.

Kim bilir, bir dəqiqədən sonra o, salondan necə çıxacaq, ya hər kəs barmağı ilə onu göstərərək, bir nəvazişlə üzünə gülümsəyəcək, yaxud gülünc bir çocuq kimi yorğun, narazı baxışlar onu yerinə ötürəcəkdi. Artıq söz başlanmış, nə olursa olsun, hər şey keçmişdi, salondakı dərin sükut və diqqət natiq tərəfindən söylənən sözlərin bir o qədər də bayağı olmadığını, xüsusilə maarif komissarlığı nümayəndəsinin öz səndəlini irəli çəkib, böyük bir diqqətlə dinləməsi, hətta tez-tez öz dəftərinə qeydlər götürməsi, sədrin, bütün rəyasət heyətinin və bütün salonun ufacıq bir çıqqıltıya qarşı bir əsəbiyyətlə: “Sus, sus!” – deyə diqqət cəlb etmələri natiq tərəfindən söylənən fikirlərin ciddi olduğunu anladırdı.

– Biz başqaları tərəfindən hazır qanunlar bəkləməyə heç də haqlı deyilik. Biz öz mühitimizi aramalı, öz məktəblilərimizi, öz çocuqlarımızı öyrənməli, dərslərimizi onların ümumi vəziyyətinə uyğun xüsusi üsullar düzəltməliyik. Xatırlamadığım bir nəfərin dediyi kimi bu gün Avropada bir nəzəriyyə halında irəli sürülən fikirlər bizdə bir qanun kimi qəbul edilir. Halbuki...

– Biz bilmədik bu kimdir? – deyə üçüncü sırada oturan birisi yanındakından soruşdu.

– Mənim müəllimimdir. Mənim, mənim. Zəki bir çocuq idi. Onu mən tərbiyə etmişəm. Yoxsul idilər, atası da yox idi, xərcinin çoxunu... Bu mənim əməyimin nəticəsidir, – deyə üç stul ötədə oturan üzü qırışıqlı bir ixtiyar böyük bir sevinc və gözlənməz bir vüqarla cavab verdi.

– Adı nədir, adı, adı?

– ...

– Adamın gərək özündə də bir zəkavət olsun. Bax gör, bülbül kimi danışır, bülbül kimi!.. Barəkallah! Qabil uşaqdır, çalışqandır, çox kamildir, mənim mütəəllimimdir...

İxtiyar müəllim sevincindən özünü unutmuşdu, bərkdən natiqi mədh edirdi. Ancaq sədrin ikinci zəngi ixtiyar müəllimi bir qədər susdura bildi.

30 illik ömrünü, cavanlıq və bacarığını müəllimliyə sərf etmiş bu zavallı ixtiyar bu gün öz əməyinin nəticəsini, ufacıq yaxası yırtıq mini-mini bir çocuqdan bu gün belə mübariz bir qüvvət yetişdirdiyini görüncə sevincindən atılıb-düşmək, ara-sıra: “Bu mənim şagirdimdir”, – deyə bərkdən bütün salona bağırmaq istəyirdi: “Doğrudur, doğrudur, barəkallah, əhsən, afərin!.. Bülbül kimi danışır...” Zavallı ixtiyar sakit olmurdu.

Əfv edərsiniz, – deyə birdən sədr zəngi çalıb qalxdı. Bəsdir, bəsdir”, – sözləri bir ildırım kimi zavallı natiqin başından fırlayıb, bir qırpımda meyit kimi saraldı.

Vaxtım bitdimi, bu saat bitirirəm, – deyə tez sədri qabaqladı.

– Yoldaşlar, natiq vaxtından da 15 dəqiqə artıq danışmışdır. Fəqət söylədiyi fikirlər və qaldırdığı məsələlər olduqca mühüm olduğundan divani-rəyasət natiqə sözünü bitirmək üçün vaxt verilməsini təklif edir.

– Danışsın, danışsın, – deyə alqışla yan salondan: – Əlbəttə, danışsın, yaxşı danışır, doğru deyir. Danışsın! – deyə bağıran müəllimin səsi guruldayırdı.

– Bizdə daima çocuqlarda oxudana qarşı dinməz bir itaət yaradılmasına, oxudanların oxuyanlarda kamil, yenilməz bir qüvvət görülməsinə, çocuqlarda müəllimə qarşı bir acizlik duyğusu vücuda gətirilməsinə, bir çox müəllimlərimizin təbirincə deyəcək olursaq, müəllimə qarşı çocuqda bir etimad yaradılmasına çalışılır. Bu, doğru bir üsul deyildir: çocuğun mənliyi əzilməməli, onda bir mütəşəbbüslük yaradılmalı, hər şeyə qarşı bir arayıçılıq, bir şübhə, bir tənqid istedadı vücuda gətirilməlidir. Çocuq daima öz müəllimini bir rəqib kimi görməli, onda müəllimindən daha artıq bilmək, bilməyə çalışmaq həvəsi oyatmalıdır. Bu hal, bu qətiyyət oxuyanda da çocuqluqdan tərbiyə edilməlidir.

– Doğrudur, doğru deyir, barəkallah! Çocuq gördü ki, müəllim bir şey bilmir, müəllimin evi yıxıldı, hörmətdən düşdü, ondan sonra artıq sinifdə dayanmaz. Barəkallah, doğru deyir, doğrudur... – deyə ixtiyar müəllim sözün fərqinə varmadan mədh və təsdiq edirdi.

İxtiyarın yanında oturmuş təxminən 50 yaşlarında parlaq bürünc düyməli, itigözlü başqa birisi də natiqə baxır və tam başqa bir şeylər düşündüyü üzündən görünürdü. Bu da gənc natiqin müəllimi idi. Fəqət öz müəlliminin çıxışı ona tam başqa dürlü bir təsir bağışlamışdı. O, dünənki yaxası yırtıq bu çocuğun bu gün belə bir cəsarətlə çıxışda bulunmasını, bütün dünyada hökmran sanılan fikirləri alt-üst, hakim sanılan filosofları belə tənqid etməsini bir dürlü təsəvvür edə bilmirdi. Öz vicdanına qarşı natiqin bir çox sözlərinin haqlı olduğunu görürdü. Fəqət bir dürlü inana bilmirdi. O bu çocuğu daima öz sözlərinə tabe görməyə, onun üzərində fikri hökmranlıq sürməyə alışmışdı. Bu gün onun öz müəllimindən daha dərin düşünə biləcəyini qəbul etmək istəmirdi. Bəzən özünü məğlub olmuş kimi hiss edir, darılır, hətta: "Artıq bəsdir, başqasına söz verin" – deyə səslənmək istəyir, fəqət natiqin sonuncu sözünün çox maraqlı olduğunu görüncə, cümlə bitənədək qəsdini təxirə salır və beləliklə istər-istəməz susub qalırdı. Bu adam öz mütəallimінin, doğrudan da çox irəli getdiyini, özündən çox bildiyini və daha dərin düşündüyünü hiss edir, fəqət yenə özünün məğlub olmasına inanmır, daha doğrusu, inanmaq istəmirdi.

Nəhayət, natiq gurultulu alqışlar altında sözünü bitirdi. Çənəsindən damcı-damcı tər tökülürdü, alqışlayanların bir çoxu natiqin təklifləri ilə razı deyildi. Fəqət hər kəs ondakı cəsarəti, qüvvəti və qətiyyəti, istər-istəməz alqışlayırdı. Xüsusilə, ixtiyar müəllim salonu dağıdırdı. "Barəkallah, əhsən, afərin! Mənim mütəəllimimdir, çox

kamildir, çox, çox" – deyə sağa-sola mədh edirdi. "Çocuq" sözlərini bitirdikdən sonra nəfəsini dərmək üçün çıxdı. Gördüklərinin üzünə baxır, çöhrələrindən, danışıqlarından nə kimi bir münasibətdə olduqlarını, təqdir etdiklərini, ya bəyənmədiklərini anlamaq istəyirdi. Fəqət hər kəs bir maraqla çocuğa baxır, kimsə bir söz demirdi. Çocuq gözlərilə tanış bir adam tapmaq, nə danışdığını soruşmaq, daha doğrusu, bir təqdir eşitmək istəyirdi. Olduqca yorğun və əzgin olduğunu ancaq indi hiss edirdi. Bu aralıq bir nəfər böyük bir gurultu ilə adamları yarıb gənc müəllimin boynuna sarıldı. "Barəkallah, əhsən, afərin, yaxşı danışdın, əməklərimi hədərə vermədin, başımı ucaltdın", – deyə arası kəsilmədən saymağa başladı. Bu, bayaqkı ixtiyar müəllim idi. Başının ağ tükləri arasından süzülən tər damcıları biixtiyar gözündən axan yaşlara qatışmış, tühaf görkəm vücudə gətirmişdi.

Gənc müəllim sevincindən gözləri yaşarmış, boğulur kimi bir söz demək istəyir, fəqət danışmırdı, eyni zamanda zavallı, bir nəfəri arayırmış kimi, ətrafını süzür, bir çox kişilər, qızlar, qadınlar görür, ancaq aradığını görmürdü.

Müzakirələr davam edirdi...

Gənc natiq məruzəçi deyil, o ancaq müzakirə təriqilə danışmışdı. Fəqət məsələ ətrafında artıq bitməkdə olan müzakirə yenidən qızışdı, əvvəlləri gənc natiq sözlərinə etina edilməyəcəyini, hətta adı belə çəkilməyəcəyini gözləyirkən, iş tam tərsinə çıxdı. Gənc natiqin adı və dedikləri bir mübahisə məhvəri kəsildi. Sonuncu natiqlər onun nitqinə toxunur, bir çoxları, hətta maarif komissarlığı nümayəndəsi də nitqini tənqid edirdilər. Fəqət bu danışıqların hamısında bir cəhət var idi.

Gənc natiqə müxalif olanlar belə onu böyük bir qüvvət kimi tələqqi edir, sözlərində ona qarşı müəyyən bir hörmət ifadə edirdilər. Yalnız bürünc düyməli müəllimin sözləri bir qədər sərt idi. "Bunlar hamısı çocuqluğun, təcrübəsizliyin nəticələridir, bizdə ən böyük nöqsan – hər kəsin bildiyindən artıq danışmasıdır..." – deyə bu kimi sözlərlə gənc natiqi tənqid edirdi. O, dünənki bu çocuqla bu qədər hesablaşmanın lazım olduğunu qəbul eləmirdi. Halbuki məktəbdə həmin çocuğu ikinci sözdə susdurmaq olurdu.

Gənc natiq bunlara əhəmiyyət vermirdi, artıq müəllimə hörmət və itaət vaxtı deyildi. Burada bir fikir mübarizəsi gedirdi.

Gənc müəllim bütün köhnələri alt-üst edən tam yeni bir dərs üsulu təklif edir və öz təklifini bütün etirazlara qarşı böyük bir qətiyyət və

cəsarətlə müdafiə edirdi. Hətta müəlliminin sərtliyinə sərtliklə cavab verməyib, olduqca soyuqqanlı davranaraq, bəzən müəlliminin də dolaşıq təbirlərini müntəzəm və məntiqi bir şəklə salır və ətraflı bir surətdə təhlil ilə olduqca məntiqi cavablar verirdi.

Müzakirə bitdi. Məsələ səsə qoyulurdu. Gənc natiq bir guşədə oturub, veriləcək səslərin nəticəsini gözləyirdi. Keçəcəkmi, keçməyəcəkmi?.."

Bu iki söz bulanıq bir yuxu kimi zehnindən keçir, bəzən ikincini təsəvvür edincə, ürəyi döyünürdü.

– Kim istəyir?

– Kim əleyhinədir?

– Kim bitərəf qalır?

Gənc natiqin ürəyi döyündü, titrək dodaqlarından qan qaçdı. Gənc natiqin təklifləri keçmirdi.

Bir dəqiqə qədər bütün varlığını bir süstlük sardı. Eyni zamanda zehnində bulanıq bir ümid parlayırdı: "Görünür ki, ətraflı düşünməmişəm. Əlbəttə, səhvlərimi taparam". Fəqət dediyi və çox gözəl anlatdığı bir çox açıq fikir və həqiqətlərin necə oldu da qəbul edilmədiyini anlamırdı. Gözlərini utancaqlıqla yerə dikərək, bir məğlubiyyət duyğusu ilə salondan çıxdı. İlk gözünə sataşan adam ağ ipək köynəkli qadın idi.

Sürəkli, əzici və mənalı baxışlarını gənc natiqin gözlərinə dik qaldırmış, çöhrəsindəki qızartını süzürdü. Sanki onun həyəcanlarını öz baxışları ilə oxşayıb susdurmaq istəyirdi. Eyni zamanda açıq qapıdan sədrin səsi eşidilirdi.

– Təklif bütünlüklə rədd edilsə də, hər halda bir çox dəyərli və yararlı həqiqətləri etinasız buraxmamaq və təhlil edib müntəzəm bir hala salmaq üçün XMK-nın proqram komisyonuna verilsin.

# MƏMMƏD SƏİD ORDUBADİ
## (1872-1950)

## SERJANT İVANOV ADINA KÖRPƏLƏR EVİ

Payız girəndən bəri belə şiddətli soyuq görünməmişdi. Çəmənlər xəzan yarpaqları ilə örtülür, günəş üfüqdən çəkilir, meşədə qaranlıq bir iz buraxaraq gedirdi.

Gənc leytenantın dəstəsi K. kəndinin şərq tərəfindəki meşədə yerləşmək və diviziya komandirinin əmrini gözləmək üçün tapşırıq almışdı. Ağır toplar piyadanın hərəkətini təmin etmək üçün geridəki təpələrdə yerləşdirilir, pulemyotlar isə şam ağacının yarpaqları arasında gizlədilirdi.

Külək şiddətlənirdi. Hücum əmrini gözləyən hər bir qızıl əsgər bütün diqqətini toplayaraq, təyyarə səsini eşitməyə çalışırdı; çünki K. kəndini düşməndən almaq üçün hücum, birinci olaraq sovet təyyarələrinin hərəkəti ilə başlanacaqdı.

Telefonçu hər an diviziya komandirinin əmrini gözləyirdi. Telefonun zəngi vuruldu. Telefonçu sevinərək dəstəyi götürdü. Lakin bu şadlıq uzun çəkmədi. Vurulan zəng səhra telefonunun işləyib-işləməməsini yoxlamaq üçün idi.

Meşədə minlərlə döyüşçünün yerləşdiyinə baxmayaraq bir səs belə eşidilmirdi. Lakin bir az sonra meşə həyatına yad olan şübhəli bir səsin eşidilməsi gənc leytenantı düşündürdü. Səs getdikcə şiddətlənirdi. Yaxşı diqqət verildikdə, bu səs ana döşlərindən ayrılan bir körpənin ağlamasına bənzəyirdi.

Kənd çox uzaqda idi. Orada ağlayan körpələrin səsi bu qədər yaxından eşidilə bilməzdi. Bundan əlavə kəşfiyyatçıların gətirdiyi xəbərlərə görə kənd tamamilə yandırılmış, kənddə yaşayanlar isə hərə bir tərəfə qaçıb getmişdi. Dərhal uşaq səsi gələn tərəfə dörd nəfər qızıl əsgər göndərildi. Qızıl əsgərlərin qayıtması o qədər də uzun çəkmədi. Qızıl əsgərlərdən biri qucağında gətirdiyi qanlı yorğana bürünmüş uşağı göstərib raport verdi:

– Hissədən iki yüz addım qərbə doğru meşənin içərisi qadın və kişi meyitləri ilə doludur. Gətirdiyim körpə isə bir qadın meyitinin yanında çapalayırdı.

Leytenant heç bir söz demədən, körpəni alıb gözlərinə baxdı və qızıl əsgərə qaytarırkən:

– Yaxşı uşaqdır, – deyərək dəsmalını çıxarıb gözlərini sildi və sonra üzünü qızıl əsgərə tutub dedi:

– Zənn edirəm ki, qızıl əsgərlərin heç biri alman faşizminin bu vəhşiliyini unutmayacaq və intiqam hissi onlarda həmişə alovlanacaqdır.

Leytenant bunları söyləyib qızıl əsgərə qısa bir əmr verdi:

– Körpəni otağa aparıb rahat edin!

Qızıl əsgər leytenantın nə dediyini dərhal anladı və körpəni serjant İvanovun tankına apardı.

Serjant İvanov üçün bu birinci təsadüf deyildi; buna görə də o, körpəni qızdırmaq üçün cəld motoru işə saldı, uşağın qanlı və islanmış paltarlarını çıxarıb atdı. Onu öz isti yun köynəyinə bürüdü və başı üstündən süd şüşəsini götürüb uşağın dodaqlarına dayadı.

On dəqiqədən sonra körpə şirin bir yuxuya getdi. Hücum başlandıqdan sonra göydə, yerdə, hətta qulağının dibində partlayan toplar belə körpəni şirin yuxudan ayıra bilmədi.

Göyü birdən-birə dəhşətli gurultu bürüdü. Sovet bombadaşıyan təyyarələri ildırım kimi şığıyan qırıcı təyyarələrin müşayiəti ilə əsgərlərin başı üstündən ötüb keçdi.

Hissənin arxasında yerləşən toplar ağızlarını düşmən səngərlərinə çevirib atəş açarkən, İvanovun tankçıları da şam ağaclarını böyrü üstə yıxaraq, hücuma keçmişdi.

Leytenantın tankçıları hücum əmrini aldığı zaman sanki meşədən ikinci bir meşə ayağa qalxdı. Bir an K. kəndinin üzərini sıx dumanlar bürüdü.

Ağır tanklar iti sürətlə irəli cumur, bombadaşıyan təyyarələr isə iri və ağır bombaları düşmən səngərlərinə tökürdülər.

Çox çəkmədi ki, təyyarələrimiz düşmən təyyarələri ilə üz-üzə gəldi. Havada vurulan düşmən maşınları meşənin içinə düşür, pulemyotlardan güllə yağmuru yağır, topların mərmiləri isə düşmən toplarını havaya sovururdu.

Piyadalar düşmən səngərlərinə yaxınlaşırdılar. Arabir gənc leytenantın: “İrəli! İrəli!” – səsi eşidilirdi. Lakin bu səs birdən-birə dəyişdi, leytenantın:

– Süngü döyüşünə hazır ol! – komandası eşidilərkən, düşmən səngərlərinin qarşısında üçüncü meşə yarandı.

Artıq nə top, nə pulemyot, nə də təyyarə motorlarının səsi eşidilirdi. Süngü müharibəsi başlanmışdı.

Qanlı çarpışma dörd saat davam etdi. Düşmən, kəndi əlində saxlamaq üçün bütün qüvvəsini sərf etdi, lakin böyük tələfat verəndən sonra geri çəkilməyə məcbur oldu.

Sakitlik başlanmışdı. Şimal küləkləri göyü doldurmuş barıt dumanlarını uzaqlara qovurdu. Düşmən kənd küçələrində çoxlu tank, parçalanmış pulemyot və top buraxıb getmişdi. Hər tərəf bir sükuta qərq olmuşdu. Yalnız uzaqlardan seyrək-seyrək pulemyot səsləri eşidilirdi. Bu vaxt İvanovun tankındakı körpə şirin yuxudan ayıldı və kiçik gözləri ilə tankın içərisindəkiləri seyr etməyə başladı.

İvanov körpənin oyandığını gördükdə:

– Bütün yorğunluğum bununla bitdi, – dedi və süd şüşəsini körpənin ağzına yaxınlaşdırdı. Körpə isə bu süd şüşəsini mehriban bir ananın döşü kimi bərk-bərk tutdu.

Düşmən çəkiləndən sonra kəndə birinci olaraq balaca Vera qayıtmışdı. O, kəndə böyük bir ümidlə gəlmişdi. Onun fikrincə, ata-anası hamıdan əvvəl kəndə qayıtmış və evi qızdırmışdılar; çünki faşistlər kəndə girdiyi zaman, onlar isti paltar götürməyə, hətta ayaqqabılarını geyməyə belə imkan tapa bilməmişdilər. Vera ayaqyalın idi, meşənin tikanlarında didilmiş ayaqlarını küçələrin buzlu palçıqlarına basdığı zaman, titrəyir və ağlayırdı. Qız evlərini tapa bilmirdi. Lakin su budkasının yanından sol tərəfə baxdığı zaman, evlərinin yanıb külə döndüyünü görüncə, hönkür-hönkür ağlamağa başladı. Vera bütün gecə-gündüz heç bir şey yeməmişdi, yorğun bədəni soyuqdan donurdu. O qızınmaq üçün anbarın yanıb oda dönmüş dirəyinin yanında oturdu. Yorğunluq və yuxusuzluq can ağrısına qalib gəldi. Bir neçə dəqiqədən sonra onu yuxu apardı...

Budur, atası çöl işindən təzəcə evə qayıtmışdır, anası nahar süfrəsini döşəyir; sobada qızardılmış qazı, bişmiş kartofu, qıpqırmızı üz bağlamış südü və başqa yeməkləri gətirib masanın üstünə düzdü. Vera xamanı təzəcə soyumuş, isti kartofun üstünə töküb qaşıq ilə əzir və yeyirdi. Vera bu ləzzətli xəyali süfrənin başında bəxtəvərlik etdiyi zaman, səhərin şiddətli soyuqları onu daha başqa bir aləmə aparmaq istəyirdi.

Əsən külək və yağan sulu qar Veranın bədənini bir buz parçasına döndərmişdi.

Serjant İvanov balaca bir qızın ölümcül halda tapıldığını eşidərkən sevindi və dərhal: "Körpə ilə məşğul olmaq üçün bu qız göydəndüşmə bir nemətdir", – deyə qızı öz tankına aldı. Bir az sonra tankçılar İvanovun tankının ətrafına yığışıb gülüşürdülər. İvanov isə barmağını dodaqlarına qoyub:

– Sakit! Sakit! Uşaqları narahat etməyin – deyirdisə də buna etina edən yox idi. Tankçılar yenə İvanovun tankının arxasınca baxıb gülüşürdülər. İvanov bundan şübhələndi. O dərhal maşından düşüb tankı yoxladı, özü də əlini qarnına qoyub güldü və bir daha tankın arxasına vurulmuş kağız lövhəni oxudu:

"Serjant İvanov adına körpələr evi".

Tanklar irəli hərəkət etmək əmrini almışdılar.

Ağır tankın hərəkəti kiçik Veranı və körpəni nazlandırırdı. Hər ikisi şirin yuxu içində idi.

Maşın 30 kilometr getdikdən sonra dayandı: yemək vaxtı idi.

Vera gözlərini açıb olduğu yerə diqqətlə baxdı, özünü dəmir bir qəfəsin içində gördü. Sonra özünün ağ bir mələfəyə bürünüb uzandığına diqqət verdi. Lakin qarşısında yağ, pendir, ağ çörək, ağzı açılmış konserv qutuları, qızardılmış ət parçaları, isti kakao görəndən sonra bunu da bir yuxu hesab edərək iştaha ilə yeməyə başladı.

Körpə də üstünü açmışdı. O, təpik ilə Veranın böyründən vurduğu zaman, Vera diksinib arxasına baxdı. Körpə ayaqlarını oynadaraq tərpəşəndə Vera onun üzünə diqqətlə baxdı və dəlicəsinə körpəni qucaqlayıb:

– Vovka, Vovka! Qardaşım? – deyərək bağrına basdı və ağladı. Serjant Veraya ata-anasının faşistlər tərəfindən öldürüldüyünü xəbər vermədi. Ancaq öz arvadına yazdığı məktubda belə bir cümlə var idi:

"Nataşa, səni təbrik edirəm, indi bizim səkkiz yaşında Vera adlı gözəl bir qızımız, dördaylıq Vovka adlı totuq bir oğlumuz vardır".

## SEYİD HÜSEYN
## (1887-1937)

### İKİ HƏYAT ARASINDA

Kimsə təsəvvür etməzdi ki, Ənisə bir məruzə oxuya bilər. İctimaiyyat dərnəyi rəhbəri onun bu xüsusda olan müraciətini çox soyuq qarşılamışdı. Nəhayət, könlü qırılmasın deyə ona:

– Özün münasib bir mövzu tap da hazırla!.. – cavabını vermişdi.

Ənisə məktəb daxilində özünə qarşı bir etinasızlıq olduğunu açıqcasına görürdü. Sinif yoldaşları ona etina etmədikləri kimi, müəllimlər də bir o qədər etina etmirdilər. Hər kəs onu dilsiz-ağızsız, bacarıqsız bir talibə zənn edirdi. Buna özü səbəb olmuşdu. O, daha gənc bir yaşda idi, o da arkadaşları kimi danışıb gülməli, məktəbin hər bir işinə qarışmalı idi. Halbuki o özünü kənara çəkir, tamamilə bitərəf, kənardan gəlmiş bir adam kimi hər işə tamaşaçı olurdu.

Ənisə dörd il bundan əvvəl, məktəbin birinci sinfinə daxil olduğu zaman məktəb mühitinə nə qədər biganə idisə, indi də elə idi. O, halını dəyişməmişdi. Bu il ikidərəcəli məktəbi bitirirdi: orta təhsillə həyat meydanına atılacaq, müstəqil yaşayacaq, bu vaxta qədər onu bəsləyib saxlayan atası Məşədi Əhmədə əl tutacaq, onu rahatcasına yaşadacaqdı. Fəqət bir hal vardı ki, əxlaq təbiətində heç bir dəyişiklik əmələ gəlməmişdi. Bu hal ilə oxuduğu məktəbdə özünə qarşı ümumi bir etinasızlıq yaratmışdı.

Ənisə bu barədə kimsəni töhmətləndirmirdi. Buna özü səbəb olduğu kimi, əlacı da öz əlində idi. O özünü bilik və məlumatca heç kəsdən aşağı tutmurdu. O, arkadaşlarının və müəllimlərinin təsəvvür etdikləri kimi bir o qədər də bacarıqsız deyildi. O, öhdəsinə alacağı bir vəzifəni müvəffəqiyyətlə ifa edə bilərdi. Bununla belə o, ictimai işlərdən qaçırdı; çünki Ənisə özünü sərbəst bilmirdi. Bir "ip" onun əl-ayağını bağlamış, müzic bir ilan kimi boynuna sarılmış, ruhunu öldürmüşdü. Ənisə özünü bu ipdən xilas edə bilmirdi, çünki bu ip onun qoca atası Məşədi Əhməddən ibarət idi.

Ənisə atasını sevir, ona böyük bir ehtiram bəsləyirdi. Bu möhtərəm ağsaqqal Məşədi Əhməd olmasaydı, o nə yapa bilməzdi? Məşədi Əhməd tamamilə əski həyatın bir yadigarı idi. İndiki zamanın tələbləri ilə qətiyyən hesablaşmırdı. Qızını da özünün getdiyi yola sürükləmək

istəyirdi. Ənisə belə bir atanın itaətindən çıxmamağa, onu özündən razı salmağa çalışırdı. Bunun üçün məktəb daxilindəki ictimai işlərə qarışmır, kimsəyə qoşulub onunla arkadaş olmağı arzu etmirdi.

Atası onun üçün böyük bir "qeyd" idi. O bu qeydi qəbul edirdi. Qəbul etdiyi üçün mühitinə tamamilə yabançı qalmışdı. Hər kəs onu "adamayovuşmaz" deyə tanıyırdı.

Ənisə bir neçə ay sonra məktəbi bitirib həyat meydanına atılacaq, sinif arkadaşlarından və müəllimlərindən ayrılacaqdı. Bu adamlar onun barəsində fəna bir fikrə gələcəkdilər. Bacarıqsızlıq, mərdümgirizlik onun üstündə daim bir ləkə olaraq qalacaqdı. O özünü bu ləkədən təmizləmək, acizlik töhmətini üzərindən qaldırmaq istəyirdi. Bunu ictimaiyyat dərnəyində söyləyəcəyi məruzə ilə yapacaqdı.

Ənisə titrəyən əlləri ilə qarşısındakı kağızları qarışdıraraq, məruzəsinin müqəddiməsini söyləyirdi, Səsində bir qırıqlıq vardı. Kəlmələr dilinə dolaşır, cümlələr ağzından çıxmaq istəmirdi, çünki məruzəsini dinləməyə toplaşan qızların, daimi adətləri mövcubinə, bir-birilə yavaşcadan konuşmaları, bununla bərabər, dərnəyə rəhbərlik edən müəllimin əlindəki kitabla məşğul olub söylənən məruzəyə fikir verməməsi onu olduqca pərtləşdirmişdi... Məclisdə hiss ediləcək bir gurultu vardı. Kimsə onu dinləmirdi. O, çıxılmaz bir vəziyyətdə qalmışdı... Nə etməli idi?

Ənisənin bütün vücudu titrəyirdi. Ümidsizlik ona qalib gəlmək istəyirdi. O isə vəziyyətə hakim olmaq əməlini təqib edirdi. Sükut etdi. – Dalğın, eyni zamanda əsəbi gözləri ilə məclisi, xüsusilə müəllimi süzməyə başladı. Onun bu halı özünə məskənət deyil, bir ehtişam və əzəmət bəxş eləyirdi. Sayı məhdud olan qızlar, onun qəzəbli baxışı altında əzilən kimi oldular, müəllim də öz hərəkətinin münasibətsizliyini anlayaraq, əlindəki kitabı bir tərəfə buraxdı. Hər kəs Ənisənin aldığı vəziyyət qarşısında sanki kiçildi. Get-gedə gurultu azaldı. Nəhayət, ortalığı dərin bir sükut qapladı.

Ənisə sözünə davam etdi:

– Şərq aləmi get-gedə tənəzzül edirdi. Bu tənəzzül və inhitatın əsl səbəbi o idi ki, Şərq ellərinin mənsub olduğu mədəniyyət, islam mədəniyyəti özünün kamal dövrünü keçirdikdən sonra, mövsümü ötmüş bir meyvə kimi, içərisindən çürüyürdü. Beləliklə, türk xalqı da o mədəniyyətlə bərabər uçuruma doğru sürüklənirdi.

Dərnək, Ənisəni diqqətlə dinləyirdi. Bu vaxta qədər kimsə onun nə kimi bir mövzu ətrafında danışdığını dərk etməmişdi. Məclisi sakit gördükcə onun cəsarəti artır, cəsarəti artdıqca da səsi qüvvətlənirdi. Kəlmələr indi dil-dodağına dolaşmayıb, məbzul bir bulaq kimi rəvan axırdı.

Ənisə islam mədəniyyətinin inhitatı səbəblərini araşdırıb izah edirdi. "Daxili" və "xarici" olmaq üzrə tarixi hadisələri və bunlardan çıxardığı nəticələri iki yerə ayırırdı.

Deyirdi:

– Qərbdə doğan renesans dövrü yeni bir mədəniyyət hazırlayırdı. Topun icadı dərəbəy şatolarını devirmiş, coğrafi kəşfiyyat kilsənin nüfuzunu qırmışdı. Saraylar kilsələrə, krallar ruhanilərə qalib gəlmişdi. Bu hal qərbdə yeni bir mədəniyyət dövrü açırdı.

Məruzənin mövzusu maraqlı idi. Hələ Ənisənin təcrübəli bir natiq kimi sərbəst söyləməsi daha maraqlı idi. O, Şərqlə Qərbi müqayisə edir, ümumcahan mədəniyyətinin tarixi seyrini xəritədə göstərir, islam mədəniyyətinin bir zamanlar bütün orta əsr qaranlığını yırtmasına baxmayaraq, renesans dövründən sonra get-gedə söndüyünü və bunun nə kimi amillərdən irəli gəldiyini bir orta məktəb tələbəsinin anlaya biləcəyi bir şəkildə izah etməklə, bu mədəniyyətin çürüməsinin təbii olduğunu irəli çəkirdi.

Ənisə tam bir saat danışdı. Məruzəsinin qayəsi – yeni həyatda əski mədəniyyətin təsiri, bu təsirin mənfi cəhətləri idi. Ənisə Oktyabrdan əvvəlki ictimai quruluşun əski adət və ənənələrə sadiq qalmaq istədiyini və bu təsiri saxlamağa çalışdığını isbat edir, ikinci ictimai quruluşda isə əski təsirlərə yer olmadığını göstərirdi.

Ənisə sözünü bu cümlə ilə bitirdi:

– Oktyabr inqilabı bizi yeni bir həyat sahəsinə aparır. Biz həqiqi səadəti yalnız onun ağuşunda bulacayıq. Fəqət əski həyatın mənəvi təsiri bizi özünə tərəf çəkir, irəliləməmizə mane olur. Biz türk qızlarının bugünkü növbəti şüarı – özümüzü çürük bir ipdən başqa bir şey olmayan bu təsirdən qurtarmaq olmalıdır!

Dərnək Ənisəni alqışladı. Onu hər kəsdən artıq müəllim alqışlayırdı. Ayağa qalxıb ona tərəf getdi. Üzünü qızlara tutub dedi:

– Ənisə bugünkü məruzəsi ilə bir xariqüladəlik göstərdi. Bu günün gənc qızları onun son tövsiyəsini dinləyəcək, özünü keçmişin çürük təsirindən qurtaracaqdır. – Sonra əlavə etdi: – İzn veriniz, sizin tərəfinizdən Ənisənin əlini sıxıb, ona təşəkkür edim...

Məclis ikinci kərə Ənisəni alqışladı.

Ənisə ilk müvəffəqiyyətindən hasil etdiyi nəşənin təsiri ilə evlərinə qayıtdı. Onun bacarığı, gələcəkdəki fəaliyyəti yalnız məktəb dərnəyində söylənəcəyi üç-beş məruzəyə münhəsir olaraq qalmayacaqdır. O daha çox işlər görəcəkdi. O, məktəb divarları arasından daha geniş olan ictimai həyatda iş görə biləcək bir istedada malik idi. Ənisə xəyalında bütün bunları araşdırırdı. O hər nə istəsəydi ola bilərdi. Fəqət atası... Başqa gənc qızları keçmişin təsiri ilə mübarizə etməyə, özlərini bu cür "çürük ip"dən xilas etmək üçün çalışmağa dəvət etdiyi bir zamanda, özü hələ atasının təsiri və nüfuzu altında idi.

Ənisə qapıdan içəri girdikdə əmisi oğlu Muxtarı yenə evdə gördü. O, Ənisənin atası ilə şirin söhbət edirdi. Muxtar onun nişanlısı idi. İki il əvvəl ikidərəcəli məktəbi bitirmişdi. Mərkəzi işçi kooperativində orta bir vəzifə daşıyırdı. Ənisəni ona hələ kiçik yaşda ikən anaları nişanlamışdı.

Muxtar başı ilə Ənisəyə təzim edib salam verdi. O, əlindəki kitab və dəftərlərini taxçaya qoyub, çadrası başında olduğu halda, bir tərəfdə oturdu, çünki Məşədi Əhməd qızı Ənisənin, əmisi oğlu və nişanlısı belə olsun, naməhrəm bir adamın yanında başıaçıq oturmasına razı ola bilmirdi.

Ənisə onların söhbətini dinləməyə başladı. Məşədi Əhmədin söhbəti heç də maraqlı deyildi. Ənisə bu söhbəti dəfələrlə atasından eşitmişdi. Cavanlıqda Xorasan ziyarətinə gedərkən, orada eşitdiyi bir möcüzədən bəhs edirdi.

Muxtar da onun sözlərini təsdiq edirdi. Əlavə olaraq özü də möcüzə qəbilindən bir hekayə quraşdırıb nağıl etdi.

Muxtar möcüzəyə inanacaq halda deyildi. O bunu yalnız gələcəkdə qayınatası olacaq əmisinin könlü xoş olmaq üçün söyləyirdi. Bu, Muxtarın bir xüsusiyyəti idi. O özünü qarşısındakı adama bəyəndirib sevindirmək üçün hər rəngə müvəffəqiyyətlə girə biləcək bir istedada malik idi. Onun bu halı Ənisənin xoşuna getmirdi.

Ənisə açıqdan-açığa görürdü ki, Muxtar uydurduğu yalanla fırıldaqçılıq edir, atasını aldadır. Qaşlarını çatdı, əgər atasından çəkinməsəydi, Muxtarın üzünə deyərdi:

"Sən yalan danışırsan, atamı aldadırsan!"

Belə qəti və şiddətli etiraz etmək ona mümkün deyildi. Sükut da etmək istəmirdi.

Soruşdu:

– Siz doğrumu söyləyirsiniz?

Muxtar Ənisənin bu sualı qarşısında bir qədər qızardısa da, halını dəyişmədi.

– Allahın əlində, – dedi, – heç bir şey çətin deyil. – Əlavə olaraq kinayəli bir tərzdə soruşdu: – Yoxsa siz buna inanmırsınız?

Muxtar bu sualını qəsdən olaraq Ənisəyə verməklə onu atasının yanında çıxılmaz bir mövqedə saxlayırdı, çünki bilirdi ki, Ənisə atasının yanında "xeyr, inanmıram" deyə bilməyəcəkdir. Fəqət Ənisə "inanıram" kəlməsini də ağzına alıb söyləmədi. Muxtara etiraz olmaq üçün ayağa qalxdı, bir cavab vermədən dışarı çıxdı.

Ənisənin şöhrəti yavaş-yavaş oxuduğu məktəbin divarlarından dışarı çıxaraq, başqa məktəblərə də əks etmişdi. Buna dərnəyin rəhbəri müəllim səbəb olmuşdu. Beş gün əvvəl Ənisə daha geniş bir ictimada ikinci məruzəsini oxumuşdu. Bu məruzəyə başqa məktəb dərnəkləri və son sinif tələbələri də cəlb edilmişdi. Ənisə gözəl bir natiq idi. Onun səsində hər kəsi məşğul edəcək bir qüvvət var idi.

Ənisənin qazandığı müvəffəqiyyəti Muxtar da eşitmişdi. Muxtar evdə əmisi Məşədi Əhmədin yanında Ənisə ilə xüsusi söhbətə girişə bilmirdi. Bunun üçün o gün məktəbə qədər gəlmiş, onu alaraq evlərinədək ötürmək istəmişdi. Muxtarın bir məqsədi var idi. O istəyirdi ki, yayda toy eləsin. Əmisinin buna bir sözü olmayacaqdı. Bu barədə Ənisənin əvvəlcə razılığını almaq lazım idi. Bir müqəddimə olmaq üzrə, bir həftə əvvəl aralarında vaqe olmuş "möcüzə" ixtilafından söz açdı.

– Siz necə bilirsiniz, mən möcüzəyə inana bilərəmmi? – deyə soruşdu:

– İnandığınızı söyləyirdiniz!

– Xeyr, yanılırsınız! Mən nəinki möcüzəyə, hətta Allahın varlığına da inanmıram.

– Bəs nə üçün atamı aldadırsınız?

Ənisənin bu sualı Muxtara imkan verdi ki, istədiyi məsələnin üstünü açsın. Dedi:

– Mən buna məcburam.

– Nə üçün?

– Səbəbini zənn edirəm ki, siz özünüz bilirsiniz.

Ənisə Muxtarın dediyini başa düşürdü. Hiss edirdi ki, Muxtar onu atası Məşədi Əhmədin vasitəsilə əldə etməyə çalışır. Onun bu halı Ənisəyə daha artıq toxunurdu. Cavab verdi:

– Siz yanılırsınız!

– Nə barədə?

– O barədə ki, atam mənə özünün əski gözlüyü ilə baxa bilər... Bu onun haqqıdır, çünki onun zehniyyəti həyati görüşü kimi əskidir. Siz həyata başqalarının gözü ilə deyil, öz gözünüzlə baxmalısınız. Mənə də atamın gözü ilə baxmamalısınız.

Muxtar heç təsəvvür etməzdi ki, açdığı söhbət bu qədər ciddi bir şəklə düşə bilər. Ənisə onunla ərə getmək istəyən bir qız kimi danışmırdı.

– Mən, – dedi, – istədiyimə nail olmaq üçün hər şeydən istifadə edirəm. İcab edərsə, həyata atanızın gözü ilə də baxardım. Bəlkə məqsədimə yetişmək üçün onun uzunətək arxalığı ilə dikdaban başmağını da geyərəm.

Ənisə güldü. Muxtarı atası Məşədi Əhmədin paltarında görür kimi oldu.

– O məqsəd nədir ki, siz özünüzü onun uğrunda belə gülünc bir şəklə salırsınız?

– Sizə malik olmaq!..

Ənisənin qaşları çatıldı. Yanaqlarını bir qırmızılıq istila etdi. Üzünü turşudub Muxtarın gözlərinə baxdı. Dedi:

– İzn veriniz, sizə bir söz söyləyim.

– Buyurunuz.

– Siz tamamilə yanılırsınız!

Muxtar boynuna alırdı ki, tamamilə həyata əski gözlə baxır. O bunu bir fədakarlıq kimi göstərirdi. Guya Ənisənin uğrunda o hər şəklə düşə bilər. Bu barədə Ənisəyə uzun bir məktub da yazmışdı.

Muxtar Ənisəni əldə etmək üçün iyirmi-iyirmi beş il əvvəlki həyata qayıtmışdı. Ənisənin razılığını almadan anasını elçi olaraq əmisi Məşədi Əhmədin yanına göndərmiş, əmisi də bir əski ata kimi Ənisənin rəyinə müraciət etmədən qızını köçürməyə razılıq vermişdi. Bu xəbər Ənisəyə ildırım kimi təsir etmişdi.

Ənisə hər xüsusda atasının ehtiramını saxlayır, onun sözündən çıxmamağa çalışırdı. Fəqət onun son əmrinə boyun əyib tabe ola bilməyəcəkdi. O sevmədiyi, bəlkə də bir qədər nifrət etdiyi Muxtarın

arvadı olmayacaqdı. Bu fikrini ögey anasına bildirmiş və atasına söyləməsini rica etmişdi.

O gün məktəblərində buraxılış münasibəti ilə akt məclisi və müsamirə tərtib edilmişdi.

Ənisənin öhdəsinə bir vəzifə verilmişdi: akt məclisində söylənəcək təbrik nitqlərinə cavab olaraq talibələr tərəfindən cavab vermək...

Ənisə bütün ömründə ilk kərə olaraq axşam, azandan sonra evdən çıxıb bu müsamirədə iştirak edəcəkdi. Özlüyündə belə qərara gəlmişdi ki, akt məclisi bitdikdən sonra müsamirəyə dayanmayıb qayıdaram. Fəqət bir iş vardı ki, atasından müsaidə almalı idi. Bu məqsədlə atasının yanına getdi.

– Ata can, – dedi – bu gün mənim son məktəbə getdiyim gündür!

Məşədi Əhmədin üzündə bir təbəssüm əlaməti göründü. Öz hesabına Ənisənin sözündən bu mənanı çıxarırdı ki, bundan sonra evdə oturacaq; bir daha bayıra çıxmayacaq və sənin göstərdiyin yolla gedəcəyəm.

– Çox yaxşı, – dedi, – məni vəsvəsədən qurtardın. Çox sağ ol, qızım!

Ənisə əlavə etdi:

– Ancaq bir iş var ki, bu axşam mən gərək məktəbə gedəm. Bütün qızlar öz valideynləri ilə oraya gələcəklər. Mən istərdim ki, siz də mənimlə bərabər gedəsiniz!

Məşədi Əhmədin nəşəsi qaçdı.

– Yox, qızım, mənə zəhmət vermə! Mən elə yerlərə getmərəm!

– Onda izn ver mən gedim; çünki getməsəm yaramaz.

– Qız xeylağı gecə vaxtı... bayıra çıxsın! Nə danışırsan?

– Ata, axırıncı xahişimdir. Rica edirəm məni yoldaşlarımdan geri qoyma!..

Atası onun xahişini yerə salmaq istəmirdi. Anasız, eyni zamanda yeganə bir qızı olduğu üçün, əqidəsinə zidd də olsaydı yenə də izn vermək istəyirdi.

– Tutaq ki, sənə izn verdim, sonra bütün əmrlərimə tabe olacaqsan, deyilmi?

Ənisənin üzündə xəfif bir qırmızılıq hasil oldu. İxtiyarsız olaraq Muxtarı xatırladı:

– Mən sizin hansı əmrinizdən çıxmışam ki?..

– Hansı əmrimdən?.. Anana söylədiyin sözlərin mənası nədir? Necə yəni mən ərə getmək istəmirəm... Yoxsa məktəbdə öyrəndiyin dərs bundan ibarətdir?

– Yox, ata can!.. Ondan ibarət deyildir. Qoyunuz bu axşam məktəbə gedib kağızımı alım, sonra o barədə danışarıq.

– Nə barədə?

– Dediyiniz məsələ barəsində.

Məşədi Əhməd bir qədər düşündü:

– Yaxşı, get, ancaq tez qayıt! – dedi.

Məktəb müsamirəsində Muxtar da vardı. Bir hədiyyə olmaq üzrə Ənisəyə qiymətli bir çiçək dəstəsi də təqdim etmişdi. O bu gecə Ənisənin razılığını və könlünü alacağına çox arxayın idi.

Akt gecəsi çox təntənəli keçmişdi. Müxtəlif təşkilatların nümayəndələri bir çox nitqlər söyləmiş, məktəbi bitirən qızların üzərində yeni həyat qurmaq uğrunda məsul vəzifələr olduğunu xatırlatmışdılar. Bunların hamısına Ənisə cavab vermişdi.

– Biz qızlar, – demişdi, – əlimizi ürəyimizin üzərinə qoyub sizin bütün tövsiyələrinizi dinləyir, yeni həyat yaratmaq uğrunda səmimiyyətlə çalışacağımıza söz veririk.

Ənisə bunu da qeyd etmişdi ki:

– Biz mübarizə meydanına atılıb çalışmaqla hər şeydən artıq özümüzün səadətini düşünürük; çünki yeni həyat – bizim həyatımız, onun səadəti də bizim səadətimizdir. Bu barədə kimsənin boynuna bir minnət də qoymayacağıq.

Akt məclisindən sonra tənəffüs zamanı Muxtar Ənisəyə yaxın gəlib onu təbrik etdi. Sonra onun qoluna girib məktəbin geniş həyətinə çıxmaqla, onu xəlvət bir bucağa, ətrafına gözəl ətir saçan bir akasiya ağacının altına çəkdi. Ənisə onun məqsədini anlayırdı. Buna baxmayaraq ondan çəkinmədi.

Muxtar başladı:

– Mən sizinlə danışmaq istəyirəm.

– Elə mən də sizinlə danışmaq istəyirəm.

– Nə barədə?

O barədə ki, siz də onun barəsində danışmaq istəyirsiniz.

– Çox yaxşı, buyurunuz!

– Biz hansı zamanda və harada yaşayırıq?

Muxtar donuxdu. Ənisənin sualını yaxşı anlaya bilmədi. Soruşdu:

– Necə yəni hansı zamanda və harada?

– Onu söyləmək istəyirəm ki, biz hazırkı zamanda Şuralar ölkəsində yaşayırıq. Bizim zamanımızın xüsusiyyəti odur ki, əski həyat uçulur, onun adət və ənənələri də əsasından dağılır; yerində yeni bir

həyat qurulur. Biz elə bir cəmiyyətin üzvüyük ki, o öz içərisinə ancaq yeni adamları qəbul edir. Yeni adam o deyildir ki, yalnız zahiri şəklini və qiyafəsini dəyişmiş olsun. Yeni adamın həyatı da, görüşü də, düşüncəsi də, əxlaqı da, hətta damarlarında axan qanı da yeni olmalıdır. Bunu bilirsinizmi?

– Çox yaxşı bilirəm!..

– Elə isə sizə də lazım gəlir ki, özünüzü bir az yeniləşdirəsiniz!..

Muxtar Ənisənin bu tövsiyəsi müqabilində düşünmədən cavab verdi:

– Mən əski deyiləm, qətiyyən əski deyiləm. Mən tamamilə yeni adamam. Bunu sizə hər zaman isbat edə bilərəm.

– Siz əgər dediyiniz kimi yeni adam olsaydınız, mənim şəxsimə və gələcək həyatıma aid olan bir məsələni özümlə danışıb həll edərdiniz, nəinki atamla...

Muxtarın iddiası ilə hərəkəti arasında rabitə yox idi, özünün yeni adam olduğunu söyləyirdi, lakin Ənisəni ala bilmək üçün o, tamamilə əskicəsinə hərəkət etmişdi. O yolda hərəkət etmişdi ki, atası da anasını alarkən elə yapmışdı.

– Hər halda atanız köhnə adamdır, – dedi.

– Hər halda mən özüm köhnə deyiləm.

Muxtar adəti üzrə özünü müvəqqəti bir zaman üçün Ənisənin istədiyi bir şəklə salmaq istədi:

– Haqlısınız, – dedi, – mən öz qəbahətimi etiraf edirəm. Sizinlə görüşməkdə məqsədim razılığınızı, eyni zamanda könlünüzü almaqdır. Mən sizin yolunuzda hər fədakarlığa hazıram.

– Elə isə sizə təşəkkür edirəm.

– Elə isə izn veriniz toyumuz olsun!

Ənisə oturduğu skamyanın üstündən ayağa qalxdı:

– Bizim analarımız, – dedi, – vaxtilə öz əski həyatları və əski tələqqiləri ilə bizi bir-birimizə nişanlamışdılar. Etiraf edərsiniz ki, bu, çox əskicəsinə bir işdir. Biz ata-analarımızın yolu ilə getmək istəmədiyimizdən, onların xahişləri kimi deyil, öz istədiyimiz kimi hərəkət etməliyik.

– Mənim istədiyim səninlə evlənməkdir.

– Mənim də istədiyim budur ki, hələlik kimsə ilə evlənməyim.

Ənisə atasının "tez qayıt" əmrinə itaətlə evlərinə qayıtmaq üçün məktəb binasından dışarı çıxdıqda, müsamirə başlanmışdı. Şərqin əski

bir musiqi aləti olan yastı balabanın rəfaqəti ilə Qərb musiqi aləti klarnetdə çalınan "Komsomol" havası ilə rəqs edən gənc qızlar və oğlanların səsləri küçədə eşidilirdi. Muxtar onu təşyi edirdi. Hər ikisi sükut etmişdi.

Payız mövsümü yaxınlaşdıqca Ənisənin vəziyyəti ağırlaşırdı. Üç ay olardı ki, o, məktəb həyatından ayrılmışdı. Bu üç ayın ərzində öz gələcək həyatı barəsində müəyyən bir qərara gələ bilməmişdi. Onun qarşısında üç yol vardı, darülfünun, ictimai həyat, ər evi.

Ənisənin bütün yoldaşları darülfününuna girmək üçün çalışırdılar. O, hələlik heç bir təşəbbüsdə bulunmamışdı. Çünki Ənisəyə, hər şeydən əvvəl, özünü və ailəsini keçindirmək lazım idi. Bunun üçün Ənisə darülfününun yolunu hələlik ikinci mövqeyə buraxıb, ictimai həyat yolunu tutmalı idi. O burada müvəffəqiyyətlə çalışa bilərdi. Onun maddi və iqtisadi vəziyyəti də burada təmin edilərdi. Ancaq bir məsələ vardı ki, atası Məşədi Əhməd ona müsaidə vermirdi. Məşədi Əhməd Ənisəni üçüncü yolu tutmağa, ər evinə getməyə məcbur edirdi.

Ənisə çox yaxşı bilirdi ki, ər evinə getməklə istər özünün, istər atası Məşədi Əhmədin maddi həyatı qismən yoluna düşə bilər. Fəqət mənəviyyatca özü süqut edəcəkdi. Bununla bərabər, o, nədən ötrü ər evini başqalarına tərcih verməli idi. Halbuki ictimai həyat səhnəsi onun ailəsinin maddi halını təmin edə biləcəyi kimi öz mənəviyyatını da yüksəldə bilərdi.

Ənisə ər evinə getməkdə mütərəddid deyildi. O qətiyyən oraya getməyəcəkdi. O gedəcəyi yerin harada olacağını çox yaxşı bilirdi. Buna baxmayaraq, istədiyi cəhətə hərəkət etməkdən aciz idi.

Ənisə iki həyatın arasında qalmışdı. Yeni həyat onu öz tərəfinə çəkirdi, əski həyatın işləri onu tutub buraxmırdı.

Əskilik yalnız Məşədi Əhməddən ibarət deyildi. Özünü yeni şəklə salan Muxtar da onun əl və ayağını tutmuşdu. Onun çevirdiyi fırıldaqlar səbəbi ilə, Ənisə bu vaxtadək özünə bir vəzifə tapa bilməmişdi. Qulluq üçün müraciət etdiyi idarə və müəssisələr onun əmək bursasında qeyd edilib-edilmədiyini sorurdular. Əmək bursasında da, bir ixtisası olmadığı üçün qeyd etmirdilər. Bu hal Ənisəni sevmədiyi Muxtarın evinə tərəf itələyirdi.

Ənisənin yoldaşlarından bir neçəsi maarif şöbəsinə müraciətlə özlərinə müəllimlik yeri almışdılar. Ənisə də oraya müraciət etdi. Müəllimlik yeri vardı. Fəqət şəhərdə deyil, kəndlərin birində idi. O, təkbaşına

olaraq kəndə gedə bilməyəcəkdi. Onun yalnız bir ümidi vardı: atasını və ögey anasını yanına alıb kəndə getmək...

Bu fikrini atasına açıb söyləmək üçün münasib bir vaxt aradığı halda, atası onu yanına çağırdı:

– Ənisə, – dedi, – sən özün görürsən ki, mən qocalmışam. Gözlərim yaxşı görmür, əllərim işləməkdən qalıbdır. Yavan çörəyi belə doyunca yeyə bilmirik; nə üçün sən qoca atanın bu halını nəzərdə tutmursan?

Ənisənin üzü qızardı. Bilirdi ki, atası onunla Muxtara getmək barəsində danışacaqdır. Başını aşağı saldığı halda cavab verdi:

– Bilirəm, siz atalıq haqqı ilə məni bəsləyib böyütdünüz, məktəbdə oxumağa imkan verdiniz, mən də övladlıq vəzifəsi ilə qocalığınız zamanında sizi bəsləməli və zəhmətdən xilas etməliyəm. Mən buna çalışıram.

Məşədi Əhməd məmnun bir tərzdə:

– Çox sağ ol, qızım. Mən bu barədə səndən razıyam, – dedi.

– Mənim sizə köməyim yalnız öz zəhmətim sayəsində olacaqdır.

Məşədi Əhmədin üzü bulandı.

– Açıq söylə görüm, nə istəyirsən?

– Mən özümə müəllimlik yeri tapmışam. Alacağım maaş bizə kifayət edər. Bu barədə mənə izn veriniz.

Məşədi Əhməd altdan yuxarı Ənisənin üzünə baxdı. Qaşları çatılmışdı:

– Nə üçün əmin oğluna getmək istəmirsən, halbuki o sənin nişanlındır.

– Başqasının qazancına göz dikməkdən nə çıxar? Bir zamanda ki, mən özüm də onun kimi çalışıb qazana bilərəm.

Məşədi Əhməd hirsləndi:

– Qız! Sən nə danışırsan? Ağlın çaşıbdır!.. Necə yəni özüm də onun kimi çalışıb qazanaram!.. Xalq sonra mənə nə deyər?.. Qız xeylağı nə iş görə bilər?..

– Nə üçün görə bilmir? Minlərlə qızlar idarə və müəssisələrdə qulluq edib öz ata və analarını saxlayırlar, mən də onların birisi... Maarif şöbəsi mənə kənddə müəllimlik yeri verib. Yığışıb kəndə gedərik. Orada daha yaxşı yaşamaq olar. Xalq da sənə bir söz söyləməz...

– Sən xərifləmisən! Belə boş-boş fikirləri başından çıxar. Sənin qulluğun yalnız Muxtarın evidir.

Ənisənin üzü təkrar qızardı. O, atasının əmrinə boyun əyə bilməyəcəkdi. Dedi:

– Ata can, məni bağışla, əmrindən çıxıram. Mən ərə getmək istəmirəm.

Məşədi Əhməd qızından belə cavab alacağını heç təsəvvür etməzdi. Başını aşağı salıb əlini qaşlarının üstünə qoydu. O nədənsə axır illərdə əvvəlki kimi sərt təbiətli deyildi. Bir qədər yumşalmışdı. Dedi:

– Əgər sən atanın əmrindən çıxsan, o zaman mənim keçinmək üçün yalnız bir çarəm qalıb: küçəyə çıxıb yoldan keçənlərə əl açmaq. Demək, Muxtarı rədd etməkdə, sən atanı dilənçiliyə göndərirsən?!.

– Yox, ata... Mən qulluq edəcəyəm. Mən sizi saxlayacağam.

Məşədi Əhməd qarşısında ayaq üstə duran Ənisənin üzünə baxdı.

– O günə daş düşəydi ki, sən məktəbə getdin, – dedi.

Məşədi Əhməd papaqçı idi. Vaxtı ilə onun bazar karvansara qapısı ağzında kiçik bir dükanı vardı. Bir tərəfdən papaqçılığın get-gedə tənəzzülü, o biri tərəfdən özünün qocalığı ona dükan saxlamaq üçün imkan verməmişdi. Üç il əvvəl dükanını yığmışdı. Bu tarixdən sonra o, evdə işlər, qoyun və quzu dərisindən tikdiyi tüklü papaqları bazarda və meydanda əlində gəzdirməklə satardı. Qış fəslində bir növlə keçinərdilər. Yayda tüklü papaqlar işə getmədiyindən çox çətinlik çəkirdi. Son zamanlarda əli daha iynə tuta bilmirdi. Onun yeganə ümidi Muxtar idi. İstəyirdi ki, Ənisəni ona verməklə öz yanına alsın, onun sayəsində həyatının son günlərini ibadətlə keçirsin.

Məşədi Əhməd Ənisənin oxumasına qətiyyən razı deyildi. Ənisəni anası ondan gizli olaraq məktəbə qoymuşdu. Məşədi Əhməd hər səhər tezdən evdən çıxar, bir də axşam azanı qayıdardı. Beləliklə, Ənisə birdərəcəli məktəbi bitirmiş, ikidərəcəli məktəbə daxil olmuşdu. İkinci sinfə keçərkən, Ənisənin anası vəfat etmişdi. Məşədi Əhməd də, dükanını yığışdırıb evdə işləməyə məcbur olduğundan, bununla bərabər başqa bir qadına evləndiyindən, Ənisənin məktəbdə oxuması aşkara çıxmış, beləliklə, Ənisə məktəbdən qalmışdı. Payız fəsli gəlib məktəblər açılınca, Ənisə məktəb eşqi ilə xəstə düşmüşdü. Bunun üzərinə Məşədi Əhməd bu anasız qızın könlünü ələ almaq məqsədilə, qohum-qonşu arvadların tövsiyəsini dinləyib, Ənisənin məktəbə davamına razılıq vermişdi. Məşədi Əhməd indi özünü töhmətləndirirdi. Ənisənin oxumasına imkan verdiyindən dolayı peşman olmuşdu.

Məşədi Əhmədin ailəsində böyük bir məyusluq davam edib gedirdi. Hər nə qədər özü şəxsən ikinci kərə Ənisəyə bir söz söyləməmişdisə də, Ənisənin xalası və bibiləri hər gün gəlib onu min dürlü sözlərlə danlayır, Muxtarın məziyyətlərini onun üçün sayıb tökürdülər. Bu sözlərin Ənisəyə, demək olmazdı ki, təsiri olmurdu. Bununla bərabər Ənisə atasının maddi halını görürdü. O, bəlkə də Muxtarın ona tərəf uzatdığı izdivac əlini də tutardı. Fəqət bu ən son çarə idi. Ənisə çox yaxşı bilirdi ki, ayda əlli-altmış manatlıq bir gəlirlə evlərinin maddi böhranı ortadan qaldırıla bilər. Hazırda belə bir vəzifə də vardı. Yalnız Məşədi Əhmədin müsaidəsi lazım idi. Ənisənin fikrinə gəlirdi ki, özünü tutub bağlayan ipləri bir kərəlik qırıb atsın. Onu əskiliyə çəkən mühitə, atası Məşədi Əhməd də onların içərisində, üsyan edir hər kəsə eşitdirəcək bir səslə:

"Mən artıq sərbəstəm, ixtiyarım öz əlimdədir. İstədiyim kimi hərəkət etməyə haqqım vardır" deyib təklif edilən kəndə getsin.

Ənisə bunu yalnız düşünürdü. Fəqət bu fikrini yapa biləcək bir cəsarəti yoxdu.

İki gün əvvəl yeni məktəb bitirib özünə bir vəzifə arayan bir gənc, maarif şöbəsində ona demişdi ki:

– Əgər kəndə getmək sizə müyəssər deyilsə, maarif şöbəsinə bildiriniz, mən oraya getmək istəyirəm.

Ənisə ona iki-üç gün sonra qəti cavab verəcəyini bildirmişdi. O, maarif şöbəsinə nə yolla cavab verməli idi? Vaxt yaxınlaşırdı. Bəzi məktəblərdə dərslər başlanmışdı.

O gecə Ənisənin yuxusu qaçdığı üçün sabaha kimi həp bu kimi fikirlərlə zehnini yormuşdu. Qəti bir qərara gələ bilmirdi. Birdən atasının səsini eşitdi: adəti üzrə ucadan sübh namazı qılırdı.

Məşədi Əhməd namazdan sonra hər gün oxuduğu ərəbcə duaları təkrar etdi. Axırda bunlara öz dili ilə bəzi cümlələr də əlavə etdi. Bu cümlələri Məşədi Əhməd hər nə qədər yavaşdan deyib Allahına yalvarırdısa da, yeni açılmaqda olan sabahın sükutu içində Ənisə onları çox aydın bir tərzdə eşidirdi.

Məşədi Əhməd ağlar bir səslə yalvarırdı:

– Pərvərdigara, sən məni dilənçiliyə göndərməklə imtahana çəkmə, sən onun qəlbinə bir işıq ver ki, məni bu ağır vəziyyətdən qurtarsın.

Bu sözlərin ardınca qoca kişi bir uşaq kimi ağlamağa başladı.

Məşədi Əhmədin bu halı Ənisənin bütün ruhunu sarsıtdı. Atası onun özündən bəhs edirdi. "Onun qəlbinə..." dediyi öz qəlbindən başqa

bir şey deyildi. Atası doğru söyləyirdi. Onun qəlbinə işıq verəcək bir qüvvə lazım idi. Onun özündə belə bir qüvvə yoxdu ki, ona qəti addım atacaq bir cəsarət verəydi, Ənisə düşündü, düşündü. Qəti qərar vermək zamanı yetişmişdi. İndi onun xəyalında iki şey canlanmışdı:

Muxtar, kənd məktəbi...

Tez-tez bunlar yerlərini dəyişir, Ənisənin qarşısına gəlirdi. Atasını özündən razı salmaq məsələsi də vardı. Yorğanını başına çəkdi, səsini çıxarmadan o da ağlamağa başladı.

Ənisə qarşısında belə bir məsələ qoydu:

"Mən atamı razı salmaq üçün onun istədiyi düşüncə və zehniyyətdə bir qız ola bilərmiyəm?"

Ənisə atasının istədiyi bir ruhda qız ola bilməyəcəkdi. Ərə getdikdən sonra da, onu razı sala bilməyəcəkdi. Ənisə atasını aldatmaq istəmirdi. O, Muxtar kimi gündə bir rəngə düşməyi bacarmırdı. Beləliklə, atası hər zaman ondan narazı olub qalacaqdı. Bu surətdə hissiyyata qapılıb fədakarlıqda bulunmağın bir mənası yoxdu. Bir zamanda ki, Məşədi Əhməd ondan narazı idi, burax bir qədər də artıq narazı olsun. Hər halda atasının həyatını öz maaşı ilə təmin etməli idi. Bunun üçün Ənisə o gün səhər evdən çıxıb, saat ikidə qayıtdı. Sabahısı gün də evdən bayıra çıxıb bir-iki saat sonra gəldi. Üçüncü gün saat on radələrində evdən bayıra çıxarkən, atasına verilmək üçün, ögey anasına bir məktub verdi. Məşədi Əhməd axşamüstü evə qayıtdı. Ənisə hələ gəlməmişdi. Qızdan nigaran qalmağa başladılar. Muxtarın dalınca adam göndərdilər. Ənisənin yazdığı məktubu Muxtar Məşədi Əhmədə oxudu:

"Ata can!..

Bilirəm məni təlin edəcəksən, çünki mən sənin sözündən çıxdım. Sənin xahişinə əməl etmədim. Yalnız bununla kifayətlənməyib, sənin razı olmadığın bir işə iqdam etməklə sənin evini tərk edib kəndə gedirəm.

Mən çox yaxşı bilirəm ki, qoca atalara ehtiram etmək lazımdır. Kor-koranə onların əmrinə tabe olmaq ehtiram deyil, bəlkə bir fədakarlıqdır. Mən belə bir fədakarlıqda nə sizə və nə də özümə maddi və mənəvi bir fayda gördüm. İnanıram ki, indilik mənim bu hərəkətimə qarşı nifrət etsəniz də gələcəkdə mənə haqq verərsiniz.

Sizi heç bir zaman unutmayacaq qızınız Ənisə".

*aprel-may, 1928*

# SÜLEYMAN RƏHİMOV
## (1900-1983)

## QARA TORPAQ VƏ SARI QIZIL

Evi kəndin qırağında olan Qurban kişinin güzəranı ağır keçirdi. Buna görə də o özünü oda-közə atır, nəinki təkcə gündüz, gecə də əlləşirdi. Qurban çox az yatır, ya ayaqüstü, ya da yabısının belində mürgüləyirdi. O öz qeyrətinə sığışdıra bilmirdi ki, onun eyvanı odunsuz, bucağı unsuz, ocağının üstü sacsız, qazansız qalsın. Qurban nə ala öküzün quyruğundan, nə də kəhər yabının yedəyindən əl çəkirdi. Bəlkə Qurban kişi rəhmsizdi? Yox, Qurban kişi heç də rəhmsiz deyildi! O, hər iki heyvana gözünün yağını belə yedirtməyə hazırdı. Ancaq Qurban neyləyəydi ki, bu evdə ondan, kəhər yabıdan, ala öküzdən savayı işləyən yox idi. Bunlar üçün də gecəli-gündüzlü qantərə bata-bata işlədiyi halda, Qurbanın üç oğlundan heç birisi işləmir, əlini ağdan-qaraya vurmur, "ver yeyim, ört yatım, gözlə canım çıxmasın" – deyib veyllənirdi.

Söz-sözə gələndə böyük kiçiyi, kiçik də ortancılı buyurub şinəşirdilər. Onların üçü də yuxudan çox gec oyanır, olan-olmazından yeyir, kəndin arasına çıxıb gəzib-dolanırdı. Belə ağır bir dərddən dünyadan gedən arvaddan sonra çöl işi bir yana, ev işi də Qurbanın boynuna düşmüşdü. Qurban dəyirman çarxı kimi bu ağır işlərin altında fırlanır, o, evin əzab-əziyyətini təkcə çəkirdi. Qurban kişi qışın oğlan çağında yabısının yedəyindən yapışıb meşəyə yollanır, tir kəsib odun doğrayır, yabısına yükləyir, aran kəndlərə aparır, darıya, düyüyə çevirib evinə gətirirdi. Meşəbəyi izinə düşüb, onu cərimələməsin deyə Qurban qarlı-çovğunlu gecələrdə, ovxarlı baltasını, kərkisini götürüb özünü meşənin qalınlığına verirdi. Ortasına örkən gəlməz palıd ağaclarından kəsir, taxta çıxarır, yenə də həmin kəndlərə aparıb oduna görə baha qiymətə satır, dizləri şalvarlarından çıxan oğlunun üçünə də yarlı-yaraşıqlı geyim alır, dost-düşmən içində başını aşağı salmaq istəmirdi. Yaz gələndə Qurban ala öküzü qoyub ortaq olur, çala yerini əkirdi. Bu zaman üç oğlundan heç birisi nə hodağa girir, nə xışın dəstəsindən yapışır, nə toxum daşıyır, nə də bir saxsı su gətirib işə-gücə yarayırdı. Kim bu barədə Qurbana bir söz demək istəyəndə o, tez əlini qaldırıb-

endirir, acıqlı-acıqlı kənara baxır, dərdini tərpətməməyi bildirirdi. Daha heç kəs Qurbanın qəlbinə dəymir, üç oğlunun üçünə də lənət yağdırırdı: "Belə oğullardansa bir kor qız yaxşıdır, – deyə hər kəs Qurbanın halına acıyırdı. – Kor qız fəhmlə də olsa bu kişinin evini silib-süpürər, birtəhər çay-çörəyini düzəldərdi. Yoxsa bu tənbəl cöngələr, nə ələ getmək istəyirlər, nə vələ. Kim hansına nə desə peysərə verir, nə utanmaq bilir, nə də qızarmaq". Qurban zahirdə kimə nə cür cavab versə də, içəridən ürəyini yeyirdi...

Qurbanı belə bir fikir narahat eləyirdi ki, bəs ondan sonra uşaqlar necə olacaqlar? Bəs nə təhər olsun ki, uşaqlar onun-bunun ocağının qırağını kəsməsinlər, əl açıb dilənməsinlər? Bu dərd Qurbanı əldən salıb üzürdü. Bunun üçün də o, canına qəsd edir, nə qədər çalışırdısa, gündəlik ruzidən başqa uşaqlarının qara günü üçün bir şey artıra bilmirdi. "Bəs nə olacaq?" – deyə Qurban kişi dərd çəkir, var-yoxunu göz qabağına gətirir: bir yabı, bir öküz, bir dam, alçaq bir pəyə, bir də ki, xırdaca küləş samanlıqdan savayı heç bir şey görmürdü. Daha nə? Bir də Qurbanın çala yeri! Qurban dərd əlindən zara gəlsə də işindən qalmır, yazda dəryaz çalıb, yabısına, öküzünə ələf toplayır, yayda çin götürüb aranlara enir, payızda taxıl təmizləyib dəyirmanlıq edir, qışda da meşə-aran, aran-meşə, əriş-arğac işləyirdi. Qurban nə qədər fırlansa da getdikcə pərləri sınır, qol-qılçadan düşürdü. Çarxları zay olan dəyirman daşları yaxşı dən üyüdüb, un çıxara bilməyən kimi, o da karlı iş görə bilmirdi.

Vaxtından əvvəl saqqalı ağaran, beli bükülən atanın çuxura düşmüş gözləri gah böyük oğlu Şahməmmədə, gah ortancıl oğlu Xanməmmədə, gah da kiçik oğlu Bəyməmmədə zillənirdi. Bu vaxt, Qurban kəndi cəzana gətirən əzazil pristavı öldürəndən sonra Sibirə sürgün edilən, orada tələf olub heçə-puça çıxan igid qardaşlarının adını yaraşdırıb arzu-ümidlə oğullarına qoyan arvadı Hürzadı xatırlayır; ürəyi cızhacız yanır, tüstüsü təpəsindən çıxırdı. Ancaq Qurban qeyrətinə boğulub, dost-düşmən qabağında hansı yana sürünsə də, hansı bir göy qayadan min məşəqqətlə çörək çıxarıb gətirsə də, bir gün damın ortasında uzanıb qalxmadı, od-ocaq söndü, tüstü kəsildi. Qardaşların üçü də qış gecəsinin yarısına qədər qonşudakı dərviş nağılına qulaq asıb, evə döndü. Onlardan heç biri kənara tökülən kösövlərdən toplayıb ocağı işıldatmaq istəmədi. Hər üç oğul pal-paltardan töküb uzan-

maq istəyəndə Qurban sabaha sağ çıxmayacağını yəqin edib, onları yanına çağırdı:

– Vəsiyyətim var!

– Nə vəsiyyətin, ata? – deyə oğlunun üçü də birdən soruşdu.

– Vəsiyyətim budur ki, ömrünüzdə dilənçi olmayın, özgəyə əl açmayın!

– Qoyduğun bu var-karınanmı? – deyə Şahməmməd mırıldandı. – Bir ala öküz, dılğır bir yabı?..

Qulağı böyük oğlunun sözünü alan Qurban:

– Mən sizə başqa var qoymuşam, – deyə gözlərini dörddirəkli damın hisli bacasına doğru çevirdi: – Qurtarmayan... tükənməyən... var qoymuşam...

– Bəs hanı o var, ata?

– Haradadır o, qurtarmayan var, ata?

– Mən körpənə nə qoymusan, ata?

– Sən körpəmə, – deyə Qurban əlini qaldırıb xırda oğlunun əyilən başında gəzdirdi, – çoxlu var qoymuşam...

– Dinməyin, qoyun kişi vəsiyyətini eləsin, – deyə Şahməmməd xırda qardaşı Bəyməmmədin qolundan tutub çəkişdirdi. – Sən bir özünü irəliyə dürtmə görək... – Qurban ömründə oğlanlarının bircə dəfə də yeyin danışdığını görməmişdi. Onun dodaqları qaçdı, istehzalı gülüşü göründü. Uşaqlar bir-birini didişdirə-didişdirə təkidlə soruşdular.

– Ata, haradadır o var?

– Ata, o var kimindir? – deyə bir-birinə macal vermədən acgözlüklə xəbər aldılar.

Qurbanın dodaqları yumuldu, döşü ağır-ağır qalxıb endi. O, güclə nəfəs aldı.

İştahaları itilənən qardaşların üçü də yatmayıb başsız qalan, baldırı açıq səqirlər kimi atalarının yanını kəsdirdilər. Çovğun qapını döyəclədi, qar sınıq taxtaların arasından içəri doldu. İşıqhaişıqda qara damın hisli bacasından içəri işıq düşdü. Qurban vidalaşmaq istəyirmiş kimi gözlərini açıb bacadan gələn işığa baxdı.

– Ata, vəsiyyətini elə!

Oğlunun üçü də quzu kimi mələdi. Qurban birtəhər əlini qaldırdı.

– Çala yerdə... – Elə bil o danışmır, ömrünün tükənməz məşəqqətlərindən, min bir əzab-əziyyətindən şikayətlənirdi. – Çala... yerdə...

– Çala yerdə nə, ata? – deyə oğlunun üçü də can çəkişdirən kişini sıxçaladılar.

– Çala yerdə... Bir... küp... qızıl...

Qardaşın hərəsi, bir cür mızıldandı:

– O boyda çala yerin harasında?

– Çala yerin ortasında, qırağında?

– Bəlkə ağ qayanın dibində?

Qurbandan səs-səmir gəlmədi. Susdu, özü də əbədi susdu...

Kəsmək bilməyən qar meşəli dağları basdı, çovğun gücləndi, hər yandan silinib-süpürülən qar Qurbanın çala yerinə doldu. On gündən sonra çala yerdə qardan-tardan düzələn ağ bir dağ ucaldı. Üstündən bir qədər keçdi, bir gün isti yel əsdi, qarı əritdi, şaxta düşüb suyu dondurdu. İndi də çala yerdə göy bir dağ əmələ gəldi. Qardaşın üçü də bir-birinə göz oldu. Heç kəs o birini nəzərindən qoymadı. Üçü də bir-birinin üzünə baxa-baxa qaldı.

– Əlac, Şahməmməd, – deyə ortancıl qardaşla xırda qardaş da böyük qardaşa üz tutdu. – Əlac, atamızın yerindəsən!

Böyük qardaş gərdənini dartıb dodaqlarını büzdü.

Qardaşlar çəpləşdilər, dava-şava gücləndi. Atadan qalanları bölüşdürməyə başladılar.

– Öküz mənim, – deyə Şahməmməd başını dikəltdi. – Yabı da siz ikinizin!

Qurbanın evində görünməyən bir süpürləşmə əmələ gəldi. Nə ortancıl, nə də kiçik yabıya yiyə durdu. Axırda yabını da, öküzü də bir-bir satıb yedilər, bu müddətdə gözlərini yenə çala yerdə qalxıb göyərən buz dağına dikdilər.

– Bəlkə gedək, indidən işə başlayaq? – deyə xırda qardaş böyük qardaşa üz tutdu. – Birdən sonra duyuq düşən olar.

– Heç o xarabada adam əli ilişəsi bir yer var ki, – deyə Şahməmməd qızarıb-bozardı, – heç Fərhadın özü də gəlsə, külüngünü də gətirsə bu göy dağı çapa bilməz!

– Bəs neyləyək? – deyə ortancıl çiyinlərini çatdı. Elə acından yıxılıb bu qara damın altında ölək?

– Gəlin ata mülkünü bölüşdürək, – deyə yenə də Şahməmməd tədbir tökdü.

– Nə təhər bölüşdürək? – deyə özü qorxan xırda qardaş narahatlıqla soruşanda Şahməmməd ucadan dilləndi:

– Dam mənim, necə ki, böyük qardaş, tövlə Xanməmmədin, necə ki, ortancıl qardaş.

– Bəs mənə? – deyə xırda qardaş üzə gəldi. – Bəs mən yetimə nə qaldı?

– Sən yetimin də payı bu yandakı çovustan!

– O küləşi tökülmüş mərəkmi? – deyə Bəyməmməd çığır-bağır saldı. – O yel vurub, yengələr oynayan xarabaxana? Bəs atam nə deyər? – Kişi buzun altından başını qaldırıb üzünüzə tüpürməzmi? Hələ məni üç yaşında qoyub dünyadan gedən anam deməzmi, Şahməmməd, Xanməmməd, niyə Bəyməmmədə güc gəlirsiniz? Niyə mənim yetimimin payını kəsirsiniz?

Qardaşın üçü də ata mülkünün üstündə boğuşdu, səs-küyə kəndin ağsaqqalı münsif gəldi, qardaşları barışdıra bilmədi, qonum-qonşu toplaşdı, qardaşların ağzını bir yerə yığa bilmədilər.

Aclıq oğlanların üstünə qılınc çəkdi. Qardaşlar indi dil tapdılar. Əvvəlcə, damın eyvanının ağac-uğacını satıb yedilər, sonra pəyənin pərdilərini una verib uddular. Ancaq qabırğaları çıxan küləş mərəyə müştəri tapa bilmədilər. Üstündən bir az keçdi, novruzda damlarını da satıb, çovustana doluşdular. Gözlərini çala yerdə dikələn göy dağa dikdilər. “Qoy bir qızıl küpünü tapaq, obanın acığına yığılıb şəhərə gedərik. Orada mahud çuxa geyərik, drap palto alarıq, buxara papağı yanqılıcı qoyub gəzərik. Baxarıq, kimin atası necə var-kar qoyub gedibdir? Yoxsa rəhmətlik atamız gecə-gündüz ilan kimi qabıqdan çıxardımı? Qoy hələ oba ağzına gələni danışsın, sabah başını aşağı salandadı tamaşa”.

“Göy dağ” əriməyə başlayan kimi qardaşın biri o birisinə macal vermədən, alaqaranlıqda özünü çala yerə yetirdi. Onlar, obanın cütü qoşulana qədər yeri nəmli-qurulu, dayazdan-dərininə hey qazdılar, hey o üz-bu üzə çevirdilər axırda ağ qayanı kökündən dağıdıb əzdilər, xırda-parasını da götürüb uzağa atdılar. Beləliklə, çala yerin torpağı on dəfə o tərəf-bu tərəfə ələndi, nə küp tapıldı, nə də bircə dənə qızılı! Ancaq üç qardaşın üçünün də əli üç dəfə qabar qoyub suluqladı, sonra dəmirə dönüb bərkidi. Onların fikri yüz yeri gəzib dolandı. “Bəlkə küpü çıxarıb, qızılı aparıblar? Bəlkə kişi qızdırma içində sayıqlayırmış? Bəlkə biz dərindən qazmamışıq? – “Bəlkə”lər üç qardaşın ağzında azı yüz kərə gəzib dolandı.

“Bəlkə”lərdən nə çıxsın? Axı, “bəlkə”ni əkiblər bitməyib?

– Necə olsun, Şahməmməd? – deyə ortancıl qardaşla kiçik qardaş yenə də böyük qardaşı yaxaladılar.

Şahməmməd başını aşağı salıb fikrə getdi.

– Əlac atamızın mülkündən qalan mərəyi dəyər-dəymazinə satmaqdır, – deyib barmağı ilə çovustanı göstərdi. – Daha havalar da qızır!

– Hava qızsa da, – deyə kiçik qardaş əl-ayağa düşdü. – Bəs başımızı harada saxlayaq? Bizə bir daldalanacaq lazımdır, ya yox?

– Başlı başını saxlasın, – deyə Şahməmməd qeyzlə cavab verdi. – Daha mən sizin üçün ömrümü çürüdə bilmərəm. Hərə öz gününə ağlasın. Yoxsa dədəniz bilmirdi ki, qoyduğu var-karnan siz necə olacaqsınız? Çala yerin, qızıl küpü? – Şahməmməd əlini-əlinə vurub acı-acı güldü.

Uzun deyişmədən sonra, onlar mərəyi də satıb beş manat aldılar.

– Demək bölüşdük. – Ortancıl dillənincə xırda qardaş yerindən sıçradı. – Toxuma verək, qardaşlar, toxuma. Səpək çala yerə! Yoxsa Qurbanın uşağını dilənçi eləmək istəyirsiniz?.. Yazıq atam ömründə nə əzab çəkdisə də bir adama baş əymədi!..

Xırda qardaşın sözlərindən sonra böyük də, ortancıl da başını aşağı dikdi. Xırda qardaş aradakı beş manatı çalıb götürdü, beş pud buğda aldı. Onlar üçü də toxumu aparıb çala yerə səpdilər. Bütün kənd heyran qaldı, kəndin çiyni çuxalı ağsaqqalı öz demisini sümürüb “hımm” elədi. “Yönlü oğul neylər ata malını, yönsüz oğul neylər ata malını?!”

Hər kəsdən qabaq üç qardaşın toxumu cücərib torpaqdan çıxdı. Hər kəsdən qabaq üç qardaşın çala yeri Göy gölə döndü. Hər kəsdən qabaq çala yerdə buğda buğum olub sünbül açdı, çala yer dəniz kimi dalğalandı. Çala yerin sünbülü bulud kimi elə dayandı ki, xəlbir atsaydın yerə düşməzdi.

Vaxt gəldi, vədə yetişdi, günəşin altında çala yer boya-boy, enə-en par-par parıldadı, qardaşların gözündə sarı sünbüllü torpaq bitməz-tükənməz qızıla döndü.

# MİNNƏTSİZ ÇÖRƏK

*Bir daha ədnadan ummaram çörək,*
*Ürəyimi yeyib yaşayam gərək.*
*Əlimlə dəmiri edərəm xəmir,*
*Nə şah tanıyaram, nə xan, nə əmir...*
*El mənə bir hüma adı verirkən,*
*Yapalaq olmağı ar bilirəm mən".*

***Xaqani***

Neçə il idi ki, Mirzə Valeh Hatəm xanın təmtəraqlı imarətində yaşayır və onun uşaqlarının təlim-tərbiyəsi ilə məşğul olurdu. Hatəm xan isə imarətindəki ən dilgüşa bir otağı əzəldən Mirzə Valeh üçün ayırmışdı. Bu otaq başdan-ayağa Şərq səliqəsi ilə döşənmişdi. Otağa daxil olanda sanki yaz fəslinin hər növ çiçəyini özündə cəmləşdirən bir çəmənzara qədəm qoyurdun. Bu otağın pəncərələri qarşıdakı qızılgül bağçasına açılırdı. Yaz fəsli gələndə ətrafın bülbülləri buraya toplanır, gül şaxələrində, fəğan qoparırdılar. Mirzə, saatlarla pəncərə qabağında dayanır, dərin bir xəyalata dalır, bu mənzərəni seyr edirdi. Ancaq nədənsə bir dəfə də olsun, bu otaqda o özü istədiyi kimi hərəkət edə bilmir, yata bilmir, evin bir səliqəsini belə öz zövqünə görə dəyişdirib təzədən qura bilmirdi. Bu cəhətdən bir kəs ona nə bir söz deyir, nə də mane olurdu. Ancaq Mirzə çarpayısının yerini belə dəyişdirmək, onu pəncərə qabağına çəkmək istərkən yenə də divarın dibindən tərpədə bilmirdi. O, otaqda uzun müddət dayanır, bülbüllərin min bir nəğməsini dinləyir, gül üçün onların qopardığı nalələrə qulaq asır, axırda bir neçə beyt söyləyir, bu ahəngə qoşulurdu. Mirzə Valeh bu pəncərələrdən payız xəzanının gəldiyini, yaşıl ağacların lütləşdiyini həmişə seyr edirdi. Dünən belə öz qönçələri ilə bülbülləri başına toplayan bu füsunkar şaxələr əvəzinə bu gün onun gözləri qabağında adi tikanlı kollar dayanır, əsən küləyin zərbi altında özü öz qanadlarını yaralayırdı. Qızıl kimi saralan yarpaqlar bir-birinə qarışır, havada uçuşur, yerə tökülür, çürüyüb gedirdi. Onun gözləri qabağında payızın qırovu yeri ağardır, qara qalın buludlar göydə dolanır, sonra göy üzü bozarır, yer üzünü ağ qar papaqlayırdı. Mirzə Valeh həmişə bu pəncərələrə söykənib, bu dəyişən aləmi seyr edirdi. Mirzə Valehə qışın dərin sakitliyi, yayın qulaq aparan səslərindən daha mənalı, daha düşündürücü görünürdü. Vaxtilə burada yaşıl yarpaqlara bürünmüş

ağaclara indi qar tayaları yüklənirdi. Ağacların dik qaməti əyilmişdi. Rəngarəng güllükdə, çəmənlikdə hamvar və naxışsız bir ağlıq, bir düzənlik əmələ gəlmişdi. Mirzə Valeh tədris-təlim işlərindən sonra bu otaqda gəzinir, təbiətin və kainatın bu mütəmadi hərəkətində o, özünəməxsus bir məna axtarırdı. Bu zaman Mirzə Valehin üzü gülmür, o düşünür, bir şey arayan adam kimi həmişə içəridən bir axtarışla, bir kəşflə məşğul olurdu. O, otaqda dolanır, bəzən çox darıxırdı. Mirzə özü də bu darıxmağın, bu təngişmənin səbəbini açıb aydın edə bilmirdi. O, otaqda yalqız olduğu zaman bu ağırlığı daha çox hiss edirdi.

Hatəm xan və onun xanımı Həlimə xatın uşaqlarının xatirinə günbəgün Mirzə Valehə qarşı öz hörmətlərini artırırdılar. Onlar bu fazil şəxs üçün əllərindən gələni əsla əsirgəmirdilər. Xan həmişə Mirzə üçün ən qiymətli tirmə şal və ipəklərdən dəst-dəst libas tikdirirdi. Mövsümünə görə Mirzə Valeh də bu libaslardan geyinirdi. Ancaq hər bir yeni libas Mirzənin ürəyini yenidən bir də sıxırdı, o saralırdı.

Mirzə Valeh bu evin mötəbər siması, məclislərin iftixarı olmuşdu. O, Hatəm xanın düzəltdiyi ziyafətlərdə öz əql və kamalı ilə iştirak edir, hər bir kəsi heyran qoyurdu. Mirzə ən qədim Şərq elmlərindən başlamış, bu günə qədərki bütün elmlərə vaqif idi. O, bütün Şərq ayin, əfsanələrini bilməyi ilə hamının diqqətini cəlb edirdi. Mirzə Valeh "Şahnamə"ni, "Xəmsə"ni, "Gülüstan"ı və "Bustan"ı, Xəyyamın rübailərini, Füzulinin qəzəllərini əzbərdən bilirdi. Qoca Şərqin ilahi şeir sənətinin bu ziqiymət xəzinələri Mirzə Valehin üzünə həmişə açıq idi. Mirzə Valehin yetişdirməsi olan gənc Adil də hər kəsi ez fəsahət və bəlaqətilə təəccübləndirirdi. Adil həyatda şeir və hikmət aşiqi, insaf və ədalət tərəfdarı idi. Adil böyüyüb kamala çatdıqda Mirzə Valehə qarşı gündən-günə öz ehtiramını artırır, onun xidmətində dururdu. Hatəm xanın ortancıl oğlu Aqil də böyük qardaşı Adil kimi hərəkət edirdi. Ziyafətlərdən kənar zamanlarda da Mirzə Valeh yenə Hatəm xanın süfrəsinin başında özünəməxsus yer tuturdu. Xan həmişə Mirzənin çayını pürrəng, xörəyini çolpalı, döşəyini dördqat, mütəkkəsini qalın edirdi. Mirzə hər əlini xörəyə uzadanda nə isə yenə də Hatəm xanın gizli nəzərlərini öz üzərində sezərdi. O, hər çay içəndə yenə də bu gizli nəzərləri görərdi. Burada olduğu uzun müddətdə Mirzə bir dəfə də olsun çayı öz istədiyi kimi içməmişdi. Hatəm hansı bir rəngdə çay istəmişsə, Mirzə də o rəngdə çay içmişdi. Xan necə mütəkkə demişsə, Mirzə də o miqdarda qotazlı mütəkkəyə söykənmişdi.

Beləliklə, günlər gəlib keçir, Mirzə Valehin dən düşmüş saqqalı dümağ olur, ətrafa bir nuranilik saçırdı. Bu zaman Mirzə, xanın sonradan-sonraya olan kiçik oğlu Gərayın təlim-tərbiyəsi ilə məşğul olmağa başlamışdı. Qocalmaqda olan Hatəm xan və Həlimə xatın ayrı bir sirr ilə bu uşağa bağlanmışdılar. Saatlarla onlar Gərayı sevir, bir-birinə baxıb köks ötürürdülər, "Sonbeşiyimiz, əzizimiz" – deyib dururdular. Təbii olaraq itirilən gənclikləri üçün onlar qan-yaş tökür, ancaq Gərayla təsəlli tapırdılar. Gəray da şıltaqlığında az qala fələyə şıllaq atırdı. Bütün imarətin altını üstünə çevirir, qab-qacağı sındırır, dağıdır-tökürdü. Heç bir kəs də Gərayın qabağına durub ona bir söz deyə bilmirdi. Bəzən Gəray qarğı atını minib, otaqlarda bir hay-küy qoparır, bir səs çıxarırdı ki, qıraqdan eşidən deyərdi bəs burada bir dəstə uşaq bir-birilə tutaşıb-boğuşur. Beləliklə, Gəray, xan evinin bir odu, beş alovu olmuşdu. Gərayın bu şıltaqlığı qarşısında Adil və Aqil ona tənbeh vermək istədikdə Hatəm xan və Həlimə xatın ciddi etiraz edirdilər. Onlar hər ikisi – ər-arvad küsür, həftələrlə Adil və Aqili dindirmirdilər. İtirilən gənclik üçün artıq həsəd və qısqanclıq xanla xatını qəribə bir təbə salırdı. Bu vəziyyətdə Mirzə Valehi hər kəsdən də artıq Gəray təngə gətirirdi. Gəray deyilən sözü eşitmir, verilən dərsi əzbərləmir, fərşlərin üstündə yumalanır, dəftər-kitabını cırır, əl-ayaq altına atırdı. Mirzə Valehin sakit nəsihətləri yenə də xanın və xanımın hiddətlərinə səbəb olurdu. Mirzə Valeh gedəndən sonra Hatəm xan qəzəblənir, onun ardınca deyinirdi: "Qəribə də ağılsız qocadır, heç bilmir ki, mənim üstümə hansı bir qiymətə oturubdur, bir uşaq ilə də məşğul olmağa qarnı ağrıyır!" Bu sözləri Mirzə Valeh eşitməsə də duyurdu. O duyurdu ki, indiyə kimi edilən bu xərc-xəsarət, bu haqq-hesab başına deyildir. Çox yaxşı bilirdi ki, o, Gəraya heç vaxt səsi dolusu acıqlana bilməz, hətta belə bir halda ona heç kim gözün üstə qaşın var da deyə bilməz. Getdikcə Mirzə Valeh bir asılılıq, bir məhkumluq hiss edirdi.

Xanın icazəsi olmadan haraya getmək olar? Bu yaşdan sonra harada, kimin uşağına dərs deyib başa çatdırmaq, yetişdirmək olar? Mirzə Valeh fələqqə mollası deyildi! O indiyə kimi olan bütün hörmətlərin ağırlığını, bütün xərclərin bahalığını, bütün açıqlığı ilə görürdü. O görürdü ki, bütün bu xərclər bir uzun kağıza yazılıb xanın nökəri tərəfindən ona uzadılır. Bu zaman Mirzə, xəyaldan-xəyala düşürdü: "...Bəlkə bu heç belə deyil?.. Bəlkə mən ifrata varıram?.. Hatəm xan ki, hatəmi-tayidir, alicənabdır!.." – Hatəm xan hatəmi-tayi də olsa Mirzə Valeh bu şeyləri daha öz mənliyinə sığışdıra bilmirdi...

## II

Hatəm xanın əmizadəsi Yədullah xan evdə işsiz oturmaqdan çox darıxdığı üçün bir ziyafət düzəltmək və vaxt keçirmək qərarına gəldi. O oturub dost-aşnasına, o cümlədən Hatəm xana dəvətnamə yazdı. Çaparlar məktubları dörd tərəfə apardılar. Hatəm xanın məktubunu da bir çapar gətirdi.

Xan dəvətnaməni aldı. Oğlu Adili çağırıb oxutdu, məzmununu bilib çox şad oldu. Hatəm xanın özünü də oturmaq çox yormuşdu. Həmin bu dəvətnamədə Yədullah xan Mirzə Valehi də gətirməyi Hatəm xandan rica edirdi. O yazırdı ki: "Çox təvəqqe edirəm ki, Mirzə Valehi də özünüzlə gətirəsiniz ki, bizi əyləndirsin, biz darıxmayaq". – Hatəm xan Mirzə Valehi çağırıb onu məsələdən agah etdi. İnandırmaq üçün məktubu da ona verdi. Mirzə Valeh məktubu alıb oxudu:

"...Özünüzlə gətirəsiniz ki, bizi əyləndirsin" – sözlərini o titrəyə-titrəyə gözdən keçirdi, saralmış halda məktubu xana uzatdı.

– Necə oldu Mirzə, gedirikmi?

– Xeyr, xan, mən gedə bilməyəcəyəm!

– Nə səbəbə görə, Mirzə Valeh?

Mirzə Valeh məktubu qaytardı. Hatəm xan inad etməyə başladı. Adil və Aqil araya düşüb atalarından rica edirdilər ki, Mirzə Valehi öz kefinə buraxsın.

– Yox, axı kişi dəvət edib? Çağırılan yerə getməmək yaxşı deyil!.. – Xan deyib dayandı. – Belə də olmaz ki?!.

Mirzə Valeh daha cavab verməyib çəkilib getdi. Hatəm xan öz oğlanları Adil, Aqil ilə, nökər-naiblə birlikdə atlanıb Yədullah xanın malikanəsinə üz qoydular. Yədullah xan qonaqları xüsusi bir sifət, ayrı bir təzimlə qarşılayırdı. O, Mirzə Valehin gəlmədiyini gördükdə çox rəncidə hal olub, səbəbini soruşdu. Hatəm xan başını buladı. Nə isə, qonaqlar hamısı cəm olandan sonra meyvə bağında alma-armud ağaclarının arası tala çəmənlikdə böyük bir süfrə açıldı. Qonaqlar eyş-işrətlə məşğul olduğu zaman, Yədullah xan yenə də Mirzə Valehi xatırladı. O durub namə yazdı, Mirzənin gəlməyini təvəqqe elədi. O, namədə qeyd etdi ki – "Biz istəyirik ki, Mirzə Valeh, siz gəlib bizi əyləndirəsiniz" – sonra ayağında o yazdı ki, "həmin sizin gəlməyiniz üçün göndərdiyim köhlən atı yəhərli-yüyənli sizə bağışlayıram". O yazdı ki: "Mən sizin əməyinizə muzd verən və qiymət qoyan, bir

səfərdə bir at bağışlayan kişiyəm". Yədullah xan naməsini qatlayıb çaparı çağırdı və ona verdi. Yədullah xan öz atlarından birisini çaparın yedəyinə verdirib qonaqların yanında bir də tapşırdı:

– Naməni verərsən, Mirzə Valehə deyərsən, Yədullah xan buyurdu, başını orada islatsın, burada qırxsın, durmayıb tez gəlsin!..

Hatəm xan yerində qımıldanıb:

– Onun gəlməyinə mən inanmıram, Yədullah, – dedi, – əbəs yerə zəhmət çəkirsiniz.

– Naməni elə yazmışam ki, Mirzə Valeh təpəsi üstə gələr.

Yədullah xan xatircəmlik ilə çaparı yola saldı. O, Mirzə Valehə bağışladığı ata görə onun mütləq gələcəyinə arxayın idi.

– Qoy gəlsin, bizi əyləndirsin, yoxsa məclis çox süst keçir.

Adil və Aqil də bilirdi ki, Mirzə Valeh tənəzzül edib gəlməyəcəkdir. Ancaq Yədullah xanın belə əmin danışmağı onların dinməyib hələ nəticəni gözləmələrinə səbəb olurdu.

Yedəyi köhlən atlı çapar mənzili kəsib özünü Hatəm xanın malikanəsinə çatdırdı. O, kamal-ehtiramla Yədullah xanın məktubunu Mirzə Valehə təqdim etdi. Mirzə Valeh məktubu açmadan getmək qərarına gəldi. Mirzə xüsusi yəhərli atın göndərilməsini məktubda olan "bizi əyləndirsin" təklifini geri götürmək və üzr istəmək kimi zənn edirdi.

– Mirzə, xan qonaqlığı dayandırıb sizi gözləyir!

– Nə olar, gedərik, oğul, – deyə Mirzə Valeh məktubu açıb oxudu. Mirzə məktubu oxuduqca ağardı, saraldı, rəngdən-rəngə düşdü. Bu məktubda da "biz istəyirik siz gəlib bizi əyləndirəsiniz" – sözləri bir ox olub Mirzə Valehin ürəyinə sancıldı. Mirzə Valeh məktubun ayağında gördüyü "atı da sizə peşkəş edirəm, mən əməyə muzd verən adamam" – sözlərini qurtarmamış məktubu eləcə çapara qaytardı. O qalxıb otağına girdi. Çapar çox gözlədi. O, belə güman etdi ki, yəqin indicə Mirzə Valeh libasını dəyişib aşağı düşəcəkdir. Ancaq xeyli keçdi, Mirzə Valeh görünmədi. Darıxmış çapar xadimədən soruşub yuxarı qalxdı. O, qapını döydü, vaxtın keçdiyini və onların ləngidiyini söylədi. Ağsaçlı Mirzə Valeh qapını açıb titrəyə-titrəyə:

– Oğlum, mən gedə bilməyəcəyəm, – deyib qapını örtdü və üzü üstə qapandı.

Daha bir mətləbin hasil ola bilməyəcəyini görən çapar, eləcə də yedəyi atlı geriyə qayıtdı. Uzaqdan çaparın Mirzə Valehsiz qayıtdığını

görən Yədullah xan bərk sındı və çox pərt oldu. Hatəm xan özü də incidi.

– Ay Hatəm xan, bir Mirzəni də bu qədər qudurtmaqmı olar? O, az qala göy üzünün Allahına da boyun əymir.

Xanlardan birisi dilləndi:

– O şəkkakdır!

Bir başqası:

– O laməzhəbdir! – dedi.

– Bəli, onu Hatəm dadaş yolundan azdırıbdır. Belə mirzələrin peşəsi təlxəklikdir! İlla o cənab özünü bu yer üzünün sultanı hesab edir!

Müxtəlif danışıqlar getdi. Adil və Aqil atalarının hüzurunda ədəb gözləyib dillənmədilər, çapar çatdı. O, atdan düşüb Yədullah xanın məktubunu özünə təqdim etdi:

– Naməni də qaytardı. Qəribə adamdır, xan. O, ya dəli, ya da məzəlidir. – Çapar, döşü atlana-atlana danışdı: – Çox qəribədir, əvvəlcə rəngi açıldı, gedərəm, – dedi. Sonra naməni oxudu rəngdən-rəngə düşdü. Otağına çəkildi, mən gözlədim, sonra qalxdım, rədd cavabı verdi, qapını örtdü, aşağıdan hıçqırtı eşitdim. Vallah, bilmədim uşaqdır, ya Mirzə Valehdir?

Başqa xanlar işrət məclisini soyutmaq istəmədilər. Onlar badələri qaldırıb bir-birinə mədhnamələr deyib eyşi davam etdirdilər. Ziyafət gecəsi keçdi. Sabah açılanda Hatəm xan evinə qayıtmaq üçün hazırlaşdı. Yədullah xan isə Adil və Aqili, o cümlədən başqa xanları da buraxmadı.

– Biz hələ bir həftə buradayıq!

Hatəm xan geriyə döndü. O imarətin girəcəyində balaca oğlu Gərayın oturduğunu, nə ilə isə məşğul olduğunu gördü. Xan atını yavaşıtdı, naiblər atlarının cilovlarını çəkdilər. Dərsdən qaçan Gəray, dəftər-çərəkəsini cırıq-cırıq eləyib yanına yığırdı. Xan gözü ilə Mirzə Valehi axtardı, ancaq görə bilmədi. O, atdan aşırılıb yavaşca Gəraya yaxınlaşdı, birdən onu qucağına götürdü.

– Oğlum, bəs adam dəftər-çərəkəsini beləmi eləyər?

Gəray dinməyib qoca atasının sinəsinə sığındı... Hatəm xan Gərayın üz-gözündən öpüb cırıq dəftər-çərəkəsini götürüb uzun arxalığının ciblərinə qoydu, naiblər xanın atını tutdular, xan Həlimə xatının yanına

girdi, uşağı ona tapşırdı. O, əlavə olaraq xanımına tapşırdı ki, axşam üçün xüsusi ləzzətli bir təam da hazır edilsin.

Axşama çox ləziz bir xörək hazırlandı. Hatəm xan başqa qonaqların olmamağına baxmayıb, bu dəfə salonda ortada ağ bir süfrə açdırdı. Məxmər döşəklər süfrənin yanlarına sərildi. Adət üzrə əvvəlcə bir stəkan çay içmək lazım idi. Hatəm xan Mirzə Valehi dəvət etdi. Tutqun Mirzə Valeh süfrənin qırağında əyləşdi. Xan xadiməyə acıqlandı.

– Mirzənin döşəkçəsini qalın edin!

Dərhal bu döşək, qalın məxmər bir döşəkçə ilə əvəz edildi. Sonra çay gəldi. Xan xadiməyə qışqırdı:

– Mirzənin çayını pürrəng edin!

Mirzə Valehin çayı pürrəng edildi. Ancaq o, ikicə qurtum içdi. Sonra xörək gəldi. Xan xadiməyə əmr etdi:

– Mirzənin xörəyinin çolpasını dəyişdirin!

Mirzə Valehin xörəyinin kəlləsinə bir bütün və kök çolpa qoyuldu. Mirzə Valeh bu xörəkdən ikicə tikə götürdü. Xörək yığışıldı, çay gəldi. Yenə də xan, Mirzə Valehin çayını pürrəng etdirdi. Mirzə Valeh bu çaya əl uzatmadı. Çay soyudu, qaysaqlandı... Keçdi... Hatəm xan ciblərini əlləşdirib cırıq dəftər-çərəkəni çıxartdı. Mirzə Valehin qabağına tulladı.

– Bu pürrəng çayların, bu başı çolpalı xörəklərin, Mirzə Valeh!.. Bu təamların, bu mütəkkələrin, bu qalın döşəkçələrin müqabilidirmi?..

Mirzə Valeh əlini qaldırdı, elə bil ki, bu neçə illərin çayları Mirzə Valehin başına tökülür, bu neçə illərin xörək qabları taqqa-taqla Mirzə Valehin başına dəyir, qalın mütəkkələr, məxmər döşəkçələr Mirzə Valehin başına çırpılırdı.

– Əlinizi niyə qaldırmısınız, yoxsa xəcalətinizdən ar saqqalınıza gəlinlik pərdəsi tutursunuz?.. Utanmayın, mən sizi bağışlaya da bilərəm!

– Xan, mən gedə bilərəmmi?

– Özünüz bilin, qalsanız da olar, – deyə xan şaqqa çəkib güldü. – Ay səni Mirzə! Heç olmasa qızarmaq da bir şeydir!

– Xan, mən gedə bilərəmmi?

– İsti olubsa bir qədər özünüzü yelə verə bilərsiniz!

– Mən gedim, xan!

– Xa, xa, xa... Mirzə çaşıbdır, buyura bilərsiniz, qapı açıqdır!

Xan həmin xadiməyə əmr etdi:

– Mirzə üçün qapıları taybatay açın!

Gicəllənmiş Mirzə Valeh buradan çıxdı, tez öz yaşadığı otağa girdi. O, titrəyə-titrəyə şamı yandırıb bir çox il bundan qabaq əynindən çıxardığı tüllablıq libasını geyindi, ayaqqabılarını dəyişdirdi, pilləkən aşağı tırıq-tırıqla düşüb, qaranlıq içində qeyb oldu.

## III

Sabah açıldı. Artıq Mirzə Valeh xanın barigahında görünmədi. Neçə gündən sonra Adil və Aqil qayıtdılar. Mirzə Valehi soruşdular, doğru-dürüst bir cavab ala bilmədilər. Həlimə xatın ərinin üstünə düşüb onu danlamağa başladı. Hatəm xan özünü heç bir cəhətdən müqəssir görmədi:

– Gəray çərəkə-dəftərini cırmışdı, mən onu bir qədər töhmətləndirdim, sonra zarafat ilə bağışladım!

Hatəm xan dörd tərəfə adam saldı, Aqil və Adil hərəsi bir tərəfə yola düşdü. Bütün kəndləri, obaları dolandılar, Mirzə Valehi gördüm deyən olmadı. Mirzə Valeh kimi fazil bir adamı itirmək Hatəm xan ailəsinə getdikcə daha çox təsir edirdi. Elə bil ki, bu barigahda daima şölə çəkib qaranlığa nur saçan bir çıraq sönmüşdü. Hər kəs Mirzə Valehin qeyb olmasının səbəbini arayırdı. Barigahda cürbəcür danışıqlar gedirdi. Birisi ona övliya, o birisi ona yelbeyin, birisi ona əzim, o birisi ona vəzir, o birisi ona tamam dəli adı verirdi. Ancaq Hatəm xanın öz ailəsi bu itkini bir yəs, unudulmaz bir kədər, qayıtmayan bir fəzilət kimi qiymətləndirirdi. Hatəm xan özü də indi Gərayı müqəssir tuturdu.

– Daha nadan böyüyərsən, – deyib xan sonbeşiyini təhdid edirdi.

Ancaq bu təlaş əbəs idi. Mirzə Valeh uzaqlaşmışdı. O, asudə olmaq və minnətsiz çörək yemək qərarına gəlmişdi. Mirzə Valeh Hatəm xanın barigahını tərk etdiyi zaman qaranlıq içərisində dayanıb xeyli sükuta getmiş, inadcıl bir qərara gəlmişdi. Yoxsa hansı bir xan Hatəm xandan yaxşı ola bilər?! Ömrünün son çağında qoca Mirzə Valeh harada əylənib ünsiyyət tapa bilər?! O bir də haradan Aqil və Adil kimi cavanlar tərbiyə edib böyüdə bilər?" "Kimdən, nə fayda, kimdən nə etibar gördüm ki?" – deyə Mirzə Valeh doluxsunmuş halda tərpənərək özünü tamamilə biyabana vermiş, gecə də, gündüz də ayağı tutduqca qaçmışdı. Heç kəs onu görməsin deyə o kənddən, obadan və işlək yoldan uzaqlaşmağa çalışmışdı. Mirzə istəmirdi ki, onu görən

olsun, Hatəm xana xəbər çatsın, bir də o, Hatəm xanın barigahına təvəqqe və xahişlə də olsa qayıtsın. Mirzə Valeh istəmirdi ki, bir də ona bəzəkli otaq – qızıl qəfəs düzəldilsin. O istəmirdi ki, bir də onun başına pürrəng çaylar tökülsün. Mirzə, başına dəyən qablardan, başına tökülən başı çolpalı xörəklərdən, başına çırpılan qotazlı mütəkkələrdən qaçmaq və uzaqlaşmaq istəyirdi. "Minnətsiz çörək, sərbəst ölmək!" – Mirzə Valeh dağ-daş aşdığı, qalın, qaranlıq meşəliyə qovuşduğu zaman daha da aydın, daha da qəti qərara gəlirdi. "Minnətsiz çörək, sərbəst ölmək!" Mirzə Valeh daha heç bir şey istəmirdi... O çox sevdiyi kitabları da, əzbərlədiyi yüzlərlə beytləri də, müdrik kəlamları da istəmirdi. Bu qərarla da Mirzə Valeh adam güzərgahlarından uzaqlaşıb özünü dərin və xərabəti bir aləmə, bir meşəliyə verdi. Bu meşəlik qocaman ağaclar, qədim qələlər, abidələrlə dolu idi. Burada keçmiş kənd və şəhərlərin uçuq divarları, sökülmüş məbədlərin qalıqları görünürdü. Vaxtilə müdafiə üçün çəkilən istehkamların enli divarlarından yekə ağaclar dikəlir, onların çürümüş qol-budaqları ətrafa tökülürdü. Bu meşəlikdən çaylar axır, çeşmələr qaynayır, vəhşi heyvanların hayqırtısı eşidilirdi. İri-iri ağ və qara quşlar enli qanadlarını çalır, bu ağacdan o biri ağaca, bu qayadan o biri qayaya qonurdular. Mirzə Valeh belə bir aləmə daxil olmuşdu. Onun qulaqları bəlkə də səsləri artırır, gücləndirir, gözləri gördüklərini şişirdir, onun tükləri ürpəşir, necə olsa da o bir vahiməyə, bir üşütməyə düşürdü. Dərələrdən axan suların şaqqıltısı, vəhşilərin heybətli hayqırtısı, qayaların uçub tökülməsi, çürümüş ağacların öz-özünə kökündən yıxılması, ətraf boşluqda bir əks-səda doğurması, insan nəfəsinin, kəlamının yoxluğu – bunların hamısı bir Qaf dağı kimi böyüyür, Mirzə Valehin üstünə gəlir, insansız təbiət Mirzəyə sanki həmlə edirdi. O biri tərəfdən meşədə olan müxtəlif meyvələr xəzan olmuş yarpaqların arasından özünü göstərirdi. Bunların hamısı Mirzə Valehin oxuyub bildiyi əfsanələr idi ki, indi həyatda onun gözləri qabağında böyüyüb, artıb, çoxalıb, canlanırdı. Geriyə dönməkmi? Yox, irəliyə getmək, irəliyə addımlamaq! Mirzə Valeh bu vəhşətli aləmi keçərək irəliyə gedirdi. Beləliklə o, xeyli gedib böyük əfsanəvi bir dağa çıxdı. Dağın başında çox qədimdən qalmış bir istehkam, istehkamın içində daş evlər, arabir istehkamın enli divarlarından uca qüllələr görünürdü. Bu istehkamın içərisində də ağ bir bulaq qaynayıb fəvvarə vururdu. Bu qələnin bir girəcəyi, bir çıxacağı var idi. Mirzə Valeh qələni dolandı, istədi burada

qalsın, ancaq qət etmədi və bu qələdən də aralanmadı. O, qələnin dörd dövrəsini dolandı. Köhnə hasarı qalan qəbiristanlıqda qaldı. Burada olan yazılı, yazısız qara daşlar bir-birinə qarışmışdı. Mirzə Valeh çox gəzib dolandı, ancaq burada üns tutdu. O əlləşib bu daşların arasında özünə bir sovmiə tikdi. O, sovmiənin üstünü örtdü, yanlarını bərkitdi. İçərisinə payızın bozaran otlarından döşəyib bir rahatlıq düzəltdi. Mirzə Valeh tikdiyi sovmiəyə girib rahatlıqla yatdı. O burada çox qəribə yuxular gördü. Əlifleylanın macəraları onun gözləri qabağında canlandı. Firdovsinin "Şahnamə"si, Nizaminin "Xəmsə"si və başqa divanlar onun sovmiəsində qat-qat qalaqlandı. Mirzə Valeh əvvəl üzünü divanlardan döndərdi. Sonra kitablardan birini çəkib sinəsinə sərdi. O, yuxu içində yenə də qəribə hekayət və rəvayətlər gördü. Mirzə Valeh xeyli yatdı, gecəni keçirdi, günəşin tülu ilə ayıldı, özünü sovmiədə gördü. Mirzə Valeh sanki bu yeni binada bir də təzədən ayıldı. O, quru otun üstündə dirsəklənib, fikrə getdi: – bəli, düzdür, "minnətsiz çörək, sərbəst ölmək". Mirzə Valeh dediyindən dönmədi, öz fikrində zərrə qədər də olsa tərəddüd etmədi. O, yeni həyatının yolları haqqında düşündü, qalxıb sovmiədən çıxdı. Mirzə Valeh ətrafda olan müxtəlif rəngli alma-armudlardan və sair meyvələrdən, o cümlədən fındıqdan, şabalıddan, qozdan, bir sözlə qalan-qalmayan meyvələrdən yığıb sovmiəsinin yanında komaladı. O, qurumuş otla bu meyvələrin üstünü mühafizə üçün örtdü. Mirzə Valeh meyvələrdən düzəltdiyi təpəyə baxıb çox sevindi, bir beyt oxudu, sonra o, peşman olub yarımçıq kəsdi, sapsarı saraldı. İldırımdan düşmüş oddan köz götürüb özü üçün sönməz bir ocaq qaladı. Mirzə Valeh ətraf odundan bir neçə ilin ehtiyatını gördü. O, duz üçün meşədən çıxıb düzəngaha getdi, onu da əldə edib gətirdi. O nə meyvə, nə duz, nə də düzəltdiyi sovmiə və ya yandırdığı odla kifayətlənə bilmədi. O, insan güzərgahından kənar bu yerdə minnətsiz çörək yemək istəyirdi. Mirzə gedib uzaqlarda da olsa əkilən zəmilərdən, ya yola tökülən sünbüllərdən özü üçün taxıl tədarük edib çörək hazırlaya bilməzdi. O, aqilanə bu meşəni araq-varaq eləməyə başladı. Bir gün mamırlı daşın üstündə dikələn bir cüt arpa sünbülünə rast gəldi. Mirzə dayanıb sünbülə baxdı: – "Bu sünbül haradan bura düşmüş olar? Yəqin ki, quş dimdiyindən düşmüşdür? Yəqin ki, quş da kiminsə tarlasından bu dənləri götürüb buraya salmışdır... Bəlkə də elə deyil, bunlar heç bir tarladan deyil, lap qədimdən bu meşəlikdə olan, bu meşənin meyvəcatı kimi öz qüdrətilə əmələ gələn

sünbüllərdəndir?” Mirzə Valeh bu bir cüt arpa sünbülü haqqında bu növ mühakimələr yürüdəndən sonra bu sünbüllərin də meyvəcat kimi özbaşına əmələ gəlməsi qərarına gəldi. O, sünbülləri qırıb öz sovmiəsinə döndü. Bir neçə gün sünbülləri saxlayandan sonra o, sünbülləri ovub, dən çıxardı, əbasının ətəyindən cırıb düyünlədi bir sərçə çinədanı böyüklüyündə olan bağlını sovmiənin girəcəyindəki qəbir daşının üstünə qoydu. Mirzə Valeh sonra günəvər bir yerdə ucu biz ağaclarla kiçik bir canamaz böyüklüyündə torpaq şumlayıb bir-bir bu dənləri buraya saldı. Mirzə bu gündən tarlasının qırağını kəsdirdi, onu çölün qarğa-quzğunundan qorudu, dənlər cücərdi, torpaqdan baş qaldırdı. Mirzənin gözləri qabağında bu “tarla” yaşıllaşdı. Payızın qırovu düşdü, göyləri saraltdı, Mirzənin narahatlığını artırdı. Sonra güclü bir qar düşdü. Hər yeri bürüdü, örtdü. Mirzənin tarlası da yorğan-döşəyə girdi. Bu gündən Mirzə öz sovmiəsinə çəkilib topladığı yaş və quru meyvələrlə güzəran edib, keçindi. Qışın müdhiş küləkləri baş qaldırdı. Yerlə göyün arasını uzun-uzadı davam edən bir uğultu, bir inilti, bir nərilti götürdü. Əsrlər boyu ömür sürmüş, qələçə bir boşluq kovuş kimi guvuldamağa, torpaq altında olan məzarlar dillənməyə, yer “zu” tutub göyə qalxmağa başladı. Tufan və fəlakət Mirzə Valehin sovmiəsini dörd dövrəyə aldı. Günlərlə Mirzə uzandığı sovmiədən kənara çıxıb tərpənə bilmədi. O, qulağını yerə dayayıb uğultunu, yerin titrəməsini dinlədi. Tufan həftələrlə davam etdi. Aylar uzunu belə kəsmədi. Mirzə Valehin də sovmiəsi qarışıb yerə bitişdi. Tufan kəsdikdə o bir növ sovmiədən bayıra çıxıb yenə də büzüşmüş halda yerinə girdi, ümidlə yazı gözlədi. Qışın tufan və gurultusu, yazın ildırım və şaqqıltıları ilə əvəz edildi. Qarlar əridi, sel sulara qarışdı. Mirzə Valeh günəşə doğru can atdı. O özünü tarlasının qırağı, künəvərə verib, saatlarla büzüşüb burada qaldı. Onun topladığı meyvələr artıq tükəndi, o, meşənin pencər və otundan ruzi etməyə başladı. Mirzə Valeh çox zəiflədi, o tamamilə bir sümük, bir dəri olub arıqladı. Meşədə min bir dildə cəh-cəh vuran bülbül onun zəhləsini aparmağa başladı. Bu xərabatda insan nəfəsindən və kəlamından kənarda olan təklik onu sıxmağa başladı. Təklik onu ən qüvvətli məngənədən də pis və dəhşətli sıxırdı. O, müdrik kitabları xatırladı. O öz-özünə darılıb özünü danladı – yox, mənim iki arzum var... “Minnətsiz çörək, sərbəst ölmək”.

Mirzə Valeh daha uzaqlara gedə bilmədi. O, qüvvədən düşəndən sonra gecəli-gündüzlü düşünməyə, ulduzlara baxmağa, buludların

hərəkətini seyr etməyə, ayın-günün çıxıb batmasını izləməyə başladı. Mirzə bir gün baxdı ki, onun tarlası təmamən yetişib vağanıyıbdır. O, yavaş-yavaş sünbülləri yolub ovdu, dən hazırladı. Birtəhərlə o, sovmiəsinin qabağında üç dənə yastı daşdan ibarət bir təndir düzəltdi. Mirzə Valeh arpadan yarım ovuc qədər ayırıb gələcək toxumluq üçün saxladı. Sonra o, qalan dəni daş üzərində güclə üyüdüb un elədi. Sonra da daşın çalasında yoğurub bir dəyirmi çörək hazırladı. Mirzə Valeh yapdığı çörəyə baxıb gülümsədi: – Deyəsən arzumun hər ikisinə də birdən çatacağam, – deyə qəhərləndi. Bir azdan, onun ağ saqqalından son göz yaşları süzələndi. O, titrətmə tutmuş halda yaymanı daşa yapışdırdı, onun ürəyi hövl edib ağzına gəldi. O, daş təndirin kənarında uzandı. Mirzə Valeh çox uzandı. Gün qalxdı, batdı... Onun gözləri yenə ulduzlara dirəndi, Mirzə Valeh daha qol-qılçasını uzadıb can verən zamanda göydə məna arayırdı. Onun daş təndirə yapışdırdığı, arzusunda olduğu minnətsiz çörəyin qırağı yanır, tüstüsü isə göyə – ulduzlara doğru qalxırdı...

Bütün kənd şənlikləri axtarandan sonra Adil və Aqil əl çəkməyib bir də xərabatları axtarmaqda davam etdilər. Xərabat qələdən tüstü çıxmaq xəbərini alıb, buraya at sürürdülər, çörək qoxusuna gəlib buraya çıxdılar, Kənardan baxıb ocaq işığında Mirzə Valehin uzandığını gördülər. Onlar bir ehtiram və üzr əlaməti olaraq atdan düşüb piyadalandılar. Sevinclərindən: – Mirzə! – deyə səsləndilər. Cavab qayıtmadı. Onlar – iki qardaş yüyürüb özlərini bura çatdırdılar. Ağsaqqal Mirzənin gözləri ulduza dirənmiş, onun arzu etdiyi minnətsiz çörək isə daş təndirdə kömür kimi yanmışdı. Onlar – hər iki qardaş dizlərini yerə çırpıb bu mənzərənin qarşısında səsi dolusu hönkürdülər...

# MEHDİ HÜSEYN
## (1909-1965)

## HOPHOP

*Bənzərəm bir qocaman dağa ki, dəryada durar*
***Sabir***

Qəzetsatan uşaq baqqal dükanlarının qabağına, yetişəndə, armud saplağı kimi nazik boğazını dimdik tutaraq, var gücü ilə çığırdı:

– "Molla Nəsrəddin", "Molla Nəsrəddin!"

Dükanın qapısı ağzındakı kürsüdə oturub mürgüləyən qırmızı saqqallı Kərbəlayı, elə bil, böyrünə dəyən dürtmədən səksənib, hövlnak gözlərini açdı, lap qulağının dibində cin səsilə qışqıran bu uşağa tərs-tərs baxdı. Onun yalnız indicə gördüyü röya, dünyanın bütün nemətlərindən şirin idi: Kərbəlayı yuxuda hurilərlə mazaqlaşırdı. Bu dəqiqə gözləri uşağa zillənsə də, xəyalı o dünyada idi.

Uşaq, sanki qəsdən, məhz Kərbəlayının izzəti-nəfsinə toxunmaq üçün, yenə də səsinə güc verir, dükanlarda inadla hökm sürən ətalətli və durğun həyatın ölüm sükutunu pozurdu:

– "Molla Nəsrəddin", "Molla Nəsrəddin!" Kərbəlayı şirin yuxudan tamam ayılıb yan-yörəsinə göz gəzdirdi; hər gün, özü də bu vaxtlar canını boğazına yığan bu sırtıq uşağa ibrət dərsi vermək istədi. Axtardığı daşı-kəsəyi tapa bilməyib, tiryəkdən müqəvvaya dönmüş eybəcər bədənini güclə sürüyərək hıqqana-hıqqana ayağa durdu:

– Adə, nə toqi-lənət olub keçmisən mənim xirtdəyimə? – deyə az qala dərin quyu dibindən gələn bir səslə uşağın üstünə bağırdı.

– "Molla Nəsrəddin!" – deyə uşaq daha da ötgün bir səslə cavab verərək, Kərbəlayını cin atına mindirdi.

– Zəhrimar "Molla Nəsrəddin", çor "Molla Nəsrəddin!

– Adə, ikidən-birdən qəzet alanam?

Uşaq bir yanını qaçaraq qoyub, Kərbəlayının danışığını və hərəkətlərini yamsılayaraq, boynunu daha da nazildib gözlərini bərəltdi və lap onun kimi quyu dibindən gələn bir səslə dedi:

– Zəhrimar da varsan, çor da varsan, heç o saqqalından utanmırsan?

Kərbəlayı bütün qüvvətini toplayıb ona sarı yönəldi, bir neçə addım aşağıya tərəf qovduqdan sonra ərinib dayandı. Uşaq da bunu gözləyirmiş kimi divara söykənib uğundu.

Tamaşaya çıxmış dükançılar Kərbəlayının gülünc vəziyyətinə baxıb qəh-qəh çəkirdilər. O hər gün belə tamaşalar verib, xalqı öz üstünə güldürürdü. Lap hörmətdən düşmüşdü. Bəzən müştərilər də ondan mal almaq əvəzinə əllərindəki dolu səbətləri yerə qoyub doyunca gülürdülər. Düz bir ay olardı ki, hər gün bu vaxtlar qəzetsatan uşaq Kərbəlayının dükanına yaxınlaşıb, "Səda", "Həqiqət" deyə bağırırdı. Həftədə bir dəfə "Molla Nəsrəddin" gətirəndə, onun bayramı idi. "Kərbəlayı, Molla əmi sənin şəklini çəkib, al bax", "Kərbəlayı, budur atan" – dedikcə, o özündən çıxır, uşağı qovurdu. Bir də görürdün ki, yüyürəndə "başmağının bir tayını bəridə, bir tayını o yanda qoyub ayaqyalın yüyürür; onu tuta bilməyib, daha da pərt halda geri qayıdır. Bu vaxt qarnını tutub gülənlərin sayı daha da artırdı. Kərbəlayı uşaqdan heyif almağa fürsət axtarırdı. Hər gün bir fırıldaq düzəldir, uşağı tora salmaq istəyir, amma axırda yenə özü gülünc vəziyyətə düşürdü. Kərbəlayının bazarı hər gün kasadlaşırdı. O, hər şeyə dözə bilərdi, ancaq bu dərdə dözmürdü. Uşaqdan canını qurtarmaq üçün bir çarə fikirləşirdi.

Odur, uşaq yenə də Kərbəlayıdan əl çəkmir, onu lağa qoyub yoruluncaya qədər gülürdü.

– Adə, qoduq, əl çək məndən!

– Səndən incimirəm, Kərbəlayı, atamsan.

– Yaxşı, düşərsən əlimə...

– Başmağını itirərsən, Kərbəlayı, ehtiyatlı ol. Ha... ha... ha!..

Uşaq satdığı qəzet və jurnallara etinasız baxanların hamısı ilə belə rəftar edirdi. O, hayıf alırdı, Kərbəlayı da lap təngə gəlib hirsindən partlayırdı.

Bu anda uşağın çiyninə bir əl toxundu. Onun gülüşləri birdən kəsildi. Elə bil boğazında nə isə ilişib qaldı. O, səksənib irəli sıçradı. Kərbəlayının yaxın adamlarından zənn elədiyi bu əl sahibini yalnız onun iki addım yana sarı yüyürüb geriyə boylanandan sonra tanıdı. O, Məşədibəy idi, Kərbəlayı ilə uşağın arasında baş verən səhnəni, lap əvvəlindən müşahidə edirdi. O, tində durub sözləri aydın eşidir, gülməli hərəkətləri aydın görürdü.

Uşaq, ürəyi bərk döyünə-döyünə, qorxudan böyümüş gözlərini Kərbəlayının dükanı tərəfdən çəkməyərək, yenə həmin yerdə durub gülümsəyən Məşədibəyə yaxınlaşdı. Nəvaziş və mərhəmət əvəzinə söyüş və təhqirlə onu qarşılayan bu insanlar içərisində yalnız bircə dostu olduğunu düşünərkən, uşaq sevindi, qoltuğundakı jurnalın birini dartıb cəld irəli uzatdı:

– Müştəri, buyur, təzə nömrədir. Molla əmi Nikolayı yaman səriyib.

Məşədibəy əlini cibinə atıb pul çıxartdı, jurnalı aldı.

– Qəzet də var, müştəri... “Həqiqət”, “Səda”, “Kaspi...” İstəmirsən? Canın sağ olsun, elə jurnal da bəsdir, – deyə gümüş pulu aldı və Kərbəlayını göstərib əlavə etdi: – O imansızın “Molla Nəsrəddin”i görən gözü yoxdur. Molla əmi yaxşı kişidir. Bunlardan mənim hayıfımı alır.

Məşədibəy yalnız ilk baxışda dəcəl görünən bu zirək uşağın səmimiyyətlə parıldayan mavi gözlərinə, köhnə, yamaqlı pencəyinin açıq döşündən görünən arıq bədəninə, qansız, göyümtül dodaqlarına baxırdı, onun sadə mühakimələrini dinləyir, nə barədə isə düşünürdü, deməyə söz tapmırmış kimi dinmir, yenə gülümsünürdü.

Uşaq dostunun sakit və mənalı baxışlarından yalnız məhəbbət oxuyur, onun hər dəqiqə, hər saat rast gəldiyi insanlara bənzəmədiyini görürdü. O, Məşədibəyi çoxdan tanıyırdı. Amma hələ də kim olduğunu bilmir, onun qəzetsatan yetim bir uşaqla nə üçün başqaları kimi insafsız rəftar etmədiyini, çox mehriban və mülayim dolandığını görərkən, dünyada özünün heç olmazsa bircə dostu olduğuna uşaqlara məxsus bir sadəliklə ürəkdən sevinirdi.

O birdən ovcundakı gümüş pula baxdı. Məşədibəy adəti üzrə indi də jurnalın qiymətini ikiqat vermişdi.

– Müştəri, xırdanı al!

Onun barəsində düşünən Məşədibəy bəzən dəqiqələrlə təsəvvürünü çulğayan bu gülümsər uşağın məsum təbəssümləri altında gizlənmiş dərin və anlaşılmaz kədəri bütün varlığı ilə hiss edirdi: onun mavi gözləri gülsə də, kirpiklərinin çevrəsini almış kölgələr silinib getmirdi; bütün bunlar işgəncə və əziyyətdən qalmış izlərdi.

– Müştəri, xırdanı al!

Bu səs azacıq titrəyirdi. Məşədibəy uşağın nə demək istədiyini bilirdi:

– O da sənindir... Atan-anan haradadır?

– Mən onları görməmişəm. Məni xalam saxlayıb, indi də öz qazancımla dolanıram.

– Oxuyursan?

– Bəli, üçüncüdəyəm. Müştəri, qoy mən gedim, qəzetlər satılmamış qalar.

– Get, sabah dərsdən çıxanda bu adresə gəl. Məşədibəy evinin adresini yazıb ona verdi və on-on beş addım kənarda dayanmış faytona minib, fəhlə qəsəbəsinə tərəf sürdürdü.

O, "Molla Nəsrəddin"i vərəqləyib əvvəlcə şəkillərinə baxdı, sonra bəzi felyetonları oxudu. Hava yavaş-yavaş qaranlıqlaşdığı üçün, jurnalı qatlayıb cibinə qoydu. Amma yenə də onun haqqında düşünürdü. "Molla Nəsrəddin"in gülməli və sadə dilinə çoxdan aşiq idi. O, zamanın acı göz yaşı tökən şairlərini də oxuyurdu. Ancaq ona elə gəlirdi ki, "Molla Nəsrəddin" həyatı və xalqı daha çox sevdirir, insanların əziyyətini və sevincini daha qabarıq göstərməyi bacarır. Məşədibəy şəxsən belə düşünürdü: "Ağlayanda insanın qüvvəsi azalır, mübarizə üçün həvəsi qalmır. Əsl ədəbiyyat oxucunun ümidini artırmalı, həyatın acılarını hiss etdirməklə bərabər mübarizəyə həvəsləndirməlidir. O birdən qəzetsatan uşağı xatırladı və onun "Molla Nəsrəddin" haqqındakı sözlərinə haqq verdi: "Düz deyir, "Molla Nəsrəddin" heyif alır".

Fayton bir binanın qabağında dayandı. Burada gündüzlər ibtidai məktəb uşaqları, axşamlar isə fəhlələr oxuyurdu. Məşədibəy faytondan düşüb, sürücünün pulunu verdi və siniflərdən birinin qapısına yanaşdı. Dərs başlanmışdı.

Məşədibəy qapını açdı, müəllimdən üzr istəyib, içəri girdi, papağını çıxartdı. Burada on ikiyə qədər fəhlə oturmuşdu. Onlar Məşədibəyi çoxdan tanıyırdılar. Müəllim isə gözlərini ondan çəkmir, nə deyəcəyini gözləyirdi.

– Siz buyurun, mən elə-belə dərsinizə qulaq asmaq istəyirəm, – deyə Məşədibəy fəhlələrdən birinin yanında oturdu.

Bu qəribə gəlişdən bir məna çıxara bilməyən müəllim sinfə göz gəzdirərək, bir neçə an duruxdu, sonra üzünü qoca bir fəhləyə tutub dedi:

– Oxu, görüm.

Qoca fəhlə hecalamağa başladı. O, çətin sözləri dürüst deyənə qədər möhkəm tərlədi, müəllimdən və yoldaşlarından çox, qonaqdan utandı.

Məşədibəy müəllimdən üzr istəyib dedi:

– O, oxuduğunu başa düşmür. Əsərin dili çətindir. "Ağlar güləyən"dən, "Hophop"dan oxutdurun.

Bu sözləri eşidərkən müəllim səksənən kimi oldu, təəccüblə Məşədibəyin üzünə baxdı. Onun kitab tutan əlləri titrədi. Heç gözlənilmədən dərsinə gələn, hər dəqiqə üzr istəyən və az qala özü dərs deməyə başlayan bu qəribə adamın hərəkətlərinə, əvvəlcədən düşünülmüş bir kələyin başlanğıcı kimi baxdı: "Bu kimdir? Nəçidir? Nə ixtiyarla mənim işimə qarışır?" – deyə öz-özündən xəbər alıb gözlərini yerə dikdi.

– Qorxmayın, qorxmayın, "Hophop"dan oxutdurun! – deyə Məşədibəy müəllimi daha da utandırdı.

– Axı bu dərs kitabında onun əsəri yoxdur, – deyə müəllim sonradan-sonraya cavab verdi.

Məşədibəy cibindən "Molla Nəsrəddin"i çıxartdı:

– Burada var, buyurun.

Müəllimin Məşədibəyə zillənən qara gözləri şübhəli bir ziya ilə parıldadı. Sinifdə oturanlar bunu duymadılar. Yalnız Məşədibəyə elə gəldi ki, o, "Hophop"un şerini oxutmaqdan ehtiyat edir.

– Bağışlayın... Birdən... Axı bu yaxşı deyil, – deyə müəllim etiraz etmək istədi.

Məşədibəy onun işinə qarışdığı üçün yenə üzr istəyib dedi:

– Mən dərsinizi asanlaşdırıram. Bu şerin dilini fəhlə daha tez başa düşər. Həm onun, həm də sizin əməyiniz hədər getməz.

Müəllim lap qızarmışdı. Onun parıldayan dərin və nüfuzedici qara gözlərindən az qala bu dəqiqə yaş töküləcəkdi. O, "Hophop"un şerini oxutdurmaqdan qorxmurdu. Məşədibəydən utanmırdı, tələbələrindən də heç biri gedib onu şeytanlamazdı; amma yenə də oradakı şeri oxutdurmaq istəmirdi. Çünki fəhlə kursunun on iki nəfərlik bir sinfinə belə utana-utana dərs deyən, "Ağlar güləyən"in, "Hophop"un adı gələndə qızaran müəllim, tələbələrin də, Məşədibəyin də şəxsən tanımadığı böyük Sabir özü idi!

O, ürəyində Məşədibəyin təklifinə razı deyildi, amma utandığından etiraz etməyib jurnalı aldı və diqqətlə baxdı. Bu nömrəni ilk dəfə gördüyündən, Məşədibəyin dediyi şeri tapmaq üçün səhifələrə göz gəzdirdi. Birdən əlinə fürsət düşmüş kimi:

– Əfv edərsiniz, – dedi. – Burada nə “Ağlar güləyən”in, nə də “Hophop”un əsəri var.

– Bəs bu kimindir? – deyə Əzizbəyov jurnalda, “Oxutmuram, əl çəkin!” adı ilə imzasız çap olunmuş şeri göstərdi. – Bəs sizcə bu kimin əsəridir? Az-çox savadı olan hər bir kəs, o dəqiqə bilər ki, bunun müəllifi Hophopdur. Deyilmi?

Sabir Məşədibəydən indi tamam qorxmağa başlamışdı: “Təxəllüslə yazdım, bildilər. Ləqəblə yazdım, bildilər. İmzasız yazdım, yenə bildilər. Bəs mən nə edim? Necə yazım ki, bilən olmasın?” Yenə ehtiyatını əldən verməyib dedi:

– Cənab, mən bu mənzuməni oxuda bilərəm, amma deyin görüm, siz nəyə əsasən bu əsəri “Ağlar güləyən”ə və ya “Hophop”a isnad verirsiniz?

– Ona əsasən ki, hər gün imzasını dəyişməyə məcbur olan bu böyük şair, özündən başqa heç kimə bənzəmir. Siz şəxsən onunla tanış deyilsiniz ki?

Sabir pul kimi qızardı:

– Xeyr, xeyr, – deyə tələsik cavab verdi.

– Mən də, təəssüf ki, onu hələ tanımıram. O, təkcə məndən yox, hamıdan gizlənir. Görünür belə lazımdır. Xülasə, qoyun sizin şagirdləriniz onun şirin kəlamını oxusunlar.

Sabir jurnalı fəhlələrdən birinə verdi:

– Buyurun, oxuyun, – dedi.

Fəhlə yavaş-yavaş hecaladı, bir dəfə oxuyandan sonra ilk beyti əzbərlədi:

Oğul mənimdir əkər, oxutmuram, əl çəkin! Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

– Bax, görürsünüzmü? – deyə Məşədibəy xəfifcə gülümsünərək müəllimi sevindirməyə çalışdı, ancaq onun daha da kədərləndiyini görüb təəccüb elədi. – Siz nədən çəkinirsiniz?

Bu sözlər elə bil Sabiri daha da həvəsdən saldı. Bir azdan sonra bütün sinif ağız-ağıza verib şeri oxuyanda, o özü dərsin əvvəllərə nisbətən qat-qat yaxşı keçdiyini görüb ruhlandı, o biri fəhlələrə də oxutdurdu. Bir neçə dəqiqə içərisində Məşədibəylə müəllim arasındakı sədd uçub töküldü. İndi nə Məşədibəy üzr istəyirdi, nə də müəllim onun hərəkətlərinə təəccüb edirdi.

– Görürsünüzmü, cənab müəllim, siz həmişə belə şeirlər oxutdursanız, həm özünüz şad olarsınız, həm fəhlələr, həm də ki, biz...

Sabir yenə Məşədibəyin üzünə baxdı, "biz" sözü ona birtəhər gəldi, bu "biz"in məhz kim olduğunu düşünərək alnındakı soyuq təri sildi. "Bəlkə mənim "Hophop" olmağımı bilir? Haradan, kimdən öyrənib?"

Məşədibəy ayağa qalxdı, papağını götürdü, səmimiyyətlə müəllimin əlini sıxıb dedi:

– Sağ olun, dərsinizdən çox razı qaldım. Amma "Hophop"un şeirlərini tez-tez oxutdurun.

Sabir onu qapıya qədər ötürdü, onun dalınca baxa-baxa qaldı, bir neçə dəqiqə özünə gələ bilmədi: "Bu nə iş idi mən düşdüm? Şamaxılıların əlindən canım yenicə qurtarmışdı, buradadamı məni rahat qoymayacaqlar? – deyə düşünüb, ümidsiz halda yenə tərini sildi, sonra qoca fəhləyə üzünü tutub soruşdu:

– Bu kimdir?

– Tanımırsınız? Məşədibəydir də. Qiyamət oğlandır müəllim!

Sabir dərsinə davam etdisə də, fikri yenə də Məşədibəyin yanında idi: onun bu gözlənilməz, qəribə gəlişini və təəccüblü dərs üsulunu düşünərək, fəhlələrin üzünə baxırdı.

İndi sinifdəkilərin də hamısına aydın idi ki, müəllimin fikri dərsdə deyil, Məşədibəyin yanındadır.

Sabir onu üç-dörd gün səbirsizliklə gözlədi. Məşədibəy bir daha axşam kursuna gəlmədi. Fəhlələrdən soruşmaq istədi, amma nə üçünsə soruşmadı. Dərsdən çıxıb evə qayıdarkən də yalnız onun barəsində fikirləşirdi. Gözlənilmədən sinfə girən bu məchul adamın sifəti hər dəqiqə gəlib onun gözləri önündə dururdu. Bir az da özünün günə bənzəyən qara saqqalı, təmiz kraxmallı geyimi, ən çox da sakit-sakit baxan gözləri, elə bil onu mütəmadiyən təqib edirdi. O niyə gəlmişdi, nə üçün məhz "Hophop"un şeirlərini oxutdurmağı məsləhət görürdü? Sabir bu sirri çox düşündü, amma yenə də bir nəticə çıxara bilmədi. O indi Məşədibəyin nə məqsədlə gəldiyini o gün soruşmadığına çox peşman idi. Dərsə gələndə, dərsdən qayıdanda, Sabirin gözləri küçədəki adamlar arasında yalnız onu axtarırdı. Birdən təsadüfən onunla qarşılaşsa idi, dörd-beş gündən bəri ürəyini narahat edən sualların cavabını almamış, bu sirri öyrənməmiş onun yaxasından əl çəkməyəcəkdi. Amma nə eləsin, bəxtindən heç yerdə ona rast gəlmirdi. Sabir

bir neçə dəfə gedib onunla evində görüşmək üçün fəhlələrdən ünvanını öyrənmək istədi, amma "birdən düşər-düşməzi olar" deyə düşünüb fikrindən əl çəkdi.

Sabiri dərs verdiyi məktəbdən yaxşı tanıyan qəzetçi uşaq axşamüstü "Səda", "Həqiqət", "Kaspi" deyə bağıraraq onun yaşadığı mənzilin qabağından sürətlə keçərkən, Sabir adəti üzrə pəncərədən onu səsləyib çağırdı, yeni yazıb qurtardığı məktubu ona verdi və dönə-dönə tapşırdı:

– Heç kimə göstərmə ha, düz apar vağzalda həmin adama ver. Bildinmi?

– Baş üstə, müəllim, arxayın ol, – deyə uşaq paketi aldı, yenə qəzetlərin adını ucadan təkrar edərək yüyürdü; yolda bir neçə nüsxə "Həqiqət" satıb pullarını aldı. "Molla Nəsrəddin"in təzə nömrəsi gəlmədiyi üçün, Kərbəlayını görərkən, onun böyründən səssizcə ötüb keçdi, birdən Məşədibəyi xatırladı, o gündən bəri üç dəfə getdiyi evi yaxşı tanıdığından, ünvan-filan axtarmayıb düz küçə qapısına yanaşdı, zəngi basdı. Qapını açan Püstəxanımdan Məşədibəyi soruşdu. Onu çox gözlətmədilər. Bircə dəqiqə sonra ərindən izn alıb qayıdan Püstəxanım, uşağı içəri apardı. Yenicə işdən qayıtmış Məşədibəy, stolun baş tərəfində oturub xörək yeyirdi. O, dostunu da yeməyə dəvət elədi.

Süfrədə buğlanan bozbaşın iyi burnuna dəyəndə, uşağın ağzı sulandı. Amma yenə də oturmadı:

– Çox sağ ol, – deyə utana-utana başını sinəsinə endirdi.

Məşədibəy bir də təkid elədi, uşaq razı oldu. Qoltuğundakı qəzetləri səliqə ilə pəncərənin qabağına qoyub Püstəxanımın göstərdiyi yerdə oturdu. Ömründə onun dilinə belə dadlı xörək dəyməmişdi. Ağ çörəyi bozbaşın zəfəranlı suyuna batırıb yedikcə, gözlərinə işıq gəlirdi. O indi köhnə dostunun adını da öyrənmişdi. Sadəcə, "müştəri" sözünü daha bəyənmirdi, onu "Məşədi dayı" deyə çağırırdı. Məşədibəy də onun adını bilirdi. Xörəyini yeyə-yeyə:

– Polad, – deyirdi, – bu gün xəbər bildim, səninlə yolladığım kağızları yerinə çatdırıbsan. Çox gözəl... Püstəxanım, Poladın boşqabını doldur!

– Yox, Məşədi dayı, çox sağ ol. Mən doydum. Tez-tez yeməyimə baxma, belə yeməyi qəzetlər mənə öyrədib...

Məşədibəy onun üzünə baxdı, gülümsədi:

– Möhkəm ye, Polad, bu axşam səni çox işlədəcəyəm.

Püstəxanım danlayıcı bir nəzərlə ərini süzdü, “yeməyi işlətdiyinə görə vermirsən ki?” demək istədi, ancaq Məşədibəylə Polad arasında gedən söhbətin yalnız onların özlərinə məxsus çox intim bir söhbət olduğunu düşünüb dinmədi.

Polad ayağa qalxdı. Qəzetləri qoltuğuna vurdu, dostları ilə vidalaşıb getməyə hazırlaşdı.

– Dayan, sözüm var, Polad... – deyərək o biri otağa yönələn Məşədibəy, yenicə aldığı məktəb çantasını karton qutudan çıxarıb Polada uzatdı. – Al, dünən səhər işə gedəndə öz gözümlə gördüm, çantan yoxdur.

Püstəxanım Məşədibəyin alicənablığına lap uşaqlıqdan bələd olsa da, bu çantaya öz doğma balasına alınmış qiymətli bir hədiyyəyə baxan kimi, qeyri-adi bir ürək çırpıntısı ilə baxırdı: onun gözləri incə bir təbəssümlə parıldayır, əlləri həyəcandan titrəyirdi.

Sevincdən Poladın gözləri doldu. İki aylıq qazancından belə bahalı olan bu çanta ona bütün kədərlərini unutdurdu. Küçədə hamının sırtıq və həyasız adlandırdığı bu zəkalı uşaq, çantanı birdən qapmadı, bütün dünyada ən çox “sevdiyi bir insanın hədiyyəsini elə o dəqiqə qapıb almaq, Lolada xeyli çətin gəldi.

Məşədibəy:

– Götür, Polad, utanma! – dedi.

Çanta Poladı elə bil hipnoz eləmişdi; onun yaşaranda daha da gözəlləşən mavi gözləri, bir an belə qırpılmadan inadla çantaya zillənmişdi. O, hədiyyəyə diqqətlə baxa-baxa, bəlkə də onu yoxlamaq üçün çantanı zarafatla ona verdiklərini düşünə-düşünə irəlilədi; ani bir baxışla, özünə sarı zillənən gözlərdəki ciddiyyəti görərkən, bunun zarafat olmadığına inandı, əllərini uzadıb çantanı aldı. Bu dəqiqə dünyada hər şeyi unutduğu üçün qoltuğundakı qəzetlər də yerə dağıldı. Sabirin paketi düşdü. Məşədibəy aşağı əyilib qəzetləri yığmağa kömək edəndə, birdən paket onun gözünə sataşdı. Götürüb üstündəki yazını oxudu.

– Polad, bu nədir? – deyə soruşdu.

Polad vədini xatırladı; cəld paketi dartıb aldı və dərhal da Məşədibəylə qaba rəftar etdiyinə peşman olub dedi:

– Məni bağışlayın, Məşədi dayı, sirr saxlamağa söz vermişəm. Bu sözləri demək Polad üçün nə qədər çətin idisə, bir o qədər Məşədibəyi sevindirdi: “Polad sirr saxlamağı bacaran uşaqmış”.

– Bax, bu olmadı. Bəs biz necə dostuq? – deyə onu imtahan eləmək istədi.

– Yox, o mənə inanıb. Mən də söz vermişəm.

Poladın üz-gözünü kəskin bir ifadə aldı. Nazik qaşlarının arası düyümləndi. Onun necə ağır iztirab çəkdiyini həm Məşədibəy, həm də Püstəxanım çox aydın hiss edirdi. Polad əziz dostunun üzünə baxmağa utanırdı. Məşədibəy ondan heç bir sirr öyrənə bilməyəcəyinə inandıqdan sonra gülümsünüb dedi:

– Çox gözəl, Polad, demə. Lazım deyil.

Uşaq getmək istərkən Püstəxanım o biri otağa keçdi, qapını örtdü. Polad bir dəqiqə Məşədibəyə imtahanedici gözlərlə baxdı, sonra ətrafına boylanaraq, otaqda özlərindən başqa heç kim olmadığını görüb dedi:

– Məşədi dayı, əgər sən də sirr saxlamağa mənə söz versən, deyərəm. Mən sənə inanıram, Məşədi dayı. Sənə də inanmasam, kimə inanacağam? – Polad doluxsundu. Ağlamamaq üçün bir an duruxdu və burnunu çəkdi. – Bunu göndərən Hophopdur. Bakıda məndən başqa onu tanıyan adam yoxdur. Bu kağızı Molla əmiyə göndərir.

– Hophop özü haradadır?

– Özü "Təbriz"də olur. Beşinci otaqda...

Gözəl şeirlərini qeyri-adi bir məhəbbətlə sevdiyi hophop, məchul bir imzadan dönüb məlum bir insan oldu. Məşədibəy sevincindən az qala başıaçıq, qalstuksuz buradan birbaş "Təbriz" mehmanxanasına yüyürmək istədi.

– Sağ ol, Polad, söz verirəm ki, bu sirr ikimizin aramızda qalacaq.

Yarım saatdan sonra "Təbriz" mehmanxanasında beşinci otağın qapısı döyüldü. Sabir evdə oturub nə isə yazırdı. O, qapını açanda donub qaldı.

Onlar balaca nömrədəki dəyirmi stolun ətrafında qabaq-qabağa oturmuşdular. Məşədibəy az danışırdı. Onun bu təsadüfi gəlişi Sabiri xeyli həyəcanlandırmışdı. O gün fəhlələrin Məşədibəydən dərin bir ürək çırpıntısı ilə danışdıqlarını xatırlayaraq, onun qorxulu adam olmadığına ürəkdən inanmışdı. Amma yenə də söhbət, qısaca suallarla, daha da qısa cavablardan o yana getmirdi. Birdən-birə doğruldu, bədənində şiddətli bir ağrı hiss edərək gözünü turşutdu. Bunu o dəqiqə görən Məşədibəy, səbəbini xəbər aldıqda, Sabir xeyli kədərləndi, yerində qıvrıla-qıvrıla məchul bir nöqtəyə baxıb fikrə getdi və sonra dərin qara gözlərini yenə müsahibinə zilləyərək dedi:

– Mən çoxdan xəstəyəm. Yel azarına tutulmuşam. Qara ciyərim xarabdır... Düz bir il olar ki, hər dəqiqə bu xəstəlikdən öləcəyimi hiss edirəm. Bizim dildə buna "hissiqəbləlvüqu" deyilir.

– Siz nə danışırsınız? – deyə Məşədibəy onun sözünü kəsdi. – Ölmək nədir? Siz hələ cavansınız. İstedadınız hələ yeni-yeni parlamağa başlayır. Bir də... – Məşədibəy duruxdu, gülümsünərək, daha ifadəli bir söz tapdı: – Bir də çətin vəzifələrdən ölümlə yaxa qurtarmaq sizə yaraşmaz. Doğrusu, indiki ziyalıların görmədiyi işi siz və biz görməliyik. Onları "naz ilə gəzən inteligentlər" adlandırarkən, siz tamamən haqlısınız.

Sabir bu sözlərdən ruhlanan kimi oldu. İndiyə qədər əsərlərinə dair heç kimdən belə aydın bir mülahizə eşitməmişdi. O, Məşədibəyin mükəmməl ədəbiyyat təhsili aldığını düşündüsə də, yenə soruşdu:

– Səhərdən bəri dediyiniz sözlərdən belə anladım ki, siz ədəbiyyat mütəxəssisisiniz. Elə deyilmi?

Məşədibəy bir şeyi özündən rədd edən adamlar kimi əllərini havada oynatdı:

– Xeyr, xeyr, – dedi. – Mən mühəndisəm. Ancaq özünü ziyalı sayan hər bir adam, nəfis ədəbiyyatı bilməlidir. Bunsuz insan xeyrə-şərə yaramaz. Mən bədii əsərləri müəyyən dərəcədə sevməyən mədəni bir adam təsəvvür edə bilmirəm. Mənim birinci anam Səlminazdırsa, ikinci anam Çernışevskinin "Nə etməli?" romanıdır. Bunların hər ikisi mənə tərbiyə verib böyütmüşdür. Rusiyada olduğum zaman, öz yazıçılarımızı oxuya bilmirdim. Bilirsinizmi, bu nə qədər böyük qüsurdur. İnsan, xalqının dərdini bədii əsərlərdən də öyrənə bilər. Çünki əsl şair bu dərdi duymaya bilməz. Bakıya gələli bu nöqsanımı qismən düzəltmişəm.

Sabir hələ Şamaxıda ikən ən yaxın dostu şair Səhhətlə tez-tez görüşər, bilmədiyi şeyləri ondan həvəslə öyrənərdi. O, indi də Məşədibəyi tapdığına sevinir, sual verməyə fürsət axtarırdı. Birdən eşikdə konkanın gurultusu eşidildi, küçədə bərk qalmaqal qopdu. Sabir cəld pəncərəyə yanaşdı, bir neçə dəqiqə aşağıya boylandı və gördüklərini Məşədibəyə söylədi:

– Konka yoldan çıxıb. Ölən yoxdur. Yəqin atları xamdır, yaxud sürən adam naşıdır. Bu küçədə hər gün bir bədbəxtlik olur. Dünən konka bir uşağı basdı, çox kədərləndim. Eh... Şəhər təhlükəlidir. Bizim tərəflərdə də qorxu var, amma başqa cəhətdən. Məni öz vətənimdən

didərgin salıblar. Onların fikrincə, insan üçün şair olmaqdan böyük ayıb yoxdur.

Sabirin alnını, yanaqlarını acı bir kədər çulğaladı, o bir anlıq dərin sükuta getdi, köksünü ötürdü.

– Görəsən rus şairlərini də belə təqib edirlərmi? – deyə Məşədibəydən soruşdu.

– Rus şairlərini? Bəs necə? Maksim Qorkinin Rusiyadan xaricə qaçmağa məcbur olduğunu bilmirsinizmi? Bu cəhətdən rus yazıçıları dünyanın ən bədbəxt adamlarıdır. Həbs, sürgün, dar ağacı, ölüm... Ancaq onlar qorxmayıblar, axır nəfəsədək vuruşublar.

Sabir dostu Səhhətdən bunları eşitməmişdi. Səhhət, böyük rus şairlərinin yalnız əsərlərindən bəhs edərdi. Bəzən saatlarla yorulmadan oxuduğu şeirlərin incəliklərini, adi oxucunun duya bilmədiyi gözəl xüsusiyyətlərini aydınlaşdırardı.

Sabir Məşədibəydən eşitdiyi yeni sözləri həm diqqətlə, həm də həyəcanla beyninə nəqş edirdi. O, bütün ağrılarını unudaraq müsahibinin sözünü kəsdi:

– Mən rus dilini mütləq öyrənəcəyəm! – dedi. – İki ildir çalışıram, lakin həm xəstəliyim, həm də qulluğum imkan vermir. Rus dilini bilməyən adam, böyük və zəngin bir xəzinənin açarını itirmiş kimidir.

Məşədibəy onun fikrini təsdiq elədi:

– Düzdür. Gərək ki, Abbas Səhhət rus dilini çox gözəl bilir. Puşkindən, Lermontovdan elədiyi tərcümələr mənim çox xoşuma gəlir. Xüsusən "Mtsıri" gözəldir. Onun neçə yaşı var? Siz böyüksünüz, yoxsa: Başda o böyükdür, yaşda mən... deyə Sabir bu gün ilk dəfə gülümsündü. – Onun savadı necədir?

– Mən onun şagirdiyəm, o mənim üçün canlı bir kitabdır. Mən fars şairlərini, bir də osmanlıları pis tanımıram, amma o dəryadır.

Məşədibəy Azərbaycan jurnallarında tez-tez gördüyü şeirləri oxuyarkən, osmanlı ədəbiyyatı haqqında çox mənfi bir rəyə gəlmişdi. Hər an səmimiləşən bir söhbətdə özünü yoxlamaq üçün, Sabirin də fikrini öyrənəcəyinə sevindi:

– Sizcə onların şerində qiymətli bir cəhət varmı? – deyə soruşdu.

Sabir fikrə getdi. O, rəy söyləməyi o qədər də sevmirdi. Lakin Məşədibəy ona necə diqqətlə baxdısa, o, heç olmasa bir neçə kəlmə deməyi qərara aldı:

– Məncə onların ən böyük fəlakəti ana torpaqdan, xalqdan ayrı düşmələridir. Təqlid yolu tutmaqla böyük sənət əsəri yaratmaq mümkün deyil. Tofiq Fikrət kimi qüdrətli şair də o qədər qəliz yazır ki, onun mənzumələrini yenidən ana dilinə tərcümə etməyə ehtiyac görünür. Bir də bizimkilər nahaq yerə osmanlı şairlərini eynən çap edirlər, gərək onları bizim dilə çevirəsən. Əslinə baxsan bunu Məhəmməd Hadi Əfəndi yaxşı bilər, çünki osmanlılarla arası çox kökdür...

Sabir yenə qımışdı. O, belə eyhamlar vurduqca, Məşədibəyin xoşuna gəldiyini başa düşürdü. Hər ikisi bir fikirdə idi: "şair gərək dildə də öz milli zəmanəsindən ayrılmasın".

– Mənə elə gəlir ki, bizim ədəbiyyatımızda osmanlı təsirinin güclənməsi çox ziyanlıdır. Bu təsir şairi həyatdan ayırdığı kimi, xalqdan da uzaqlaşdırır... Elə deyilmi?

– Siz tamamilə haqlısınız, – deyə Sabir ucadan təsdiqlədi, – bu cəhətdən rus şairlərini mən çox bəyənirəm. Xalq səadətini düşünməyən şairin nə xeyri ola bilər?

Məşədibəy Sabirin mühakimələrinə dərindən diqqət yetirir, fəhlədən, kəndlidən yazdığı şeirləri xatırlayırdı.

– Qulağıma bəzi sözlər dəyir. Guya mən şerin ilahiliyinə xələl gətirirəm, – deyə Sabir kimdənsə incimiş kimi köksünü ötürdü.

– Belə sözü deyənlər əsrdən geri qalmış adamlardır. Bu gün bizə məhz bu cür ədəbiyyat lazımdır!

Amma mənim bədxahlarım belə düşünmürlər. Guya mənim yazdıqlarım elə bu gün ölüb gedir.

Çatski demişkən, sizi mühakimə edən özü kimdir? – deyə Məşədibəy nifrətlə üz-gözünü yığışdırdı. – Tarix göstərir ki, öz zamanında tərəqqiyə xidmət edən əsərlərin ömrü daha uzun olur.

Sabirin gözlərində sevinc ifadəsi canlandı. Məşədibəy nə üçünsə birdən soruşdu:

– "Molla Nəsrəddin"in on səkkizinci nömrəsindəki "Gözəlim" şeri sizindirmi? Yox, yox, niyə danırsınız!" Başqası o cür yaza bilməz. Diqqətli oxuyan adam birinci sətirdən bilər ki, o, Sabirindir.

– Mənimdir... – deyə Sabir etiraf etməyə məcbur oldu.

– Onun üçüncü və beşinci bəndləri ayrı bəhrdədir. Bunun səbəbi nədir? Təəccüb niyə edirsiniz? Mən şeir vəznini yaxşı bilirəm; özünü tərif olmasın, vəzn qırıqlığını, qafiyə nöqsanını o saat görürəm.

Sabir qızardı. O, şeri haradansa tapıb çıxartdı, diqqətlə oxuyandan sonra, Məşədibəyə haqq verdi:

– Düz tapmısınız, – dedi. – Səbəbinə gəldikdə, bu saat deyim. Birinci və başlıca səbəbi mürgüləməkdir.

Mən gecələr "Səda" qəzetinin düzəlişinə baxıram. Bizim idarə xüsusi teleqramlar almır. O qədər gözləyir ki, "Kaspi" çap olunub çıxır. İdarə onun teleqramlarını tərcümə edir. Mən o şeri Haşımbəyin mətbəəsində gecəyarısı yazmışam. Birinci hissəsini yazanda mürgüləyib yatmışam. Ayılandan sonra da mabədini yazmışam.

Məşədibəy onun çox incə bir yerinə toxunduğu üçün üzr istədiyi zaman, Sabir yenə utana-utana dedi:

– Yox, yox, mən tənqidi sevirəm. Özü də çox şadam ki, bizi oxuyanların içində belə incə nöqtələri başa düşən adamlar var.

Məşədibəy sorğu-sualına davam etdi:

– Çap olunmuş şeirlərinizdən ən çox hansını bəyənirsiniz?

– Heç birini... Bəyəniləsi şeirləri sonra yazacağam.

– Sonra, yəni nə vaxt?

– Mürgüləməyəndə...

Məşədibəy güldü. O, şairin zarafatını çox bəyəndi, amma birdən üzünü ciddiləşdirdi:

– Yanılırsınız, – dedi. – İndiyə qədər yazdığınız əsərlərlə də siz xalqımızın qəlbində öz heykəlinizi qurmusunuz. Gülməyin. Mən doğru deyirəm. Təqiblərdən şikayət edərkən haqlısınız. Amma sizi kimlər təqib edir? Alverçilər, məşədilər, kərbəlayılar. Ən çox da mollalar. Fəhlələrin arasına getsəniz, yalnız onların qərəzsiz, düzgün qiymətini alarsınız. Onların içində "Hophop"u tanımayan, sevməyən çox az adam tapılar. Əsl xalq da onlardır. Mən dərsinizdə "Hophop"dan oxutdurun deyəndə də bunu nəzərdə tuturdum.

Məşədibəy ayağa qalxıb balaca otaqda gəzinə-gəzinə Puşkinin "Heykəl"ini oxudu. Ən axırda üzünü Sabirə tutaraq dedi:

– Siz də bu cür bir şeir yazın!

Sabir onunla razılaşmadı, "o haqlıdır, mən isə hələ buna layiq deyiləm" dedi.

Amma bu gündən sonra onlar möhkəm dostlaşdılar. Sabir ikinci görüşlərini səbirsizliklə gözləməyə başladı.

Aradan keçən iki gün iki il qədər uzun sürdü.

Polad bu gün aldığı "Molla Nəsrəddin"i çox tez satdı. Onun əlində yalnız ikicə nüsxə qalmışdı. O, küçə aşağı yüyürür, müştəri axtarırdı. Bakının məşhur milyonerlərindən birinin jurnalda çap olunmuş

karikaturası bütün şəhəri tərpətmişdi. Savadlılar da, savadsızlar da jurnalın təzə nömrəsini göydə qapırdılar.

Polad qoltuğundakı çantasını həmişəki kimi möhkəm tutub yüyürə-yüyürə Kərbəlayının dükanına yetişdi, yenə, "Molla Nəsrəddin!" deyə qəsdən ucadan qışqırdı. Kərbəlayı onu çoxdan gözləyirmiş kimi "adə gətir alıram" deyə Poladı gülərüzlə qarşıladı.

Polad bunu görəndə sevincindən az qala atılıb-düşmək istədi.

– Bu gün molla əminin işi xoddur, al! – deyə jurnalın bir nüsxəsini irəli uzatdı: – Ay can, ay can!.. Bircəciyi qaldı. Bu da Məşədi dayının!

Kərbəlayı cibindən bir beşlik çıxardıb verdi, xırdasını almadı:

– Bala, gəl otur, – dedi, – piti gətirdim, yeginən, oğlum. Sən yazıq yetimsənmiş, vallah heç xəbərim olmayıb. Yoxsa müsəlman deyiləmmi, köməklik elərdim. Gəl, gəl, bu saat gətirdim pitini. Yəqin acsan...

Polad bir çantasına baxdı, bir də şübhəli-şübhəli Kərbəlayının üzünə baxdı: "Yox, aşna, deyəsən bu gün çantamda gözü var. Ay-hay, bütün dükanını versə də vermərəm" – deyə düşünüb tez-tələsik Kərbəlayıdan aralandı.

– Gəl, bala, nədən qorxursan?

– İstəmirəm.

– Bıy, niyə ki? Piti yemək istəmirsən?

– Yox, istəmirəm. Ala xırdanı! Bu gün qazancım çoxdur.

– Nə olar ki, onu da sabah xərclərsən.

– Lazım deyil.

– Gəl, bala, yetimə əl tutmaq borcumuzdur.

Polad daha da şübhələnib xırdaları lap uzaqdan Kərbəlayının üstünə atmaq istədi:

– Ala xırdanı! – deyə onu hirsli-hirsli təpədən-dırnağa qədər süzdü, – çantamı heç atam qəbirdən dirilib gəlsə də vermərəm.

– Yox, bala, mən onu neyləyirəm?

– Ala xırdanı, deyirəm!

– Heç alarammı? Kafir deyiləm ki? Yetimin payını kəsim? Piti yeməsən, əl çəkmərəm, – deyə Kərbəlayı ona sarı addımladı. – Gərək bu gün barışaq. Özü də hər gün qəzet, jurnalını gərək hamıdan qabaq mənə gətirəsən. Yaxşımı?

O daha da nəvazişkar bir tövrlə gülümsünərək Poladın biləyindən yapışdı. Uşaq bir neçə dəfə dartınıb onun əlindən qopmaq istədisə də, Kərbəlayı onu buraxmadı, çəkə-çəkə dükanına apardı, dibdəki kürsüdə oturtdu:

– Çantadan qorxub eləmə, – dedi, – onda gözü olanın gözü çıxsın.

Polad bu sözlərin çox ürəkdən və səmimi deyildiyini yəqin edib, bir daha dartınmadı, dinməz-söyləməz oturub Kərbəlayının birdənbirə nə üçün belə dəyişildiyini fikirləşdi. Doğrudan da o, çantaya baxmırdı, görünür bir başqa məqsədi vardı.

Kərbəlayı yenə qapıya yanaşaraq, qabaq cərgədəki çayçı dükanına bağırdı:

– Səftər!.. Bir piti, iki stəkan da əmiri çay!

Birdən nə isə Poladın ürəyinə damdı. Bu qonaqlığın sonrasından qorxmağa başladı. Amma artıq gec idi. Poladın bədənində üşütməyə bənzər nə isə bir şey vardı. Bir dəqiqə belə keçmədi ki, Məşədibəyin evindən dadı damağında qalmış bozbaş kimi, zəfəranlı piti qabağında hazır oldu.

Polad bir az duruxdu:

– Ye, bala, ye! – deyə Kərbəlayı özü də böyründən naxünək vurmağa başladı.

İndi Polad iştaha ilə yeyirdi.

Bir neçə dəqiqədən sonra iki stəkan xoruzquyruğu çay gəldi. Kərbəlayı yeməyə ara verib, stəkanlara qənd saldı. Poladın başı pitiyə qarışdığından, dükan sahibinin nə iş gördüyünə fikir vermədi...

Sabirlə Məşədibəy söhbət edə-edə gəlib sahilə çıxdılar. Dənizdən əsən xəfif külək Məşədibəyin saçlarını oxşayırdı. Bu gün, nədənsə, bulvarda gəzən çox az idi. Dənizdə də tüstülənə-tüstülənə uzaqlaşan ticarət gəmisindən başqa heç nə görünmürdü.

Sabir sözünə davam edərək deyirdi:

– Aclıq, susuzluq nəticəsində ciyəri də zəifləmişdir, ürəyi də. Mən onu altı aydır tanıyıram. Bütün məktəbdə ən yaxşı oxuyan şagirdlərdən biridir. Özü də ağıllı, düşüncəli uşaqdır. Çox təəccüb edirəm, nə təhər olub ki, o sirri deyib?

Məşədibəy dinmədi: "hər halda zərəri olmayıb" deyə fikrindən keçirtdi.

– Mənim imkanım olsaydı, onu axıra kimi oxutdurardım. Gözlərinə baxanda bilirsən ki, böyük adam olacaq.

– Elədir, – deyə Məşədibəy addımlarını daha da yavaşıtdı, – yoxsulluq nəticəsində belə uşaqların çoxu məhv olub gedir, xalqımız gənc nəsildən məhrum olur. Zarafatdırmı, uşaqlarımızın doxsan faizi məktəbdən kənardadır. Hamı qəzet satıb oxuya bilməz ki?

Sabir köksünü ötürdü. Əsərlərində bu qədər gülməyi bacaran bu insan, şəxsi həyatında yalnız kədərlə nəfəs alırdı, onun gözlərində çox az-az sevinc ifadəsi parıldayırdı.

– Məni yaşadan yalnız gələcəkdir!.. – derkən o, gözlərini dənizlə üfüqün birləşdiyi yerə zilləyərək elə bil gələcəklə özü arasındakı uzun məsafəni gözəyarı ölçdü.

– Düzdür, düzdür. Bədbin olmaq lazım deyil, – deyə Məşədibəy ona ürək-dirək verdi, – xüsusən siz bədbin olmağa qətiyyən haqlı deyilsiniz. Siz bu dövranı məğlub etmisiniz. Siz təlatümə gəlmiş bir dənizin yıxa bilmədiyi böyük bir dağa bənzəyirsiniz.

Sabirin gözləri yenə dənizdə idi. O, birdən qeyri-şüuri olaraq dodaqaltı dedi:

Bənzərəm bir qocaman dağa ki, dəryada durar!

– Bax, belə! – deyə Əzizbəyov başını ağır-ağır tərpədərək, bir xeyli Sabirə baxıb, dinməz-söyləməz irəlilədi. Onlar bulvarın başına çatdıqları zaman, birdən müdhiş bir mənzərə qarşısında donub qaldılar; ağacın kölgəsində, ağzı üstə döşənmiş bir uşaq görünürdü.

Məşədibəy cəld ona yanaşdı. Əvvəlcə tanımadı. Yana sarı əyilərkən uşağın iki əli ilə bərk-bərk tutduğu əzilmiş, boz torpağa bulaşmış çantanı tanıdı, dizi üstə çökdü. Onun bütün vücudu titrədi. Başı üstündə durmuş Sabirə dinərkən, onun gözləri doldu:

– Yəqin acındandır, – dedi.

– Bir də yüyürməkdən, – deyə Sabir kövrəlmiş halda əlavə edib yaylığını çıxartdı.

Müayinəyə gəlmiş həkim Poladın cənazəsi qoyulmuş otaqdan çıxarkən, hamını təəccübləndirən bir soyuqqanlılıqla dedi:

– Zəhərləyiblər.

Sabir göz yaşları içində ikən hələ iki il əvvəl yazdığı bir şerin ilk beytini xatırladı:

Ey dərbədər gəzib ürəyi qan olan, çocuq!

Bir loğma nan üçün gözü giryan olan, çocuq!

Bu vaxta qədər yorulmadan gülən “Hophop” indi ağı deyən ana kimi əli dəsmallı, gözü yaşlı idi.

# MİRZƏ İBRAHİMOV
## (1913-1993)

## BİRİNCİ DƏRS

Səməd balacaboylu, qarabuğdayı oğlandır. Onun nazik qara qaşları, işıqlı qara gözləri var. Saçları da qaradır. O, ikinci sinifdə oxuyur. Dərslərindən əlaçıdır. Hələ indiyə qədər beşdən əskik qiymət aldığı olmayıb.

Səmədin ürəyində oxumaq həvəsi məktəbə getməmişdən çox qabaq oyanıb. Bunun da tarixi belədir: hələ sentyabr ayı gəlməmiş, hələ məktəblərdə dərs başlamamış Səmədgilin evində dərsə hazırlıq başlamışdı. Atası Səmədi yanına salıb kitab mağazasına apardı. Ona təzə çanta, bir neçə dəftər, üstündə gözəl uşaq şəkli olan əlifba kitabı, mürəkkəb və qələm oldu. Evə gələndə Səməd kitabını, dəftərlərdən birini və qələmi çantaya qoydu. Mürəkkəbqabını hazırladı. Bütün bunları pəncərənin bir tərəfinə yığdı. Səmədgilin evində yazı stolu yox idi. Çünki onun atası da, anası da savadsız idilər. Heç biri kitab oxuya bilmirdi. Səməd gözünü açan gündən onların ikisinin də savadsızlıqdan şikayətləndiyini eşitmişdi. İkisi də deyərdi:

– Savadsız adamdan kor yaxşıdır!

Səməd onların nə üçün oxumadıqlarını bilmir. Ancaq onu görürdü ki, Səmədi oxutmaq ikisinin də ən böyük arzusudur. İstəyirdilər ki, Səməd onların bilmədiklərini bilsin, onların həsrət qaldığı kitabların hamısını bir-bir oxusun. Ata-anasının bu arzusu Səmədin ürəyində kök salmışdı, onun öz arzusu olmuşdu. Hələ məktəbə getməmiş oxumağa onun ürəyində böyük həvəs oyatmışdı. Səmədin xəyalında məktəbdən gözəl, məktəbdən işıqlı yer yox idi. Buna görə də Səməd səbirsizliklə gözləyirdi ki, sentyabrın biri havaxt gələcək, anasının hazırladığı təzə məktəb formasını havaxt geyib, çantasını əlinə alaraq məktəbə gedəcək.

Səməd hər gün iki dəfə, üç dəfə çantasını yoxlayırdı. Dəftər-kitabın yerində olduğunu görüb rahat olurdu. Ona görə yoxlayırdı ki, o, evdəki beş uşaqdan ən böyüyü idi. Qorxurdu özündən iki yaş kiçik qardaşı və ya bir yaş kiçik bacısı o yatanda çantanı pəncərədən götürüb açarlar, dəftər-kitabını cırarlar, çirk edərlər. Çünki onlar Səmədin çantasına, dəftər-kitabına çox həsrətlə baxırdılar. Səməd hiss edirdi ki, bu şeylər alınan

gündən o, qardaşının və bacısının gözündə böyüyüb, lap yekə adam olub. Belə ki, qardaşı çantaya yaxın duranda Səməd deyirdi:

– Əl vurma, çirk elərsən, gərək məktəbli uşağın kitabı, paltarı təmiz olsun!

Qardaşı o saat Səmədi üzünə baxıb geri çəkilirdi. Bacısına isə əlifba kitabını uzaqdan göstərib deyirdi:

– Burada yaxşı nağıllar var, dayan məktəbə gedim, oxuyacağam, qulaq asacaqsan.

Nəhayət, sentyabrın biri gəlib çatdı. Səməd səhər tezdən durdu, əl-üzünü yudu, geyindi, çantasını bir də yoxlayıb çiyninə salaraq məktəbə getdi. Məktəbin həyəti və dəhlizi uşaqlarla dolu idi. Siniflərdən də uşaq səsi gəlirdi. Burada həm Səməd kimi birinci dəfə məktəbə gələnlər, həm də yuxarı siniflərdə oxuyanlar da vardı. Uşaqlar ucadan danışır, həyətdə oynaşır, dəhlizdə gəzib söhbət edirdilər. Xüsusən siniflərin qapısı ağzında qaynaşır, tez-tez içəri girib çıxırdılar. Birdən Səmədin yadına arı pətəyi düşdü. Səməd arı pətəklərini yayda atası ilə fermaya gedəndə görmüşdü. Dağlarda gülün-çiçəyin şirəsini sovurub bal tutmağa qayıdan arılar pətəyin ağzında beləcə qaynaşırdılar.

Səməd məktəbdə heç kimi tanımırdı. Buna baxmayaraq ürəyi sevinclə dolmuşdu. Sanki bütün bu uşaqlar onun çoxdankı yoldaşları idi.

– Birincidə oxuyacaqsan? – deyib özü kimi qarabuğdayı, ancaq boyca xeyli hündür bir oğlan uşağı ona yaxınlaşdı.

– Hı, – deyib Səməd ona cavab verdi.

– Mən də. Adın nədir?

– Adım Səməddir.

– Mənim adım Kərəmdir, – deyib uşaq tanış oldu. – Gəl gedək mən sinfimizi tanıyıram.

Səməd Kərəmin yanına düşüb dörd pəncərəli böyük sinif otağına getdi. Burada hər şey işıqlı və təmiz idi. Sıra ilə düzülmüş partalar təzə təmir olunmuşdu. Təzə ağardılmış divarlar uşaqların üzünə gülürdü. Pəncərələr parıldayırdı. Bütün bunlar Səmədin ürəyini bir az da artıq sevinclə doldurdu.

– Kərəm, gəl bir yerdə oturaq, – dedi, – birinci cərgədə.

– Sən otur. Məni birinci cərgəyə qoymazlar.

– Nə üçün? – deyə Səməd soruşdu.

– Görmürsən boyum ucadır. Anam deyir ki, onların məktəbində balacaboylu uşaqları qabaqda, ucaboyluları dalda otudurlar, müəllimin yazdığını gərək hamı görsün.

Səməd Kərəmdən ayrılmaq istəmirdi. Kərəm onun xoşuna gəlmişdi, çox mehriban və sadə uşaq idi. O saat adama yaxınlıq edirdi. Səməd öz boyunun balacalığına birinci dəfə heyifsiləndi:

– Boyum uca olsaydı, mən də səninlə dalda oturardım.

– Fikir eləmə, boyun çıxacaq, – deyib Kərəm ona təsəlli verdi, – anam deyir ki, bəzi uşaqlar on yaşından sonra birdən boy atırlar.

– Gəl orta partada oturaq. Müəllim yazanda mən boylanıb hamısını görərəm! – deyə Səməd Kərəmlə bir yerdə oturmaq üçün yol tapdı.

– Yaxşı, oturaq! – deyib Kərəm razılaşdı.

Onlar çantalarını orta partalardan birinə qoyanda zəng oldu. Uşaqlar qaçaraq hay-küylə siniflərə doluşmağa başladılar. Səmədgilin sinfində oxuyan uşaqlar bir dəqiqədə yığışdılar. Tez hərə özünə bir yer tutdu. Qabaq cərgələrdəki bütün partalar da doldu. Bir dənə də boş yer qalmadı. Səməd dönüb dala baxdı. Dal partalar da dolmuşdu. Ancaq axırıncı cərgədə iki yer boş idi. Səmədin ürəyindən keçdi ki, nə yaxşı olardı, iki uşaq da gələ idi və yerlər hamısı dolaydı. Boş yerə baxanda adamın ürəyi darıxır!

Səməd çevrilib düz oturdu. Dirsəyini partaya söykədi, çənəsini ovcunun içinə qoyub fikrə getdi. Ürək döyüntüsü ilə müəllimin gəlməsini, birinci dərsin başlanmasını gözlədi. Bu anda Səmədə elə gəldi ki, dünyada ən xoşbəxt adamdır. Birinci dərs! Bu dəqiqəni o nə qədər gözləmişdi!

Qapı açıldı və ortaboylu, saçlarına dən düşmüş müəllim içəri girdi. Uşaqlar hamısı ayağa durdular. Səməd də durdu. Ancaq, bu sanki mexaniki bir hərəkət idi. Çünki onun bütün fikri müəllimdə idi. Müəllimin üz-gözü, yerişi, hərəkətləri şəkil kimi hafizəsində həkk olub qalırdı. Səmədə elə gəldi ki, hələ indiyə kimi bu qədər xoşsifət, bu qədər mehriban və gözəl adam görməyib!

Müəllim:

– Salam, balalar! – dedi, – oturun.

Uşaqlar oturdular. Müəllim ayaq üstə durub sinfə göz gəzdirdi. Birinci cərgədən başlayaraq axırıncı cərgəyə kimi hər uşağa ayrıca nəzər saldı. Baxışları Səmədin baxışları ilə tutuşanda bir anlığa dayanan kimi oldu, sonra o biri cərgələrdəki uşaqlara adladı. Bundan sonra müəllim oturdu, sinif dəftərini açıb bir-bir adları oxumağa başladı, müəllim oxuduqca hər uşaq ayağa durub "hazır" deyir və otururdu. Müəllim uşağa bir də nəzər salırdı. Adı çəkilən kimi Səməd ayağa durub:

– Hazır! – dedi və oturmaq istədi. Lakin müəllim onu saxladı.

– Sən qabağa keç! – dedi və əlini birinci cərgədə oturmuş nisbətən hündürboylu uşağın çiyninə qoyub Səmədin yerini göstərdi. Səməd ürəyində Kərəmdən ayrı oturmağına heyifsilənsə də bir söz demədi, tez çantasını götürüb yerini dəyişdi.

Müəllim adları yoxlayıb qurtarandan sonra ayağa durdu. Dərs ilini başlamaları, birinci dəfə məktəbə gəlmələri münasibətilə uşaqları təbrik etdi, onlara dərslərində müvəffəqiyyət və xoşbəxt gələcək arzuladı.

– Mən inanıram ki, siz hamınız səy göstərəcəksiniz, çalışacaqsınız. Qoca müəlliminiz gələcəkdə sizin böyük adamlar olduğunuzu görəndə sevinəcək ki, əməyi itməyib.

Səməd diqqətlə qulaq asırdı. Müəllimin bütün dediklərini başa düşməsə də, onun təmiz və aydın danışığı qulağını oxşayırdı. Hələ heç yerdə, heç bir zaman o belə şirin, belə gözəl sözlər eşitməmişdi. Bəzən müəllimin səsi yavaşıyırdı, dərələrdən axan bulaqların şırıltısını Səmədin yadına salırdı. Bəzən də bu səsdə Səməd yaz səhərinin sübh çağında bağçalarında oxuyan bülbülün şərqisini eşidirdi. Bu şərqi ürəyini necə şirin duyğularla doldururdu, gözlərinin qabağında görmədiyi, bilmədiyi cazibədar bir aləmin mənzərəsini canlandırırdı!

Müəllim uşaqlarla tanışlıqdan və onlara müvəffəqiyyət arzuladıqdan sonra birinci dərsi başladı. O səslər və hərflər barədə məlumat verib "A" və "B" hərflərini keçdi. Bu iki hərf birləşəndə "Aba", "Baba" sözləri əmələ gəlirdi. Hərflərin belə birləşməsi və söz əmələ gətirməsi Səmədə çox maraqlı göründü. Səmədin fikrinə gəldi ki, ana sözü "A" hərfilə başlayır. Bu fikir onu hədsiz sevindirdi. Çünki o anasını çox sevirdi. Müəllim keçdiyi dərsi dönə-dönə uşaqlara təkrar etdirirdi. Partalar arasında gəzib gah bu, gah o biri uşağa yaxınlaşır, kitabdan oxudurdu. Əlbəttə, uşaqlar hamısı bir cür cavab verə bilmirdi. Biri keçilən dərsi tez mənimsəyir, biri hələ hərfləri aydın şəkildə bir-birindən ayıra bilmirdi. Müəllim Kərəm oturan partanın yanında durdu və Kərəmə dedi:

– Oğlum, sən oxu görüm.

Kərəm "A" və "B" ilə başlanan səhifəni birnəfəsə oxudu.

Müəllim soruşdu:

– O biri hərfləri də bilirsən?

– Bəli, müəllim. Anam müəllimədir. Evdə öyrənmişəm.

– Çox yaxşı. Sən mənim köməkçim olarsan, – deyib müəllim Kərəmdən razı qaldı.

Səməd Kərəmi bir az da artıq sevdi. Ürəyində dedi: “Gör özümə nə yaxşı yoldaş tapmışam, anam bilsə sevinəcək!”. Bu zaman müəllim birinci partanın yanına gəldi və Səmədə baxdı:

– Oğlum, gərək ki, sənin adın Səməd oldu?

Səməd adət etdiyi kimi cavab verdi:

– Hıı...

– Oğlum adam “hı” deməz, deyər “Bəli, mənim adım Səməddir”.

Səməd qızardı. Müəllim dedi:

– İndi dur ayağa, cavab ver görüm.

Səməd ayağa durdu, ucadan:

– Müəllim, mənim adım Səməddir! – dedi.

– Ay bərəkallah, bax belə, həmişə ucadan və aydın danış... İndi otur, oxu görüm.

– Səməd əyləşəndə hiss etdi ki, ürəyi döyünür. Ancaq yenə özünü yığışdırıb oxudu.

– A, a, a... b... b... b... aba... aba... baba... baba...

– Böyük A hansıdır?

Səməd barmağını hərfin üstünə qoydu:

– Böyük “A” budur, müəllim.

– Ay sağ ol, kiçik “a” hansıdır?

Səməd ürəklənib bir az cəsarətlə cavab verdi:

– Kiçik “a” budur, müəllim.

– Bərəkallah oğlum, sən nə yaxşı uşaqsan.

Birinci dərs Səməd üçün belə şirin və müvəffəqiyyətli oldu. O, bu dərsi ömrü boyu unutmayacaq. Dərs qurtaran kimi o, evə qaçdı. Anası, bacı və qardaşları isə qapıda oturub onun yolunu gözləyirdi. Səməd uzaqdan qışqırdı:

– Ana mən ana sözünün birinci hərfini öyrənmişəm. Baba da yaza bilirəm.

O tez kitabı açdı və oxumağa başladı... Səməd oxuduqca anasının üzü işıqlanırdı. Bacı və qardaşı isə ona mane olmağa cəsarət etməyib cınqırlarını çəkmədən gözlərini onun ağzına dikmişdilər. Səməd qurtaranda anasına baxdı:

– Elə yaxşı müəllimimiz var, ana... Yoldaşım da yaxşıdır. Adı da Kərəmdir. Hamı hərfləri bilir. Mən də öyrənəcəyəm hamısını...

Ana heç bir söz deyə bilmədi. Onun yaşarmış gözləri dağ yamacları ilə burularaq yuxarılara qalxan və uzaqlara gedən böyük cığıra dikilmişdi. Səməd ananın gözlərindəki arzunu da oxudu: onlar atanın gəlib bu sevincə şərik olmasını istəyirdilər. Səmədin də öz ürəyindən bu arzu keçirdi... O vaxtdan Səməd əlaçı oxuyur və söz verib ki, həmişə əlaçı olacaq.

## GÖYƏRÇİNLƏRİM

Seyran quşların aşiqidir. Uçan quş gördümü, dayanacaq, iri, qara gözlərini göyə zilləyib duracaq, quş gözdən itənə qədər dalınca baxacaq. Mavi boşluqlarda, buludun, dumanın içində quşun qanad çalmasından, gah yuxarı, gah aşağı süzməsindən ləzzət alır. Yolu Bakıdakı quş dükanının yanından düşəndə, dükan açıq olsa mütləq içəri girəcək, olmasa vitrinin qabağında durub, qəfəslərdəki ala-bəzək quşlara tamaşa edəcək. Quşu o qədər sevir ki, hətta anasının nifrət etdiyi boz sərçələr də eyvanların dirəyinə qonub civildəşəndə işini yarımçıq qoyub onlara baxacaq. Belə hallarda anası deyir:

– Ay Seyran, bu üzünü mürdəşir yumuş sərçələrdə baxmalı nə var, gözünü zilləyib, durmusan?! Zəhləm səslərindən gedir!

Seyran bir söz demir, çünki anasının sərçələrə nifrət etməsinin səbəbini bilir, hətta ürəyində onu haqlı sayır. Bilir ki, anası sərçələrin əlindən zardır, başına yüz oyun gətiriblər. Seyrangil Bakının Dağlıq adlanan hissəsində olur. Yəni o hissədə ki, orada hər gün bir şey sökülür, bir şey tikilir. Onların yaşadığı yarısı ikimərtəbə, yarısı birmərtəbə ev də sökülməyə namizəddir. Lakin hələ ki, sökülmür, yerində durub və Seyrangil də burda rahatca ömür sürürlər. Həmin evin dörd tərəfdən qapalı balaca həyətində kim bilir, əlli il əvvəl əkilmiş meynə var, qara şanıdır. Seyranın ağlı bir şey kəsən gündən görmüşdü ki, bu meynə gəlib-gedənlərin ayağı altında tapdaqdır. Ona top, daş, təpik qalmamışdı dəyməsin. Əyri-üyrü çatdaq qara kötüyü qabıq verirdi, saysız-hesabsız qarışqa yuvası idi. Həyətin uşaqları bu yana da keçəndə o yana da keçəndə əlini atıb, yarpağını, təzəcə zoğlarını qırar, qayış kimi möhkəm, köhnə çubuqlarını dartıb sındırardılar. Meynə isə bütün bunlara öyrənmişdi, nə quruyub məhv olurdu, nə də uzanıb artırdı.

Bir dəfə axşamüstü idi. Seyranın atası işdən qayıdıb əl-üzünü yumuş, çörək yeyərək eyvanda oturub çay içirdi. Birdən gözləri uşaqların top zərbələri altında titrəyən qoca meynəyə sataşdı. Qaşlarını çatıb fikirləşdi və dedi:

– Mən bu qoca meynəni dirildəcəyəm, cavanlaşdıracağam, hətta sizə üzüm də verəcəyəm.

Atası eyvandan həyətə düşdü. Seyranı da çağırdı. Bu zaman məktəb yoldaşı Səfər də onlarda idi. O da Seyranla aşağı endi. Atası hardansa dəstəyi sınıq bir bel tapdı, meynənin dibini belləyib açdı, iki-üç qarış dərinləşdirib lək düzəltdi. Həyətin divarları dibinə tökülmüş daşları uşaqlara yığdırıb ləkin qıraqlarını tikdi. Meynəni ayaqaltı olmaqdan qurtardı, sonra mişarla onun qara kötüyünü, gömgöy nazik çubuqlarını kəsdi. Üstündə yeganə yetişib saralmış bir çubuq saxladı.

– İndi su gətirin! – dedi.

Seyrangil həvəslə ataya kömək edirdilər. Qaçıb evdən vedrə gətirdilər, doldurub meynənin dibinə tökdülər. Su bir anda qupquru torpağa hopub gedirdi. Onlar torpağı doydurana qədər su daşıdılar.

– İndi gəlin talvar düzəldək, qara şanı talvarı sevir! – deyib atası həyətin küncünü onlara göstərdi. Kimin əlinə nə gəldi bura atdığından, bura dəmir-dümürlə, taxta parçaları və sairə ilə dolu idi.

– Seçin, az-çox yararlı taxta parçalarını və məftilləri zir-zibildən ayırın! – deyə atası göstəriş verdi. Seyrangil həvəslə işləyirdilər.

İyirmi dəqiqə keçməmiş, onlar xeyli yararlı taxta və məftil ayırdılar. Atası talvar düzəltməyə başladı. Seyran və Səfər ona kömək etdilər. Talvar hazır olanda ata çubuğu qaldırıb məftilə ilişdirdi. Meynənin ağzını yuxarı verdi:

– Bircə ilə bütün həyəti basacaq, həm kölgə salıb bizi yayın istisindən qoruyacaq, həm də dadlı şanıya qonaq edəcək.

Bu zaman Seyranın anası da eyvana çıxmışdı. Həmişə atanın evdə gördüyü işlərə inamsız baxdığından bu dəfə də ona güldü.

– Şkafı, stulları, çayniki xarab elədin, indi də meynəyə əl atmısan? Get, bacardığın işdən yapış!

– Bir il sonra baxarsan! – deyib Seyranın atası halını pozmadı. Atasının özünü ağır saxlaması Seyrana xoş gəldiyindən həmişə onun tərəfində olurdu.

– Anam belədir, bizə inanmır, – deyib atasına havadar çıxmaq istədi.

– Yaxşı, az danış, ağzın yekə olar! – deyib ata gülə-gülə Seyrana baxdı. – Yaxşısı budur, siz bekar durmayın, küncdəki zir-zibili küçə qapısının dalına daşıyın, maşın gələndə aparar...

Doğrudan da o biri il gəlib yaz açılanda, xüsusən may girib havalar qızanda meynə qol-budaq verdi. Çox keçməmiş talvarı tutdu, yamyaşıl və iri yarpaqları ilə həyəti çətir kimi örtüb günəşin yandırıcı şüalarını aşağı buraxmadı. İyun ayının ortalarında isə noxud boyda göy gilələrlə dolu salxımlar talvardan aşağı sallanırdı. Ata canlanmış meynəyə və bu salxımlara baxıb qürurla deyirdi:

Hə, gördünüz ki, qara şanı necə şeydir! Əmək itirən deyil, bir versən on dəfə artığı ilə qaytaracaq.

Lakin demək olar ki, bu qədər salxımdan biri də onlara qismət olmadı. Salxımlar yetişər-yetişməz gilə-gilə dənlənib yoxa çıxırdılar. Seyrangil gecə salxımı nişanlayıb yatırdı, səhər ayılıb görürdülər ki, heç şey qalmayıb. Onlar başa düşmürdü ki, salxımı boşaldan kimdir, böyük bir sirr qarşısında qalmışdılar. İşin tərsliyindən o günlər atası kəndə getmişdi, bir ay fermalarda olacaqdı. Buna görə də onlar salxımların başına nə gəldiyini müəyyən edə bilmirdilər. Ancaq necə deyərlər, açılmayan sirr yoxdur. Təsadüf bu sirrin də üstünü açdı. Seyran görürdü ki, meynə talvara qalxıb pardaxlanandan həyətlərindən sərçə səsi kəsilmir. O, əvvəlcə belə başa düşdü ki, yəqin hava isti olduğundan yazıq sərçələr gəlib meynənin kölgəsində sərinlənirlər. Ancaq diqqətlə baxanda gördü ki, yox, onlar hənirti duyan kimi qaçıb damın tinində, ya da dirəklərin, məftillərin üstündə günün lap altında oturaraq civildəşirlər. Adam içəri çəkilən tək qoşun kimi yenidən özlərini yarpaqların arasına vururlar, yetişmiş gilələri acgözlüklə dimdikləyirlər. Özləri də elə iti görürlər ki, yarpaqların altında, lap qalın yerlərdə də sulanmış salxımları uzaqdan seçir, fürsət tapan kimi üstünə cumur, bir an içində gilələri dimdikləyib zay eləyirlər. İki-üç belə hücumdan sonra baxırsan ki, böyük bir salxımdan heç nə qalmayıb! Sərçələr belədirlər!

Qara şanıya toy tutduqları gündən Seyranın anası onlara nifrət edir, elə onda:

– Sərçə nə quşdur, qadam ağzına, nə yaraşığı var, nə faydası! – deyib tənzifdən balaca torbalar tikdi. Seyrana verdi, – ayağının altına kətil qoy, talvara çıx, qalan salxımları sal torbaya, ağzını bağla, görüm necə dimdikləyəcəklər!

Seyran talvara çıxdı, lakin meynənin hansı budağını qaldırdısa, üzüm tapmadı. Hamısını sərçələr aparmışdı. Vur-tut ikicə salxım qalmışdı, onların da zədələnməmiş giləsi yox idi. Anası acığından dedi:

– Sal torbaya, qoy çürüsünlər, sərçəyə qismət olmasınlar!

Ananın nifrətini duymuş kimi sərçələr də ondan əl çəkmədilər, intiqam almağa başladılar. Bir dəfə necə olmuşdusa, anası aynabənddə yarma sərib pəncərəni açıq qoyaraq qonşuya getmişdi, qayıdanda nə görsə yaxşıdır? İki kilo yarmadan yarım kilo da qalmayıb! Bundan sonra ana işlərini ehtiyatlı tutsa da sərçələr çıxıb getmədilər. Hətta payız gəlib meynənin yarpağı tamamilə töküləndə də damın qırağından, talvardan onların cikkiltisi kəsilmədi.

Sərçələrin vurduğu zərərə və anasının nifrətinə baxmayaraq Seyran onları görəndə bir sevinc duyur, tutub oynatmaq, dən və su vermək istəyir.

Seyrangil yaşayan evin yastı damının üstünə qır döşəyiblər. Bu isə Seyrana xoş gəlmir. Qara qırlı dama baxanda ürəyi sıxılır. Lakin sərçələr damın divarına düzülüb cikkildəşəndə bu qara dam da Seyranın gözünə xoş və şən görünür. Hətta bəzən anasından gizli pəncərədən sərçələrə dən və çörək qırıntıları da atır.

Bu il qış sərt gəlmişdi. Tez-tez xəzri əsir, yağış və qar yağırdı. Görünür, sərçələr yeməyə bir şey tapmırdılar. Damın tinində oturub hey eyvana baxaraq cikkildəşirdilər. Seyran anasının evdə olmadığından istifadə edib pəncərənin bir tayını yarı açdı, eyvanın döşəməsinə bir ovuc yarma atdı. Pusquda durdu. Fikri bu idi ki, sərçələr eyvana dolan kimi pəncərəni örtsün və onları tutub saxlasın. Lakin sərçələr çox bic tərpənirdilər. Yarmanı götürən kimi özlərini çölə atırdılar. Bu zaman Səfər də gəlib çıxdı. Seyranın fikrini bilib güldü.

– İstəyirsən, özünü öldür, sərçə adama öyrənməz. Bir də ki, sərçə nə quşdur, onu saxlayasan da?! Gəl sənə bir cüt göyərçin bağışlayım. Quş deyəndə göyərçindi! Həm göyçəkdir, həm də ki, dünyanın hər yerində onu sevirlər. Anam deyir ki, hansı evdə göyərçin yuva salıb, bala çıxarsa o evə xoşbəxtlik gələr!

– Mövhumatdır! – deyə Seyran Səfərə güldü, – xoşbəxtliyi adam mübarizədə qazanır. O gün müəllim deyirdi!

– Göyərçin sülh quşudur. Buna ki bir söz deyə bilməzsən. Sabah iki dənə gətirim?

– Gətir! – deyib Seyran razılıq verdi.

2

Lakin göyərçin məsələsi evdə böyük söhbətə səbəb oldu. Atası eşidən kimi qaşları çatıldı:

– Get özünə sənət tap, quşbazlıq nədir?! Texnika dərnəyinə gedirsən, bəsdir. Bu azdırsa çalmaq öyrən, oxumaq öyrən, yoxsa quşbazlıq?

Seyran atasının niyə belə danışdığını bilirdi. Məhəllələrində quş üstündə neçə dəfə dava-dalaş olmuş, hətta deyilənə görə keçmişdə adam da öldürmüşdülər. Bakıda "quşbaz" adlanan adamlar işini-gücünü buraxıb xüsusi göyərçin saxlayarmışlar. Onlar qumara öyrənən kimi quşa öyrənər və özünə də, qonum-qonşuya da zərər verərmişlər. Başqasının göyərçinlərini şirnikdirib öz həyətinə oturdar və geri buraxmazmışlar. Quş üstündə araya ədavət düşərmiş. Buna görə də "quşbaz" sözü atasının ağzından nifrətlə çıxırdı.

– Ata, arxayın ol, mən quşbazlıq etməyəcəyəm. Bilirsən ki, dərslərdən əlaçıyam və əlaçı, olacağam. Texniki dərnəyə gedirəm və yenə də gedəcəyəm. İnan ki, quşların səsini eşidəndə dərsə də, texnikaya da həvəsim artır.

– Ay kişi, uşağın quşdan xoşu gəlir, qoy saxlasın. İki göyərçin saxlamaqla quşbaz olmayacaq ha...

– Bir az sonra iki dönüb olacaq dörd, dörd olacaq səkkiz, başı qarışacaq onlara, bir vaxt görəcəksən ki, qiymətləri düşüb aşağı, gözünə də quşdan başqa şey görünmür.

– Söz verirəm, ata, heç vaxt elə olmayacaq. Heç başa düşmürəm, necə ola bilər ki, quşa görə hər şeyi unudasan? Elə adamların yəqin ağlı yoxdur! – deyib Seyran atasını inandıra bildi ki, quş onu nə dərslərdən, nə də texniki dərnəkdən soyuda bilər. Məktəblərində xüsusi zoologiya kabinəsi olduğunu, quşların həyatını öyrəndiklərini atasına xatırlatdı.

– Quşbazlar göyərçinə başqa cür baxırdılar, biz başqa cür baxırıq! – deyib dərin məna ilə əlavə etdi, – axı biz zoologiya dərsində quşları da öyrənəcəyik!

Yeganə oğlunun və arvadının təkidinə qarşı dura bilməyən atası:

– Yaxşı, görərik necə baxırsınız! – deyib yarıkönül razılıq verdi.

Sabahısı, dediyi kimi, Səfər ona iki göyərçin gətirdi. İkisi də ağ idi. Ancaq dişi göyərçin tamamilə ağappaq olduğu halda, erkəyin boynuna elə bil sarı halqa salınmışdı. Onun ayaqları da çox qəribə idi. Sanki köhnə zabitlər kimi uzunboğaz çəkmə geyib bəzənmişdi.

Seyranın ilk gözünə dəyən və xoşuna gələn bu oldu ki, göyərçinlər bir-birilə çox mehribandır. Heç zaman bir-birindən ayrılmırlar. Qəribədir, bu iki quş o qədər bir-birini sevir ki, bir an da ayrı durmur, hey "qur-qur" edərək bir-birini oxşayır. Havada uçanda da bir-birindən çox uzağa getmirdilər. Hansı əvvəl damın qırağına ensə, dayanıb o birini gözləyirdi, o gələndən sonra ikisi bir yerdə eyvana öz yerlərinə qayıdırdılar. Bir ay keçməmiş onlar dimdiklərində xırda çör-çöp gətirməyə və qutunun bir gözündə yuva tikməyə başladılar. Yuva hazır olar-olmaz, Seyran bir səhər orada balaca çil-çil yumurta gördü. Yumurta ikiləşəndə göyərçinlər daima növbə ilə onların üstündə otururdular. Düz on səkkiz gün sonra bu yumurtalardan bir cüt bala çıxanda Seyranın sevincinin hüdudu yox idi!

Doğrudur, balalar çox çirkin idi, lüt, qotur, sarımtıl ət parçasına oxşayırdı. Ancaq bu ət parçası həyat kimi isti idi, tərpəşirdi, titrəşirdi, ananın və atanın hənirtisini duyan kimi ağzını açıb onların boğazlarında hazırlayıb verdiyi südlü sıyığa oxşar həlimi dərhal udurdu. Balalar çox sürətlə böyüyürdülər. Üç həftə sonra artıq onlar göyərçinə oxşayırdı.

– Ana, bir bax, gör necə gözəldir, necə yaraşıqlıdır! – deyib Seyran böyük bir həvəslə hər gün anasının qolundan tutub onlara tərəf çəkirdi. Hətta bir dəfə cəsarət edib atasını da göyərçinlərin yanına gətirmək istədi.

– Ata, elə maraqlıdır ki, bir gör necə artırlar!

– Axı bunların nə xeyri? – deyə atası ona məhəl qoymadı. – Boş yerə vaxt itirməkdir!

– Yox, ata! – deyə Seyran özünü unudaraq etiraz etdi. – Göyərçin çox faydalı quşdur, özlərinin də çox maraqlı həyatları var.

Seyran göyərçinlərin növlərindən poçtalyonluq edən, əti yeyilən və sair göyərçinlərdən danışanda atası heyrətlə ona baxdı:

– Bunları hardan bilirsən?

Onda Seyran quşlar haqqında Azərbaycan və rus dilində axtarıb taparaq oxuduğu kitabçaları ona göstərdi:

– Çox maraqlı aləmdir, ata! – dedi.

Atası bığının altında "hımm" eləyib susdu. Seyran nə qədər düşündüsə bu "hımm"ın mənasını anlaya bilmədi, bilmədi atası onun hərəkətlərini təqdir edir, yoxsa yenə ondan narazıdır. Lakin daha böyük həvəslə göyərçinləri bəsləyib artırmağa qurşandı.

## 3

O qədər qurşandı ki, bir gün texniki dərnəyin məşğələsinə getməyi unutdu. Atası bundan xəbər tutanda acıqlandı:

– Demədim ki, quşbazlığın axırı yoxdur!

– Mən quşbazlıq eləmirəm! – deyib Seyran yavaşca etiraz etdi.

– Bəs dərnəyi niyə buraxmısan? Bu gün dərnəkdən soyuyarsan, sabah dərsdən. Yox, belə olmaz. Məktəbə gəlib direktorunuzla danışacağam!..

Atası otağına çəkiləndən sonra Seyran göyərçinlərilə tək qaldı. Artıq onlar xeyli artmışdı. Eyvandan havaya birdən-birə on göyərçin qalxırdı. Özü də müxtəlif rənglərdə! Bunların heç biri kənardan gəlmə deyildi, Seyranın səyi nəticəsində Səfərin verdiyi iki göyərçindən doğub törəmişdi. Bunu hiss etdikcə Seyran həm sevinir, həm də kədərlənirdi. Kədərlənirdi ki, niyə atası göyərçinləri sevmir! Atasının məktəbə gəlmək fikri onun həyəcanını bir az da artırmışdı. Ona görə yox ki Seyran pis oxuyurdu və ya məktəbdə kölgəli bir işi vardı. Yox! O yenə də əlaçı idi və yaxşı şagirdlərdən hesab olunurdu. Onu qorxudan o idi ki, atası müəllimləri də öz tərəfinə çəkər, hamısı birləşib onu göyərçinlərdən, sevdiyi quşlar dünyasından ayırarlar!

Sabahısı, üçüncü dərsdən sonra, tənəffüs zamanı Seyran məktəbin dəhlizində yoldaşları ilə söhbət etdiyi yerdə gördü ki, atası yavaş-yavaş pillələri qalxır. Kişi çox qaşqabaqlı olmasa da fikirli idi. Seyran tez onun qabağına qaçıb salam verdi, qarşıladı. Atası:

– Məni direktorun otağına apar! – dedi.

Seyran qabağa düşdü. Kabinetin qapısındaca dərs hissə müdiri onlarla üzbəüz gəldi.

– Seyran bala, kimi axtarırsan? – deyib gur qara saçlarına yenicə dən düşmüş müəllimə ana nəvazişilə dolu iri qara gözlərilə Seyranı süzdü.

– Müəllim, atam direktoru görməyə gəlib! – deyərək Seyran atasını göstərdi.

Dərs hissə müdiri dərhal onun atasına müraciət etdi:

– Gəlməkdə çox yaxşı etmisiniz, – dedi, – yəqin maraqlanırsınız ki, Seyran baladan razıyıq, ya yox? Çox razıyıq! Hamımız razıyıq. Gül kimi baladır. Çalışqandır, gözüaçıqdır, tərbiyəlidir. Uşaqların çoxu bu yaşda öz istedadlarını büruzə verə bilmirlər. Bu gün bir şeyi sevirlər,

sabah başqa şeyi, Seyran bala isə indidən bildirir ki, gələcəkdə böyük zooloq olacaq! – Müəllim eyni mehriban gözlərini ani olaraq Seyranın üzündə gəzdirib yenə atasına baxdı, – yəqin siz də hiss etmişsiniz ki, onda quşlar aləminə böyük həvəs var. Biz məktəbimizdə “Quşları sevin!” adlı guşə düzəltməyi və bu işi Seyrana tapşırmağı qərara almışıq. Bu barədə onun çox gözəl fikirləri var. Hamısını yerinə yetirsə məktəbimiz lap quşlar parkına çevrilər!..

Müəllim həvəslə danışdıqca, Seyran gah ağarır, gah qızarır və gözünü atasından çəkmirdi. Görünür ki, bu sözlər atanın da xoşuna gəlirdi, getdikcə onun rəngi açılmaqda, gözləri işıqlanmaqda idi. Nəhayət, dərs hissə müdiri dedi:

– Sizi dəhlizdə çox saxladım, bağışlayın, sizə görə demirəm, öz aramızda da biz Seyrandan çox danışırıq. Buyurun, içəri, direktor maarifə gedib, gərək indicə gəlsin. Vacib söhbətiniz var?

– Elə bir sözüm yoxdur, – deyib atası müəllimin əlini sıxdı, – çox sağ olun. Elə-belə gəlmişdim, məni arxayın saldınız. Deməli, göyərçinlər dərsinə mane olmur?

– Əksinə, kömək edir! – deyib müəllim qətiyyətlə təsdiq etdi, – sağlıq olsa göyərçinin qanadlarında Seyran uzaqlara, çox uzaqlara uçacaq!..

Zəng çalındı. Seyran sinfə qaçdı. İçəri girəndə dönüb bir də dala baxdı. Atası ilə müəllim bərk-bərk bir-birinin əlini sıxıb ayrılırdı. İndi Seyranın bütün narahat duyğuları və həyəcanları sevincə, çalışmaq həvəsinə çevrilmişdi...

# ӘLİ VӘLİYEV
## (1901-1983)

## BİR CÜT ULDUZ

Polad kişinin bir cüt nəvəsi var. Oğlanın adı Surxay, qızın adı Solmazdır. Surxay altı, Solmaz dörd yaşındadır.

Elə gətirib ki, nəvələrin çox vaxtı baba evində keçir. Polad kişi özü bazarlıq eləyir. Əvvəlcə nəvələrinin sifarişini yerinə yetirir: Surxay üçün fındıq ləpəsi, Solmazdan ötrü kişmiş alır. Surxay turşməzə konfetləri, Solmaz şokoladları çox istəyir. Surxay sosiskaya, Solmaz kolbasaya hərisdir. Yeməkdən sonra Surxay gilas kompotu, Solmaz moruq kiseli içir.

Nəvələrin ikisi də istəməlidir. Birincisi şıltaqlığı, ikincisi naz-qəmzəsi ilə babalarının ürəyinə yol açıblar.

Polad kişinin yaşı altmışdan ötüb. Qırx il müxtəlif vəzifələrdə olub, faydalı işlər görüb. Bədəncə qıvraq olsa da iki ildən artıqdır ki, dövlətdən kəsimət alır, ailəsinə başçılıq eləyib, gün keçirir.

Yayda Poladla Gülcahan hara getsə Surxayı özləri ilə aparırlar. Hərçənd, nəvə, baba ilə nənənin istirahətini pozur, o ki lazımdır qocaları incidir, bundan belə nəvə babadan əl çəkmir, gecələr başını Poladın tüklü sinəsinə söykəyib yuxuya gedir.

Surxay yuxudan durana qədər baba bazarlıq eləyir, nənə yemək hazırlayır, çay qoyur. Nəvə əl-üzünü yuyandan sonra babasının böyründə oturub yemək yeyir, süd içir, oyuncaqlarını balaca yeşiyə yığıb həyətə çıxır, qonşu uşaqları ilə oynayır. Doğrudur, arabir qonşu uşaqları qışqırır, baba ilə nənə nəvələrinin xasiyyətinə bələd olduqlarından cınqırlarını çıxartmırlar. Qonşular isə get-gedə Surxayın hərəkətinə ciddi göz qoyurlar. Görürlər ki, Surxay göz-gözə durub hərdən uşaqları çimdikləyir, ya da ki, əllərinə, ayaqlarına ucu şiş oyuncaqları batırır.

Qonaq olduğunu, təkliyini babasıyla nənəsinin hörmətini nəzərə alıb qonşular Surxaya söz demir, bəziləri başını sığallayır, bəziləri kürəyinə vurub deyirdi:

– Surxay, yoldaşlarını incitmə, yoxsa səninlə oynamazlar, tək qalarsan.

Şəhərdə xalası qızı Solmazı gündə neçə dəfə ağladan Surxay böyüklərin sözünə diqqətlə qulaq assa da dediklərinə əməl eləmir. Bir müddət sakitlik olur. Çox çəkmir ki, uşaqların bağırtısı eşidilir. Poladla Gülcahan Surxayı çağırır, hədələyir, öyüd-nəsihət verirdilərsə də, səmərəsi az olurdu.

Bu il baba ilə nənə qızları və nəvələri ilə birlikdə Şuşada dincəlirdilər. Polad kişi bu şəhəri çox sevir, Gülcahan da buraların abhavasına vurğundur. Qızları iki-uç yaşında olanda Polad onları buraya gətirmişdi. O vaxt özü partiya işçisi, Gülcahan da müəllim idi.

İndi isə baba ilə nənə nəvələrinin əlindən yapışıb Cıdır düzünə gəzməyə gedirlər. Surxay babasının əlindən tutduğu halda dartınır ki, nənəsinin də əlini əlinə alsın. Solmazın gözü babasındadır. Xalası oğlunun babasının əlindən bərk-bərk yapışması qızın xoşuna gəlmir. Ürəyindən keçir ki, babası bir əli ilə Surxayın, o biri əli ilə Solmazın əlindən tutsun. Lakin qız, ürəyindən keçənləri dilinə gətirə bilmir, çünki Surxaydan qorxur.

Yay fəsli Şuşa çox səfalı olur. Ələlxüsus axşamüstü, Cıdır düzündəki təmiz havanın hamısını ciyərlərinə çəkmək istəyirsən.

Poladla Gülcahan yastı daşların üstündə oturub, o taydakı pöhrə meşələrə, uzaqda görünən kəndlərə tamaşa eləyirlər. Surxayla Solmaz çiçək dərib dəstə bağlayırlar. Tez-tez baba ilə nənənin yanına gəlib onlara sovqat gətirirlər.

Çiçək nə qədər çox, ətir nə qədər güclü, hava nə qədər təmiz, təbiət nə qədər zəngindir.

Çiçəklərin arasında əyilib qalxan, bəzən çiçəklərdən seçilməyən nəvələrinə baxdıqca onların ömrü təzələnir. Çox çəkmir ki, Surxayla Solmaz qucaqları çiçəklə dolu qayıdıb gəlirlər. Hərəsi bir dəstə çiçəyi nənələrinə verib, ikisi də babalarının qucağına atılır.

Polad nəvələrinin hərəsini bir dizinin üstündə oturdub əvvəlcə üzlərindən öpür, sonra başlarını sığallayır. Surxayın arıq sifətinə elə bil qan gəlir. Solmazın qırmızı yanağı gilənar rənginə çalır.

Nəvələr rahat oturub, nənələrinə baxdıqca baba onlar üçün şeir oxuyur.

Gəl, gəl, a yaz günləri,
İlin əziz günləri.
Dağda ərit qarları,
Bağda ərit qarları.

Çaylar daşıb sel olsun,
Taxıllar tel-tel olsun.
Ağaclar açsın çiçək,
Yarpağı ləçək-ləçək.

Baba qurtaran kimi Surxay xəbər alır:

– Baba, hamıdan çox kimi istəyirsən?

Polad kişi nəvəsinin niyyətini başa düşdüyündən cavabı bütün verir:

– Hamıdan çox Surxayla Solmazı istəyirəm.

– Lap çox kimi istəyirsən?

– Lap çox Surxayla Solmazı.

Surxay gözlərini babasının üzünə zilləyib sualı təkrar eləyəndə Polad deyir:

– Hamıdan çox ikinizi istəyirəm.

Surxay başını babasının sinəsinə söykəyəndə Solmaz da Poladın qoltuğuna qısılıb, balaca qolunu kürəyinə sarı uzadır.

Elə bil bir cüt ulduz, bir dəstə çiçək, bir şülək işıq Poladın sinəsinə qonub gözlərinin nurunu artırır. Baba nəvələrini qucaqladıqca, körpələr gözlərini yumub xumarlanırlar.

## NƏNƏNİN SÖHBƏTİ

Qırxbuğumlu düzdə cərgə ilə qurulmuş çadırların birində Arazla Afaq nənələri ilə qalırdı. Arası kəsilmədən qırx il müəllimlik eləyən Fəxrəndə qarının on iki nəticəsi var. Onun yaşı yetmişi haqlasa da özünü gümrah hiss eləyir. Hər il iyun ayının əvvəllərindən avqustun axırlarına qədər Salvartı yaylağının soyuq bulaqlarından içər, bütün günü yediyi süd, qatıq, göy-göyərti olardı.

Nəticələrinin biri üçüncü, o birisi dördüncü sinifdə oxuyur. Bakıdan təzə gəlmişlər. Mal-qara, qoyun-keçi, at-dəvə haqqında heç bir məlumatları yoxdur.

Qocaman müəllim hər səhər qonaqlarına ya üstü şəkərli qaymaq, ya şirin süd verir, ya da ki, təzə yağla balı qatışdırıb xamralı çörəyin üstünə yaxır, nəticələrinə yedirirdi. Nahara mütləq ya xörək bişirər, yaxud qırxbuğum, quzuqulağı, gicitkən kətəsi hazırlayırdı.

Elə ki nəticələrini yedirib toxtayır, nənə çadırın qabağına palaz salıb üstünə döşək qoyur, uşaqları da böyründə oturdub, onlara kolxozun naxırı, sürüləri, ilxısı, dəvəsi barədə danışırdı.

Fəxrəndə müəllimin məqsədi bu idi ki, nəticələrinə heyvanlar barədə məlumat versin. Bir həftədən artıq yaylaqda olmalarına baxmayaraq uşaqlar dana ilə buzovu ayırd edə bilmir, qulanla ürkəni qarışıq salır, nərlə arvanı tanımırdılar.

Göyün üzü ayna kimi dumduru idi. Gecə ayaz olduğundan indi elə qəşəng gün idi ki, Arazla Afaqa ləzzət verirdi. Fəxrəndə nənənin heyvanlar barədə söhbəti isə daha ləzzətli oldu.

– Kolxozun var-dövləti qaramal, camış, at, davardır. Onların keşiyini çəkən, onları bəsləyən də çobanlardır.

Bax, daşın böyründə durub ağzını tərpədən heyvan inəkdir. Yediyini sınırmaq üçün kövşək çalır. Onun balası bir yaşına qədər buzov adlanır. İki illiyində dana olur. Üç yaşına adlayanda dişisinə düyə, erkəyinə cöngə deyirlər. Dörd yaşından sonra düyələr inək, cöngələr öküz olur. Heyvanların adı yaşı ilə əlaqədardır.

Qara rəngli, yekəqarın, iribuynuz heyvana camış deyirlər. İnəkdən çox süd verir. Südü yağlıdır. Camışın qatığı ilə qaymağı, inəyin südü ilə yağı dərmandır. Camışın balası bir yaşına qədər balaq, iki illiyində kəlçə olur. Böyüyəndən sonra dişisi camış, erkəyi kəl adlanır.

Kolxozun əsas gəliri qoyun-keçidir. Qoyun çox faydalı, mənfəətli heyvandır. Südü, yağı, əti, dərisi, yunu – hamısı kara gəlir. Qoyunun balası quzu, toğlu, şişək, erkək, azman adı ilə adlanır, atalarına qoç, analarına qoyun deyirlər.

Afaq sual elədi:

– Fəxri nənə, qoyunun südü yaxşıdır, inəyin?

– İnəyin südü, qoyunun pendiri ələ düşməz.

Araz dilləndi:

– Bəs keçinin balasına nə deyirlər?

– Keçinin balasına bir yaşınacan oğlaq, iki yaşında çəpiş, sonra dübür-küyər, keçi-təkə deyirlər.

Fəxrəndə qarı çeşməyinin şüşələrini silib gözünə taxdı. Afaqın xurmayı saçlarına sığal verdi. Arazın boynuna əl salıb özünə tərəf çəkdi, sinəsinə sıxandan sonra sözünə davam elədi:

– Daşlıqda sal duzu yalayan heyvana at deyirlər. İyirmi-otuz il qabaq atın hörməti çox, qiyməti baha idi. Minik və yük maşınları

çıxandan sonra atlar urvatdan düşüblər. Araz bacısına macal verməyib xəbər aldı:

– Maşınlar atlara nə eləyib ki?

– Əvvəllər adamlar səfərə çıxanda at minərdilər. Dağa köçəndə yükləri atlar daşıyardı. Arabalara qoşulan, faytonları çəkib aparan, meşədən odun gətirən, dərz daşıyan, xırman döyən atlar idi. Hətta deyirdilər "At, kişinin qanadıdır". Yaxşı igid atı ilə adlanardı. Həcər, aynalı, Bozat Qaçaq Nəbinin sədaqətli dostları olub.

Afaq dedi:

– Fəxri nənə, bəs atın balasına nə deyirlər?

– Atın balası bir yaşına qədər qulun, iki yaşında dayça, üç yaşında qulan-ürkə, böyüyəndə madyan-köhlən adlanır. Hərgah erkək at qaçağan, kara gələn olursa ona köhlən, əgər tənbəl, yük götürməyən olursa ona yabı deyirlər.

Gün şaxıyır, uşaqlar tərləyirdilər. Nənə balalarını çadıra aparıb söhbətinə ara verdi. Soyuq qatıqaşını iki boşqaba töküb uşaqların qabağına qoydu. Ayaqqabılarını dəyişdi. Yun şalı çiyninə salıb bayıra çıxdı. Dəvələr qanqallı dərədə idi. Biri də soyuq bulağın yanında durub gicitkən yeyirdi.

Fəxrəndə qarı Arazla Afaqı səslədi. Özü ortada dayanıb hərəsinin bir əlindən yapışdı, birbaş soyuq bulağa tərəf addımladı. Qarı elə gedirdi ki, uşaqlar güclə ayaqlaşırdılar.

Bulağa çatıb nəfəslərini dərəndən sonra nənə dedi:

– Boynu əyri, caydaq, gicitkəni kökündən qoparıb yeyən heyvana dəvə deyirlər.

Qardaşla bacı birinci dəfə idi ki, bu cür yekə və yöndəmsiz heyvana rast gəlirdilər. Onlar dəvənin qıçına, dizinə, ayağına, belinə, ağzına, dodağına baxır, quyruğuna nəzər salırdılar. O qədər heyran olmuşdular ki, nənələrinə sual verməyi belə unutmuşdular.

Fəxrəndə qarı nəticələrinin maraq içində olduğunu görüb bir az dayandı. "Qoy əməlli baxsınlar. Uşaqlar hər şeyi bilməlidir. Təbiətə həsrət, heyvana tamarzıdırlar. Bulaq suyu dillərinə dəyməyən, ayaqları şehdə yuyunmayan uşaqların ürəyi təzələnərmi? Üzünə yağış çırpmayan, dodağını ayaz çatlatmayan, sifətini şaxta qovurmayan uşağın canı sağ olarmı?" – deyə nənə düşünürdü ki, Afaq dilləndi:

– Fəxri nənə, dəvənin balalarından danış.

– Dəvənin balasına köşək, iki yaşında olanda daylaq deyirlər. Üç yaşına adlayandan sonra nər-maya, lök-arvana, buğur-haçamaya, balxımaya-göyün olur.

Arazla Afaq nənələrini maraqla dinləyirdilər.

– Dəvə çox güclü heyvandır, – deyə nənə söhbətinə davam etdi. – Ən ağır yükləri götürüb uzaq səfərə aparır. Dəvənin boyu çox hündür olduğundan onu minmək və ya yükləmək üçün əvvəlcə yerə yatırdırlar. Dəvə çox dözümlü olur, bir həftə ac-susuz yol gedə bilir. Dəvənin yunu ən qiymətli məhsuldur. Bundan toxunan şal, hazırlanan parça bahalı sayılır. Qədim zamanlarda uzaq ölkələr bir-biri ilə dəvə karvanları vasitəsilə ticarət edirmişlər. Başqa heyvanlara nisbətən dəvənin quyruğu gödək olur, heç vaxt uzanıb yerə dəymir.

Dəvə bulaqdan uzaqlaşdı. Uşaqlar su içmək istəyəndə nənələri dedi:

– Əvvəlcə əl-üzünüzü yuyun, sonra için.

Uşaqlar əllərini suya vuranda diksindilər. Qayanın altından gələn su çox duru, olduqca soyuq, dedikcə dadlı idi. Onlar suyu doyunca, birnəfəsə içə bilmədilər. Dişləri göynədi. Ara verə-verə içdilər.

– Fəxri nənə, bizi gəzməyə apar da, – deyə Afaq mızıldayanda, Araz bacısının sözünə qüvvət verdi:

– Fəxri nənə, bu gün yaxşı gündür, gedək gəzməyə.

Nənə nəticələrini sakitləşdirdi:

– Qayıdaq çadıra, nahar eləyək, sonra sizi baldırqanlı dərəyə aparacağam...

## EYVAZIN YAZISI

Müəllim şagirdlərə tapşırdı ki, meyvə, tərəvəz, göyərtilər haqqında bildiklərini yazıb bazar ertəsi gətirsinlər. “İstəyirik məktəbin “Təbiət guşəsi”ni zənginləşdirək” – dedi.

Eyvaz evə fikirli gəldi. Anasına bir söz deməyib, paltarını dəyişdi. Taxtın üstündə uzanıb xəyala daldı...

Eyvaz kənddə doğulmuş, on bir yaşına qədər kənddə böyümüşdü. Seyrangahı meşələr, gəzdiyi güneylər, oynadığı bağlar olmuşdu.

Babası yaxşı təsərrüfatçılardan sayılırdı. Həyətində əkib-becərdiyi göyərti, meyvə, tərəvəzlərin hamısı Eyvazın bugünkü kimi yadın-

dadır. Nənəsi yaz girəndən payız çıxana kimi göyərti yığıb qurudar, müxtəlif xörək və bişmişləri pencərdən hazırlardı. Göyərtilər və pencərlər bir-bir Eyvazın gözləri qabağından ötür, hərəsinin dadı indi də damağına dəyirdi.

Boş vaxtında kinoya getməyi xoşlayan Eyvaz bu gün sahilə çıxıb bir müddət gəzdi və xeyli fikirləşdi. Bağlarda hasilə gələn, meşələrdə yetişən meyvələri təkrar-təkrar xəyalından keçirdi. Cır meyvələrin bir neçəsini çətinliklə xatırladı. Göyərtilərin hamısı yadına düşdü. Pencərləri fikirləşəndə xəyal uzandı. Pencərlər çox, adları müxtəlif idi. Çox fikirləşməkdən bir şey çıxmaz. Oturub yazmaq, hamısını kağıza köçürmək lazımdır. Yoxsa bəzilərini unuda bilərəm, deyərək evə qayıtdı.

O, adi siyahı tutmadı. Təkcə meyvələrin, tərəvəzlərin, göyərtilərin adını yazmaqla canını qurtarmadı. “Biz nələr yeyirik” sərlövhəli yazı birmil dəftərin dörd vərəqini tutmuşdu... Dörd saatdan artıq vaxt aparan yazını Eyvaz istirahət günü təkrar nəzərdən keçirib qəzetin arasına, sonra da portfelinə qoydu. Eyvaz yazmışdı:

“Babam kənddə yaşayır. Kolxozun bostançısıdır, həyətində də bağçası var. İlin bütün aylarında babamgildə meyvə, tərəvəz, göyərti olur. Bəzən təzə, bəzən qurudulmuş bu nemətlər mənim çox xoşuma gəlir. Nənəm hər il bizə cürbəcür mürəbbə və şoraba göndərir. Dörd-beş xırda torbanı quru göyərti və pencərlə doldurub gətirir. Mürəbbələrin və şorabaların hamısı babamgil yaşayan torpaqda əmələ gəlir.

Əvvəlcə bostandan başlayıram. Aylıq turpla, altıaylıq turp rənginə və iriliyinə görə fərqlənir. Aylıq turp qırmızı, altıaylıq turp isə ağ olur. Kalış soğan göy vaxtı yeməlidir. Baş soğan çox qalır, yeməyə də yarayır, bişmişə” də. Kartofla kök ilboyu işlənir. Təzəsi köhnəsinə qarışır. Babam kartofu ayrı, kökü başqa quyuda saxlayır. Bayramların hamısında sovqatımızı yollayır. Kələmlə pomidor ən çox əkilən və işlədiləndir. Təzəsi də kara gəlir, şorabası da yeməli olur. Kələm dolması ilə pomidor çığırtması kimin xoşuna gəlməz? Badımcanla sarımsaq bir-birinə oxşamasa da, bərk ayaqda dostlaşırlar. Badımcan şorabasına sarımsaq salınmasa nə dadı olar, nə də çox qalar. Badımcan dolmasının üstündən qarpız yemək babamın adətidir. Bostandakı bilərcin və sineyvaz adlandırılan qovunlara baxmaq üçün iki göz azlıq eləyir. Sarı şamamaların xoş ətri burnumdan getmir. Baldan şirin qovunla axtarma motal pendirini dura-dura yeməkdən nənəm həzz alırdı.

Göyərtilərlə pencərlər barəsində yazmaqdan qabaq deməliyəm ki, kənddə olanda bunların hamısından dadmışam. Bəzilərini çiy-çiy, bəzilərini bişmiş, bəzilərini də xörək halında yemişəm.

Quzuqulağını, gicitkəni, quşquyruğunu, yemliyi, xaşxaşı, gündə neçə dəfə yemişəm. Quzuqulağı ilə gicitkəni bir-birinə qatıb üstünə duz səpir, sonra ovcumda ovub yuxanın arasına qoyub yeyirdim. Quzuqulağı ilə gicitkəndən əla kətə, ləzzətli kükü də bişirmişdik. Unlucadan, nanədən, yarpızdan hazırlanmış qatıqlı aşla dovğanı hər kəs yeməyibsə, ağzının ləzzəti yoxdur. Şomu, qırxbuğum kətə üçün yararlıdır. Üstünə camış qatığı töküb yuxa ilə yeyəndə dadından doymaq olmur. Kəklikotu qurutmayan arvadı kənddə lağa qoyurlar. Ağartılı xörəklərin və qaşıq bişmişlərinin hamısına nənəm qurutduğu kəklikotudan səpib süfrəyə qoyanda otağımızı ətir bürüyürdü. Əməköməci ilə qoyunqulağı babamgilin həyətlərində bitərdi. Qazayağı yoncalıqlarda olardı. Hər üçünü nənəm döşlüyünə yığıb gətirər, yuyub qazana basar, qaynadandan sonra sıxar, qovurub bizə verəndə deyərdi:

– Bala, hər tikəmin bir düşəri olur. Nə versəm yeyin.

“Qara su” adlanan bulaqda bitən qıjı qışda da, yazda da gömgöy olur. Süfrələrə yaraşıq verən bu pencəri babam pendirlə çörəyin arasına qoyub iştaha ilə yeyəndə kənardan baxanların tamahı düşərdi. Yayda babam tez-tez mənə cacıq gətirər, nə cür soyulub yeyilməsini də öyrədərdi. Tər vaxtı yediyim cacığın xırtıltısı hələ də yadımdadır.

Babamın qoruduğu bostanda lobya, maş, gülül, noxud, mərcimək də hasilə gəlir.

Kolxozun buzovunu otardığım vaxt göbələk də yığardım, donbalan da. Göbələk yazda da olur, payızda da. Donbalan bəzən hər il olur, birdən də üç il dalbadal bitmir. İkisi də yeməlidir. Ələlxüsus qovurub üstünə yumurta çırpandan sonra...

Babamın həyətində yeralması da bitir, günəbaxan da, qarğıdalı da. Qarğıdalı ilə günəbaxan yayda bitir. “Yeralmasının üstünə qırov düşməsə başını kəsməzlər”, – deyə babam payızın axırlarında şiv qalxmış budaqları kəsər, bir həftə sonra qazıb yeralmalarını çıxarar, uşaqların hərəsinə birini “nübar eləyin” – deyə verər, qalanını quyuya töküb qış üçün saxlardı. Alma dadı verən bu bitki həm kökü, bir az da çuğunduru xatırladır.

Babamın bağçasındakı ağacların hamısını tanıyıram. Kəndimizin qabağından axan çaydan adlayıb bir az yuxarı qalxandan sonra qalın meşəyə girirsən. Ağaclar var ki, başına baxanda papağın düşür.

Bağçamızdakı meyvələrin hamısına babam peyvənd, meşədə bitənlərə cır deyərdi. Peyvəndlər iri, dadlı, cırlar kiçik, turş olur.

Bağçamızdakı almalar cürbəcürdür. Orasını da deyim ki, babamgilin kəndi meyvəçiliklə məşğul olmur. O səbəbdən meyvələrin növü barədə məlumatım azdır.

Qızılarmudla sarıgilas, iri gilənarla peyvənd, zoğal, gülöyşə narla kəhrəba heyva həyətin zinətidir. Başqa ağaclara atlanmış qaraşirə, keçiəmcəyi, hazzarı üzümü ilə xurma əzgildən ayrıldığım illəri ömrümdən saymıram. Sarı, qırmızı, göy alçalar, yetişdikcə rəngi dəyişən gavalılar, kətan öynək cövüzlər, nazikqabıq fındıqlar, odun üstünə atanda bağırtısı uzaqdan eşidilən şabalıdlar indi də yadıma düşəndə mənə ləzzət verir.

Şah tut, qara tut, bidanə tut, xar tut! Hərəsinin dadı başqa, rəngi özgədir. Meşələrin hörmətli qonağı sayılan qaragöz böyürtkənlər, qırmızıyanaq çiyələklər, moruqlar, xallı qarağatlar, yemişanlar nə qədər dadlı, ləzzətli və yaraşıqlı olurlar.

Babamın xüsusi otaqda yetişdirdiyi sarı limon, portağal, mandarinlər! Sizdən yana həm nigaranam, həm də bərk qəribsəmişəm.

Güneylərdə qızaran mərməriklər, həmərsinlər! Tamarzı qalmaqdan təngə gəlib, bu il özümü yanınıza salacağam!..

Meyvələr, tərəvəzlər, göyərtilər barədə bildiklərim bu qədərdir. Yaxşı olar ki, yay tətili vaxtında hər bir şagird bacardığı qədər nümunə gətirib təbiət guşəsinə qoysun".

Müəllim Eyvazın yazısını oxuyandan sonra divar qəzetinin növbəti nömrəsində çap etdirdi. Şəklini isə yazının böyrünə yapışdırdı.

## MİR CƏLAL
## (1908-1978)

# GÜLGƏZ

1

Gülgəz əlindəki badam çubuğunun puçurlarını təmizləyə-təmizləyə otağa girdi.

Alı baba nəvəsinə acıqlandı:

– Tullasana çölə, çubuğu nə üçün yuxarı başa keçirirsən?

Gülgəz dedi:

– Müəllim istəyib, lazımdır.

– Neynir müəllim? İndi də köhnə zəmanə deyil ki, uşaq döyə.

– Dərs öyrədəcək.

– Çubuqdan nə dərs?

– Peyvənd edəcəyik!

Peyvənd adı gələndə Alı babanın baxışı və səsi dəyişdi.

– Onu mənə görüm! Peyvənd?!

O, yumşaq divandan qalxıb irəli, nəvəsinə sarı gəldi. Badam ağacından kəsilmiş çubuğu əlinə alıb, diqqət etdi, sonra Gülgəzin üzünə baxdı.

– Bu peyvəndə yaramaz, bala! Bir az naziyi gərək ola. Puçurlarını da tökübsən, bunun harası göyərsin? Alı baba bir az susdu. Sanki dediklərinin cavabını gözləyir, yaxud məsləhətinin bağışladığı təsiri yoxlayırdı. Nədənsə bir də təkrar etdi:

– Yox, bu peyvəndə yaramaz!

Gülgəz babasına nə isə demək istəyirdi. Ala və girdə gözləri ilə bir-iki dəfə altdan-yuxarı baxdı, dinməz-söyləməz çubuğu alıb, sumkasının yanına, küncə qoydu ki, səhər məktəbə gedəndə yadından çıxmasın.

Gülgəz niyə dinmədi? Ona görə ki, babasının dediklərinə inanmadı.

Güman etməyin ki, Gülgəz babasına inanmırdı. Yox, Gülgəz Alı babaya inanır, ona hörmət edir, onu bərk sevirdi. Alı baba desə ki, bala, bu axşam oynamağa getmə, soyuq dəyər, Gülgəz yerində oturar. Alı babanın başı ağrıyanda Gülgəz də məyus, kefsiz olar, bir kəsə

qoşulmaz, babasının yanını kəsər, həkim çağırar, aptekə qaçar, ona qulluq edər. Hərdən də balaca və sərin əllərini onun ağarmış başına qoyaraq deyər: “Baba, yaxşı olmuşsan, daha ayağa dura bilərsən”.

Bəs Gülgəz Alı babanın sözünə niyə inanmadı? Bəlkə o, peyvənd işini babasından yaxşı bilir. Yox, bu da deyil. Gülgəzin inanmamağında, əslinə baxsan Alı babanın özü müqəssirdir. Gülgəzin indi on bir yaşı var. Gözünü açan gündən evdə Alı babanı görüb, onun mehriban qucağında, əlində böyüyüb, onun nəsihəti, tərbiyəsi ilə, əlindən dadlı meyvələr, bahalı qəribə şirnilər yeyərək, gətirdiyi peşkəşlərdən sevinərək fərəhlənib böyüyübdür.

Gülgəzin atası “M.F.Axundov” gəmisində çalışardı. Həftənin çoxunu dənizdə, su üzərində səyahətdə keçirərdi. Evə gələndə də Gülgəz ona az yovuşardı. Alı baba özünü uşağa elə sevdirmişdi ki, nə ata, nə ana yada düşərdi. Uşaq babası ilə oynayar, babası da uşağı ilə əylənər, qocalıq günlərində, sanki uşaqlıq həyatını yenidən təkrar edərək, ləzzət alardı.

Gün olmazdı ki, Alı baba onun yanına əliboş gəlsin. İçəri girən kimi əlini gödəkcəsinin cibinə salardı. Gülgəz zirək bir pişik balası kimi, onun üstünə dırmaşar, cibindəkini götürmək istərdi. Baba əlini möhkəm saxlar, Gülgəzin zənnini yoxlardı:

– Tap görüm, ovcumda nə var?

Gülgəz üzünə tökülən, gözünü örtən saçlarını kənar etmək üçün başını silkər, gülə-gülə deyərdi:

– Konfet!

– Yox!

– Şokolad!

– Olmadı!

– Noğuldurmu?!

– Tapmadın!

– Fındıq?

– Deyil!

– Bu nədi axı?..

Uşağın intizarına dözməyən kişi bir də görərdin əlini ehmalca cibindən çıxardı, ovcunda bir sığırçın balası cividlədi.

Gülgəz quşu bağrına basanda, sevincindən gözləri parıldar, rəngi pul kimi qızarar, deməyə söz tapmaz, yoldaşlarını çağırar, şirin-şirin

gülərdi. Alı baba uşağın başını tumarlar, ömrü boyu heç şeydən duymadığı bir nəşə alardı.

Bəs Gülgəz Alı babanın bugünkü sözünə niyə inanmasın?

Gülgəz məktəbə gedəndən bəri kitaba çox meyl bağlamışdı. Babası ilə oynayanda da kitabı əlindən qoymazdı. Barmağını kitabın vərəqlərinə qoyub soruşardı:

– Baba, bu nə hərfidir?

Alı baba məyus cavab verərdi:

– Bilmirəm, qızım!

– Baba, bu sözü oxu da!

Baba başa salardı:

– Qızım, mən savadsızam, dərsdən başım çıxmaz. Belə şeyləri sən məndən yaxşı bilirsən.

– Niyə savadsızsan, ay baba?

– Çünki bizi oxutmayıblar. Köhnə zamanın üzü qara olsun. Yaxşıca kor qoydu babanı...

Babasının bu sözlərini eşidəndə Gülgəz də qüssələnərdi. Uşaq babasının gücsüzlüyünü ilk dəfə görər, ilk dəfə duyardı. Dərs soruşduğuna, babasını qüssələndirdiyinə peşman olardı və ondan bir daha heç nə soruşmazdı. Dərsi çətinə düşəndə qonşusunu, pioner Qurbanı çağırardı.

O idi ki, babası badam çubuğundan, peyvənddən danışanda Gülgəz inanmadı. İstədi babasına cavab qaytarsın, desin: “Sən oxumamışsan, nə bilirsən?” Lakin hörmətini saxladı. Heç nə demədi. Ürəyində qət etdi ki, qoy nə deyir desin, sabah mən çubuğu müəllimə verərəm, özü baxar, görüm nə deyər.

Gülgəz elə də etdi. Sabah portfel qoltuğunda, badam çubuğu əlində birbaş müəllimlər otağına, Məhiş müəllimin yanına getdi.

– Müəllim, çubuq gətirmişəm ki, peyvənd eləyək! – dedi.

Məhiş müəllim çubuğu diqqətlə nəzərdən keçirdi, gülümsündü:

– Bunu kim kəsib?

– Özüm.

– Tumurcuqlarını kim yolub?

– Mən.

– Çox səliqə ilə təmizləmişsən, amma nahaq iş görmüşsən. Qızım, bil, tumurcuqsuz qabıqdan edilən peyvənd tutmaz! Bəs o haradan

göyərsin? Kəsib calasaq bu qabıq təzədən tumurcuq gətirməz. Gərək heç olmasa bir-iki tumurcuq qalaydı. Özü də bu canlıdır, hələ ağacı bərkiməmiş budaqlar olur, tutub belə əyirsən ha, onlardan kəsmək lazımdır.

Gülgəz gördü ki, müəllim də Alı baba deyənləri deyir, soruşdu:

– Müəllim, babam sizinlə danışmayıb ki?

– Yox, nə barədə?

– Elə bu barədə babam nə deyib?

Müəllim bir şey duymadı:

– Yox, – dedi, – mənə bir şey deyən olmayıb. Necə bəyəm?

Gülgəz: "Heç" – deyib otaqdan çıxdı, badam çubuğunu qırıb, küçəyə atdı.

2

Gülgəz düşünürdü ki, babam oxumaq bilməsə də yəqin məktəbə getmişdir. Ona haradasa dərs veriblər. Dərs verməsəydilər, müəllim bilənləri necə bilərdi? Anasından soruşdu:

– Babama kim dərs verib?

– Heç kəs, baban harada oxudu ki?

– Oxumayıb bəs haradan bilir?

– Nəyi bilir, ay qız, gücnən əlif-bey bilir.

– Əlif-bey yox, ey, botanika!

Anası uşağın qolundan tutub, babasının yanına apardı.

– Özün cavab ver buna, gör nə soruşur?

– Baba, bəs sən deyirdin ki, savadım yoxdur.

– Yoxdu da, qızım, bəs savadım var, adımı niyə çətin yaza bilirəm?

– Yoxdu, bəs botanikanı nə bilirsən?

Alı baba duruxdu.

– Nə, botinka?

– Botinka yox ey, botanika.

– Botanika nədi?

– Peyvəndi nə bilirsən bəs?

Alı babanı gülmək tutdu. Uşağın başını tumarladı, başa saldı:

– Peyvəndin savada nə dəxli, qızım! Peyvənd mənim sənətimdir. Saçımı, saqqalımı bağ-bağça işində ağartmışam, onu da yaxşı bilməyim? Onu da mənə çox görürsən? Bu bizim ata-baba peşəmizdir. Gözümüzü açandan bağ-bağçada böyüməmişikmi? Düzdü, kağızdan, kitabdan başım çıxmır, ancaq görürsən o uzun ağacı? – Alı baba Gülgəzi pəncərənin qabağına çağırdı, nəhayət, barmağını bağçaya tərəf uzatdı: – Görürsən o uzun ağacı? Qələmdir. Həyətdə ondan ucası yoxdur. Dörd verstlikdən görünür. Ucalığına baxma, ancaq boy-buxunu var. Uzandıqca uzanır. Çiçəyi yox, meyvəsi yox, yarpağı acı, mal yeməz, çubuğu pis, dirəyi davamsız. Di gəl onun forsuna bax! Boynunu həmişə dik tutar. Başqa ağaclara gün vermək istəməz. Amma yanındakı xırda ağacı görürsən, badam ağacıdır. Qıraqdan kola oxşayır. Altıca yaşı var. Yaz açılandan payız qovuşana qədər həmişə bar verir. Çağalasını yemisən, yetişəndə özü qabıqdan çıxır, ağacı silkən kimi badam tökülür. Qabığı da karsız deyil, yaxşı qov hazırlamaq olur. İçindəki badam başdan-ayağa yağdır. Sındırıb iç eləyirsən, qabığını da peçdə yandırırsan, daş kömür kimi közü düşür. Badam yarpağı qoyun-quzu üçün yağ-piydir. Ətirli çiçəyindən arılar bal əmir, çubuğu zoğaldan möhkəm olur, gövdəsi yapışqan verir ki, idarələrə lazım olur. Kölgəsi də sıx, bulaq başı kimi sərin!..

3

Müəllim bar verən ağaclardan danışanda Gülgəz yerində narahat idi. O, müəllimin sözünü kəsmək, babasından öyrəndiklərini demək istəyirdi. Gülgəz bununla özünü göstərmək, biliyi ilə lovğalanmaq istəmirdi. O, xəyalında tutmuşdu ki: "Babam deyənləri danışaram, görüm müəllim təsdiqləyəcək ya yox..."

Ancaq müəllim həvəslə danışır, uşaqların hamısı diqqətlə qulaq asırdı. Gülgəz danışa bilməyəcəkdi. Danışsa da onu dinləyən kim idi? Ürəyində çox götür-qoy elədi. Sağa baxdı, sola baxdı, danışmağa imkan tapmadı. Müəllim, sözünü gətirib badam ağacına yetirəndə Gülgəz özünü saxlaya bilmədi. Yerindən qalxdı, heyrət göstərən bir ahənglə soruşdu:

– Müəllim, bunlar hamısı kitabda yazılıb?

Gülgəzin bu gözlənilməz və qəribə sualını eşidən bütün uşaqlar ona tərəf döndülər. Uşaqlar ona, o, müəllimə, müəllim də ona baxırdı. Lakin müəllim sözünü dayandırmadı. Danışa-danışa, yavaş-yavaş Gülgəzin skamyasına yanaşdı. Hamının gözü müəllimdə idi. Gülgəzə nə deyəcəyini gözləyirdilər.

Müəllim dedi:

– Bəli, Gülgəz, bunların hamısı kitabda yazılıbdır. Ancaq adam dərs arasında sual verməz. Qoy mən qurtarım, sonra barmaq qaldırarsan, istədiyin sualı verərsən. Elə deyilmi?

– Bəli, elədir.

Gülgəz bir az utandısa da, müəllimin sözlərini sakitcə dinlədi. Ürəyində suallarını düzəltdi, dərsin axırını gözlədi.

Müəllim danışandan sonra kitabları açdırdı, şəkilləri göstərdi. Bir şəkil böyüdüb divara vurmağı sinif nümayəndəsinə tapşırdı. Sonra əllərinin tabaşirini çırpıb dayandı. Üzünü uşaqlara tutub dedi:

– İndi kimin sualı var?

Gülgəz söz alıb ayağa qalxdı:

– Müəllim, deyirsiniz kitabdadır. Bunların hamısını babam danışır.

Müəllim maraqlandı:

– Danışanda nə olar! Daha yaxşı yadında qalar.

– Yox, müəllim babam kitab oxuya bilmir bəs siz deyənləri haradan bilir?

– Baban kimdir?

– Alı baba.

– Alı baba nəyi bilir?

– Ağacları, gülləri. Peyvənd də eləyə bilir.

Gülgəzin sualı müəllimin xoşuna gəldi:

– Qızım, baban oxumaq bilməsə də təcrübəlidir. Alı babanın neçə yaşı var?

– Nə bilim, müəllim, altmışdan çox.

– Altmış yaşında kişi dünyagörmüş adamdır. Bağ işində, görünür, təcrübəsi çoxdur.

Gülgəz bir də soruşdu:

– Dərs verməsələr nə biləcək?

– Qulaq as, bala, dərs göydən düşmür. Kitabı, dərsi yazan da bilikli, təcrübəli adamlardır. Bağbanların çoxu savadsız idi. Əkinçilərdən

eləsi var məktəb görməyib, yazı bilmir, amma əkin işini aqronom kimi bilir. Nə üçün? Təcrübə sayəsində, öz zəhməti sayəsində, işə diqqətlə göz qoyması sayəsində. – Müəllim üzünü uşaqlara tutub dedi: – Biz zəhmətlə biliyi, elmi ayırmırıq. Çünki biz zəhmətlə dəyişən, insan əməyilə düzələn dünyanı öyrənirik. Uşaqlar, bəzi qocalar savadsız olsalar da, uzun ömür sürüblər, təcrübə eləyiblər. Mən bir arı saxlayan tanıyıram ki, kitab yazanlar ondan öyrənirlər. Aqronomlar uzaq şəhərlərdən onun yanına gəlirlər. Amma kişinin özü oxumaq bilmir. Otuz il arılara qulluq eləyibdir. Onların xörəyini, səsini, yaşayışını, şan bağlamalarını ovcunun içi kimi bilir, uzaqdan arıların uçuşuna baxan kimi deyir: “Bunların anası naxoşdur”. Nədən bilir? Təcrübədən, bir işin dalında sümük sındırmaqdan! Gülgəzin babası da elə, bağ işində çalışmaqdan botanikanı təcrübə yolu ilə bilir. Elə deyilmi?

Gülgəz razılıqla başını tərpətdi:

– Bəli, müəllim.

Bu dərsdən sonra Alı baba Gülgəzin gözündə daha da böyüdü: indiyə kimi uşaq, Alı babanı ancaq bir baba kimi tanıyırdı. Baba səhər zənbili götürüb bazara getməlidir; günaşırı həyət bağçasında, ləklərin arasında qurdalanmalıdır – Yer belləməli, tənək kəsməli, ağac gövdələrinə dərman vurmalıdır; axşam ya şəhərə çıxıb, nəvəsinə çərəzdən-zaddan almalı, ya eyvanda oturub, evə gələn qonaqları qarşılamalı, çubuq çəkməli, söhbət etməlidir; bayramda hədiyyə gətirməli, qış gecələrində nağıl danışmalıdır. Alı baba budur, bunun üçün yaranmışdır.

İndi Gülgəz babasını ayrı cür tanıyırdı.

Bu alçaqboy, ağsaqqal qarapaltar kişiyə baxanda Gülgəzin yadına müəllim, məktəb, botanika dərsi düşürdü. Gülgəz onun zahirində dərsdən heç bir əlamət görmürdü. Ancaq onun ağacları göstərən şəhadət barmağı, bel, qayçı, mişar tutan bərk əlləri, gəlin kimi bəzənmiş həyət bağçası, babanı müəllimə, kitaba yanaşdırırdı.

Alı baba əlində bel arxın qırağında dayananda Gülgəzin gözünə qədim, qalın və qiymətli bir kitab kimi görünürdü. Bu kitabda öyrənməli, götürməli çox şeylər var. Bunları seçib çıxarmaq, yeni əlifbada – yeni və təmiz xətlə dümağ, düz cızıqlı dəftərlərə yazmaq lazımdır.

Bu məqsədlə Gülgəz babasının yanında oturanda, həmişə torpaqdan, ağacdan, bitkilərdən söhbət salardı. Alı baba isə böyük həvəslə danışardı.

# AQİL

1

Yay tətilinin sonuncu günü idi. Yüz minlərlə məktəbli kimi Aqil də yır-yığış edib şəhərə, dərsə gəlməyə hazırlaşırdı.

Babası onun bir saat dərsdən qalmasına razı olmasa da bu gün, məhz indi bağın yaxşı vaxtında, ağaclarda meyvənin çıraq kimi yandığı, yoldan keçəni çağırdığı bir zamanda, yollarda maşınların təkər-təkərə verdiyi, adamların axışıb gəldiyi günlərdə əziz nəvəsinin bağdan getməsinə heyifsilənirdi.

Hər səhər Aqil əncir ağaclarına yanaşanda babası budaq başlarından qopardığı yumşaq və dolu əncirləri ona verərdi. Uşaq yedikcə kişi, yaşına yaraşmayan bir zirəkliklə budaqlar arasına girib yeni-yeni meyvələr dərirdi. Aqil özü ağacdan dərmək istəyirdisə də babasının təklifindən macal tapmırdı:

– Bunu qoy ağzına, sabahi əncirdir! Bu da cavan ağacın ilk nübarıdır, bir bax!

İki gün idi ki, Aqilin şəhərə getməsinə hazırlıq görülürdü.

Yaşı yetmişdən ötmüş Murad kişi ömrünü ancaq burada, geniş üfüqlü, günəşli, küləkli sahil bağlarında, qum üstündə, ağac altında keçirmişdi. Bu bağı oğlu üçün yetirmişdi.

Yeganə oğlu Tapdığın cəbhədən ölüm xəbəri gələndən sonra kişinin qəddi əyilmiş, beli bükülmüşdü. Şillə dəymiş adam kimi səndələsə də gözü küçə ağzındakı qoca çinara sataşanda toxtamış, doğrulmuş, dərin bir köks ötürüb demişdi:

– Ya mədəd!

Həmişə bu çinara baxanda Murad kişinin qəlbinə bir təskinlik gəlirdi. Gözünü açıb, çinarı həmin bu əzəmətdə görmüşdü. Çinar ona qüvvət, təmkin, əbədiyyət heykəli kimi idi. O, arxasını qocaman ağacın sərt gövdəsinə söykəyib oturanda ürəyi dağa dönərdi.

O, Tapdığa olan məhəbbətini indi şəhər məktəbinin dördüncü sinfində oxuyan yeganə nəvəsi, əziz, nakam oğul yadigarı Aqilə bağlamışdı. Murad kişi Aqili öz aləmində bəsləyir, böyüdür, oğlunun yerinə qoyur, onun toyunu arzulayır, taleyindən xahiş edirdi: "Mənə möhlət ver!"

Elə bilirəm ki, ailədə Murad kişi kimi tək qalan, gəncliyində dul olan əsgər arvadı Məsmənin Aqilə necə və nə dərəcədə məhəbbət bəslədiyini təsvirə ehtiyac yoxdur. Bunu əziz oxucular gözəl bilirlər.

Övlad sarıdan Murad kişinin ürəyi əvvəldən dağlı idi. Evlənəndən iki il sonra doğulan bir qız uşağı iyirmi günlüyündə göyərib keçinmişdi. Beş il sonra doğulan Tapdıq sonbeşik oldu. Uşaq evdə tək böyüdü.

Bəlkə buna görə, məhz bir oğlu olduğuna görə Murad kişidə övlad iştahası günü-gündən artıb alovlanırdı. Qapılarda dəstə ilə uşaqların, qardaş-bacı haray salıb oynaşdığını görəndə dünya gözünə cənnət gəlir, halı birtəhər olurdu, yeməyib-içməyib uşaq əyləncələrinə tamaşa etmək istəyirdi. Murad üçün ən təəccüblü bu idi ki, bəzi adamlar, əksinə, uşaqdan bezir, tənhalıq arzulayırdılar. Bir dəfə qonşusu dəmirçi Hümmətin: "Cığ-vığdan təngə gəldim!" – deyə ağac alıb uşaqları qabağına qatdığını, toyuq-cücə qovan kimi qovduğunu görəndə Murad kişi tanrısını danlamışdı:

– Şükür kəraminə, – demişdi, – özün bilən məsləhətdir! Ancaq gör, uşağı aparıb kimə verirsən. Aparıb düjünlə verirsən belə dəli-divanələrə, məni də ürəyi əsə-əsə qoyursan təkcə ümidinə! Vermirsən mənə cücə kimi yığam qanadım altına, hərəsini bir dillə oxşayam, hərəsindən bir kam götürəm. Dünyada nə qəribə işlər var!

– At, olanda ot olmur, ot olanda at!..

Uşaq səsi çıxmayan ev nəyə lazımdır! Dünyanın neməti yığılsın süfrəyə, ona ki, körpə əli uzanmadı, heç! Götür yığışdır! Beşik olmayan evə min bəzək vur, qurudur ki, quru; min peç yandır, soyuqdur ki, soyuq! Uşaq olmayan evdə istəyirsən yüz Qaryağdı oxusun, yüz Qurban çalsın, dərd əskik deyil! Bağ-bağatın bəzəyi quşdur, ev-eşiyinki uşaq!

Mən beləyəm, di gəl uşaq qismət olmur. Ay fələk, gərdişindən baş açmaq olmur, qərəz...

Arvadı Murad kişiyə nəsihət elərdi:

– Ay Murad, çoxun xeyrindən artıq ziyanı var. Atalar deyib: bir olsun, pir olsun. Tapdığı böyüdüb məqamına çatdır, bəsdir. Sən heç naşükürlük eləmə!

Ata-ana bütün səylərini qoyub Tapdığı böyütdülər. Onun ad günü, qonaqlığı, bayramı, bayramlığı əskik olmazdı. Dəmiryol məktəbində oxuyanda onun hər xərcini hökumət versə də, atası beşdə-üçdə bir dolu dəsmalla oğlunun yanına gedərdi.

Tapdıq da əsil çıxmışdı. Dərsdən başqa bir fikri yox idi. Müəllimlərin, müdirin istəklisi idi.

Texnikumun 3-cü kursuna keçəndə Murad kişi otağının birini, qüvvəsinə görə, döşəyib adını "kabinet" qoymuş, arvadına tapşırmışdı: "Bura qonaq-monaq buraxma!"

Texnikumu bitirən kimi Tapdığı işə təyin etdilər. Atası tədarük görüb onu bir qarabağlı qızı ilə – Məsmə ilə evləndirdi.

## 2

Aylar, illər bir-birini təqib etməkdə idi. Zaman axar su kimi əvvəli-axırı görünmədən gəlib keçir, həyat yollarında hərdən bir cür iz buraxır, hərdən bir cür səs salırdı. Tapdıq Tbilisidə yollar institutunu əla diplomla bitirmiş, Bakı dəmir yolunda mahir maşinistlərdən olmuşdu. Yerlilərdən yetişən cavan mütəxəssislərin xatiri hökumət yanında daha əziz idi. Komsomolda tərbiyələnmiş Tapdıq, yaşına nisbətən tez və çox tanınmışdı. "Murad oğlu Tapdıq" deyəndə görürdün beş adamın dördü dilləndi: "Fəal oğlandır, ayıq maşinistdir!" Bakı dəmir yolunda elə bir tədbir yox idi ki, Tapdığın iştirakı olmasın. Çox vaxt istirahət günündə də evə qayıtmaz, atasına sifariş göndərərdi: "Konfransımız var, axşam gəlməyəcəyəm". "Qroznıya çağırıblar, nigaran olmayın", "Nümayəndə gedirəm, gələn cümə axşamı qayıdacağam!"

Murad kişi oğlundan hər dəfə xəbər aldıqda, onun adını özgələrin ağzından eşitdikdə sevinir, bütün zəhmətlərini və uzun zaman onu məşğul edən "övlad dərdini" unudardı.

1941-ci ildə bütün xoşbəxt ailələrin başından əsən bəla yeli Murad kişinin də rövnəqini pozdu. Müharibənin ilk günündən Tapdıq maşını sürüb lap qabaqlara, vuruşma gedən xətlərə apardı. Evə qısa bir məktub gəldi: "Vəzifə başına getdim. Bir müddət sizə əlim çatmayacaqdır. Can sizin, can Aqil əmanəti!"

Tapdığın bu ilk və son məktubu müharibə dövründə ondan qalan yeganə yadigar oldu.

Oğlunun ölümündən, həyatında aldığı ən ağır zərbədən sonra Murad kişinin, son və yeganə təsəllisi Aqil idi. Bu, qaraşın, irigözlü, sağlam və gülərüzlü bir uşaq idi. Səhərin gözü açılmamışdan axşama

qədər bağda cövlan vurar, quş qovar, qum içində doyunca maşın sürərdi. Onun şirin və saf səsini eşitdikcə Murad kişi ürəyində deyərdi: "Bu olmasaydı, mən çoxdan ölmüşdüm".

Kişi gizli-gizli onun yerişinə, oturuşuna, danışığına diqqət yetirir, hər dəqiqə oğlu Tapdığı görürdü.

Murad kişi bir il sərasər hər gün nəvəsini özü məktəbə aparıb-gətirdi. Bu işi nə arvadına, nə gəlininə etibar etdi. Uşağı bir saat gözdən qoymazdı. Əlinə kitab alıb pəncərə qabağında oxuduğunu, hərdən böyüklər kimi cibindən dəftərçə çıxarıb nə isə yazdığını, səliqə ilə şeylərini portfelə yığıb açarla bağladığını, pioner qalstukunu anasına ütülətdiyini, gedəndə ədəblə "sağ olun!", gələndə mərifətlə "salam!" dediyini gördükcə kişinin gözləri yaşarırdı. Özü də bilmirdi ki, bu nə yaşdır!

Yayın isti günlərindən birində Aqil məktəbdən qayıdıb portfelini pəncərəyə qoydu. Əlində şüşə parçası həyətə qaçdı. Anasından kibrit alıb, tut ağacının altında küləş yandırmağa başladı.

Ağacları böcəkdən təmizləyib yorğun halda kölgədə oturan Murad kişi Aqilə baxırdı.

– Nə eləyirsən, bala, yanğın salarsan! – deyə o dilləndi.

– Yox, baba, şüşəyə his verirəm.

– Nəyinə lazımdır?

– Hisli şüşə ilə günə baxacağam. Gün tutulacaq! Aqilin sözləri Murad kişiyə qəribə gəldi. Ona görə qəribə gəldi ki, Murad kişi belə şeylərə əvvəldən inanmazdı. Hər kəs ona desəydi ki, filan zaman gün ya ay tutulacaq, ağır cavab verərdi:

– Sən nə bilirsən, göydən gəlmisən?

İndi, belə söhbəti öz nəvəsindən, dizi üstündə əzizləyib böyütdüyü uşaqdan eşitmək Murad üçün gözlənilməz idi.

Aqil şüşəsini hazırlayandan sonra çay içməyə oturmuşdu ki, Murad kişi yaxına gəldi:

– Bala, – dedi, – sənin atan handa bir oxumuşlardan idi. Oxumuşdu, ancaq vacib dərsləri oxumuşdu. Parovozun allahı idi. Buxarın dilini bilirdi. Vaqonlara xod verirdi, camaatı bir saatda quş kimi şəhərdən-şəhərə aparırdı. Sən də, şükür, böyüyürsən, oxuyursan, oxu, amma sənin göydə-zadda nə işin var! Gün tutuldu, ay açıldı, nə bilim ulduz-filan... Bunlar sənin-mənim işimiz deyil. Bunlara əl atmağı sənə kim

öyrədir. Əbəs yerə belə işlərə baş qoşursan, bala! Sən uşaqsan, başını sal aşağı, dərsini oxu, bəyəm yeri qurtardın ki, üzünü göyə çevirirsən? Adama çox söz deyərlər, qulaq asma!

Aqil müəllimindən eşitdiyini demək istədi. "Müəllim" sözünü demişdi ki, kişi qışqırdı:

– Müəllim! Müəlliminə bax bunun!

– Elə demə, baba!

Aqil çox söz demək istəyirdi. Ancaq babasına cavab qaytarmaq çətin və ağır idi. O, əli ilə üzünü örtüb ağlaya-ağlaya getdi. Aqil babasının sözünü böyük dərd eləyib ağlayırdı. Sanki bu ağlamaqla o deyirdi: "Müəllimə elə demə, baba! Müəllim məni çox istəyir".

3

Onun sabahısı Murad kişi adamların damlara, ağac başına çıxıb göyə baxdığını görəndə təəccüb elədi, nəvəsini çağırdı:

– Bu nə əhvalatdır? Hardan xəbər çıxıb ki, gün tutulacaq?

– Qəzetdə də var. Müəllim öyrətdi ki, hisli şüşə ilə baxın! Baba, inanmırsan, bir gedək bax, Günəşin yarısından çoxu tutulacaq. Günorta, saat birin yarısında...

Murad kişi bu işə, gün tutulmağını dünyada bir adamın biləcəyinə inanmasa da, nəvəsinin və qonşuların belə tamaşaya çıxmasına göz yuma bilmədi. Ürəyində düşündü: "Görüm axı bu nə əhvalatdır?"

Şüşənin birini Aqildən alıb gün altına çıxdı. Üzünü Göyə çevirib baxmaq istədi:

– Məndə bəyəm göz var, görəm!

Uşaq babasını özü ilə bərabər görüb sevindi. Onlar şüşəni gözlərinə tutub baxırdılar. Murad kişi təndir çörəyi kimi yupyumru gördüyü günəşə baxıb nəvəsini danladı:

– Köz kimi yanır, günə nə olub tutula.

– Dayan bir, yarım saat sonra! – Aqil qaçıb, stol saatını gətirdi, səkinin üstünə qoydu. – Birin yarısında tutulacaq, hələ vaxtı var!

Murad kişinin hövsələsi gəlmədi. Şüşəni kənara atıb kölgəyə çəkildi. Lakin o, gözünü saatdan ayıra bilmədi. Əqrəblər günorta yerindən aşağı enib ayrılanda, adamların gözü göyə zillənəndə Murad kişi özünü saxlaya bilməyib öz-özünə dedi: "Görüm bir, bu necə işdir?!"

Aqil babasını göyə baxan görüb sevindi və ona yanaşdı:

– Bu saat tutulacaq!

Murad kişi qaşlarını çatıb diqqətini yığdı, şüşə dalından günəşə baxıb yenə bir şey görmədi.

– Bəri gəl, bala, – dedi, – belə söhbətlər çox olar. Gün tutulanda sənin müəlliminə məsləhət eləməz. Allah göstərməsin, gün tutulanda dünya bir-birinə dəyər.

– Bir dəqiqə gözlə! – deyə Aqil ona təsəlli verdi. Murad kişi şüşəni təkrar gözünə apardı. Bir neçə saniyə baxmışdı ki, Aqilin səsini eşitdi:

– Başlandı!

Murad kişi dəmirçi kürəsi kimi yanan dəyirmi od dairəsinə sağdan "xal düşdüyünü", günün qaralıb kiçildiyini aşkar görəndə gözü böyüdü, nədənsə bir udqundu, bütün vücudu ilə dikəldi; bir addım irəli çıxıb baxdı. Aqil sevincək ona göstərdi.

– Gördün, görürsən qaralan yeri! Deyəsən parçalanır, axı!

Heyrət Murad kişini elə almışdı ki, barmağını kəssəydin xəbər tutmazdı. Aqil, babasının zəif gördüyünü güman edib sözünü təkrar elədi və onun qolundan çəkdi:

– Budur ey, bu yandan bax, sağ tərəfdən...

– Murad kişi hirslə qolunu silkələdi:

– Dayan görüm!

İnanmadığı, ağlına sığışdıra bilmədiyi heyrətli hadisə, Murad kişini almışdı, yaman almışdı. Sağdan başlayıb qaralan və zərbə dəymiş uşaq siması kimi saralan, al rəngini itirən günəş get-gedə kişiyə təəccüblü və dəhşətli görünürdü. Az qala onun yarısını kəsib atdılar, qalan hissə ay parçasına oxşadı. Murad kişi bir an gözünü ayırıb yerə baxanda, yarpaqları rəngsiz, kölgələri qarışıq, yerləri alakölgə, zəfəran rənginə bürünmüş gördü və qorxudanmı, heyrətdənmi, yaxud özünü itirdiyindənmi nə isə pıçıldadı, ətrafına baxdı. Göylərin nadir hadisəsini cəsarətlə seyr edən, saatın dəqiqələrini sayan və qəzet məlumatı ilə yoxlayan on iki yaşlı nəvəsi Aqil indi ona baxır və gülürdü:

– Gördün ki... hələ tutulacaq, gəl, gəl, baba! Gör nə tamaşadır!..

Aqilin sözləri onu özünə gətirdi. O, uşağa yanaşdı, təkrar şüşəni gözünə apardı. Bir Günəşə baxdı, bir nəvəsinə, bir nəvəsinə baxdı, bir göyə.

– Ə, bunu siz hardan bilirsiniz, balam?

– Müəllim deyib!

– Müəllim hardan bilir axı?

– Kitablarda, qəzetlərdə yazılıb da!..

Murad kişi heyrətindən səssiz dayanıb nəvəsinin sevincdən işıqlanan üzünə baxırdı. İndi Günəşi də, göyü də unutmuşdu. Yanında dayanan məktəbli uşaq onun gözündə Günəş qədər böyümüşdü.

Qocanın simasını bulud kimi örtən təəccüb birdən-birə dağıldı, sifəti yaz səması kimi açıldı. Murad nəvəsini uzun qolları arasına alıb gücünü sınadı, uşağı göyə qaldırdı, parıldayan ümidinə bütün diqqət və məhəbbəti ilə baxdı. Onun mehriban səsi eşidildi:

– A qırışmal, belə işlərin də varmış!

# MİKAYIL RZAQULUZADƏ
## (1905-1984)

## ŞAHİN

### I. NƏNƏMİN NAĞILLARI

Balaca Kamal nənəsinin nağıllarını çox xoşlardı. Hələ altı-yeddi yaşlarından Kamal hər gecə nənəsinə bir-iki nağıl söylətməmiş yatmazdı. Bu nağıllar nə gözəl, nə maraqlı nağıllardı: bu nağıllarda adamlar qəribə xalçalara minib göylərdə uçardılar; elə quşlar vardı ki, qəhrəmanları qanadlarına alıb yeddiillik yolu bir göz qırpımında gedərdi. Hələ bu nağıllardakı adamlar nə igid, nə qoçaq cavanlar idi. Onlar istədiklərinə çatmamış, dincəlmək bilmirdilər. Divlərlə, əjdahalarla pəncə-pəncəyə vuruşar, hər cür çətinliyə üstün gələrdilər...

Kamal belə nağılları çox sevərdi.

Kamal hərdənbir yuxuda özünü həmin qəhrəmanlar kimi görərdi. O da zümrüd quşların qanadlarında uçar; divlər, əjdahalarla vuruşardı. Belə yuxulardan sonra o, gündüzlər də həmin qəhrəmanlardan ayrılmaz, onların xəyalı ilə yaşardı.

Kamalgilin kəndi başıqarlı dağın ətəyində idi. O, saatlarla gözünü qarlı dağların təpəsinə zilləyib tamaşa etməkdən doymazdı.

Çox vaxt Kamal buludsuz mavi göylərin dərinliyində dik başı üstündə süzüb hərlənən qaraquşlara həsrətlə xeyli baxar-baxar, özözünə deyərdi:

– Ah, nə olaydı, mənim də onlar kimi qanadlarım olaydı!.. Mən də göylərə qalxıb onlardan da ucada uçaydım!..

Bəli, Kamalın qanadları olsaydı, o da göylərə ucalıb uça bilsəydi, bu qaraquşlar kimi boş-boşuna hərlənməyəcəkdi. O, yaxşı-yaxşı işlər görəcəkdi. Divləri, əjdahaları qıracaq, adamlara kömək edəcəkdi...

Kamal nağıllardakı uçan xalçalar, qəribə quşlar, divlər, əjdahalar barəsində, günəş, ay, ildırım barəsində anasına, nənəsinə ardı-arası kəsilməyən suallar verərdi:

– Xalça necə uçur? Bəs bizim xalçamız niyə uçmur?

O zümrüd quşlardan bizim meşələrdə, dağlarda da varmı? Divlər, əjdahalar harada olurlar? Div güclüdür, yoxsa əjdaha? Bəs adamın niyə qanadları yoxdur?..

Ancaq nənəsinin, anasının bu suallara verdikləri cavablar o qədər də aydın olmazdı, hələ başları qarışıq olanda, onlar Kamala heç cavab da verməz, ona acıqlanardılar.

Kamalın atası Rəşid Qızıl Orduda komandir idi. Bir yay Kamalgil yaylağa köçdülər. Atası da orada, düşərgədə idi. Tez-tez evə gəlirdi.

Bir gün atası ilə söhbət edərkən, Kamal onu çoxdan narahat edən bir sual verdi:

– Atacan, bəs niyə adamların qanadı yoxdur, onlar niyə uça bilmirlər?

Atası güldü:

– Var, oğlum, ancaq adamların qanadları başlarındadır!.. – deyə atası Kamalın başını sığallaya-sığallaya ona təyyarə barəsində sadə və maraqlı məlumat verdi...

* * *

Bir sabah Kamal tezdən yuxudan durub adəti üzrə, evlərinin yaxınlığındakı təpəyə çıxmışdı. O, ətrafa tamaşa edirdi. Orada, aşağıda göz işlədikcə düzənliklər, sıx meşələr, gümüş şərid kimi parlayan çaylar, məxmər çəmənlər görünürdü. Dərələrdən yüngül duman ucalır, ucaldıqca sanki göydə əriyib yox olurdu. Göy üzündə bir dəstə qaraquş qanadlarını geniş açaraq halay vurub hərlənirdi...

Birdən aşağıdan, düşərgə yanındakı düzənlikdən bir gurultu ucaldı. Bu gurultu get-gedə artdı və Kamal bir-birinin ardınca bir neçə təyyarənin havalanıb dik göyə ucaldığını gördü. Göydəki qaraquşlar bir anda dağılışıb yox oldu. İndi onların yerində, onlardan da xeyli ucada təyyarələr hərlənir, mayallaq aşır, qanadları üstündə fırlanır, nərə çəkib aşağı şığıyır, yenə fişəng kimi dik qalxırdı.

Sonra təyyarələr durna qatarı kimi cərgəyə düzüldü. Birdən hər təyyarədən bir-iki nöqtə ayrılıb ağır-ağır yerə enməyə başladı. Bunlar yaxınlaşdıqca, nöqtələr böyüdü və qırmızı, yaşıl, sarı rəngli zolaq-zolaq çətirlərdən adamların sallana-sallana endikləri aşkar göründü.

Bu mənzərə o qədər gözəl, o qədər maraqlı idi ki, Kamal heç yuxuda da belə gözəl bir şey görməmişdi.

Paraşütçülərdən biri Kamalın durduğu təpədən iki-üç yüz addım aralı məxmər otların üzərinə enirdi. Kamal yerindən qopub düz ona doğru cumdu. Paraşütçünün ayağı yerə çatanda Kamal da ona çatdı. Bu

paraşütçü cavan, qarayanız bir qızıl əsgər idi. Gülə-gülə paraşütü yığmağa başlayıb ona heyran-heyran baxan Kamala yaxınlaşdı. Onun qolundan tutub yuxudan oyadırmış kimi, silkələdi və mehriban bir səslə dedi:

– Hə, qoçaq, sən də təyyarəçi olmaq istəyirsən?

Kamal, doğrudan da yuxudan ayılmış kimi bir neçə dəfə gözlərini qırpdı və gözlənilməyən cürətli, inamlı bir səslə dedi:

– Olacağam, əmican! Mən də təyyarəçi olacağam!

Bu gündən Kamalın xəyalında uçan xalçalar, zər qanadlı zümrüd quşlar, şahzadə qəhrəmanlar əvəzinə polad qanadlı təyyarələr, rəngbərəng paraşütlər və tunc üzlü cavan təyyarəçilər canlandı.

## II. QIŞ YUXUSU

Qarlı-şaxtalı qış gəlmişdi.

Qışın öz gözəllikləri var: dağlar, təpələr, düzlər pambıq kimi ağ və yumşaq qarla örtülmüşdü. Ağacların budaqları lülə-lülə qara bürünmüş, axar sular donmuşdu. Arabir buludların arasından günəşin soyuq şüaları süzüldükcə, hər tərəf almaz kimi par-par parıldayır, gözləri qamaşdırırdı. Quşbaşı qarların ağır-ağır yerə enməsi, şaxtalı havanın yanaqları oxşaması adama ayrı ləzzət verirdi.

Kamal yazda, yayda olduğu kimi, qışda da hər səhər erkən, hamıdan tez durar, həyətlərindən axan xırdaca arxın buzunu qırar, əl-üzyuyana su töküb buğlana-buğlana yuyunar, məktəbə gedərdi. Dərsdən sonra bir dəstə özü kimi diribaş uşağı başına yığardı. Onlar kəndin kənarındakı təpədə kirşə sürər, qardan ev tikər, qala düzəldər, cürbəcür maraqlı oyunlar oynardılar. Sonra yanaqları qızarmış, bədənləri azca yorulmuş, amma yaxşıca dincəlmiş halda, evə gəlib, sabahkı dərslərini hazırlardılar.

Kamal özünə qəribə bir kirşə qayırmışdı. Onun yanlarına nazik fanerdən təyyarə qanadı kimi iki qanad vurmuşdu. Kirşə dik təpədən sürətlə üzüaşağı gəldikdə, iki dik eniş arasındakı kiçik meydançadan qopub bir an yerdən ayrılır, havada süzən kimi olurdu. Bu, Kamala ayrı ləzzət verirdi. Yoldaşları da ona baxıb belə qanadlı kirşələr qayırmışdılar.

Beləliklə, Kamal birinci "Təyyarəçilər dəstəsi" düzəltmişdi.

Bu günlərdə idi ki, Kamalın atası vaxt alıb on-on beş günlüyə qonaq gəlmiş və Kamala kiçik bir oyuncaq təyyarə gətirmişdi. Yayla qurulan bu təyyarəcik doğruçu təyyarə kimi səslənib yerdən ayrılır və məftillə bağlı olduğu bir dəmir çubuğun ətrafında xeyli hərlənib yerə enirdi. Kamal yoldaşlarını başına yığıb bununla saatlarla əylənirdi. Sonra o, təyyarə və təyyarəçilik barəsində bildiklərini, atasından eşitdiklərini və yayda düşərgədə öz gözü ilə gördüklərini yoldaşlarına danışırdı.

Bir axşam Kamal atasının ov tüfəngini silib təmizlədiyini, fişəngləri doldurub ova hazırlaşdığını gördü və soruşdu:

– Atacan, məni də ova apararsanmı?

Atası əvvəl razı olmadı:

– Qışdır, soyuqdur, oğlum, – dedi, – azarlarsan. Uzaqlara gedəcəyəm, yorularsan...

Kamal əl çəkmədi:

– Yox, atacan, mən soyuqdan qorxan, yolda yorulan uşaqlardan deyiləm, – dedi. – Nə olar, atacan, apar, özün görərsən, hələ sənə köməyim də dəyər!

Kamalın atası axır razı oldu. Kamal da xeyli oturub atasına fişəng doldurmağa kömək etdi və həmişəkindən çox gec yatdı.

Kamalın atası obaşdan durub yola çıxanda, oğlunun şirin yuxuda olduğunu görüb ona qıymadı. Yuxudan oyatmadı. Özü tək getdi.

Kamal yuxudan ayılıb atasının getdiyini biləndə, əhvalı çox pozuldu. Anası onun könlünü almaq istədisə də, olmadı. Kamal atasından çox özündən küsmüşdü. Axı o niyə belə çox yatıb yuxuya qalmışdı?!

Bir neçə gün sonra Kamalın atası yenə ova hazırlaşanda, Kamal onunla getməyə razılığını aldı. Öz-özünə söz verdi ki, gecə yatmayıb atası gedənə qədər oyaq qalsın.

Evdə hamı yatmışdı. Kamal da yerində uzanmış, amma heç gözlərini də yummurdu. Hərdənbir onu huş aparırdı. O, Məlikməmməd nağılını yadına salırdı. Məlikməmməd yatmamaq üçün barmağını kəsmiş, yarasına duz basmışdı...

Ancaq bu iş Kamalın heç xoşuna gəlmədi. Öz-özünə dedi:

– Yox, görünür, Məlikməmməd oyaq qalmağı bacarmayıb ki, barmağını kəsib... Mən barmağımı da kəsməyəcəyəm, yatıb yuxuya da qalmayacağam!

Kamal Məlikməmməd barəsində, ov barəsində cürbəcür xəyallar edə-edə, yerində o tərəf-bu tərəfə çevrilirdi. Onu arada huş aparırdısa da, tez-tez oyanıb gözünü pəncərəyə zilləyir, havanın işıqlaşıb-işıqlaşmadığını yoxlayırdı.

Birdən həyətdə xoruz banladı. Kamal həmin saat qalxıb geyindi. Gecədən hazırladığı çantasını boynuna taxdı. Atası bu otağa keçəndə, Kamal artıq yola çıxmağa hazır idi.

Atası gülə-gülə əlini onun çiyninə vurub dedi.

– Bax, belə ha, qoçaq, indi gəl gedək!..

O gün Kamalın həyatında ən xoş günlərdən biri oldu: o, yuxuya qalib gəlmişdi!

## III. "ŞAHİN" VƏ QARAQUŞ

Gül fəsli yetişmişdi. Sərin bahar küləyi, ətirli nəfəsi ilə günəşə aşiq olan quşlar, şirin nəğməsi ilə rəngbərəng güllər, çiçəklər, kəpənəklər, əlvan bahar mənzərəsi ilə insanın qəlbini oxşayır, ürəyini açırdı.

Belə fərəhli bir bahar sabahı, şəhər əhalisi şəhərin kənarına, göy çəmənliyə axışırdı. Bura yüz illərdən bəri baharda, bayramda şəhər camaatının gəzməyə, əylənməyə çıxdığı bir düzənlik idi. Üzügülər cavanlar, gümrah qocalar, şən uşaqlarla dolu tramvaylar, avtobuslar ora getməkdə idi.

Bu düzəndə vaxtilə babalar da seyrə çıxar, burada meydan qurulardı. İgidlər yarışar, güləşər, cıdır düzəldər, çövkən oynardılar.

İndi də burada yarış vardı. Gənc məktəbli oğlanlar və qızlar "Əmək və müdafiəyə hazıram" normalarını verəcək, yarışacaqdılar.

Qollarında qırmızı sarğı olan nəzarətçilər gələnlərə yer göstərir, hamını nizam və qayda üzrə əyləşdirirdilər. Böyük bir yarımdairə halında toplanmış iştirakçılar və onların arxa tərəfində tamaşaçılar yerləşmişdilər. Bu yarım dairənin qabağında ortada bir stol qoyulub üstünə yaşıl örtük salınmışdı. Onun da dövrəsində yarışın münsif heyəti oturmuşdu.

Müəyyən edilmiş vaxtda yarış başlandı: yüyürüşmə, atlanma, maneə aşma, qumbara atma, nişan vurma... çevik məktəbli gənclər öz bacarıq və hünərlərini nümayiş etdirirdilər.

Ancaq bugünkü idman bayramının xüsusi və maraqlı bir hissəsi də vardı. Şəhərdə ilk dəfə olaraq bu bayramda təyyarə modelçiləri də iştirak edirdilər.

Bütün başqa idman növləri göstərilib qurtardıqdan sonra, münsif heyətinin başçısı əlindəki kiçik qırmızı bayraqla işarə verdi. Musiqi dəstəsi təyyarəçilər marşını çaldı və gənc modelçilər, hərə öz modelini başının üstünə qaldıraraq cərgə ilə düzülüb müəyyən edilmiş yerlərdə durdular. Tamaşaçılar heyran-heyran bunlara baxır və böyük bir maraqla modellərin uçmasını gözləyirdilər.

Kamal da bu gənc modelçilər içində idi. Bu günü, bu dəqiqəni o, gənc qəlbinin bütün həyəcanı ilə çoxdan gözləyirdi.

İşarə verildi və kiçik təyyarələr bir-birinin ardınca qəribə, rəngbərəng quşlar kimi havaya uçdu.

Növbə Kamala yetişəndə o, əlindəki modelin pərvanəsini buraxdı, model canlı bir quş kimi çırpındı və uğuldayaraq, Kamalın əlindən qopdu, fişəng kimi dik qalxıb, bütün başqa modellərdən xeyli ucadan uçuş istiqaməti aldı. Onun gümüş rəngli qanadlarında qırmızı ulduz şəkli çəkilmiş, gövdəsində isə, iri qırmızı hərflərlə "Şahin" sözü yazılmışdı. Hamının gözü onda idi.

Hava buludsuz, küləksiz, büllur kimi saf və şəffaf idi.

Birdən Kamalın və tamaşaçıların sinələrindən təəssüf və heyrətlə qarışıq bir çığırtı qopdu. Çox ucalarda süzən və heç kəsin bu vaxta qədər görmədiyi yekə bir qaraquş qanadlarını büküb "Şahin"in üzərinə şığıdı. Kamal elə bərkdən çığırdı ki: elə bil qaraquş indicə caynaqları ilə onun üz-gözünü cırmaqlayacaqdı. O, ixtiyarsız olaraq, əllərini üzünə tutdu.

Ancaq qaraquş "Şahin"ə çatar-çatmaz, birdən-birə qanadlarını geniş açdı və modelin üzərində bir-iki dairə vurub havalandı. Yuxarıda havadan asılmış kimi bir an durub qanad çaldıqdan sonra bir də şığıdı. Yenə "Şahin"ə çatanda, dik qayıtdı. Göylər sultanı üçüncü dəfə də hücuma keçdi. Cürət edib, onun ölkəsinə gəlmiş bu çağırılmamış qonağı caynaqlamaq istədisə də, ancaq ondan qorxub ürkmüş bir halda uzaqlaşdı...

Qaraquş bu vaxta qədər göylərdə hücum etdiyi hər bir quşun ondan qorxub, qabağından qaçdığına alışmışdı. Ancaq bu qəribə quş onu heç saymırdı da. Vüqarla uçub düz onun üstünə gəlirdi. "Şahin"in bu cürəti qaraquşu qorxudub qaçırtdı.

Kamal, qorxunc bir yuxudan ayılıb, özünü sağ-salamat görən adamlar kimi sinədolusu, geniş və asudə bir nəfəs aldı. Bir az sonra qaraquş da, "Şahin" də hərəsi bir tərəfə uçub gözdən itdi.

Yarışın nəticələri elan ediləndə məlum oldu ki, Kamalın "Şahini" uca, iti və uzaq uçmaqda birinciliyi qazanmışdır. Kamalın oxuduğu məktəbdəki modelçilik dərnəyinin modeli isə ikinci yeri tutmuşdur.

Kamala bunu təsdiq edən şəhadətnamə ilə birlikdə bir qol saatı da mükafat verdilər.

O gün Kamalın ömründə ən xoşbəxt günlərdən biri idi: Onun "Şahin"i göylər sultanı qaraquşa qalib gəlmişdi!

* * *

Kamalın və məktəbdəki dərnək yoldaşlarının bu qələbəsi onlar üçün gözlənilməz, təsadüfi bir hadisə deyildi. Bu qələbə, məktəbdə uzun aylar boyu davam edən cidd-cəhdin, inadlı çalışqanlığın, müəllimlər heyəti, komsomol və pioner təşkilatlarının qayğılı fəaliyyətinin təbii bir nəticəsi idi.

Kamalgilin modelçilər dərnəyinə məktəbin fizika müəllimi bilikli bir məsləhətçi yoldaş kimi kömək edirdi. Əvvəllər qayırdıqları təyyarə modelləri nəinki uçmur, hətta yerindən də tərpənmirdi. Belə hallarda çətinlikdən qorxan bəzi məktəblilər: "Eh, bundan heç nə çıxmaz?" – deyə işdən soyuyanda, müəllim böyük ixtiraçıların, alimlərin həyatından misallar gətirib onları ruhlandırırdı.

Kamal dərsdə, dərnəkdə, yarışlarda hər dəfə müvəffəqiyyət qazandıqca sevinər, fərəhlənər, lakin bu böyük insanları bəşəriyyəti, gözəl, azad və xoşbəxt bir həyata çatdırmaq üçün öz canlarından keçən alim və ixtiraçıları, sərkərdələri, dövlət və inqilab xadimlərini, onların gördükləri nəcib işləri yadına salıb: "Daha irəli, daima irəli!" – deyə düşünərdi.

## IV. QOÇAQ OĞUL, MƏRD ANA

Kamal orta məktəbi əla qiymətlə bitirmişdi, ali məktəb və gələcək ixtisası barəsində düşünürdü.

O, yazı stolunun dalında oturmuş, rəngli, şəffaf sellüloid parçalarından quraşdırdığı kiçik və gözəl bir təyyarə modelini qabağına

qoyub ona baxırdı. Xəyalının qanadları Kamalı göylərə qaldırır, gözünün önündə gələcəyin əfsanələrindən daha gözəl həqiqi mənzərəsi canlanırdı.

...Göyün bir qatında, pambıq kimi bulud qalaqlarında, yuxarıda, göy qurşağı kimi rəngarəng şəffaf, möhtəşəm bir bina görünür. Buradan ucsuz-bucaqsız vətənimizin hər guşəsinə və dünyanın başlıca mərkəzlərinə zərli xəyali tellər uzanıb gedir. Bunlar hava yollarıdır. Bu yollarla hər gün minlərlə parlaq qanadlı, səssiz, rahat və gözəl təyyarələr gedib-gəlir. Bu təyyarələr havanın ən üst qatlarında, stratosferdə uçur, qədim nağıllarda söyləndiyi kimi yeddiillik yolu bir göz qırpımında gedirdi.

Budur, növbəti təyyarə gəlib havadakı təyyarə meydanına qondu. Qapılar açıldı. Sərnişinlər xalça kimi naxışlı, güzgü kimi parlaq döşəmənin üzəri ilə gedib, indiki liftlərə bənzər kiçik otaqcıqlara girirlər. Bir an sonra aşağıda, yerdə, həmin otaqcıqlardan çıxıb hərə istədiyi yerə gedəcək...

Kamal əlini stolun üstündəki düymələrdən birinə basır və qarşısındakı güzgü ekranda – Moskvadan Vladivostoka, Bakıya, Daşkəndə, Saxalinə, Düşənbəyə gedən və qayıdan yüzlərlə təyyarəni gözünün önündə görür. Başqa bir düyməni basır. Misir ehramları, Nyu-York, Paris, Tokio üzərində süzən, oralara hər gün minlərlə sərnişin, poçt və yük aparıb-gətirən təyyarələrimizi yoxlayır, onların təyyarəçiləri ilə danışır...

Divardakı saatın zəngi vuranda, Kamal bu dadlı xəyaldan ayılıb saata baxdı və öz xəyallarına gülümsəyə-gülümsəyə əlindəki modeli canlı bir quş kimi tumarladı və bir tərəfə qoyub, radionu qurdu.

O özünü itirən kimi oldu. Öz qulaqlarına, radiodan eşitdiyi dəhşətli sözlərə inanmaq istəmədi:

– Müharibə!

Kamal yuxudamı, oyaqmı olduğunu təyin edə bilmədi. Bir an çaşıb qaldı. Lakin qarşısındakı radio işləyir, döyüş marşları çalır, diktor Sovet Məlumat Bürosunun ilk məlumatını verirdi.

İndi Kamal nə edəcəyini deyil, necə edəcəyini düşünürdü, çünki o, nə edəcəyini yaxşı bilirdi. O bilirdi ki, indi sovet vətənində onun kimi sağlam, qüvvətli, çevik, polad biləkli, aslan ürəkli oğlanların edəcəyi bircə şey vardı:

– Cəbhəyə getmək!

Kamal stol üzərindəki sevimli təyyarə modelinə həsrətli bir nəzər salıb ayağa qalxdı, pəncərənin qabağına keçdi.

Bayırda dağ yerlərinə məxsus gözəl, sərin bir iyun sabahı açılırdı. Günəşin ilk şüaları, başı buludlar arasından sıyrılıb çıxmış dağın təpəsinə düşmüş, buludlar da, dağ da ağ-çəhrayı, bənövşəyi rənglərə boyanmışdı. Dağlardan əsən səhər yeli insanı məst edən ətirlə birlikdə, dağların sərinliyini də gətirirdi.

Lakin təbiəti qəribə bir sükut çulğamışdı. Hər sabah səs-səsə verən bülbüllər, torağaylar, bildirçinlər nədənsə daha oxumurdu.

Bu, fırtına əlaməti idi. Kamal dalğın nəzərlərini üfüqlərdə gəzdirirdi. Dağın başındakı çəhrayı, gümüşü, mavi rənglərə çalan yüngül bulud təbəqələrindən aşağıda qıvrılmış ilana bənzər qara bir bulud üfüqdə sürünə-sürünə irəli hərəkət edirdi.

Bu, fırtına buludu idi.

Doğrudan da bir an içində, sabahın bu nurlu çağında hava qaraldı. Bir-birinin ardınca şimşək çaxdı. Göy yerə töküləcəkmiş kimi qorxunc bir gurultu qopdu. Əvvəl xırda, get-gedə iriləşən dolu yağdı. Elə yağdı ki, guya indi hər şeyi, hər şeyi məhv edəcəkdi.

Azacıq sonra birdən-birə buludların ardından çıxan günəş, gözqamaşdırıcı bir işıqla parlayıb yüksəldi. Güllərin, çiçəklərin, körpə budaqların bükülmüş boyunları dikəldi. Quşlar sanki hamısı birdənbirə dilə gəldi.

Yenə üfüqlər saf, göylər şəffaf, yenə dağın ağ saçlı məğrur başı vüqarla ucalırdı.

İşıq qaranlığa qalib gəlmişdi!

Kamalın çatılmış qaşları açıldı. Bu gəlib keçən ani tufanı öz xəyalında o, indicə qara xəbərini eşitdiyi müharibə ilə müqayisə etmişdi. O inanır və ümid edirdi ki, müharibə də tezliklə qurtaracaq, həmişə olduğu kimi, xeyir şərə qalib gələcəkdir. O, ixtiyarsız gülümsədi, sanki təbiət onun xəyalından keçənləri gözünün önündə nümayiş etdirirdi.

Səhər Kamalın yanına gələn anası, otağın qapısını açanda, oğlunu pəncərə qabağında gördü. Heç bir şeydən xəbəri olmayan ana, sevinc dolu gözlərilə oğlunun üzünə baxanda, onu fikirli, qayğılı gördü:

– Nə var, bala, olmaya şəhərə gedəli ildırımı yadırğamısan? – deyə soruşdu və zarafatla əlavə etdi. – Qorxudanmı belə erkən durubsan?

Kamal qəribə bir təbəssümlə anasının şəfqətli gözlərinə, mehriban üzünə baxıb dinmirdi.

Ana həmişə hər zarafata beş qat artıq zarafatla cavab verən üzügülər və hazırcavab oğlunun belə susmasından və üzündə donub qalmış qəribə təbəssümdən, ürəyi sözlü oğlunu anladı. O da gözlərini oğlunun gözlərinə zillədi, sanki ürəyindəkini gözlərindən oxumaq istəyirdi.

Kamalın anası dağların qoynunda böyümüş, mərd və mətanətli Azərbaycan qadınlarından idi. Ancaq necə olsa, qadın idi, ana idi. Əri sərhədçi komandir, həm də indi qızğın döyüşlər gedən sərhəddə idi. Oğlu da cəbhəyə getməyi qərara almışdı. Ana bunu biləndə neyləyəcəkdi?!

Kamal bu sərt, amansız həqiqəti ona söyləyəndə ana sarsılmadı, oğlunu saxlamaq üçün yalvarıb-yaxarmadı. Dişlərini bir-birinə sıxıb gözlərini yumdu, boyu bərabər, oğlunu bağrına basdı, ona xeyir-dua verdi. Kamal yanaqlarında iki ılıq damla hiss etdi...

## V. ÜZ-ÜZƏ, GÖZ-GÖZƏ

Qara, qıvrım saçlarına tək-tək dən düşmüş, açıq alınlı, ciddi, lakin mehriban baxışlı, komissar yenicə kurs qurtarıb hissəyə gəlmiş gənc təyyarəçiləri kabinəsinə yığmış, onlarla söhbət edirdi.

– ...Vətən oğlu kapitan Qastellonun şücaətini xatırlayın! Bu şücaət yalnız yeni insanın, yalnız sovet vətəndaşının göstərə biləcəyi bir şücaətdir. Heç bir faşist təyyarəçisi belə mərdanə fədakarlıq etməmiş və edə bilməz; çünki onu faşizm itaətkar bir qul halına salmışdır. Amma bizim adamların hər biri öz vətəninin, öz azadlığının sahibidir...

Sonra komissar cavan təyyarəçiləri bir-bir dindirib, hər birilə bir ailə üzvü kimi gülə-gülə, onun tərcümeyi-halındakı maraqlı hadisələr barəsində danışırdı. Beləliklə, o, sabah havada yan-yana, çiyin-çiyinə düşmənlə vuruşacaq bu gəncləri bir-birilə yaxşı tanış etmək istəyirdİ. Növbə Kamala çatanda, komissar gülə-gülə soruşdu:

– Dostum, deyəsən sən yaşda hamıdan cavan olsan da, çoxdan təyyarəçi olmusan... Bir “Şahin” əhvalatını danış görək!..

Kamal təyyarəçiliyə olan ilk həvəsindən, uşaqlıqdakı arzu və xəyallarından, ilk təcrübələrindən danışdı. O cümlədən “Şahin” ilə qaraquşun qarşılaşmasını və “Şahin”in qələbəsini də nağıl etdi. Bu qəribə hadisə hamını maraqlandırırdı. Komissar hadisəni belə izah etdi:

– Bu hadisə təkcə qəribə və maraqlı deyil, həm də ibrətli bir hadisədir. Bir düşünün, qaraquş oyuncaq "Şahin"dən niyə qorxmuşdu? Çünki qaraquş heç bir zaman qarşısında müqavimət görməmişdi. Hansı quşa hücum etmişsə, quş ondan qorxmuş, qabağından qaçmış, qaraquş da bundan fərəhlənmiş, daha da cürətlənmiş, öz qorxaq ovunu caynaqlayıb parçalamışdı. "Şahin" isə nəinki ondan qorxub qaçmış, əksinə, qarşı-qarşıya gələndə düz onun gözünə soxulmuş, qaraquş da bu cürətdən qorxub qaçmış, məğrur yırtıcı quş insan ağlı və iradəsinin kiçik bir timsalı – "Şahin"in önündə məğlub olmuşdu.

Bilin ki, faşist quzğunları da belədir. Onlar da Avropa üfüqlərində özlərini göylər sultanı görüblər. İndi isə sovet şahinlərinə rast gəliblər. Tükü didilmiş faşist quzğunu qızıl şahinlərin önündən qaçacaq, məğlub olacaqdır!

* * *

...Kamal havada keşik çəkir, təyyarə meydanı ətrafında böyük dairələr vurub hərlənir, sayıq nəzərləri ilə üfüqləri yoxlayırdı. Birdən başının üstündə, çox-çox ucada qara bir nöqtə gördü və həmin saat da itirdi. Hərlənib ucala-ucala, onu axtarmağa başlayanda arxa tərəfindən ildırım sürəti ilə üstünə şığıyan bir təyyarə gördü və döyüşə hazırlaşdı. Bir an sonra Kamal artıq faşist quzğununun tükürpərdən vəhşi nəriltisini eşidir, üstündəki əcaib-qəraib kəllə, çarpazlaşmış sümük, ucları əyri xaç, boynu burulmuş, dimdiyi açıq qalmış qaraquş və bir çox həşərat şəkillərilə bəzənmiş qara qanadlarını, yöndəmsiz gövdəsini aydın görürdü.

Təyyarə meydanında həyəcan işarəsi veriləndə, komissar müşahidə nöqtəsindən durbinlə baxıb bu quzğunu gördü. O, həyəcan və qəzəbdən dişlərini bir-birinə sıxıb yumruğunu düyünlədi və ixtiyarsız, dodaqlarını gəmirməyə başladı. Təcrübəli və soyuqqanlı bir əsgər olan komissarın bu həyəcan və qəzəbi səbəbsiz deyildi. Bu quzğunu o yaxşı tanıyırdı.

Quduz düşmən ona sağalmaz yaralar vuran təyyarə meydanımızın yerini öyrənmək üçün neçə vaxtdan bəri bu qoca, təcrübəli, hiyləgər quzğunu buralara göndərirdi. Bu quzğun həyasız bir cürətlə ən alçaqdan uçur, təyyarə meydanımızdan bir əlamət bilmək üçün, ona atəş açılmasını və ya vuruşmaq üçün təyyarələr qalxmasını istəyirdi. Buna

müvəffəq ola bilməmişdisə də, hər halda bir şey duymuş olmalı idi ki, buralardan əl çəkmir, dönə-dönə gəlirdi. Faşist təyyarəsi zirehli olduğundan, ona adi güllə batmırdı. Təyyarəçi isə, son dərəcə mahir idi. Başgicəlləndirən bir sürətlə şığıyıb qarşısındakını çaşdırır, atəş açıb vurur, bir anda aradan çıxır, yox olurdu.

İndi havadakı keşikçimiz təcrübəli bir təyyarəçi olsaydı, komissar bu qədər həyəcanlanmazdı; ancaq Kamal...

...Kamal təyyarəni döndərib, faşist quzğunu ilə üz-üzə, göz-gözə gəlməyi qət etmişdi. Ancaq əlləri, ayaqları ona tabe olmur, sövqi-təbii ilə bu ölüm təhlükəsindən çəkinirdi.

İlk dəfə üzgüçülük qülləsindən dənizə və ya paraşütlə yerə atılmaq istəyəndə də belə olmamışdımı? Lakin Kamal bu hisslərə çoxdan qalib gəlmiş, sonra bu ibtidai heyvani qorxaqlığa özü nə qədər gülmüşdü!

Kamal qəti bir hərəkətlə sükanı çəkdi, gözlənilməz bir sürətlə havada ilgək vurub, qanadları üzərində hərləndi və təyyarəsini düz faşistin təyyarəsinə tuşladı. İndi hər iki təyyarə elə sürətlə üz-üzə gəlirdi ki, ikisindən biri qaçmasa, hər ikisi xıncım-xıncım olacaqdı!

Faşist təyyarəçisi əliqanlı cəlladlara məxsus bir soyuqqanlılıqla, adəti üzrə, hələ atəş açmağa tələsmir, qarşısındakı düşməni ruhən məğlub edib, qaçırmaq və arxadan vurmaqla, bu vuruşmadan ikiqat zövq almaq istəyirdi. Kamal isə "Şahinlə" qartalın qarşılaşmasını və komissarın sözlərini xatırlayıb, gənc qəlbinin bütün qüdrəti ilə iradəsini toplamışdı. O da atəş açmırdı, nə olursa olsun, ya birlikdə məhv olmaq, ya da həyasız düşmənin iradəsinə qalib gəlməyi qət etmişdi.

Aşağıdan baxanlar ildırım sürəti ilə bir-biri üzərinə şığıyan hər iki təyyarənin birdən alov və tüstü içində itdiyini gördülər. Hamının qəlbi həyəcanla çırpındı...

Lakin bu hal bir an davam etdi:

Kamalın təyyarəsi fişəng kimi havaya qalxdı, qara faşist quzğunu isə alovlar içində hərlənə-hərlənə yerə enirdi. Bir az sonra ondan ağ bir nöqtə ayrıldı. Bu, paraşütlə enən faşist təyyarəçisi idi. Kamal paraşütün ətrafında dövrə vura-vura, onu yerə qədər ötürdü. Orada, aşağıda bu çağırılmamış qonağın avtomatçılar tərəfindən "layiqlə" qarşılandığından arxayın olub, yenə sürətlə havaya qalxdı və keşik çəkməyə davam etdi...

* * *

Komissar gətirilən "qonağı" görəndə təəccüb etdi. Bu qırx beş-əlli yaşlarında iri gövdəli, dolğun, sallaq sifətli, qızarmış gözlərinin altı tuluq kimi şişmiş, sarı saçları kirpisayağı qısa vurulmuş bir faşist polkovniki idi. Gözlərində tələyə düşmüş canavar kimi, aciz bir qəzəb parıltısı vardı. Acığından əlləri, dodaqları əsir, üzünün ayrı-ayrı əzələləri əsəbi halda titrəyirdi. Görünür, özünə və təyyarəsinə həddindən artıq güvəndiyindəndir ki, faşist polkovniki nə rütbəsini göstərən nişanlarını, nə də döşünün hər iki tərəfini dolduran orden və medal lentlərini uçuşdan əvvəl çıxarmamışdı.

Komissar qəsdən hələ dinmir, əsiri dindirmirdi. Faşist polkovniki bu sükuta dözə bilməyib axırda özü dilləndi:

– Aman Allah, aman Allah! Yox, yox... Mən Varşavadan Parisə qədər. Tiranadan Londona qədər, bütün Avropa üfüqlərində uçmuşam. Yüzlərlə hava döyüşündə olmuşam. Onlarca təyyarə vurmuşam... Mənim qabağımda duran, hücumuma dözən olmayıb, təyyarəmə batan güllə hələ icad edilməyib... – deyə o, lovğa-lovğa məğlubiyyətini izah etmək üçün bəhanə axtarırdı. – Yox, yox... Mənim təyyarəmi vuran o təyyarəçi yəqin ki, köhnə bir ingilis hava qurdudur... Yəqin yeni bir gizli silahınız var...

Komissar bu sözlərə sadəcə gülümsünüb, heç bir cavab vermədi. Faşist bir az da əsəbiləşdi. Lakin səsinə bacardığı qədər ədəb və nəzakət ifadəsi verməyə çalışaraq komissara dedi:

– Sizdən rica edirəm, Allah xatirinə, rədd etməyin: mən siyasətdən heç şey anlamıram. O, fürerin işidir. Mən idman adamıyam, döyüş də mənim üçün, qanlı olsa da, ləzzətli bir idmandır. Bilmək istəyirəm, rəqibim kimdir, o gizli silah nədir?..

Komissar acı bir istehza ilə güldü:

– Yaxşı idmandır, söz yox!.. Bu idmanın dadını yaxında faşist Almaniyası da görər... Onda başa düşərsiniz ki, boks əlcəyi ilə minanın, futbol topu ilə on tonluq bombanın fərqi nədir?!. Rəqibinizə və gizli silahımıza gəlincə, onları sizə göstərə bilərəm...

Komissar saatına baxıb, düyməni basdı. İçəri girən növbətçiyə Kamalı çağırmasını əmr etdi.

Kamal içəri girəndə, komissar onu bağrına basıb, alnından öpdü. Bu mənzərəyə "dəvə nalbəndə baxan kimi" mat qalan faşisti göstərib:

– Vurduğun quzğuna bir bax! – dedi. Sonra faşistə müraciətlə:

– Rəqibiniz budur! – söyləyəndə, faşist, bığlarının yeri yenicə tərləmiş bu on səkkiz-on doqquz yaşlı oğlana küt-küt baxıb birdən-birə qarğa qarıltısına bənzər iyrənc bir səslə çığırdı, iki əli ilə saçını yola-yola dilini-dodağını gəmirməyə başladı.

O, qarşısında özü kimi köhnə bir qurd, ehtiraslı qoca bir "qanlı idman" düşkünü gözlədiyi halda, "ağzından süd qoxusu gələn bir uşağa" məğlub olduğunu görüb daha artıq hiddətlənmişdi.

Bu halı görən və faşistin ürəyindən keçənləri yaxşı anlayan Kamal, stol üstündəki qrafin və stəkanı ona göstərib istehzalı bir nəzakətlə almanca dedi:

– Buyurun, soyuq su için!

Komissar vüqarlı bir ciddiyyətlə əlavə etdi:

– Silahımıza gəlincə, onun dadını özünüz gördünüz, adını bilmək istəsəniz belədir: – Gənc bolşevik iradəsi!..

## QIZIL QÖNÇƏLƏR

Qoca Firuz iş oldu-olmadı həmişə gün batanda evə qayıdır. Gün olur ki, bazarda işi çox olur. O başıaşağı bütün günü işləyir, yük daşıyır. Bəzi günlərdə o, böyük anbarlar yanında işsiz dayanır, onu çağıracaq bir səs gözləyir, daşıyacağı bütün yükün intizarını çəkir. Belə günlərdə o, ağzına qədər dolu anbarların yanında boş-bekar oturub qalır, kürəyini divara söykəyib mürgüləyir...

O, olduqca qocadır. Buna görədirmi ki, onun sümükləri sızıldayır, yoxsa ömrü boyu daşıdığı dağ kimi yüklərin ağırlığıdırmı müdam onun çiyinlərini əzir?

Axı onun hər günü – yaşanmış, ötmüş bir sevinc deyildi, bir fikir, bir hiss deyildi, bir atım, bir inkişaf deyildi. Yox, ötən hər gün ağır bir yükdü ki, onun belini bir qat daha artıq büküb yerə əyirdi. Yalnız vücudu deyil, bütün həyatı, ruhu dözülməz bir ağırlıq altında əzilir, toza-torpağa qarışırdı.

Böyük və zəngin bir şəhərdə nə qədər tikintilərin daşları, kərpicləri, böyük imarətlərin nə qədər sandıqları, mebelləri, xalıları, zərfə kimi ağzına qədər dolub anbarların nə qədər ağır tayları onun çiynində

daşınmış və onların hər birindən sanki bir parça ağırlıq həmişəlik olaraq onun həyatı üzərindən yüklənmişdi.

Axır zamanlar o, hər axşam gün batan kimi bazarı tərk edir, hara isə tələsir. Bu zaman onun üçün təsadüfən bir iş çıxsa belə etina etmir. Çox zaman bütün günü işsiz keçirdikdə belə, qoca o qədər yorğun olur ki, tozlu küçələrlə öz kölgəsini güclə dalınca sürüyüb aparır.

O, şəhər kənarındakı fərş karxanalarından birinin qabağına çatarkən ayaq saxlayır, çoxdan qurumuş bir çinar ağacına söykənib dayanır, karxana darvazasına dikilən gözləri yol çəkir, qoca fikrə gedir. O, istirahət edirmi, dincəlirmi? O, burada taleyin daha ağır bir yükünü gözləyir ki, çiyninə alıb yola düzəlsin...

Birdən səs-küy onu xəyal aləmindən ayırır. Fərş karxanasının darvazasından çıxan dəstə-dəstə irili-xırdalı uşaqlar içərisində onun gözləri kimi isə axtarır. Budur, nəhayət, iki qız uşağı yeddi-səkkiz arıq və solğun bir qızı qolları üstündə qapı ağzına çıxarırlar.

Bu, qoca hambalın nəvəsi Sürəyyadır. O, hələ ayaq açıb yeriməyə başlamamış, rütubətli qaranlıq bir zirzəmidə şikəst olunmuş, ayaqları hərəkətdən düşmüşdü. Qocanın isə bu şikəst qızdan başqa dünyada heç kəsi yoxdur. Oğlu qazanc dalınca uzaqlara getdiyi gündən sanki daş olub quyuya düşdü, ondan heç bir xəbər gəlmədi. Gəlini isə ilki olan Sürəyyanı hələ süddən ayırmamış vəfat etdi. Amansız bir həyatla mübarizə meydanında tabdan düşmüş bir qoca ilə şikəst bir uşaq qaldı.

Qoca yaxınlaşıb ehtiyatla nəvəsini arxasına alır, başıaşağı dinməz-söyləməz yoluna düzəlir. Lakin quş kimi yüngül qızcığazı dalına alarkən qoca elə bil bütün məşəqqətli və ağır həyatını arxasına alır. Bu onun taleyidir, bu onun ömür şələsidir ki, ağırlığı altında qocanın bütün qəddi bükülür.

– Baba, sən bu gün çox yorulmusan?

– Yox, qızım, bu gün heç bir iş görməmişəm.

– Qızcığaz dərhal anlayır. Elə isə babasının cibində bu gün də heç bir şey yoxdur. Səngəkçi dükanı qarşısından keçərkən qız səslənir.

– Baba, dayan, səngək alaq!

Qoca dayanıb, səngəkçi şagirdi bir neçə səngək büküb qocaya verir. Sürəyya isə cəld əskini andıran çit çadrasının ucuna düyünlədiyi bugünkü muzdunun iki qramını çıxarıb şagirdə verir.

Qoca Firuzu tər basır. Demək o bu gün də balaca nəvəsinin muzdu ilə qazanılmış bir parça çörəyə möhtacdır...

Axşam yarıqaranlıq, rütubətli zirzəmidə onlar – baba və nəvə, həsir üzərində salınmış, rəngi solğun qələmkar bir süfrə başında oturardı. Süfrə üzərindəki şam yeməyi, adətən bir neçə səngək və pendirdən ibarət olardı. Lakin əvəzində bu yoxsul, zavallı süfrə başında, bu qaranlıq zirzəmidə, babası balaca Sürəyyaya hər gecə nə qədər rəngarəng nağıllar, əfsanələr söylərdi. Qızcığaz nəfəsini udaraq babasını dinləyər, qoca danışdıqca gözləri qarşısında canlanan əlvan boyalarla dolu füsunkar bir aləm onu ağuşuna çəkərdi. O zaman qızcığazın öz könlündə bəsləyib əzizlədiyi sadə və işıqlı həsrətləri sanki qanadlanar, uşaq xəyalı almaz saraylara uçar, sonra onun birdən gözləri yumulub başı babasının dizi üstünə düşərkən bütün gecəni yuxuları qızıl röyalar içində qərq olardı.

O hələ səadət haqqında düşünməyi bacarmasa da, bu məfhum xəyalında daima işıqlı bir otağın açıq qapısından onu səsləyən gənc və gözəl bir qadın simasında canlanardı: bu qadını isə o, nə ölümünü, nə simasını xatırlaya bilmədiyi anasının əziz xəyalı kimi qəbul edərdi.

Səhərlər isə onun kövrək və zərif röyaları babasının səsi ilə dağılardı. Qoca, nəvəsini şirin yuxudan ayıldar, onu dalına alıb karxanaya gətirər, sonra özü iş arxasınca bazara yönələrdi.

* * *

Bir ildən artıq idi ki, balaca Sürəyya, fərş karxanasında işləyirdi. Hər səhər gün çıxanda karxana irili – xırdalı yüzlərlə oğlan və qız uşağı ilə dolurdu. Bir-iki ustadan və karxananın qoca nəqqaşından başqa, iki sıra ilə düzülmüş əlliyə qədər böyük dəzgah qarşısında, hər tərəfdə işləyən yalnız kiçik yaşlı uşaq idi. Onlar iki-iki, üç-üç və daha çox dəstələrlə bu dəzgahlar qarşısında əyləşib axşama qədər fərş toxuyurdular.

Sürəyyanın özündən bir neçə yaş böyük olan iş rəfiqələri hər səhər köməkləşib onu dəzgah qarşısındakı taxt üzərinə qaldırar, sonra özləri də yanında – biri sağında, biri solunda yer tutar və işə başlardılar.

Onların sağ əllərindəki ucu qarmaq bıcaqla və sol əllərinin barmaqları sürətli bir ritmlə əlvan iplikləر içərisində batıb çıxardı.

Səhərlər əvvəlcə bir sükut içərisində işləyən uşaqlar saatlar keçdikcə tez yorular, yeknəsəq və sevincsiz zəhmətlərinin ağırlığını unudub, ürəklərini yüngülləşdirmək üçün hərə bir mahnı zümzümə

etməyə başlardı. Bu bir-birinə qarışmış, pərakəndə və müxtəlif mahnılar içərisində bəzən kimin isə büllur və gözəl səsi yüksəlir, o zaman başqaları, həqiqi sənətlə qanad çalan mahnı qarşısında dərhal ehtiramla səslərini alçaldıb susardılar.

Sürəyya isə oxumazdı. Onun nə səsi vardı, nə də oxumağa mahnısı. O, yalnız işıqlı qonur gözlərini çaldığı ilmələrdən ayırmayaraq, bütün diqqətini və səyini vurduğu naxışlarda canlandırmağa çalışardı. Onun toxuduğu qönçələr artıq bütün karxanada məşhur idi. Buna görə idi ki, karxananın qoca nəqqaşı hazırladığı müxtəlif çeşnilər içərisində qızıl qönçələr olan nəqşləri həmişə balaca Sürəyya üçün nəzərdə tutardı.

Sürəyya isə şəfqətə, məhəbbətə susamış uşaq ürəyinin bütün dəruni ehtiyaclarını vurduğu naxışlarda canlandırar, buna görə onun toxuduğu qönçələr o qədər canlı və təravətli çıxardı ki, durub baxanda adama elə gəlirdi ki, əgər onların üstünə günəş işığı düşsə bu qönçələr dərhal açılacaqdır.

Lakin Sürəyya rəfiqələri ilə bərabər toxuduğu bu xalçaları bitirən kimi, dərhal onlardan ayrılar, toxuduğu, sevdiyi, baxıb sevindiyi qönçələrini bir daha görə bilməzdi. Beləliklə o, itirdiklərini yalnız yenidən yaratmaqla həyata qaytarardı. Ustaların dəzgahlarda hazır etdikləri növbəti bir xalı şəbəkəsi qarşısında əyləşər, qoca nəqqaşın verdiyi yeni nəqişlə təzə qönçələr toxuyardı...

Bu il, solğun və qüssəli bir gəlini andıran payızdan sonra şiddətli küləklərlə soyuq bir qış gəldi.

Qoca Firuzun rütubətli zirzəmisində isə hələ də buxarı yanmırdı, odun yoxdu, neft alıb axşamlar qırıq və kiçik bir lampanı işıldatmaq üçün o bəzən öz boğazından kəsirdi. Qoca nazik və cırıq yorğan altında Sürəyyanın gecələr titrədiyini görür, səhərə qədər gözünə yuxu getmirdi.

Bu gün o, balaca Sürəyyanı hələ karxana açılmamış, qaranlıq ikən gətirib qapı ağzında qoymuş, özü bazara getmişdi. Bu səhər böyük anbardan birinə yük daşınacaqdı. Qoca bu fürsəti əldən qaçırmayıb hamıdan tez işə başlamaq niyyətində idi. Nə cür olursa olsun o bu gün heç olmazsa bir şələ odun pulu qazanmalı idi.

Səhər tezdən yük daşınmağa başlandı. Qoca Firuz bu gün hamını heyrətə salan və yaşına yaraşmayan bir zirəklik göstərib, qan-tər içində yorulmaq bilmədən işləyirdi. Günortaya yaxın o, əlli tay daşımışdı. Cavan hamballar artıq ona qibtə ilə baxırdılar.

Budur, o yenə növbəti taylardan birini çiyninə alıb anbarın yarıqaranlıq və dik pillələri ilə üzüaşağı enməyə başladı. İki-üç pillə düşmüşdür ki, birdən onun gözləri qaranlıq gətirdi və sanki ayağı altındakı kərpiclə xəfif bir hərəkətlə yerindən oynadı. O, əlini haraya isə atmaq istədi, lakin bu zaman ona elə gəldi ki, kim isə yuxarıdan daha ağır bir yük tayını onun belinə aşırdı. O, müvazinətini itirərək yerində səndələdi, dərhal hiss etdi ki, tabdan düşmüşdü, axırıncı qüvvəsi də elə bu saat onu tərk edəcəkdir. Cəld döşündəki kəndiri boşaldıb, yükü yerə atmaq istədi, lakin macal tapmadı, dizləri titrədi, ayaqları büküldü və dağdan qopmuş bir qaya parçası kimi başı üstə aşağıya, qaranlıq bir uçurum kimi ağzını açmış anbarın boşluğuna yuvarlandı. Dik pillələr onu saxlamayaraq, sanki bir-birinin əlindən alıb aşağıya tulladı, o çevrildi, diyirləndi, nəhayət, gəlib anbarı kərpic döşəməsi üzərinə sərildi, qışqırmağa, haraya çağırmağa belə macal tapmadı. Qoca üzüqoylu yıxıldığı yerdə hərəkətsiz bir halda uzanıb qaldı. Yolda atılıb düşmüş tay isə sanki ondan ayrılmaq istəməyərək, ilişdiyi axırıncı pillədən qopub yenə bütün ağırlığı ilə onun üzərinə aşdı.

Aşağıda anbarda işləyən hamballardan ikisi ona tərəf yüyürdü. Qocanı dartıb yük altından çıxartdılar. Lakin artıq iş-işdən keçmişdi. Qoca Firuzun daşıdığı tayalar altında ikiqat bükülmüş həyatı, nəhayət, bu axırıncı yükün ağırlığı altında tamamilə əzilib məhv olmuşdu.

* * *

Axşam uşaqlar karxanadan çıxarkən qar yağırdı. Çoxu ayaqyalın olan bu uşaqlar yeri ağartmaqda olan qar üstündə təzə izlər buraxaraq, tələsə-tələsə evlərinə sarı dağılırdılar.

Balaca Sürəyyanı rəfiqələri yenə qolları üstündə küçəyə çıxardılar, lakin bu dəfə darvaza qarşısında qoca Firuz onları qarşılamadı. Sürəyya heyrətlə küçənin başına baxdı. Birinci dəfə idi ki, karxanadan çıxarkən babası onu gözləmirdi. Sürəyyanın rəfiqələri də ətrafa boylandılar.

– Vay, Firuz baba niyə yoxdur?

Onlar bir-birinin üzünə baxdılar.

– Gələr, bir az gözləyək.

Gözlədilər. Uşaqlar hamısı dağılıb getdilər. Sürəyya isə getdikcə artmaqda olan bir təlaş içərisində qaranlıqla dolan küçəyə, quşbaşı yağan qara baxırdı. Rəfiqələrindən biri dedi:

– Sürəyya, bəlkə köməkləşib səni evə aparaq? Firuz baba görəsən nə iş çıxdı ki, gəlmədi.

Sürəyya qəti bir hərəkətlə başını buladı.

– Yox, babam harda olsa bu saat gələcəkdir. Siz gedin, gecdir. Sonra qorxarsınız.

Rəfiqələri qaranlıq düşdüyünü görərək, doğrudan da qorxuya düşmüşdülər. Bir az gözlədikdən sonra Sürəyyanın təkidi ilə onlar da getdilər. Sürəyya qarlı qış axşamında, küçədə təkbaşına gözləməyə başladı. Küçənin nəhayətindəki fənər yandı. Lakin Firuz baba gəlib çıxmadı.

Qar getdikcə daha şiddətlə yağır, solğun bir işıltı axşam qaranlığında əks edirdi.

Bir az sonra Sürəyyanın yanından iki nəfər keçdi. Bunlardan biri, təkbaşına divar dibində oturmuş qızı dilənçi zənn edərək, onun ətəyinə mis pul atdı.

Sürəyya diksindi. Bu gözlənilməz sədəqə birinci dəfə idi ki, onun ürəyini kimsəsizliyinin dərin acısı ilə doldurdu. O, sanki birinci dəfə olaraq böyük bir dünyada təkliyini, yetimliyini şüurlu surətdə dərk edər kimi oldu. Qız ağlamamaq üçün dodaqlarını dişlədi və öz-özünə, yox-yox, deyə düşündü, mənim babam var, mən yetim, mən kimsəsiz deyiləm...

Onsuz da gecə həyatı olmayan bir şəhər, indi bu qış axşamında tamamilə boş və kimsəsiz görünürdü. Xüsusilə şəhərin ucqarı olan bu küçədə, qışın bu birinci qarlı axşamında artıq heç kəs gözə dəymirdi.

İndi ruhuna dolan qorxu və təlaşla bərabər qızın vücuduna soyuq işləyir, o titrəyir, lakin hələlik özünü saxlayırdı. Lakin gecə keçdiyini görərkən o, babasına qarşı bir küskünlük duyaraq, kövrəldi və səssizcə ağlamağa başladı.

Nə qədər vaxt keçdi, amma Firuz baba yenə də gəlmədi. İndi Sürəyya çağırmağa başlamışdı. O, əvvəlcə babasını çağırdı. Ona səs verən olmadı. Nə cür olursa olsun o bu gün heç olmazsa bir şələ odun pulu qazanmalı idi.

Artıq dodaqları da söz tutmurdu. Nəhayət o, bu qarlı, qorlu gecəni küçədə tək qalacağını anladı. Bağlı karxana darvazasına tərəf sürünməyə başladı, bəlkə orada, darvazanın tağı altında qar tutmayan bir bucaq tapmaq mümkün idi...

Səhər günəşin ilk şüaları, bütün gecəni yağıb küçələrə qalın ağ bir təbəqə ilə örtülmüş qar üzərində bərq vurarkən, darvaza ilə divar

arasındakı bucağa qısılıb yatmış balaca Sürəyya artıq yarıbayğın bir halda idi. İndi onun çit çadrası başından sürüşüb çiyinlərinə düşmüş, günəş şüaları, rəngi qaçmış solğun üzündə əks etmişdi.

Birinci dəfə idi ki, səhər doğan günəş onun üzünə düşürdü. Birinci dəfə olacaqdır ki, o ayılarkən qaranlıq zirzəmi əvəzinə ətrafında ağappaq qarla örtülmüş bir dünya başı üzərində şəfəqlənib yanan bir səhər günəşi görəcəkdir. Bəlkə onun üzünə düşən bu günəş şüalarının təsiri altında idi ki, o bu saat qəribə və gözəl yuxu görürdü.

Yuxusunda uzaq üfüqdə böyük və qızıl bir günəş doğurdu. Bu günəşin şüaları hər yerdən, divardan, daşdan belə keçir, ən örtülü bucaqları, ən qaranlıq zirzəmiləri belə, öz işığı ilə doldururdu. Balaca Sürəyya isə heyran-heyran bu günəşə baxıb gülümsəyirdi. İndi onun yaşadığı rütubətli, qaranlıq zirzəmi də böyük pəncərələri cənuba baxan imarətlər kimi bu günəşin işıqları ilə dolmuş, döşəmə və divarlar onun toxuduğu qızıl qönçəli xalılarla döşəmiş və bəzənmişdi. O, işıq və əlvan boyaların bərq vurduğu bir aləm içərisində qərq olmuşdu. O, bir uşaq iftixarı ilə öz əlləri ilə toxuduğu xalçalara baxır və birdən heyrət içərisində onun gözləri geniş açılırdı: günəş şüaları vurduqca onun toxuduğu xalçalar üzərindəki qönçələr bir-birinin dalınca düymələrini açır, onların hər biri qırmızı fincanlı bir qızıl gülə çevrilirdi. Bunu görən Sürəyya sonsuz bir fərəhlə bu açılan qönçələrin üzərinə yüyürür, onları qoparmağa ürəyi gəlmir, yalnız əllərini şəfqətli təmasilə bir-bir onları oxşamaq istəyirdi.

Birdən kim isə onun qolundan tutub Sürəyyanı hara isə çəkib aparmağa başladı. O getmək istəmir, ayağını yerə dirəyirdi. Amma onun qolundan yapışmış əl qüvvətli idi, onu zorla çəkib aparırdı. Sürəyyanı bu işıqlı və bu əlvan dünyadan qoparıb hara isə soyuq və qaranlıq bir yerə doğru sürüyürdü.

Qızın yuxusu dağıldı. O, gözlərini açdı.

Onun qolundan tutub qaldıran karxananın qoca nəqqaşı idi. Səhər işə gələn uşaqlar darvaza ağzına toplaşıb sükut və qüssə içərisində ona baxırdılar. Lakin Sürəyyanın işığı sönmüş gözləri ətrafındakılardan heç kəsi tanımadı, baxışları bir nöqtəyə dikilib qaldı.

Qoca nəqqaş onu qucağına alıb içəriyə apardı, öz ətrafında taxt üzərinə uzatdı. Kimə isə manqal gətirməsini tapşırdı. Sonra qızın əlini əlinə aldı:

– Necəsən, qızım?

Sürəyyadan heç bir cavab gəlmədi. Kim isə çay gətirdi. Lakin qız içmədi, başını buladı. Manqalı gətirib onun yanına qoydular. İsti qızın üzünə vurdu, Sürəyyanın gözləri yumuldu. Bir az sonra o, artıq yarı-bayğın bir halda sayıqlamağa başlamışdı:

– Harada qalmışdın, baba?.. Bir bax, gör necə gün çıxıb! Bunlar hamısı mənim toxuduğum fərşlərdir... Qönçələr də mənimdir... Gün vurduqca bir-bir düymələri açılır... Bəs sən harada idin baba?..

Qoca nəqqaş qalxıb qızın əlini alnına qoydu, Sürəyya od kimi idi, qızdırma içində yanırdı. Qoca cəld uşaqlardan birini həkim dalınca göndərdi. Bir saat sonra küçədə fayton atlarının ayaq səsləri eşidildi. Qoca nəqqaş qapı ağzında həkimi qarşıladı, bərabər içəri girib Sürəyyanın yatağına yaxınlaşdılar. Həkim qızın üzərinə əyildi, nəbzini yoxladı, sonra ağır-ağır başını qaldırıb qoca nəqqaşın üzünə baxdı:

– Gecikmisiniz, – dedi, – artıq keçinmişdir.

Qoca nəqqaş diksinib bir addım geri çəkildi, dumanlanan gözləri yaşla doldu. O dönüb pəncərə qarşısına keçdi. Kiçik otağın şüşələri qırıq pəncərə arxasından bütün karxana onun gözləri qarşısında açıldı. Orada uşaqlar hamısı bir sükut içərisində dəzgahları qarşısında oturmuşdular. Bu gün onların heç birindən səs çıxmır, heç kəs oxumur, hamısı tutqun bir sima ilə başlarını aşağı dikib işləyir, heç kəs bir-birinin üzünə baxmırdı.

Qoca nəqqaş Sürəyyanın sayıqladığı sözləri yenidən xatırında canlandırdı və indi birdən, bu uşaqlar hamısı ona, günəşə möhtac, günəşi gözləyən solğun qönçələr kimi göründülər. O, qeyri ixtiyari olaraq dərindən köksünü ötürüb batqın bir səslə öz-özünə pıçıldadı.

– Yox, sona qədər bu cür davam edə bilməz. O gün gələcəkdir... Günəş doğacaq, qönçələr açılacaqdır...

Sonra qoca nəqqaş Sürəyyaya tərəf döndü, yaxın gəlib onun başı üzərində dayandı, baxdı və düşündü.

– Yazıq Sürəyya, sənin nəsibin isə yalnız bir yuxu oldu. Gələcək günlərin gözəl yuxusu.

## İLYAS ƏFƏNDİYEV
**(1914-1994)**

## ZƏMİDƏ BİR TURAC SƏSLƏNİRDİ...

Bizim kəndin yaz axşamları gözəl olur. Kəndimizin yarım kilometrliyindən axan Quruçay şırıldayır, elə bil ki, axıb gəldiyi qalın meşələrdən bizə qəribə əfsanələr hekayət edir. Qurbağalar aramla səslənir.

Evimizin arxasındakı zəmidə isə bir turac dalbadal oxuyur:

Tut-du-du, tut-du-du.
Tut-du-du, tut-du-du.

Bizim yaşıl yamaclarda, çay kənarındakı Laləli dərədə turac çox olur. Lakin evimizin yaxınlığında hər səhər, hər axşam oxuyan bir turac təzə peyda olmuşdur.

Biz iki yoldaş idik. İkimizin də atası ovçu idi. Onlar otuz-qırx il idi ki, balta dəyməmiş qorxulu Kirs meşələrində ovçuluq edirdilər. Başlarına gəlmiş işlər barəsində o qədər maraqlı nağıllar danışmışdılar ki, biz də ovçu olmaq xəyalına düşmüşdük. Lakin nə tüfəngimiz var idi, nə də ov itimiz. Bunların əvəzində ala-bəzək iplərdən toxunmuş sapandımız var idi ki, daş qoyub atanda tapança kimi şaqqıldayırdı. Yoldaşım Həsən kəndimizdə birinci sapand atan idi. Quşu gözündən vurardı. Onun qorxusundan zəmilərimizə bir qarğa qona bilməzdi. O, hətta bunun üçün, kolxozdan əməkgünü də alırdı. Bizim kənddə qarğa çox olur. Onlar dəstə ilə uçub zəmi və bostanlara böyük ziyan vurur. Kolxoz sədri əkinləri onlardan qorumağı bizə tapşırmışdı. Həsən də sapandla iki qarğa vurub hərəsini zəminin bir tərəfində ağacdan asmışdır ki, başqa qarğalar görüb yaxın gəlməsin.

Deyəsən, mən əsl mətləbdən uzaq düşdüm. Yuxarıda dediyim kimi, evimizin arxasındakı zəmidə bir turac peyda olub, – səhər-axşam oxuyurdu.

Tut-du-du, tut-du-du.

Bir axşam Həsən bizə gəlib dedi ki, hər nə cür olsa, gərək, o turacı sabah tapıb ovlayaq. Mən etiraz edib dedim.

– Axı atamgil indi heç ova getmirlər, deyirlər, quşların bala çıxaran vaxtıdır.

Həsənin bir pis xasiyyəti vardı ki, çox inadcıl idi. Başına bir iş girdimi, gərək hər nə cür olursa-olsun yerinə yetirəydi. Buna görə də sözündən dönmədi:

– Məgər, – dedi, – quşların hamısı birdən bala çıxarır?

Mən istər-istəməz razı oldum.

Səhər balaca heybələrimizi yumru daşlarla doldurduq, zəmidə gizlənib turacın oxumasını gözlədik. O oxumağa başlayan kimi, biz yavaş-yavaş səs gələn tərəfə süründük. Çox axtardıq, bir şey tapa bilmədik. Birdən lap ayağımızın altından pırıltı ilə bir quş uçaraq havaya qalxdı. Həsən hazır saxladığı gödəkqollu sapandını tovlayıb atdı. Turac bir qədər havaya millənib, sonra qurğuşun kimi yerə düşdü.

Biz adam boyu qalxmış sünbülləri aralaya-aralaya quş düşən yerə yüyürdük və gördük ki, o kolun dibində bir ayağı üstündə dayanıb ürkək nəzərləri ilə ətrafına baxır. Bizi görən kimi gücünü toplayıb havaya qalxdı. Biz arxasınca yüyürdük. O, bir qədər uçduqdan sonra balaca böyürtkən koluna qondu. Fikirləşdim ki, yəqin heyvan yaralı canını bizdən qurtarmaq üçün bu balaca kola pənah gətirdi. Ancaq yaxınlaşdığımız zaman elə mənzərəyə rast gəldik ki, mən onu heç vaxt unutmayacağam. Yumurtadan təzəcə çıxmış kiçik bala anasına baxaraq zəif səslə civildəyir və elə bil ki, deyirdi: "Ana, bəs mənim üçün gətirdiyin yem hanı?" Yaralı turac isə tək ayağının üstündə dayanıb ürkək nəzərləri ilə gah bizə, gah da balasına baxırdı.

"Yazıq quşcuğaz! Sən sınıq ayağınla bu körpə balaya necə yem tapıb gətirəcəksən? Bəs bu gecə o, nə yeyəcək?" – deyə düşünürdüm.

Bu mənzərə yoldaşıma da təsir etmiş olmalıydı ki, qaşqabağını sallayıb başını buladı.

– Yaxşı iş görmədik, – dedi.

Mən onu məzəmmət etdim:

– Axı sənə dedim ki, indi quşların bala çıxaran vaxtıdır.

– Keçib, – deyə o, üzümə baxmadan kədərlə dilləndi.

Heç nədən xəbəri olmayan körpə bala anasına baxıb hey civildəyirdi.

– Bəs bunlar necə olacaq? – deyə Həsəndən soruşdum.

– Aparaq evə.

Körpə balanı və ananı üsulluca götürüb evə gətirdik. Onlar üçün qəfəsdə yer düzəltdik. Qabaqlarına dən səpdik, su qoyduq. Qoca nənəm sınıqçı idi. O, quşun qıçını sarıdı.

O gecə Quruçay yenə də əvvəlki kimi şırıldayır, qurbağalar səslənirdi. Yaz gecəsi heç bir şey olmamış kimi yenə də öz əfsanələrini söyləyirdi.

Lakin evimizin arxasındakı zəmidən daha turac nəğməsi eşidilmirdi.

## İZ İLƏ

Cəfərlə Nadir qış imtahanlarını verib bütün dərslərindən beş aldıqları üçün çox sevinirdilər. Onlar sözü bir yerə qoydular ki, aldıqları qiymətləri aparıb kolxoz fermasında çoban olan atalarına göstərsinlər.

Fermanın qış binaları kəndin on kilometrliyində Qayadaş meşəsinin yanında yerləşmişdi. Cəfərlə Nadir səhər tezdən çörəklərini yeyəndən sonra binəyə getdilər.

Binədə çobanlara yemək bişirən Güllü qarıdan başqa heç kəs yox idi. Çobanlar qoyun sürülərini otarmağa aparmışdılar. Güllü qarı uşaqların hərəsinə bir parça suluq verdi. Onlar da suluqları yeyib binənin yanındakı ağıllarda oynadılar. Axşamüstü çobanlar sürüləri örüşdən gətirdilər. Cəfərlə Nadir qış tətilinə buraxıldıqlarını atalarına söyləyib, dərslərindən aldıqları qiymətləri onlara göstərdilər. Çobanlar da çox sevinib uşaqları təriflədilər. Cəfərin atası Muradxan fermanın baş çobanı idi. O, hər günkü kimi bu gün də sürüləri yoxlamağa başladı və on beş dəqiqənin içində dörd min qoyunun hamısını yoxlayıb qurtarandan sonra məlum oldu ki, çoban Qulunun sürüsündəki damazlıq merinoslardan biri yoxdur.

– Yəqin təzib meşədə qalıb. Mən bu gün sürünü Qayadaş meşəsinin yanındakı düzdə otarırdım. Gedim qaranlıq düşməmiş tapım, – deyə pərt olmuş çoban Qulu çomağını çiyninə alıb meşəyə tərəf getdi.

– Dayan, səninlə bir adam da getsin, bəlkə tək tapa bilmədin, – deyə baş çoban Muradxan arxadan onu səslədi.

– Ata, qoy biz də onunla gedək, – deyə Cəfər xahiş elədi.

Atası etiraz eləmədi:

– İstəyirsiniz gedin.

Uşaqlar çoban Qulunun ardınca yüyürdülər.

Onlar gəlib meşənin yanına çatanda çoban Qulu dedi:

– Uşaqlar, hamımız bir yerdə axtarsaq tapa bilmərik. Siz o tərəfə gedin, mən də bu yana. Ancaq meşənin içərilərinə tərəf çox uzaqlaşmayın. İndi canavarların pis vaxtıdır: bir şey olsa, məni səsləyin.

Uşaqlar:

– Yaxşı, – deyib meşəyə yüyürdülər. Onlar belə bir məsul və hətta canavara rast gəlmək qorxusu olan işə getdikləri üçün qürurlanırdılar. Özlərini böyük qəhrəmanlar kimi güclü və cəsur hiss edirdilər.

Qabaqca Cəfər, dalca Nadir gedirdi. Onlar tez-tez dayanır, ətrafı dinləyir, sonra yenə yollarına davam edirdilər. Birdən Cəfər diqqətlə yerə baxıb, nəm torpaq üzərində qoyun ayağının izlərini gördü.

– Bura bax, Nadir, – deyə o, izi göstərdi, – görürsənmi, aşağıdan gəlib bu tərəfə burulub.

Uşaqlar izi tutub getməyə başladılar. İz bəzən qarağat kolları və ya cavan palıd pöhrələri arasında itir, sonra yenə görünürdü. Bu zaman yavaş-yavaş qarlamağa başladı. Hava da qaraldı, uşaqlar izi itirməmək üçün gözlərini yerdən çəkməyərək yollarına davam edirdilər. Beləliklə, onlar meşənin xeyli dərinliklərinə getdilər.

Birdən sakit meşədə vahiməli gurultu eşidildi. Uşaqlar diksinib dayandılar. Gurultu hələ də davam edirdi. Sanki yaxında nə isə yuxarıdan uçub ağacları sındıra-sındıra dərəyə gedirdi.

Cəfər dedi:

– Qayadır, dağdan qopub!..

– Qaya öz-özünə qopmaz, yəqin yuxarıda ayı-zad var, – Nadir qorxmuş halda Cəfərin üzünə baxdı.

– Qışda ayı, mağarasından çıxmaz, – deyə Cəfər ciddi cavab verdi və elə bu zaman harada isə bir qoyun mələdi.

– Eşidirsənmi? – deyə Cəfər sevinclə səsləndi.

Qoyun bir də mələdi.

– Gəl bəri, bu saat tapacağıq, – deyib Cəfər qabağa düşdü.

Onlar dağın döşü ilə yuxarı dırmanmağa başladılar. Birdən Cəfərin yadına düşdü ki, keçən il o, cavan çobanlardan quzu kimi mələmək öyrənib. Cəfər dayanıb eynilə quzu kimi bir səs çıxardı. Onun səsinin əks-sədası meşədən çəkilməmiş yenə də bayaqkı qoyunun səsi eşidildi.

– Tez gəl, – deyə Cəfər döşü sıx ağaclıq olan dağa dırmanmağa başladı. Nadir ona güclə çatırdı. O, tez-tez ağaca, kola ilişib yıxılırdı. Bir qədər getdikdən sonra Cəfər dayanıb yenə mələdi. Bu dəfə qoyun

onun səsinə xeyli uzaqdan cavab verdi. Onlar yollarına davam edib yenə bir xeyli getdilər. Qoyundan heç bir əsər yox idi. Cəfər təkrar-təkrar səsləndi, lakin cavab gəlmədi.

– Gəl qayıdaq, gecə düşür, sonra azıb meşədə qalarıq.

– Qoyunu burada qoyub gedək? – deyə Cəfər təəccüblə Nadirə baxdı.

– Qoyunu yəqin canavar parçaladı.

– Nə bilirsən?

– Görmürsən daha mələmir?

– Bilmək olmaz, – deyə Cəfər cavab verdi. Sonra qaşqabağını tökərək: – mən merinosu tapmamış geri qayıtmayacağam. Sən istəyirsən qayıt, get! – dedi və yenə də qoyunu axtarmağa başladı.

Nadir nə edəcəyini bilmirdi. Yoldaşını tək qoyub qayıtmağa vicdanı yol vermirdi, meşədə də qalmaq onu qorxudurdu.

Hava tamam qaralmışdı. İndi daha şiddətlə yağmaqda olan qar yeri ağartmışdı. Meşədən cürbəcür anlaşılmaz səslər eşidilirdi.

Cəfər kol-kosların arasını, qayaların dibini diqqətlə axtarırdı. Nadir də könülsüz onu təqib edirdi.

– Tərsliyi burax, gəl qayıdaq, qurd-quş bizi yeyər, silahımız yox, bir şeyimiz yox, – deyə Nadir yenə də Cəfəri dilə tutmağa başladı.

– Dedim ki, qoyunu tapmamış qayıtmayacağam! – deyə Cəfər acıqlandı. – Sən lap qorxağın biri imişsən! Kolxozun qoyununu diri-diri qurdun ağzında qoyub gedək?

Yorulub dildən düşmüş Nadir ürəyində Cəfərin tərsliyinə lənət oxudu. Ancaq heç bir söz demədi. Cəfər isə pişik kimi qayalara dırmanır, kolların arasına soxulur, ətrafı diqqətlə axtarırdı.

Bu vaxt lap yaxında bir şaqqıltı eşidildi. Qarağat kolları tərpəndi, uşaqlar bərk qorxub dayandılar.

"Əgər canavardısa bu saat üstümüzə atılacaq", – deyə Cəfər fikirləşdisə də, bu barədə yoldaşına heç bir söz demədi. Səhər atasına gətirdiyi kibritlərdən biri onun cibində idi. Canavarın oddan qorxduğunu xatırlayıb dərhal kibriti çıxarıb çəkdi. İşığı yuxarı qaldırıb şaqqıltı gələn yerə baxdı. Qarağat kolları arasında iri bir merinos dayanıb onlara baxırdı.

– Tapdıq! – deyə Cəfər sevinclə qışqırdı və irəliləyib merinosu kolların arasından çıxardı.

– Mən düşdüm qabağa, sən daldan sür! – Cəfər Nadirə tapşırıq verib qabağa keçdi.

Lakin onlar nə qədər getdilərsə, gəlib meşənin kənarına çıxmadılar. Cəfər zənn ilə gedirdi, çünki qaranlıqda heç bir cəhəti təyin etmək mümkün deyildi. Cəfər dayandı:

– Azmışıq! – dedi.

– Bəs nə edək? – deyə Nadir zəif bir səslə Cəfərdən soruşdu.

Cəfər hiss etdi ki, yoldaşı çox qorxur, buna görə də ona ürək-dirək vermək istədi:

– Nə olacaq, meşədə qalıb səhər gedərik.

– Bu soyuqda, qaranlıqda meşədə qalmaq olar?

– Heç nə olmaz, bu saat sənin üçün bir ocaq qalayım ki, istisi yeddi ağaca vursun!

O kibrit çəkib ətrafı nəzərdən keçirdi. Yaxında hündür bir qaya var idi. Qayanın üst tərəfi tağ kimi irəli gəldiyindən, dibini qar o qədər tutmamışdı.

– Qoyunu sür ora, – deyə Cəfər əmr edib özü ağacların qol-budağından xeyli sındıraraq, qayanın dibində böyük bir ocaq qaladı. Lakin odunlar yaş olduğundan alışmırdı.

Cəfər özünü sındırmamaq üçün papağının içinə qoyduğu kağızı çıxarıb, birtəhər ocağı alışdırdı. Alov qalxıb dörd tərəfi işıqlandırdı.

– İndi gəl otur, qızış, – deyə Cəfər gülümsünərək soyuqdan donmuş əllərini oda tutdu.

Bir qədər qızışandan sonra Nadir dedi:

– Gəl çıxaq ağacda oturaq. Canavarlar gəlib bizi parçalar.

– Özümüz ağaca çıxdıq, bəs merinos nə olsun?

– Onsuz da, əgər canavar gəlsə, biz nə edə bilərik?

– Ocağın yanında canavarlar bizə hücum etməzlər! – deyə Cəfər arxayın və inandırıcı səslə cavab verdi.

Yoldaşının sözü Nadiri qane etmədisə də o dinmədi.

Cəfər ağacların qol-budağından çoxlu sındırıb ocağın böyrünə yığdı.

– Bu gecə bizim silahımız bunlardır. Gərək səhərə qədər ocağı sönməyə qoymayaq.

Onlar arxalarını qayaya çevirib ocağın qırağında oturub qızınırdılar. Merinos da onların lap böyründə qıçlarını qatlayıb asta-asta gövşəyirdi.

Meşə odunları çatırtı ilə yanır, alovun şölələri yaxındakı ağacların qarlı qol-budaqları üzərində oynaşırdı. Külək əsmirdi. Qar aram-aram yağırdı. Cəfərin ürəyi sakit deyildi. O fikirləşirdi ki, əgər canavarlar onların burada olduğundan duyuq düşsələr, əl çəkməyəcəklər. Lakin o öz təşvişi barəsində yoldaşına heç bir söz deməməyi lazım bilib, ocağın təll atılmış közünə baxaraq:

– Bir az pendir-çörəyimiz olsaydı, lap qiyamət olardı! – deyə gülümsədi.

Yoldaşının sakitliyi və heç bir şeydən qorxmaması Nadirə də sirayət elədi. O da gülümsəyib danışmağa başladı.

Onlar ləzzətlə qızınır və oradan-buradan söhbət edirdilər. Bir azdan Cəfər Nadirin yatmaq istədiyini görüb:

– Sən yat mən oturmuşam, – dedi.

– Sənin yuxun gəlmir?

– Yox, mən oturub ocağı sönməyə qoymayacağam.

Cəfər düz demirdi. O həm bərk yorulmuşdu, həm də yuxusu gəlirdi.

Nadir paltosunu başına çəkib ocağın qırağına uzandı, bir azdan onu yuxu apardı.

– Cəfər oturub gözlərini qaranlıq meşəyə zilləmişdir. Birdən ona elə gəldi ki, qabaqda nə isə bir hənirti var. O, dizləri üstə qalxıb əlini gözünün üstünə tutaraq diqqətlə irəliyə baxmağa başladı. Qaranlıqda sanki fındıq boyda yaşıl elektrik çıraqları cüt-cüt ora-bura hərəkət edirdi.

Cəfər onları saydı, dörd cüt idilər.

“Demək dörddürlər, – deyə Cəfər düşündü, ocağa bir-iki çırpı atıb onu daha da alovlandırdı. Bu zaman irəlidə dörd iri canavar göründü. Onlar on beş-iyirmi addımlıqda dayanıb uşaqlara və onların yanındakı kök merinosa baxırdılar.

İkisi dal ayaqları üstə oturmuşdu. İkisi də ayaq üstə idi.

Cəfərin ürəyi bərk döyündü. O, yoldaşını oyatmaq istədi, lakin oyatmadı, ocaqdan alovlu bir kösöv götürüb canavarlara tulladı. Canavarların dördü də sıçrayıb qaranlığa girdi. Lakin bir azdan yenə qayıdıb gəldilər. Cəfər gördü ki, bu çağırılmamış qonaqlar onlardan əl çəkəsi deyillər, ona görə də daha kösöv tullamağı mənasız hesab etdi.

Onu indi bir məsələ düşündürürdü: görəsən səhər işığı canavarların onlardan əl çəkməsinə kömək edəcəkdimi?

O tez-tez ocağa odun qoyub onu daha bərk alovlandırırdı. Meşə dərin sükut içində idi. Heç nədən xəbəri olmayan Nadir şirin-şirin yatırdı. Canavarlar qızarmış həris gözləri ilə öz ovlarına baxırdılar. Bir saata qədər belə keçdi. Birdən lap uzaqda güclə iki güllə səsi eşidildi. Canavarlar diksinib qulaqlarını şəklədilərsə də yerlərindən tərpənmədilər.

"Yəqin atamgil bizi axtarır", – deyə Cəfər düşündü. Birdən ətrafda səs-səmir olmadığı halda canavarlar güllə kimi qaçıb gözdən itdilər. Cəfər bu işə təəccüb qaldı. Bir neçə dəqiqədən sonra yenə iki güllə açıldı. Səs bu dəfə nisbətən yaxından gəldi. Cəfər ayağa sıçrayaraq ocaqdan alovlu bir kösöv götürüb yaxındakı ağaca dırmaşdı və bir əli ilə budaqdan yapışıb, o biri əli ilə kösövü yuxarı qaldıraraq havada yellədi.

– Biz buradayıq!.. Burada! – deyə səsi gəldikcə qışqırdı.

Lakin meşədə onun səsinin əks-sədasından başqa heç nə eşidilmədi. Cəfər kösövü bir də yellədib bir də bərkdən qışqırdı:

– Biz buradayıq! Yastı qayanın yanında!

Üç-dörd dəqiqə sükut içində keçdi. Birdən haradan isə uzaqdan səs eşidildi:

– Cəfər hey!..

– Ehey!.. – deyə Cəfər cavab verdi.

– Haradasınız?!

– Burada, Yastı qayanın yanında!

İki-üç dəqiqədən sonra uşaqların ataları və çoban Qulu gəlib onları tapdılar.

Məlum oldu ki, uşaqlar azıb xeyli meşənin dərinliklərinə gəlib çıxıblar. Cəfər yüyürüb bərk yatmış Nadiri oyatdı. Nadir oyanıb atasıgili gördükdə əvvəlcə heç bir şey başa düşməyərək çaşıb qaldı. Deyəsən ona elə gəlirdi ki, yuxu görür. Bir qədər oturub dincəldikdən sonra onlar uzun bir məşəl qayırıb binəyə yola düşdülər.

Bu əhvalatdan üç-dörd gün sonra iki məktəbli pionerin, kolxozun itmiş damazlıq merinos qoyununu qəhrəmanlıqla axtarıb tapdıqları haqqında rayon qəzetində balaca bir məqalə çıxdı. Məqalə sahibi Cəfər ilə Nadiri çox tərifləyirdi. Ancaq məqaləni oxuyanda Nadir nə isə bir narahatlıq hiss etdi...

## ƏNVƏR MƏMMƏDXANLI
## (1913-1990)

### BUZ HEYKƏL

Qırx birinci ilin qışı. Şaxtalı bir gecə. Sanki canlı, cansız, ətrafda nə varsa donub buz bağlamışdır. Hava zəhərli ilan kimi çalır, damarlarda qan donur. Belə bir gecədə Ukraynanın ucsuz-bucaqsız qarlı çölləri ilə bir kölgə hərəkət edir. O, gənc bir qadındır. Körpəsini bağrına basıb təngnəfəs halda haraya isə tələsir. O, faşistlər əlinə keçmiş kəndlərindən baş götürüb qaçır, namusunu və körpəsini xilas etmək üçün üzünü şərqə tərəf tutub uzaqlaşır. Qarşıda bir çay vardır. Cəbhə xətti o çay boyundan keçir. Oradan topların gurultusu gəlir. Gənc ana tələsir. O özününkülərə qovuşmalıdır. O, körpəsini çayın o tayındakı böyük və azad torpağa keçirməlidir. Özü ölsə də, bu şaxtalı gecədə məhv olsa da, sevgisinin bu ilk yadigarını xilas etməlidir.

Ana durmadan gedir. O, çox gedir, lakin qarlı səhralar qurtarmaq bilmir. O yorulur, şaxta qılınc kimi kəsir.

Birdən anaya elə gəlir ki, qucağındakı körpə donur. O, ətrafına baxınır, gözləri daldalanmaq üçün bir bucaq, sığınacaq axtarır.

Budur, qarşıda iki qara kölgə vardır. Onlar qoşa qayınağacıdır. Ana ağaclara tərəf gedir, bir an nəfəsini dərmək üçün ağaclara söykənib dayanır. Artıq onda qüvvət qalmamışdır. Şaxta buzlu bir alov dili ilə onun üzünü yalayır. Ananın ürəyi qorxulu bir mahnı oxuyur. Uşaq donacaqdır. O bu şaxtaya davam gətirə bilməyəcəkdir. Lakin ana dərhal – yox, yox, – deyə bu fikrinə etiraz edir. O, düşmən əlindən qaçırtdığı körpəsini şaxtaya təslim etməyəcəkdir. Bütün dünya donsa da, bütün həyat buz bağlasa belə, o, ürəyini məşəl edib, körpəsini isidəcəkdir.

Ana tələsik əynindən yun jaketini çıxardır. Körpəni bürüyür... Dəqiqələr keçir, anaya elə gəlir ki, illər gəlib dolanır. İndi şaxta qızmar bir dəmir kimi onu dağlayır. O, rəşələrlə sarsılır, şaxta onun iliklərinə işləyir.

Yenə anaya elə gəlir ki, bu titrəyən, bu donan onun körpəsidir. Bu dəfə o, başından nimdaş yaylığını da çıxarıb yenə körpəni bürüyür...

İndi ananın yarıçılpaq bədəni şaxta qarşısında müdafiəsiz qalmışdır. O, hiss edir ki, donacaqdır. Onda artıq yerindən tərpənməyə

qüvvə qalmamışdır. O bu fikirlərlə əynindən yenə nə isə qoparır, yenə körpəsini bürüyür: fərqi yoxdur, o donacaqdır. Lakin körpə salamat qalmalıdır. Ana balasını xilas etməlidir. İndi o, son qüvvəsi ilə və eyni zamanda sonsuz bir ana şəfqətilə körpəsini sinəsinə sıxır və pıçıldayır:

– Artıq səni bürüməyə bir şeyim qalmadı, bala, indi gümanım bir ürəyimədir. Son nəfəsimə kimi onun da istisi sənindir...

Ana susur, onun qulaqları dibində sanki mis simlər cingildəyir. Simlər gərilir, simlər qırılır, ananın göz qapaqları kilidləşir, nəfəsi bir şüşə kimi qırılıb ayaqları altına tökülür... O, hərəkətsiz bir halda qayınağacına bitib qalır.

İndi onun yarıçılpaq vücuduna amansız qış gecəsi başqa bir don biçir, başqa bir örtü geyindirir, şaxtanın buz barmaqları ona ulduzlu naxışlardan zərif bir libas toxuyur...

* * *

...Ovxarlanmış qılınc tiyəsi kimi şəffaf və iti bir səhər açılmaqdadır. Qoşa qayınağacları qarşısında üç nəfər ağ xalatlı adam dayanmışdır. Onlar üç nəfər kəşfiyyatçı qızıl əsgərdir. Başlarını açıb hərəkətsiz bir halda dayanmış və susmuşlar. Onlar bütün həyatları boyu unuda bilməyəcəkləri bir mənzərə qarşısında dayanmışlar. Bu, donmuş bir qadının buzdan tökülmüş heykəlidir. Onlar müqəddəs bir məbəd astanasında dayanmış kimi bir müddət yerlərindən qımıldana bilmirlər.

Nəhayət, onlardan biri ağır addımlarla qayınağaclarına, qadının buz heykəlinə doğru gedir. Hansı bir ümid və sövq-təbii hissi iləsə, ananın qolları arasında sinəsinə sıxılmış, üstü buz bağlamış bağlamanı yoxlayır. O, həyəcandan titrəyən barmaqları ilə qarı çırpır, sındırdığı buz təbəqəsi altında nə isə görür, açır... birdən lap içəridən bir cüt uşaq gözü kəşfiyyatçı qızıl əsgər gözlərinə dikilir. Gənc döyüşçü diksinib, qeyri-ixtiyari, bir addım geri çəkilir və həyəcandan qırılan bir səslə:

Körpə donmamışdır, körpə sağdır, yoldaşlar! – deyə qışqırır.

– Səhər işığında körpənin gözləri qamaşır və o gülümsəyir. O zaman, gözləri odlar-alovlar görmüş üç qocaman döyüşçü sevincdən göz yaşlarını saxlaya bilmirlər. Onlar başlarını qaldırıb yenə ananın

möhtəşəm heykəlinə baxırlar. Onların dodaqları bir dua kimi intiqam andını pıçıldayır.

Artıq vaxtdır. Onlar geri dönürlər, onlar qolları üstündəki bu körpəni ağır kəşfiyyatlarının şah əsəri kimi aparırlar. Ana fədakarlığının misilsiz ehtişamını təcəssüm etdirən buz heykəl isə artıq onların qəlbində buzdan deyil, intiqama – qisasa çağıran tuncdan tökülmüş əbədi bir abidədir.

## MÜNDƏRİCAT

*Ön söz* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .4

**Cəlil Məmmədquluzadə**
İki alma . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .15
Yan tütəyi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .17
Buz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .23
Saqqallı uşaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .29

**Əbdürrəhimbəy Haqverdiyev**
Ovçu Qasım . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .31
Hacıleylək . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .33
Sərçə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .35
Ata və oğul . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .36

**Yusif Vəzir Çəmənzəminli**
Əziz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .51

**Süleyman Sani Axundov**
Qan bulağı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .53
Ümid çırağı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .56
Qatil uşaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .59

"Qorxulu nağıllar"dan
Əhməd və Məleykə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .65
Abbas və Zeynəb . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .68

**Abdulla Şaiq**
Murad . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .73
Usta Bəxtiyar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .76
Oyunçu bağalar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .85

**Tağı Şahbazi (Simurq)**
Qayçı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .100

**Cəfər Cabbarlı**
Dilarə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .106
Çocuq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .109

**Məmməd Səid Ordubadi**
Serjant İvanov adına Körpələr evi . . . . . . . . . . . . . . . . . . . . . . .116

**Seyid Hüseyn**
İki həyat arasında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .120

**Süleyman Rəhimov**
Qara torpaq və sarı qızıl . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .134
Minnətsiz çörək . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .140

**Mehdi Hüseyn**
Hophop . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .152

**Mirzə İbrahimov**
Birinci dərs . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .169
Göyərçinlərim . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .174

**Əli Vəliyev**
Bir cüt ulduz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .182
Nənənin söhbəti . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .184
Eyvazın yazısı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .187

**Mir Cəlal**
Gülgəz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .191
Aqil . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .198

**Mikayıl Rzaquluzadə**
Şahin . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .205
Qızıl qönçələr . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .218

**İlyas Əfəndiyev**
Zəmidə bir turac səslənirdi... . . . . . . . . . . . . . . . . . . . . . . . . . .226
İz ilə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .228

**Ənvər Məmmədxanlı**
Buz heykəl . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .234

# AZƏRBAYCAN
# UŞAQ ƏDƏBİYYATI
# ANTOLOGİYASI

ÜÇ CİLDDƏ

III CİLD

**NƏSR**

"ÖNDƏR NƏŞRİYYAT"

BAKI–2005

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Rəşad Həmidov* |
| Korrektor: | *Ceyran Abbasova* |

Yığılmağa verilmişdir 09.12.2004. Çapa imzalanmışdır 22.06.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 15. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 167.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.